ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal



# № 1 (13)

BAKI – 2020

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya elmləri doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rafael Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqı hərəkatı və sosial fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181,*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050)631-57-90; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur. (protokol №9, 25.06.2020 )*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR


**Zeynəddin Şabanov**

Milli fəlsəfədə ideya çağırışları .......................................................................... **4**

**Faiq Ələkbərli**

Mirzə Əli Möcüz Şəbüstərinın yaradıcılığında ictimai-siyasi və dini-fəlsəfi məsələlər ....................................................................................................... **29**

**Üzeyir Şəfiyev**

Azərbaycanda sosial rifah dövləti quruculuğu və qlobal çağırışlar................. **43**

**Rövşən Hacıyev**

Tarixi idrakda tarixi mənbənin və tarixi faktın yeri və rolu.................................. **52**

**İlham Soltanov**

Milli ideologiyanin gerçəkləşmə zəruriliyi.......................................................... **59**

**Шарафеддин Шарифов**

Содержание волевых аспектов права и морали в современных демократиях......................................................................................................... **65**


## İQTİSADİYYAT VƏ İDARƏETMƏ


**Fəhrad Möhbalıyev**

Azərbaycanda turizm bazarı və aqroturizmin inkişaf perspektivləri.................. **72**

**Vilayət İsmayılov**

Əhalinin həyat keyfiyyəti və səviyyəsinin qiymətləndirilməsinə metodoloji yanaşma......................................................................................................... **79**

**Махир Джалалов**

Модель сетевого планирования и управления.................................................. **93**

**Aygün Səmədova**

Turizm müəssisələrində gəlirin proqnozlaşdırılması............................................ **97**

**Novruzə Adilova**

Fond bazarında qiymətli kağızlar portfelinin maliyyə göstəriciləri əsasında formalaşması……....................................................................................... **107**

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT 316.33**

**Zeynəddin Şabanov,**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***kafedra müdiri, fəl. f.d., dosent***
zeynaddin.shabanov@gmail.com

## MİLLİ FƏLSƏFƏDƏ İDEYA ÇAĞIRIŞLARI

*Məqalədə Azərbaycan fəlsəfəsinin inkişaf istiqamətlərinə nəzər salınır, Azərbaycan filosoflarının müxtəlif fəlsəfi mövzulara münasibəti araşdırılır, milli fəlsəfədəki ideya çağırışları təhlil edilir. Bildirilir ki, filosoflarımızın dünyaya baxışı, insanın dünyadakı mövqeyinə münasibəti müxtəlif olmuş, fərqli yanaşmalar sərgiləmişlər. Bəşəri fəlsəfədən qidalanan və onu zənginləşdirən əsərlərində filosoflarımız cəmiyyət-təbiət, insan-ruh, ilahi sevgi, dünyanın yaranışı, yeni paradiqmalar, milli ideya, multikulturalizm və tolerantlıq, hadisə və proseslərin inkişafına sistem yanasma, mürəkkəb sistemlər nəzəriyyəsi, sinergetika, klassik, postklassik, postneoklassik elm, vətəndas cəmiyyəti və hüquqi dövlət quruculugu məsələləri, milli maraqlar və milli ideologiya, azərbaycançılıq ideyası, insan haqları, din və mədəniyyət, insan kapitalı, modernləsmə kimi fəlsəfi məsələlərə dərindən münasibət bildirmiş, yeni ideyalar irəli sürmüş, sanballı əsərlər ortaya qoymuşlar.*

***Məqsəd –*** Azərbaycan fəlsəfəsindəki ideyaları təhlil etmək

***Metodologiya –*** induktiv, deduktiv və müqayisəli yanaşma metodları

***Tədqiqatın nəticələri –*** Filosoflarımız *cəmiyyət-təbiət, yeni paradiqmalar, milli ideya, multikulturalizm və tolerantlıq, hadisə və proseslərin inkişafına sistem yanasma, mürəkkəb sistemlər nəzəriyyəsi, sinergetika, klassik, postklassik, postneoklassik elm, milli maraqlar və milli ideologiya, azərbaycançılıq ideyası, modernləsmə kimi fəlsəfi məsələlərə münasibət bildirərək yeni ideyalar irəli sürmüşlər*

***Açar sözlər:*** milli fəlsəfə, filosoflar, təbiət, cəmiyyət, ideya, azərbaycançılıq

### Giriş

Milli fəlsəfəmiz günü-gündən inkişaf edir, yeni-yeni fikirlərlə cilalanır. Bu fəlsəfədə irəli sürülən fikirlər cəmiyyətin inkişaf vektoruna uyğun gələrək yeni-yeni çalarlar əldə edir ki, bunun müqabilində əldə olunan biliklər sintezləşdirilir, fərqli baxışların təsiri altında daha da möhkəmlənir. Fəlsəfi fikirlər dünyanın, cəmiyyətin inkişafı ilə, burada baş verən sosiomədəni və siyasi hadisələrlə bağlı olaraq dərinləşir, daha böyük məna yükü daşıyır, yeni paradiqmalarla zənginləşir. Düşünən insan daim axtarışa çıxır, mahiyyətə enmək istəyir, hadisə və prosesin səbəbini tapmaq üçün səy göstərir, dünyanın elmi mənzərəsinə yeni baxış bucağından nəzər yetirir, idrakını "itiləyərək" təbiətin və cəmiyyətin inkişafına xidmət edəcək yeni fikirlər irəli sürür. Filosoflar daim fikirləşir, müəyyən məkan və zaman daxilində yeni ideyalarını cilalayır, müasirliyin nəbzini tuturlar.

Bunun nəticəsində müasir fəlsəfə inkişaf etmiş bütün elmlər üçün fayda verə biləcək bir elm sahəsinə çevrilmişdir. Hələ yunan filosofu Platon üçün fəlsəfə əbədi və keçici olmayan haqqında təfəkkür idi. Pifaqor fəlsəfə dedikdə, həqiqətin üzə çıxarılmasını deyil, müdrikliyə məhəbbət və mənəvi həyat sevgisini başa düşürdü. Aristotel fəlsəfənin kökünü təəccübdə, heyrətdə görürdü - predmetini isə «ilkin başlanğıc və səbəblər»in tədqiqi ilə əlaqələndirirdi. Böyük filosofun fikrincə, fəlsəfə eyni zamanda fəaliyyətin məqsədini başa düşməyə kömək edir. Fəlsəfəyə can atanlar fayda götürməyi demək olar ki, düşünmürlər.

XX əsr fəlsəfəsi özünün yeni-yeni sahələri ilə diqqəti cəlb edir. Bu sahələr, texnikanın fəlsəfəsi, elmin fəlsəfəsi, mədəniyyətin fəlsəfəsi, həyat fəlsəfəsi və s.- dir. Həmin sahə fəlsəfələri müasir dillə desək, fəlsəfi biliyin ənənəvi sahələrini əhatə edir. Onlar ontologiya, fenemonologiya, epistomologiya, aksiologiya, fəlsəfi antropologiya və s. adlarla təqdim olunur. Bəzi tədqiqatçılara görə fəlsəfənin üç başlıca mövzusu vardır. Bunlar: dünya, insan və dünyaya münasibətdir. Təbiidir ki, hər bir mövzunun müzakirəsi öz problemlərini doğurur **(1, səh. 102).**

Fəlsəfə bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim və dəyərli sahəsidir. Təsadüfi deyildir ki, müasir Avropa və Amerikanın təhsil ocaqlarında fəlsəfənin tədrisinə böyük əhəmiyyət verilir. Bütünlükdə, ümumdünya fəlsəfi fikrini, eləcə də ayrılıqda hər bir xalqın milli fəlsəfəsini mənimsəmədən yeni cəmiyyət qurucularının yetkin şəxsiyyət kimi formalaşdırılması problem olaraq qala bilər.

**Keçmişin ümumiləşdirilməsi, müasir vəziyyətinin təhlili, gələcəyin proqnozlaşdırılması**

Filosoflarımızın fikrincə, yeni cəmiyyət quruculuğunda fəlsəfi təfəkkürün tarixiliyi prinsipinə riayət olunması, fəlsəfənin real həyatla ayrılmaz əlaqəsinin təmin edilməsi xüsusilə vacibdir. Belə ki, mücərrəd, qapalı xarakterli fəlsəfə siyasi-iqtisadi və mənəvi həyatda baş verən əsaslı dəyişiklikləri, köhnə stereotiplərin ləğv olunması prosesini, demokratiya və aşkarlığın inkişafını tam əks etdirə bilmir. Cəmiyyətimizin tarixinin indiki dönüş mərhələsində fəlsəfənin gerçəkliyə münasibətini dəyişdirmək, onu mürəkkəb həyat problemlərinin həllinə yönəltmək tələb olunur. Bu mənada fəlsəfənin əsl sosial-tarixi bilik, həyatda daimi əlaqəli dünyagörüşü olması indi həmişəkindən daha vacibdir.

Filosofların qənaətinə görə, fəlsəfi problemlərin həlli onların keçmişinin ümumiləşdirilməsinə, müasir vəziyyətinin təhlil edilməsinə və gələcəyinin proqnozlaşdırılmasına əsaslanır. Nəzəri təfəkkür forması kimi fəlsəfə təkcə keçmişi və müasir dövrü öyrənməklə məhdudlaşmır, həm də gələcəyə müraciət edir. Fəlsəfi təfəkkürün gələcəyin dünyagörüşü modellərini, obraz və ideallarını yaratdığını bildirir.

İnsana fəaliyyətinin uğurlu olması üçün düzgün məqsəd müəyyənləşdirməyin, müvafiq qərar qəbul etməyin son dərəcə vacib olduğunu bildirən filosoflar, dünya haqqında hərtərəfli və düzgün təsəvvürlərə malik olmağı tövsiyə edirlər.

Əvvəlcə, “fəlsəfə” anlayışının mahiyyətinə diqqət yetirək. “Fəlsəfə” anlayışının etimologiyasına münasibət bildirən Azərbaycanlı alim-tədqiqatçı E.Hüseynov yazır ki, "Fəlsəfə" terminini adətən yunan dilindən birbaşa (etimoloji) anlamda "müdrikliyi sevmək" (phileo sophiya) kimi tərcümə edirlər. Amma fəlsəfə (philosophy) termininin ikinci hissəsində özünə yer alan Sophia anlayışı dəqiq tərcümədə "müdriklik" anlamını vermir. Yəni əslində biz "Sophia'nı sevmək" ilə rastlaşırıq, amma Sophia'nın nə olduğunu bilmədən hətta ilkin anlamda (etimoloji anlamda) belə fəlsəfənin nə demək olduğunu anlaya bilmirik. Fəlsəfə terminini Avropa dillərinin terminoloji tərkibinə daxil edən qədim yunan filosofu Platonun yanaşmasında Sophia bir insanın sahiblənə biləcəyi, özününkü edə biləcəyi bir subyektiv reallıq deyildir. Sophia mükəmməl qurulmuş harmonik reallığın (bu

reallıq bizim duyğu orqanlarımız vasitəsilə siqnallar qəbul etdiyimiz maddi dünya anlayışının ekvivalenti deyil) əsasında duran, daxilən ona xas olan obyektiv bir prinsipdir. Bütün həqiqət orada gizlənir. İnsan həyatının və imkanlarının məhdud olması səbəbindən insan həmin obyektiv reallıq ilə heç bir zaman qovuşa bilməz, ən ali həqiqətə heç bir zaman çata bilməz. Həmin həqiqəti yalnız müəyyən məsafədən "sevə" bilər, yəni qovuşa bilməsə də hər zaman ona can ata bilər. Bu səbəbdən fəlsəfə termininin "həqiqəti sevmək" şəklində tərcüməsi daha dəqiq (amma yenə də tam deyil) sayıla bilər. Bu kontekstdə maraqlı məqam ezoterik (mistik) fəlsəfi düşüncədə Sophia həm də reallığın (ümumi tamın) qadın başlanğıc kimi qəbul edilməsidir - həmin başlanğıcın (bir qadın qəlbi və ruhu ilə olduğu kimi) dərk edilməsi bütün həqiqətin (sirlərin) açarı ola bilərdi, halbuki prinsipcə həmin başlanğıc qeyd etdiyimiz məhdudiyyətlər səbəbindən ayrıca bir insan tərəfindən sonadək dərk edilməzdir, ona tərəf yalnız can atmaq olar, amma qovuşmaq mümkün deyildir - onu yalnız müəyyən məsafədən "sevməklə" kifayətlənməli olursan **(4).**

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət və ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Milli ruhu qorumaq, inkişaf etdirmək və nəsildən-nəslə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edərək, milli ruhu həyat tərzinə çevirmə imkanına qadirdir. İstər dövlətçilik ideologiyası olsun, istərsə də milli ideologiya eyni bir təməl üzərində-milli fəlsəfi fikir zəminində formalaşır. Milli dövlətin dövlətçilik ideologiyasının təşəkkülündə milli fəlsəfi fikir əsas yer tutur.

Fəlsəfə millətin inkişafında, onun intellektual qabiliyyətinin nümayişində mühüm rola malikdir. Azərbaycanın görkəmli filosofu Əbülhəsən Abbasov bu məsələyə xüsusi diqqət yetirərək yazır: “Fəlsəfə sadəcə olaraq, “millət” fenomen-məfhumunun nə olduğunu, hansı praktiki və nəzəri əhəmiyyət daşıdığını, mütərəqqi inkişafda, sivilizasion gedişatda xüsusi rol oynadığını anladıb-öyrətməklə kifayətlənmir, o, millətin özünü yaradır! Fəlsəfəsiz nə millət və milli siyasət, nə də dövlət və milli dövlətçilik məfkurəsi, ənənəsi mövcud deyil və olmayıb. Belə ki, “millət” qapalı və mütləq mənada dəyişməz (invariant) fenomen deyil, o, kifayət qədər variativ, dinamikliyi ilə fərqlənən varlıq-prosesdir. Burada, etnik sintezləşmə və ümumiliklə yanaşı, ümumi siyasətdə, vahid hüquqi məkanda, dövlətləşmədə iştirak var, sosial-siyasi-iqtisadi dəyər və institutlar hesabına sisteməqovuşma, birgəyaşayış duyumuna və mədəniyyətinə daxilolma var. Millət — mütləqləşdirilmiş “sabitlik əmsalı” yox, tarixi və sosial zaman cərəyanında fəal iştirak edən, stabil elementlərini qorumaqla yanaşı daim özünü təşkilatlandıran, mövcudluq və inkişaf naminə zəruri dəyişikliklərə, yeniliklərə həssas olan fenomendir. Bütün bunlar isə yalnız xoş niyyətlər, ülvi hisslər, ümid-güman hesabına baş vermir; daha çox nəzəri refleksiya, rasional ağıl, elmi biliklər və onlardan qaynaqlanan əməli-praktiki fəaliyyət hesabına reallaşır. Və burada fəlsəfi biliklər sisteminin, onun kamilliyinin rolu əvəzsizdir... Əgər sual olunarsa ki, cəmiyyət-millət-dövlət rabitəsində mütərəqqi sinergizmi qidalandıran ən başlıca amil-şərt nədir, deyə bilərik — intellektual əmtəənin istehsalı və onun optimal dövriyyəsi! Xüsusilə də informasion cəmiyyətlərin vüsət tapdığı indiki dövrdə! Fəlsəfənin isə bu amil – şərt kontekstində hansı müstəsna əhəmiyyətə mailk olduğunu anlamaq o qədər də çətin deyil. İstər cəmiyyətin və intellektual resursların idarə olunmasının nəzəri əsaslarının işlənib hazırlanması olsun, istər çoxsaylı sosial sifarişlərin çözülməsinə xidmət edən epistemoloji bazanın, idrakı texnologiyaların yaradılması olsun—fəlsəfənin rolu danılmazdır! Müasir dünyanın öz tərəqqisinə görə səcdə edib, baş əyəsi bir neçə varlıqlar içərisində fəlsəfənin yeri xüsusidir. “Tərəqqi” dedikdə, yalnız elmi-texniki-texnoloji və mədəni zirvələrin fəth olunması yox, həm də əxlaqlı yaşamaq nəzərdə tutulur ki, bunun üçünsə Xeyir və Şərin

mahiyyətini dərk etmək, sosial məsuliyyət və vicdan borcu, mənəviyyat və ədalət haqqında mükəmməl biliyə malik olmaq gərəkdir. Və bütün bu qazanc və zərurətlərin ödənilməsi, fəlsəfəsiz mümkün deyil. Söhbət, şübhəsiz ki, fəzilətlərə, sağlam düşüncəyə, qurucu işlərə yol açan fəlsəfədən gedir **(2, səh. 6-7).**

Milli fəlsəfəni bir millətin ağıl səviyyəsinə uyğun olaraq formalaşan spesifik bir fəlsəfə adlandırmaq da olar. Milli fəlsəfə bir millətin sahib olduğu xalis dil bazası üzərində inşa edilməlidir. Əks təqdirdə formalaşan fəlsəfə vətəndaş hüququ qazana və milliləşə bilməyəcək. Odur ki, hər fəlsəfə istənilən millət içərisində özünə yer tapa bilmir. Milli fəlsəfəmiz başqalarının deyil, “öz ağılımızın” məhsulu olmalıdır, o elə bir ağıldır ki, bütün fikri düyünlərimizi məhz onun yardımı ilə açırıq. Hər bir milli fəlsəfənin “açar sözlər”i olur, belə ki, həmin sözlər insana həmin dildə fəlsəfələşmək imkanı verir. Odur ki, açar sözlər xalis olmadığı təqdirdə həmin dildə fəlsəfələşmək effektiv olmur. Bu baxımdan, milli fəlsəfədə xalis dil bazası nə qədər zəngin olarsa, bir o qədər o dildə fəlsəfələşmək asanlaşar. Milli fəlsəfənin açar sözləri dedikdə fəlsəfənin ən mərkəzi anlayışları nəzərdə tutulur. Belə ki, həmin anlayışlar fəlsəfənin altqurumunu təşkil edirlər. Digər bütün anlayışlar isə üstqurum kimi onların üzərində inşa edilir. Fəlsəfənin iki əsas hissədən - ontoloji və epistemoloji hissədən ibarət olduğunu nəzərə alsaq, zənnimcə, öz ağlımızda bu iki sahəyə dair xalis açar sözlər mövcuddur. Bu açar sözlər aşağıdakı kimidir: varlıq-nəsnə;bilik-öznə.Fəlsəfənin birinci hissəsini “varlıq-nəsnə”, ikinci hissəsini isə “bilik-öznə” təşkil edir. Fəlsəfə varlıqdan bir nəsnə kimi danışır, öznə isə onu bilik şəklində qavramağa çalışır. Nəsnə-öznə anlayışı fəlsəfənin mahiyyəti hesab olunan “nə-öz-söz” formulunu ifadə edir. Yəni nəsə var, öz onu dərk edir və daha sonra onu sözlə ifadə edir. Nəsnə varlığı təmsil edir, öznə onu bilik şəklində dərk edir və daha sonra bu ikisinin sintezindən “söz” doğur: “Nə(snə)-öz(nə)-(nə)s(nə)öz(nə)”.

Hər bir millətin formalaşdırdığı milli fəlsəfə ilə yanaşı “beynəlmiləl fəlsəfə” də vardır. İkinci fəlsəfə birincinin dili ilə ifadə olunur və onun rənginə boyanır. Başqa sözlə, milli ağıl həmin beynəlmiləl fəlsəfi normaları, qaydaları özününküləşdirir. Obrazlı ifadə etsək, milli ağıl bir arı kimi universal fəlsəfi qaydalar adlanan çiçəklərdən şirə alaraq ondan milli fəlsəfə adlanan bir bal istehsal edir. Bu zaman əldə edilən yeni fəlsəfi məhsul artıq həmin millətə xas olur. Düzdür, həmin məhsul universal olsa da, milli ağıl sistemində bir hissə kimi tama tabe olur. Fəlsəfə tarixində “Azərbaycan məktəbi” adlı fəlsəfi məktəb olub. Bu məktəbin böyük görkəmli filosofları vardır. Düzdür, onlar müəyyən səbəblərdən dolayı öz xalis ana dillərində fəlsəfələməsələr də, formalaşdırdıqları fəlsəfi irs milli ağılın məhsulu olmuşdur. Bu isə o deməkdir ki, milli fəlsəfəmizin “Azərbaycan məktəbi” adlı bir bazası vardır. Bizim üzərimizə düşən görəv isə həmin məktəbdən xammalları, ideyaları alaraq xalis ana dilimizdə fəlsəfələməkdir.

Vitgenşteynin “həyat tərzləri (forms of life)” nəzəriyyəsindən çıxış edərək deməkolar ki, milli fəlsəfədə “kimlik” müstəsna rola malikdir. Odur ki, bir qeyri-Azərbaycanlı birisi bir Azərbaycanlı kimi milli fəlsəfəmizi dərk edə bilməz. Onu dərk edə bilmək üçün, mütləq, milli ağıla malik olmaq gərəkdir, çünki azəri həyat tərzini yaşamayan birisi bu millətin milli fəlsəfəsini dərindən anlaya bilməz. Bəli, əgər uzun bir müddət bu millətin içərisində yaşayaraq onların həyat təcrübələrində yaxından aktiv iştirak edərsə, bu zaman milli fəlsəfənin dərkinə yaxınlaşa bilər. Bir sözlə, bir millətin milli fəlsəfəsini anlamq üçün onun həyat tərzini yaşamaq lazımdır.

Azərbaycan fəlsəfə məktəbində iki fərqli paradiqma olub. Biri fəlsəfi, o biri isə irfani idi. Fəlsəfi paradiqma aləmə “varlıq-yoxluq” pəncərəsindən, irfani paradiqma isə ona “işıq-qaranlıq” pəncərəsindən baxırdı. İrfani paradiqma öz fəlsəfi sistemində varlığı “işıq”la, yoxluğu isə “qaranlıq”la əvəz etmişdi. Əlbəttə, bu, formal bir əvəzetmə deyildi, çünki onlar

aləmə fərqli bir aspektdən yanaşırdılar. Belə ki, onlar mənəvi eynəklə baxırdılar nəsnə və olaylara. Ancaq fəlsəfi paradiqma ardıcılları eyni eynəklə baxmırdılar aləmə. Zənnimizcə, milli ağıldakı varlıq və yoxluq anlayışları maddi inkişaf və tənəzzülü ifadə edən “varlılıq və yoxsulluq” anlayışları ilə sıx əlaqədardır. Elə buna görə, irfani paradiqmada varlıq(=varlılıq) işıqla, yoxluq(=yoxsulluq) isə qaranlıqla ifadə olunurdu. Bu, ona görə idi ki, varlılıq işıq, yoxsulluq isə qaranlıq bəxş edirdi insana. Buradan aydın olur ki, milli ağılda mənəvi inkişafa gedən yol maddi inkişafdan keçir. Deməli, milli fəlsəfəmiz hər iki amala xidmət etməlidir **(3).**

Azərbaycan filosoflarından Füzuli Qurbanov yazır ki, “milli fəlsəfə necə mümkündür” haqqında danışanda ilk olaraq iki şeyi fərqləndirməliyik. Birincisi, ümumiyyətlə metafizika, ontologiya olmadan heç bir fəlsəfi sistemin mövcudluğundan söhbət gedə bilməz. Nə cərəyanın, nə məktəbin, nə də ayrıca bir istiqamətin mövcudluğu mümkün deyil. İkincisi, fəlsəfənin metafizikası prizmasından baxanda milli fəlsəfə anlayışı ifadəsi nəyi əks etdirə bilər, özündə hansı pozitiv, konstruktiv məzmun daşıya bilər. Bu iki sualın işığında araşdırmalar aparanda belə bir mənzərə yaranır. Mütəxəssislərin rəyinə görə, milli fəlsəfə anlayışına iki yanaşma mövcuddur. Birinci yanşma: ümumiyyətlə milli fəlsəfə mövcud deyil. Çünki fəlsəfə özü universal təfəkkürün məhsuludur, fəlsəfənin milli rəngi olmur və o dünyanın ən ümumi formaları haqqında elmdir. Dünyanın ən ümumformaları haqqında elmdirsə, onda ayrı-ayrı milli özünəməxsusluqlara malik olan xalqların ruhi, mənəvi dəyərləri burada necə əks oluna bilər? Bu suala da bu yanaşmanın tərəfdarları belə cavab verirlər: Milli özünəməxsus olan dəyərlər ümumi formanın ayrı-ayrı tərkib hissələri kimidir ki, onların da qarşılıqlı əlaqəsi ümumi dialektik bir vəhdət formalaşdırır. Deməli, birinci yanaşmaya görə, buradan belə çıxır ki, əgər milli fəlsəfə yoxdursa da, şərti olaraq onun bir mövcud olma forması ola bilər, o da kulturoloji yanaşmadır. Yəni ki, mədəniyyət hadisəsi olaraq hər bir xalqın, cəmiyyətin dünya mədəniyyət sistemindəki yeri, rolu, funksiyaları, qarşıya qoyduğu məqsəd, özünəməxsusluğu, milli psixologiyası, milli şüurun psixologiyası və s. kimi məsələləri ümumformanın yaradılması naminə öyrənilə bilər. Bu formada müstəqil olaraq milli fəlsəfə anlayışını qəbul etmirlər.

İkinci yanaşmada isə bunun əks tezisi irəli sürülür ki, milli fəlsəfə mövcuddur, milli fəlsəfə vardır və onun mövcudluğu, varlığı hər bir millətin, xalqın özünəməxsus mədəniyyətinə, təfəkkür tərzinə, həyat tərzinə, psixologiyasına, şüura malik olmasıdır. İkinci bir tərəfdən, bunun fonunda hər bir cəmiyyətin özünün öz həyat strategiyaları, məqsədləri olmasıdır. Üçüncüsü, cəmiyyətlər bir-birindən inkişaf səviyyələrinə görə fərqlənirlər. Deyək ki, onların birində milli dövlət vardır, digərində yoxdur, bir başqasında başqa cürdür və bütün bu fərqliliklərin fonunda hər bir millətin özünün fəlsəfi dünyagörüşü, həyata fəlsəfi baxışlar sistemi, özünün düşündüklərinin həyata interpritasiyası üsulu, məntiqi ola bilər. Deməli, milli fəlsəfə bu cür ola bilər. İkinci variantda deyirlər ki, regional fəlsəfə və regionun fəlsəfəsi formasında milli fəlsəfə mövcud ola bilər. Məsələn, regional fəlsəfə deyəndə “azərbaycan fəlsəfəsi”, burada “Azərbaycan” sözü kiçik hərflə yazılır. Region fəlsəfəsi deyəndə, “Azərbaycan fəlsəfəsi”, burada Azərbaycan artıq regionun, ölkənin konkret bir ifadəsi kimi. Və nəhayət, milli fəlsəfənin mövcudluğunun üçüncü forması kimi hər bir cəmiyyətinin özünün konkret tarixi, retrospektiv reallıqları ilə müasir dünyada, müasir zamanda, zamanın hər bir müasir anında qarşısına qoyduğu vəzifələrin ümumi səviyyədə dünyada gedən proseslərin fonunda öyrənilməsi ilə məşğul olar ki, milli fəlsəfə bu formada da mövcud ola bilər **(5).**

Azərbaycan filosoflarının təfəkkürünün məhsulu olan sanballı əsərlərdə bir-birindən maraqlı fikir və ideyalar yer alır. Belə ki, təbiətdə və cəmiyyətdə cərəyan edən proseslərin son dərəcə mürəkkəb olduğunu qeyd edən filosoflarımız bildirirlər ki, müasir dövrdə

elmlər onların mahiyyətini açmaqda yeni nailiyyətlər əldə etməkdədir. Belə şəraitdə insanların çevik təfəkkürə malik olması həmişəkindən daha zəruridir. Bununla əlaqədar varlığın - təbiət, sosial həyat və insanın daxili dünyası kimi üç əsas sahəsinin sirrlərinin dərindən mənimsənilməsində fəlsəfi dünyagörüşünün rolu durmadan artır.

Fəlsəfəni bilmək kamil şəxsiyyətin zəruri keyfiyyətlərinin insanda formalaşmasına kömək edir, həqiqətə, xeyirxahlığa yiyələnməyə şərait yaradır. Fəlsəfə insanı təfəkkürün adi tipinin məhdud, səthi çərçivəsindən qoruyaraq, dəqiq elmlərin nəzəri və empirik anlayışlarını inkişaf etdirir. Yüksək təfəkkür mədəniyyətinin göstəricilərindən biri subyektin idrakı ziddiyyətlərdən yan keçməməsi, ondan çəkinməyərək həll etməyə çalışmasıdır. Dialektik inkişaf etmiş təfəkkür formal-məntiqi ziddiyyətlərə imkan verməyərək obyektin real ziddiyyətlərini həll etməyə cəhd edir və bu yolla özünün yaradıcı antidoğmatik xarakterini təzahür etdirir **(1, səh. 78).**

Qeyd etmək lazımdır ki, fəlsəfə xüsusi reallıqla-mümkün olan dünya ilə əlaqədar olur. İmkan dedikdə - insanın ətraf mühitlə ən ümumi, universal əlaqələrinin zəruri tərəfi başa düşülür. Ən ümumi haqqında iki mənada danışmaq olar: abstrakt- ən ümumi və konkret-ən ümumi, həmin mənalardır. Bu da onu subut edir ki, fəlsəfə biliyin nəzəri formasıdır. O, xüsusi elmlərin adi əlamətlərindən məhrumdur. Fəlsəfə özünün tarixindən ayrılmazdır. Eyni zamanda ənənə ilə əlaqənin qırılmasına yönəldilmişdir. Fəlsəfə adi, həm də qeyri- adi dildə danışır. Fəlsəfə insanın tələbatından doğur, lakin özünün şübhələri ilə sabitliyi dağıdır. O ən ümumi haqqında danışsa da, ancaq ayrılıqda götürülmüş şəxsiyyətin sorğularına cavab verir. Bəzi tədqiqatçılara görə yuxarıda qeyd etdiyimiz ziddiyyətlər fəlsəfədən ayrılmazdır və onun mövcudluğunun iki formasını doğurur **(1, səh. 128) .**

Fəlsəfi problemləri "xalis" şüur problemləri kimi deyil, real gerçəklikdə mövcud olan, zəruri olan problemlər kimi çıxış etdiyini qeyd edən filosoflarımıız, onların nəzəri həllinin birdəfəlik başa çatmadığını bildirirlər. Həyat inkişaf etdikcə bu problemlərə münasibət yeniləşir və zənginləşir. Filosofların qənaətinə görə, fəlsəfi problemlərin həlli onların keçmişinin ümumiləşdirilməsinə, müasir vəziyyətinin təhlil edilməsinə və gələcəyinin proqnozlaşdırılmasına əsaslanır. Nəzəri təfəkkür forması kimi fəlsəfə təkcə keçmişi və müasir dövrü öyrənməklə məhdudlaşmır, həm də gələcəyə müraciət edir. Fəlsəfi təfəkkürün gələcəyin dünyagörüşü modellərini, obraz və ideallarını yaratdığını bildirir.

İnsana fəaliyyətinin uğurlu olması üçün düzgün məqsəd müəyyənləşdirməyin, müvafiq qərar qəbul etməyin son dərəcə vacib olduğunu bildirən filosoflar, dünya haqqında hərtərəfli və düzgün təsəvvürlərə malik olmağı tövsiyə edirlər.

Öz elmi axtarışlarını daim dərinləşdirməyə, həqiqətə, dünyanın sirlərinə daha dərindən yiyələnməyə cəhd göstərən milli düşüncəyə malik filosoflarımız bildirirlər ki, dünyagörüşü insana obyektiv reallıq və burada insanın yeri haqqında, insanın onu əhatə edən gerçəkliyə və özünə münasibəti haqqında sistemli biliklər verir. Onun məzmununa, filosoflarımız, həm də bu biliklər əsasında formalaşan əqidə və ideallar, idrak və fəaliyyət prinsipləri, dəyər oriyentasiyalarını daxil edirlər.

Azərbaycan filosoflarını dünya binasının quruluşu, maddi ilə mənəvinin münasibəti, dünyada baş verən dəyişikliklərin qanunauyğun və ya təsadüfi olması, xeyir və şər, həqiqət və yalan, həyatın mənası, ölüm və ölməzlik, insan ləyaqəti, məsuliyyət və başqa fəlsəfi məsələlər maraqlandırır. Onların fikrincə, hər bir insan çox vaxt özü də hiss etmədən fılosofluq edir, əsrlər boyu fəlsəfəni düşündürən məsələlər barədə fikirləşir **(4, səh. 253).**

Filosoflarımız fəlsəfəni bəşər tarixində baş vermiş böyük mədəni çevrilişin ayrılmaz tərkib hissəsi adlandırırlar. Onlar həm də insanın mahiyyəti, məqsədi və taleyi, həyatın ağıllı təşkili ilə bağlı məsələlərə dair maraqlı fikirlərini bölüşdürürlər.

Azərbaycan filosofları bildirirlər ki, fəlsəfənin elm, siyasət, sosial praktika və

mənəvi mədəniyyətlə qarşılıqlı əlaqəsinin daha qabarıq nəzərə çarpmasına baxmayaraq, fəlsəfə əsrlər boyu mənəvi fəaliyyət forması kimi öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

Milli filosofların araşdırmalarına görə, fəlsəfə nəzəri elm kimi müxtəlif məsələləri əhatə edir: insan tərəfindən idraki, sosial və təbiət reallığının mənalandırılmasını təmin edir; bu münasibətdə hər bir konkret mərhələdə əldə edilmiş miqyasları və səviyyəni onu daha da genişləndirmək məqsədilə müəyyənləşdirir; insanların əqidəsinin normativ-dəyər əsaslarını işləyib hazırlayır, dünyanın nəzəri mənzərəsini verir; idrakın prinsiplərini və yollarını göstərir; təbii və ictimai bütövlük daxilində insanın yerini, onun həyatının mənasını müəyyən edir; insanların dəyərlərini, prioritetlərini, ideallarını və məqsədlərini işləyib hazırlayır **( 5, səh. 193).**

Fəlsəfənin mövzularını insanların real həyatı ilə sıx əlaqədə axtaran filosoflarımız, fəlsəfənin əhəmiyyətini belə ifadə edirlər: o, praktiki fəaliyyət üçün mühüm əhəmiyyət kəsb edən emosional-iradi əhval-ruhiyyə yaradır; subyektin müvafiq yaradıcılıq növünə nə dərəcədə uyğun gəldiyini göstərir; insanların həyat fəaliyyəti tiplərini formalaşdırır; onların sınaqdan keçirilməsini və mümkün olanın reallığa çevrilməsini təmin edir; insana özünü reallaşdırmaq üçün proqram verir; onun həyatının vətəndaşlıq mövqeyini, mənasını və amalını müəyyən edir.

Filosoflarımızın təbirincə, yalnız fəlsəfəni öyrənməklə insanlar özlərinin dünya haqqında kortəbii formalaşan təsəvvürlərindəki səthiliyi və yanlışlıqları aradan qaldıra bilir, dünya haqqında düşünülmüş, sistemli və səhih məlumat əldə edirlər.

Həyatı son dərəcədə mürəkkəb, burada gedən prosesləri isə çox ziddiyyətli və rəngarəng adlandıran filosoflarımız onları anlamaq üçün inkişafın meyilləri və perspektivlərini düzgün müəyyənləşdirə bilmək üçün geniş erudisiyaya, həqiqi fəlsəfi biliklərə malik olmaq zəruriliyini irəli sürürlər. İnsanın praktiki fəaliyyəti və mədəni həyatının əsasında duran dünyagörüşü problemlərinin izahında fəlsəfənin rolunun misilsiz olması qənaətinə gəlirlər.

Filosoflarımız fəlsəfəni insanın malik olduğu biliklər sisteminin, dünyanın elmi mənzərəsinin nəzəri bünövrəsi adlandırır. Onlar həm də cəmiyyətdə normal mənəvi mühitin, insanın mənəvi dünyasının formalaşmasına kömək etdiyini, mühüm tərbiyəvi əhəmiyyətə malik olduğunu bildirirlər. Fəlsəfənin əsaslarına yiyələnmiş adamın istənilən elm sahəsində uğurlu fəaliyyət göstərə biləcəyinə əmindir. Eyni zamanda, fəlsəfə digər elmlərin optimal inkişafına kömək edir, onlarda baş verən metodoloji çətinlikləri aradan qaldırır. Fəlsəfə insanı idrak nəzəriyyəsi ilə silahlandırır, yəni gerçəkliyi mənəvi mənimsəməyin yollarını və vasitələrini müəyyənləşdirir. Fəlsəfəni bilən adamda, filosofların fikrincə, düzgün məntiqi təfəkkür formalaşır, o, həyatı tənqidi və yaradıcı surətdə öyrənir.

Fəlsəfə humanist ideallarin, ümumbəşəri dəyərlərin qərarlaşmasına kömək edir. Fəlsəfə həm də gerçəkliyi insanların tələbatlarına uyğun şəkildə dəyişdirməyin mühüm alətidir. Ölkəmizin yaşadığı açıq cəmiyyətə keçid, demokratik və hüquqi dövlət quruculuğu vəzifələrinin həllində fəlsəfənin rolunun və əhəmiyyətinin durmadan artdığını bildirirlər.

İnsanlar malik olduqları biliklərə əsaslanaraq öz həyat və fəaliyyət proqramlarını, davranış istiqamətlərini müəyyən edirlər. İnsanların fəaliyyətində biliklə yanaşı, sərvətlər, dəyərlər də çox mühüm əhəmiyyət kəsb edir. Bu sonuncular vasitəsilə insan həyatda baş verən hadisələrə və proseslərə fəal münasibətini bildirir, onları öz məqsədi, tələbatı və mənafeləri mövqeyindən qiymətləndirir və bu halda insanın ədalət və ədalətsizlik, xeyir və şər, gözəllik və eybəcərlik kimi normativ anlayışlardan istifadə etdiyini söyləyir.

Filosoflarımızın qənaətinə görə, insanların sosial vəziyyətini, milli xüsusiyyətlərini, mədəni səviyyəsini, fərdi psixoloji, iradi keyfiyyətlərini səciyyələndirən dünyanı hissetmə,

bütövlükdə dünyagörüşünə əhəmiyyətli dərəcədə təsir göstərir **(7, səh. 16).** Mənəvi-əxlaqi hisslər olan həya, vicdan əzabı, mənəvi borc, mərhəmət, başqasının halına yanmaq - hər bir dövrdə insanların dünyagörüşünün mühüm tərəfini təşkil etdiyini bildirirlər.

İnsanların dünyagörüşünün strukturunda onlar tərəfindən dərindən qəbul edilən, öz həyat mənafelərinə uyğun hesab olunan biliklər - əqidə xüsusi yeri tutur. Əqidə və məsləkin rolu o qədər böyükdür ki, onların həyata keçirilməsi yolunda insanlar hətta öz həyatını da qurban verə bilirlər. Biliyin əqidəyə çevrilməsi o vaxt baş verir ki, insanlarda bu biliklərə, onların məzmunu və mənasına inam yaranır və möhkəmlənir.

Müasir dövrdə fəlsəfi təfəkkürün tarixiliyi prinsipinə riayət olunması**,** fəlsəfənin real həyatla ayrılmaz əlaqəsinin təmin edilməsi xüsusilə vacibdir. Belə ki, mücərrəd, qapalı xarakterli fəlsəfə siyasi-iqtisadi və mənəvi həyatda baş verəm əsaslı dəyişiklikləri, köhnə stereotiplərin ləğv olunması prosesini, demokratiya və aşkarlığın inkişafını tam əks etdirə bilmir. Cəmiyyətimizin tarixinin indiki dönüş mərhələsində fəlsəfənin gerçəkliyə münasibətini dəyişdirmək, onu mürəkkəb həyat problemlərinin həllinə yönəltmək tələb olunur **(7, səh. 148).** Bu mənada, filosofların fikrincə, fəlsəfənin əsl sosial-tarixi bilik, həyatda daimi əlaqəli dünyagörüşü olması indi həmişəkindən daha vacibdir! Başqa sözlə deyilsə, yeni şəraitdə qarşıda duran problemləri həll edə bilmək üçün fəlsəfə açıq xarakter daşımalıdır.

Fəlsəfə düşüncə sahibi olan alimlərimiz qeyd edirlər ki, cəmiyyətdə obyektiv ilə subyektiv, varlıq ilə şüur, maddi ilə mənəvi bir-birilə sıx əlaqədə və çulğaşmış şəkildə çıxış edir. Bu, təbiidir, çünki insanların yaratdığı bütün nemətlər öz təbiətinə görə insanin əməyinin, vərdiş, bilik və yaradıcılığının maddiləşmiş təcəssümüdür.

Onlar izah edirlər ki, insan, onun humanist idealı fəlsəfi dünyagörüşünün mərkəzi məsələsidir. Fəlsəfə insanın mənəvi azadlığını təbliğ edir. Çünki hazırda baş verən əsaslı dəyişikliklər, fəaliyyətin bütün sahələrində özünü göstərən ssiyentizm yəni elmiləşmə və texnisizm insanın şəxsiyyət göstəricilərinə güclü mənfi təsir edir. Nəticədə şəxsiyyətin mənəvi kasadlaşması baş verir. Belə şəraitdə texniki və sosial inkişafa insan ölçüləri baxımından yanaşmağın rolu və əhəmiyyəti durmadan artır. Bu zərurət həm də indiki şəraitdə insanların fəaliyyəti və dünyagörüşünün kəskin surətdə siyasiləşməsi meyli ilə izah olunur. Həmin meyil də şəxsiyyətin humanizmi üçün müəyyən təhlükə yaradır. Beləliklə, fəlsəfənin daha da humanistləşməsi, onun yeniləşməsi və inkişafının əsasını təşkil edir. Cəmiyyətin yaşadığı indiki keçid dövründə, ictimai həyatda özünü göstərən, qeyri-stabillik halları və çətinliklər, köhnə davranış stereotiplərinin və ideallarının əsaslı surətdə yeniləşməsi humanistləşməni daha da zəruriləşdirir.

Filosoflara görə, fəlsəfə müəyyən konkret mədəniyyətin və bütövlükdə insanların ictimai həyatının əsasında duran ən ümumi anlayışları, ideyaları, təsəvvürləri, təcrübə formalarını üzə çıxarır. Belə ümumi kateqoriyalara, universal anlayışlara misal olaraq varlıq, materiya, dəyişilmə, inkişaf, səbəb və nəticə, təsadüf və zərurəti və onlarca başqalarını göstərmək olar. Real gerçəklikdəki hadisə və proseslər arasındakı ən ümumi əlaqələri və münasibəti ifadə edən bu kateqoriyalarsız nə gündəlik həyatda, nə də elmdə və praktiki fəaliyyətin heç bir sahəsində keçinmək mümkün deyildir. Onlar təfəkkür prosesinin zəruri tərəfini təşkil edir.

Filosoflarımız bildirir ki, mədəniyyət sistemində fəlsəfə tənqidi süzgəc rolunu həyata keçirir. O, müxtəlif dünyagörüşlərində yaranmış olan müsbət tərəfləri toplayır və onu gələcək nəsillərə ötürür.

Azərbaycan filosofları gündəlik təcrübəni, praktiki və elmi bilikləri nəzəri cəhətdən ümumiləşdirir, sintez edirlər. Fəlsəfi təfəkkürün praktiki, idraki və qiymətverici tərəflərin vəhdətini təmin etmək sahəsindəki rolu ictimai həyatda çox mühümdür. Belə ki, həmin üç

tərəfin ahəngdarlığı və mütənasibliyi ictimai inkişafın zəruri şərtidir. Məsələn, deyək ki, bu və ya digər tarixi dövrdə yeridilən siyasət yalnız elm və əxlaq ilə düzgün əlaqələndirildikdə tam dolğun reallaşa bilər. Xüsusilə də bugünkü şəraitdə bəşəriyyətin ümumi mənafeyinə uyğun gələn dünyagörüşü oriyentasiyası mədəniyyətin bütün vəzifə və sərvətlərinin birləşdirilməsini - elmi, humanist və əxlaqi tərəflərin əhatə olunmasını tələb edir. Bu işdə isə fəlsəfi təfəkkür müstəsna yer tutur **(12, səh. 342)**.

Filosoflar bildirir ki, fəlsəfə həm də mühüm mədəni-tərbiyəvi funksiya yerinə yetirir. Onu öyrənərkən insanın təfəkkür və ümumi mədəniyyəti yüksəlir. Fəlsəfəni bilən adam dünyada və cəmiyyətdə gedən prosesləri izah edərkən adi şüur səviyyəsinə xas olan dayazlıq, dağınıqlıq və ziddiyyətlilikdən azad olur.

Fəlsəfi kateqoriyalar və anlayışlarda gerçəkliyin bu və ya digər tərəfinə aid çox qiymətli informasiyalar toplanılır, təhlil edilir və nəsildən-nəslə ötürülür.

Fəlsəfi metodun digər metodlardan üstünlüyünü bildirən filosoflarımıza görə, fəlsəfə elmi biliklərin artmasına, yeni elmi müddəaların yaranmasına kömək edir. Bu, fəlsəfi və formal məntiqi metodun vəhdətdə tətbiqi ilə təmin olunur. Nəticədə fəlsəfə müəyyən nəzəri-dünyagörüşü və ümummetodoloji xarakterli yeniliklər yarada bilir. Digər tərəfdən fəlsəfi metod başqa metodlarla birləşdikdə mürəkkəb nəzəri və fundamental problemlərin həllində xüsusi elmlərə mühüm köməklik göstərir. Fəlsəfə həm də ayrı-ayrı elmlərə hipotez və nəzəriyyələr yaratmaqda kömək edir. Belə ki, yeni nəzəriyyə təkcə empirik şərtlər üzərində qurulmur. Bu işdə nəzəri müddəalar çıxış nöqtəsi rolunu oynayır.

Fəlsəfə ilə digər elmlərin əlaqələrini təhlil edən filosoflarımız bildirirlər ki, fəlsəfə və xüsusi elmlər bir-birilə qarşılıqlı təsirdə çıxış edir, qarşılıqlı surətdə bir-birini zənginləşdirirlər. Fəlsəfə ilə digər konkret elmlərin müqayisəsi sübut edir ki, fəlsəfənin idraki imkanları çox böyükdür və o, biliklər sistemində mühüm yer tutur. Fəlsəfə ilə elmin əvvəlcə tarixən eyni kökdən yarandığını, sonralar onların bir-birindən ayrı inkişaf etdiyini bildirirlər. Lakin onların inkişafı bir-birindən təcrid olunmuş halda deyil, bir-birilə sıx dialektik əlaqədə baş vermədiyini qeyd edirlər. Onlar qeyd edirlər ki, konkret hadisələri öyrənən xüsusi elmlərdən fərqli olaraq fəlsəfə ən ilkin səbəblər, ilkin prinsiplər, varlığın ən ümumi əsasları haqqında təlimdir. Buna görə də fəlsəfə xüsusi elmlərdən daha güclüdür.

Varlıq mövzusunun fəlsəfədə mərkəzi yer tutduğunu filosoflar aşağıdakı səbəblərlə izah edirlər: birincisi, bütöv bir tam kimi dünyanın varlığının və insanın varlığının öyrənilməsi fəlsəfənin əsas predmetidir. *İkinci,* varlıq haqqında təlim (ontologiya) fəlsəfənin ən mühüm tərkib hissəsidir. Nəhayət hər bir fəlsəfi cərəyan öz baxışlarını izah edərkən birinci növbədə varlıq anlayışına əsaslanır. Buradan aydın olur ki, varlıq fəlsəfənin əbədi və dəyişməz məsələsidir **(7, səh. 284).**

Varlıq ətrafında gedən fəlsəfi axtarışlar öz mahiyyətinə görə müəyyən bir şəxsin və ya sosial qrupun mənafeyi ilə məhdudlaşmır. O, bütünlükdə cəmiyyəti düşündürən və narahat edən məsələdir. İnsanın təkcə maddi fəaliyyəti deyil, həm də mənəvi həyatı (elmlə, bədii yaradıcılıqla və incəsənətlə məşğul olması) onun varlıq haqqındakı təsəvvürləri ilə sıx bağlıdır. Bundan əlavə varlığın anlaşılması insanları xoşbəxtliyə, vicdanlı olmağa, öz borcunu başa düşməyə yönəldən cəhdlərin mənbəyidir. Bir halda ki, varlığı yalnız insan öz təfəkkürü ilə dərk edə bilir, deməli, onu bilmək insanı öz həqiqi mövcudluğunu, əzəli varlığını anlamaq, əldə etdiyi azadlıq səviyyəsini mənalandırmaq üçün son dərəcə zəruridir.

Varlıq anlayışının geniş və dar mənada işləndiyini bildirən Azərbaycan filosofları qeyd edir ki, birinci halda dünyada mövcud olan hər şey (cansız təbiət, üzvi aləm, cəmiyyət, Yer kürəsi, bütövlükdə Qalaktika) varlığa daxil edilir. Belə yanaşdıqda insanların siyasi fəaliyyəti və mənəvi fəaliyyətinin bütün məhsulları, elmi, şüuru, ideya və

baxışları, hiss və təsəvvürləri də varlığa daxildir. Sözün məhdud (dar) mənasında varlıq dedikdə isə insanların şüurundan kənarda və ondan asılı olmayaraq mövcud olan obyektiv reallıq başa düşülür Bu halda varlığın iki əsas növünü-obyektiv reallığın və subyektiv reallığın bir-birindən fərqliliyi vurğulanır.

Filosoflarımız belə bir həqiqəti də bizə mesaj göndərir: bütöv bir tam kimi götürülən dünya əbədi xarakter daşısa da, buradakı konkret cismlər, təbiət hadisələri və canlılar müvəqqətidir, onlar fasiləsiz surətdə dəyişilirlər.

Filosoflarımız şüuru bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində duran problem adlandırmaqla qeyd edir ki, fəlsəfənin əsas predmetini təşkil edən dünyagörüşü məsələləri sırasında şüur öndə durur və insanın dünyada yeri və rolunun izahı şüurun anlaşılmasından başlayır. Şüuru bilmədən insanın ətraf dünya ilə qarşılıqlı münasibətlərini aydın təsəvvür etmək qeyri-mümkündür. Xüsusən də bu münasibətlərin özünəməxsus xarakterini başa düşmək üçün şüurun təbiətini öyrənmək lazımdır**.** Fəlsəfə şüura ümumnəzəri planda yanaşır. O, şüuru insanın və cəmiyyətin fəaliyyəti baxımından təhlil edir. Ona dünyagörüşünün çıxış nöqtəsi kimi yanaşır. Fəlsəfə həm də şüuru insanın gerçəklik ilə münasibətlərinin özünəməxsus forması kimi mənalandırır.

Şüur birdən-birə hazır şəkildə meydana çıxmamışdır. O, uzun davam edən təkamülün nəticəsi kimi yaranmışdır. İnsanın heyvanlar aləmindən ayrılması və əmək fəaliyyəti şüurun yaranmasında mühüm rol oynayır **(7, səh. 299).**

Azərbaycan Türk filosofu Faiq Ələkbərov yazır ki, milli şüurun tərkibinə milli mentalitet, milli özünüdərk, milli adət-ənənələr, vətənpərvərlik və s. daxildir. Bu mənada, milli şüurun dini və beynəlmiləl şüurla oxşar tərəfləri ilə yanaşı, fərqli cəhətləri də göstərilməlidir. Məsələn, milli şüurla dini şüur arasında oxşar cəhətlər arasında əxlaqi-mənəvi, humanizm, xoşgörü, qonaqpərvərlik, ümumiyyətlə mənəviyyat məsələləri mühüm yer tutur. Eyni zamanda, milli və dini şüurun oxşar cəhətləri arasında ən vacib faktor milli birlik məsələsidir. Yəni, hər iki şüurun uğurla dərk edilməsi nəticəsində bir millət, cəmiyyət daxilində milli birlik daha da gücləndirilə bilər. Ancaq bu zaman hökmən milli birliklə dini birliyi fərqləndirmək, daha doğrusu, dini birliyin milli birlik kimi təqdim edilməsinə imkan verilməməlidir.

Qeyd edək ki, 20-ci əsrin əvvəllərində Əhməd Ağaoğlu məhz dini birliyi milli birlik kimi («islam millətçiliyi») qələmə vermişdir. Belə ki, Ağaoğlu Quranın mahiyyətindən xəbərsiz olduğumuzu, əgər biləriksə buna doğru müəyyən addımların atılıcağına inamını ifadə etmişdir. Onun fikrincə, Qurandan uzaqlaşmağımızın səbəbdir ki, müsəlmanlar arasında milli birlik yoxdur. Bu baxımdan Qurana üz tutaraq milli birlik məsələsini dərk etməli və bu ideyanı cəmiyyətə daxilində yaymaq lazımdır. Ancaq onun bu ideyası özünü doğrultmadı. Buna səbəb də dini şüura aid bəzi məsələlərin lüzumsuz yerə milli şüura da aid edilməsi idi. Xüsusilə, «islam milləti» anlayışı ilə «türk milləti» anlayışını eyniləşdirilməsi, qeyri-müəyyən «islam birliyi» anlayışının irəli çəkilməsi və bunu kimi digər önəmli amillər də yanlışlığa yol verilmişdi (14, səh.235).

Ümumiyyətlə, bu gün olduğu kimi, ötən əsrin əvvəllərində də milli şüurun formalaşması prosesində əsas mübarizə islamlaşmaq, türkləşmək və müasirləşməklə («üçlük»lə) beynəlmiləl ideya hesab edilə biləcək sosial-demokratizm, liberal-demokratizm və başqaları arasında getmişdir. Eyni zamanda bu mübarizənin islamlıqla türklüyün öz aralarında da getdiyinin şahidi oluruq. Ancaq 20-ci əsrin əvvəllərində dünyanın bir nömrəli qloballaşma hadisəsi kimi sosial-demokratizmi (marksizmi) hesab etmək olar.

Həmin dövrdə bəziləri hesab edirdilər ki, zəmanənin əsas ideyası islamlaşmaq və türkləşmək deyil, sosial-demokratizmdir – bütün fəhlə və kəndli sinfinin birləşməsi və dünyada sosializm cəmiyyəti qurmaqdır. Bu mənada, Azərbaycan türklərinin də xilas yolu

da nə islam, nə də türklük deyil, sosial-demokartizmlə bağlıdır. Həmin dövrdə sosial-demokratizm qlobal hadisə kimi, bir müddət islamlıq və türklük şüuru ilə başa-baş mübarizə aparmışdır. Hətta, Azərbaycanın bir çox mütəfəkkirləri ilk dövrlərdə sosial-demokratizmi milliyyət və islamiyyətdən üstün belə tutmuşlar.

Deməli, hazırda olduğu kimi 20-ci əsrin əvvəllərində də ictimai şüurun hansı ideyalar əsasında formalaşa biləcəyi ilə bağlı təzadlı mülahizələr və mövqelər olmuşdur. Bir çox aydınlarımız sosial-demokrtizmin təsiri altında islamçılığın ona zidd olmamasını əsaslandırmağa çalışmışlar. Marksizm kimi islamiyyətin də beynəlmiləl mahiyyətə malik olması vurğulanmışdır. Beləliklə, islamçılıqla beynəlmiləl ideya hesab olunan sosial-demokratizm arasında oxşarlıqlar tapmaq bir növ əsas məşğuliyyətlərdən biri olmuşdur (M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu və b.).

Ancaq islamçılıq və beynəlmiləlçilikdən fərqli olaraq, türkçülük və sosial-demorktizm arasında bərabərlik işarəsi qoymaq çətin idi. Ona görə də, ilk dövrlərdə milliyyət anlayışı daha çox tənqid edilmiş, bu mənada milli şüurun milliyyət əsasında formalaşmasının əleyhdarları heç də az olmamışdır. Məsələn, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə və başqaları ilk dövrlərdə yazırıdlar ki, miliyyəti önə çəkənlər uyğun olaraq islamiyyətin və sosial-demokratiyanın düşmənidirlər. Hətta, Rəsulzadə İsmayıl bəy Qaspıralını və onun «Tərcüman» qəzetini milliyyət məsələsini daha çox qabardaraq sosial-demokratiyanı qəbul etmədiklərinə görə tənqd atəşinə tutmuşdur. Ə.Hüseynzadə də həmin dövrdə «Füyuzat» jurnalında nəşr olunna «Milliyyət və insaniyyət» məqaləsində, milliyyət deyil, islamiyyət və sosial-demokratiyanın vacibliyindən bəhs etmişdir.

Doğrudur, onlar islamiyyət və sosail-demokratizmin bəşəriyyət üçün daha vacib olmasından bəhs edərkən heç də milli kimliklərinin-türklüklərinin üstündən xətt çəkməmişlər. Əksinə, bu milli ideoloqlar türk kimliklərini az qala hər bir yazılarında vurğulayaraq türk mədəniyyətini təbliğ etmişlər. Ancaq ümumilikdə, Rəsulzadə bir müddət milliyyət anlayışını sosial-demokratlar kimi izah etmiş, Hüseynzadə və Ağaoğlu isə onu islamiyyətin içində ərtitmişlər.

Deməli, 20-ci əsrin əvvəllərində milli aydınlarmızın aparıcı hissəsi qloballaşma hadisəsi kimi dəyərləndirə biləcəyimiz marksizmə qarşı bu formada mübarizə aparmışlar. Bu, müəyyən bir keçid dövründə onlar üçün ən məqbul variant idi. Bu baxımdan yalnız milliyyət məsələsindən çıxış etməklə, beynəlmiləliyyət və islamiyyəti tamamilə bir kənara qoymaqla milli şüur formalaşdırmaq istənilən effekti verə bilməzdi. Məhz əksər aydınlarımızın sosial-demokratizmə münasibətdə doğru mövqe tutmaları, son nəticədə islamçlıq və türkçlüyün bir ideya kimi marksizm üzərində qalib gəlməsi ilə nəticələnmişdi. Bununla da milli şüurun əsas dayaq nöqtələri türkçülük və islamçılıq olmuşdur.

Fikrimizcə, indiki dövrdə yaşananlar, yəni qloballaşma adı altında vətəndaş cəmiyyəti ilə türkçülük və islamçılıq arasında baş verənlər, 20-ci əsrin əvvəllərində baş verən proseslərin yeni bir formada təkrarıdır. Burada söhbət tarixin təkrarından deyil, müxtəlif tarixlərdə baş verən hadisələrin oxşar cəhətlərindən gedir. Bu mənada, hazırda əsas məsələlərdən biri qloballaşmanın tüğyan etdiyi, vətəndaş cəmiyyətinin qurulmasının vacibliyinə çağrışlar edildiyi bir dövrdə islamçılıq və türkçülüyün nə qədər vacibliyidir. Xüsusilə, son zamanlar qloballaşma hadisəsəsi kimi vətəndaş cəmiyyəti, çoxmədəniyyətlilik, informasiya cəmiyyəti və s. anlayışlar geniş yayılmışdır.

Qloballaşma prosesində «üçlüyə» (türkləşmək, islamlaşmaq və müasirləşmək) münasibətdə iki əsas baxış var: 1) vətəndaş cəmiyyəti daha vacibdir, nəinki «üçlük»; 2) vətəndaş cəmiyyəti quruculuğu nə qədər zəruri olursa-olsun «üçlük» onun kölgəsində qalmamalıdır.

Deməli, bu gün də milli şüurun formalaşmasında ən azı iki tərəfli mübarizə gedir. Bu

mübarizədən hansının qalib çıxması ilə milli şüurun formalaşması prosesi yeni bir çalar daşıya bilər. Daha doğrusu, əgər vətəndaş cəmiyyətinin «üçlük»dən daha vacib olması qənatinə gəlinərsə, yaxud da gəlinirsə bu zaman milli şüurun öz mahiyyətindən xeyli dərəcədə kənara çıxması baş verə bilər. Çünki vətəndaş cəmiyyəti üzərində formalaşan şüur birmənalı şəkildə milli şüur deyil, beynəlmiləl, müəyyən mənada kosmopolit şüurdur.

Bəşəri ideyalardan Hüseyn Caviddə, Əhməd Cavadda başqası da yaza bilər və yazıblar da. Yer kürəsi burada yaşayan bütün insanların vətənidir. Ancaq birinci insanın doğulduğu ərazi onun vətənidir. İlk növbədə, hər bir insan üzərində dayandığı Vətəninin, təmsil olunduğu millətin dəyərini biməlidir. Bundan sonra bəşəri ideyalarla çıxış etməsi normal bir şeydir. Deməli, həmin dövrdə SSRİ rəhbərləri və ideoloqları üçün kommunizm, beynəlmiləlçilik, xalqlar dostluğu ideyaları ilk növbədə vətən, millət, din anlayışlarını insanların şüurundan çıxartmaq üçün bir ideoloji silah olmuşdur.

İnsanın şüuru öz daxili məzmununa görə mürəkkəb və çoxsəviyyəli xarakter daşıyır. O, bütöv bir sistemdir. Bu sistemin daxilində bir-birilə qanunauyğun əlaqələrdə olan müxtəlif elementlər və tərəflər vardır.

Şüurun tərkibində mənlik şüuru çox mühüm yer tutur. Bəzən belə fikir söylənilir ki, mənlik şüuru şüurdan kənarda, onunla yanaşı mövcuddur. Filosoflar yazır ki, mənlik şüuru şüurun daxilində onun yüksək səviyyəsi kimi çıxış edir. Mənlik şüuru insanın özünün fikir və hisslərinin, mənafe və məqsədlərinin öyrənilməsinə yönəlir. Başqa sözlə bu halda insanın daxili aləmi şüurun obyekti kimi çıxış edir. Beləliklə, mənlik şüuru insanın öz hərəkətlərini, hissləri və fikirlərini, davranış motivlərini, mənafelərini, cəmiyyətdə öz yerini başa düşməsidir.

İnsanın öz-özünə maraq göstərməsi təzə məsələ deyildir. Vaxtı ilə Sokrat "öz-özünü dərk et!" şüarını elan etmişdi. Bu çağırışı o, öz fəlsəfi dünyagörüşünün çıxış nöqtəsi hesab edirdi.

Özünü dərk etmək və özü haqqında fikirləşmək yalnız insana məxsus keyfiyyətdir. Filosoflar hər bir insanın "Mən"ində ən azı üç obrazı ayırır: a) insan hazırkı vəziyyətdə özünü necə qavrayır; b) o, öz "Mən"inin idealını necə təsəvvür edir; s) onun "mən"i başqalarının gözündə necə görünür **(12, səh. 174).**

Ruhdan danışarkən göstərilməlidir ki, hər bir insanın ruhu sırf fərdi fenomendir. O, özündə həmin şəxsiyyətin təkrarolunmaz xüsusiyyətlərini təşkil və ifadə edir. Qədim təsəvvürlərə görə ruh yaranmır. O, əbədi mövcuddur. Özü də ruh xarici aləmdən və insan bədənindən tam azaddır. Onun müstəqil, öz həyatı vardır. Ruh insanın fikirləri, hissləri və arzularının daşıyıcısı və səbəbidir. Lakin ruhun bu cür izahı kifayət deyildir. Çünki nə qədər sehrli olsa da ruh insanın təbii imkanları, tərbiyəsi, təhsili, cəmiyyətdə yeri və ümumi mədəniyyəti ilə əlaqədə formalaşıb inkişaf edir. Bu mənada hər bir insanın ruhu məhz ona məxsus olan xarakteri, temperamenti, davranış manerasını ifadə edir. Onun məzmununda fikirlər, arzu və istəklər, iradi keyfiyyətlər vardır. Bu unikallığı ilə yanaşı ruh bütün insanlara xas olan keyfiyyətdir. Odur ki, bütövlükdə insan ruhu haqqında danışmaq mümkündür.

İnsanın öz-özünü dərk etməsi onun fəaliyyətinin və inkişafının nəticəsidir. Özünü-dərk şüurun inkişafının xeyli dərəcədə sonrakı dövrünün məhsuludur. Mənlik şüurunun formalaşması şəxsiyyətin qüvvələrinin və bütövlüyünün artması, müstəqil subyekt kimi qərarlaşması gedişində baş verir.

Mənlik şüurunda insan öz şüurunun, hərəkətlərinin və ünsiyyətinin subyekti kimi özünü başa düşür. Əgər şüur başqa bir obyekt haqqında bilikdirsə, ondan fərqli olaraq mənlik şüuru insanın özü haqqında bilikdir. Vaxtilə Hegelin dediyi kimi o, bir növ həm özünü, həm də başqalarını aşkar edən mənəvi işıqdır.

Mənlik şüuru insanın özünə kənardan baxa bilmək qabiliyyəti ilə bağlıdır. O, insana öz şüur aktlarına tənqidi yanaşmaq imkanı verir. Bu o deməkdir ki, subyekt öz daxili dünyasına aid olan hər şeyi, kənardan daxil olanlarla müqayisə edir, onlardan fərqləndirməklə öz daxilini daha dərindən öyrənir.

Mənlik şüurunun formalaşması və inkişafı ictimai mahiyyət kəsb edir. Bu o deməkdir ki, hər bir şəxsin mənlik şüuru başqaları ilə ünsiyyətdə, onların verdiyi qiymətləndirici münasibətlərlə ayrılmaz əlaqədə yaranır. Digər tərəfdən hər bir insanın hərəkət və davranışlarına müəyyən tələblər və normalar qoyulur. Mənlik şüuru onları nəzərə almaqla və onlara müvafiq formalaşır.

**Milli fəlsəfi fikir cərəyanlarında ideya çağırışları**

Fəlsəfə öz inkişafında bir sıra cərəyanların yaranması ilə daha da zənginləşmişdir. Bu cərəyan və istiqamətlərdəki özünəməxsus baxışlar, fikirlər və ideyalar fəlsəfənin həll etməyə çalışdığı problemlərin çözülməsində xüsusi rola malikdir. Belə cərəyanlardan biri də maarifçilikdir.

Azərbaycanda A.A.Bakıxanov, M.Ş.Vazeh, İ.Qutqaşınlı ilə başlayan maarifçilik hərəkatı M.F.Axundzadə və H.Zərdabi ilə davam etdirilmiş, daha sonra C.Məmmədquluzadə, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, S.S.Axundov, Ü.Hacıbəyov, Z.Marağalı, İ.Talıbov, F.Köçərli, İ.Musabəyov, S.Qənizadə, R.Əfəndiyev Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, M.Rəsulzadə, M.Məmmədzadə, N.Yusifbəyli və digər ziyalılarla davam etdirilmişdir. Bu mənada dövrün ictimai-siyasi görüşlərinin ideya mənbəyini milli və bəşəri dəyərərin vəhdəti təşkil edirdi. Və tarix də təsdiq etdi ki, modernləşməyə, yeniləşməyə aparan yol da məhz bu vəhdətin necə reallaşdırılmasından asılıdır. O dövrün ziyalıları Avropa demokratik təcrübəsini, qabaqcıl ideyaları mənimsəyərək, Azərbaycan reallığına tətbiq etməyə cəhd göstərmişlər. Yəni bu ziyalılar öz fəaliyyətlərini yalnız ənənələrlə, milli zəminlə məhdudlaşdırmamışlar, onlar dünya mədəniyyəti səviyyəsinə çatmağın yollarını aramışlar.

Qeyd etmək lazımdır ki, bir milli-ideoloji hərəkat olaraq, maarifçilik Azərbaycanda milli ideyanın formalaşmasında misilsiz rol oynamışdır. Bu baxımdan akademik Ramiz Mehdiyevin milli ideyanın təşəkkülünü mərhələlərə bölməsi, mahiyyətcə hadisəni ətraflı izah edir. Akademikin fikrincə, milli ideyanın təşəkkülünün birinci mərhələsi 1828-1875-ci illəri əhatə edir. Rusiya-İran müharibəsindən sonra Azərbaycanın şimal hissəsinin ərazisi Rusiya imperiyasının tərkibində qalmış, burada azərbaycanlıların tədricən həmrəy olması prosesi başlanmışdır. O dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl hissəsi hələ fars və ərəb ruhanilərinin təsiri altında idi. Bununla bərabər, məhz həmin dövrdə milli realist ədəbi məktəb formalaşmağa başlayır. Bu məktəbin səpdiyi milli oyanış toxumları sonrakı onilliklərdə cücərmişdir **(6).**

Azərbaycan maarifçiliyinin daha da inkişaf etməsində ictimai həyatın bütün sahələrinin modernləşməsində milli mədəniyyətin, milli ideyanın formalaşmasında M.F.Axundzadə və H.Zərdabi əsas rol oynadılar. A.Bakıxanovdan fərqli olaraq M.F.Axundzadə inanc və zəkanın, elm və dinin qarşılıqlı münasibətləri daha aydın, daha konkretdir, bir-birinə zidd, bir-birilə barışmaz fenomendir: “…din və iman, elm və fəlsəfə iki zidd halətdir, qətiyyən bir yerə toplana bilməz. Din və iman sahibi olan adam alim və filosof sayıla bilməz.Əgər elm və fəlsəfə sahibi olursa dindar və mömin ola bilməz” (14).

XIX əsrin sonralarına yaxın M.F.Axundzadə Azərbaycan xalqının milli şüurunun intibahında demokratik, realist maarifçi kimi mühüm rol oynadı, maarifçilər arasında ilk dəfə olaraq “xalq”, “millət”, “millət üləması”, “öz millətim”,“millətxahlıq” kimi anlayışlardan istifadə edərək milli mentalitetimizi, milli xarakterimizi, kimliyimizi səciyyələn-

dirmiş və dəqiqləşdirməyə cəhd etmişdir. Mütilik,itaətkarlıq və köləlik psixologiyasına qarşı çıxan maarifçi filosof göstərirdi ki, “Yeni dövrdə köləlik şüuru, əxlaqı ilə qəflət və cəhalət içərisində yaşamaq olmaz, xalqda milli mənlik şüurunu inkişaf etdirmədən,milli ləyaqət, vətənpərvərlik hissi aşılamadan onu geniş sosial tərəqqi və milli müstəqillik yoluna çıxarmaq olmaz**” [14].**

Böyük mütəffəkir maarifçilik ideyalarını ictimai həyatın bütün sahələrinə, xüsusən mənəviyyata və şüurlara istiqamətləndirdi, hökm sürən cəhalət, fanatizm, gerilik qaranlıqlarını və zülmətini maarifçilik ziyası ilə işıqlandırdı. Buna görə də məhz Azərbaycanın sonrakı maarifçiliyi, xüsusən M.F.Axundzadəvə H.Zərdabi sayəsində siyasi, sosial-iqtisadi modernizm, mənəvi-mədəni yeniləşməni zərurətə çevirdi. Məhz bu maarifçilər doğma Azərbaycan dilinin, adət-ənənələrinin inkişafını vətənə bağlılıqla vəhətdə görürdülər.Onlar xalqın azadlığı, xoşbəxtliyini milli müstəqillikdə görür, buna görə də müstəqil dövlət (H.Zərdabi) və xalq demokratiyasına əsaslanan dövlət ideyası (M.F.Axundzadə) irəli sürürdülər.

Həsən bəy Zərdabinin xüsusi fəlsəfi əsəri olmasa da öz fəaliyyəti, “təbii-elmi materializmi” ilə, öz xalqına xidmətləri ilə, yaratdığı ilk mətbuat orqanı və teatrla maarifçiliyin inkişafına böyük töhfələr vermişdir. Dinə münasibətdə Axundzadə kimi radikal olmasa da Zərdabi təkcə Azərbaycan deyil, bütün müsəlman Şərqində geriliyin səbəbini savadsızlıq,cəhalət və fanatizmdə görür, ona görə də dünyəvi təhsil, tərbiyə vasitələrinin artırılması- nı və cəmiyyətə tətbiq edilməsini istəyirdi.O,çarizmi kəskin tənqid edir, onun müstəmləkəçilik siyasətinin əleyhinə çıxır, lakin Rusiyanın müsbət mədəni təsiri olduğunu da etiraf edirdi **(21, səh. 26).**

Bir sözlə, onların maarifçilik ideyaları nəinki özündən sonrakı yaradıcı qüvvələrə, xüsusən mollanəsrəddinçilərə təsir etdi, həm də bu günkü,müasir müstəqil Azərbaycanın fəlsəfi fikri üçün də mənbə, baza rolunu oynayır.

Cəlil Məmmədquluzadə başda olmaqla mollanəsrəddinçilərin ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, onlar pantürkizm, panislamizm və paniranizmdən fərqlənən sırf milli ictimai-siyasi cərəyan olan azərbaycançılıq ideyası mövqeyində durdular **(24, səh. 59).** Bunun üçün onlar müxtəlif etnomədəni cərəyanlardan olan osmançılıq (müstəqil Azərbaycan ədəbi dilinin olmasının qəbul edilməməsi) əleyhinə mübarizə aparırdılar. Mollanəsrəddinçilər Azərbaycan dilinin müstəqil status qazanmasını, ərəbizm, farsizm, osma-nizmdən azad təmiz dil olmasını və bütün Azərbaycan xalqının sərvətinə çevrilməsini istəyirdilər.

Bütün müsəlman Şərqində və Rusiyada məşhurlaşan “Molla Nəsrəddin” jurnalının ideya liderləri və yaradıcı qüvvələri özündən əvvəlki sələfləri kimi milli dirçəliş və milli özünütəyinetmə hüququnun gerçəkləşməsi uğrunda mübarizə aparırdılar **(21, səh. 46).**

Mirzə Fətəli Axundzadənin yaradıcılığında inkişaf edib öz zirvə nöqtəsinə çatmış və həmçinin Həsən bəy Zərdabi ilə bərabər Seyid Əzim Şirvani, Ünsizadə qardaşları, Məhəmməd ağa Şahtaxtinski və digər şəxsiy-yətlərin fəaliyyəti və yaradıcılığında özünü qabarıq göstərmiş sosial-demokrat və maarifçilik ideyaları, mütərəqqi ənənələr “Molla Nəsrəddin” məktəbində demokratik məzmun və realist istiqamət kəsb etmişdir **(16, səh. 21).**

“Molla Nəsrəddin”çi yaradıcı qüvvələrin dünyagörüşünün sosial-fəlsəfi əsasları onların ictimai-siyasi baxışlarını və hüquqi-dövlət görüşlərini ehtiva edir. Bu baxımdan mollanəsrəddinçilərin yaradıcılığının ayrı-ayrılıqda ictimai-siyasi, sosial-mədəni, fəlsəfi aspektlərinin maarifçilik baxımından araşdırılması indiki dövr üçün mühüm elmi və nəzəri əhəmiyyət kəsb edir.

Təbiət fəlsəfəsi və gnoseologiya sahəsində mollanəsrəddinçilərin özünəməxsus baxışları vardır. Mollanəsrəddinçilərin təhsil və elmlə əldə etdikləri bilikləri onların

kainatın, dünyanın, insanın yaranışı haqqında İslam Şərqində hökmran olan dini-mövhumi fikirlərə zidd elmi görüşlərində əks olunmuşdur. Mollanəsrəddinçilər dünyanın dərki məsələsində əsasən materialist mövqedə dururdular. Azərbaycanda və Şərqdəki dini fanatizmə, mövhumat və xurafata qarşı mübarizə aparan və tənqidi realizm cəbhəsində dayanan “Molla Nəsrəddin”çi publisist, yazıçı, şair və dramaturqların yaradıcılığı, fikrimizcə, sosialist quruluşunda sovet tədqiqatçılarının vulqar mövqeyinə rəğmən heç də ateist məzmunda olmamışdır. **(22, səh. 76).** Mollanəsrəddinçilərin dinə münasibəti sosial-fəlsəfi cəhətdən dinin, o cümlədən İslamın əsaslarına, onun müsbət mənəvi-etik təsir gücünə qarşı deyildi, əksinə cəhalət və nadanlığa rəvac verən, qaranlıq mühiti daha da qatılaşdıran ayrı-ayrı ruhanilərə, mollalara, əsilzadələrə, səlahiyyət sahibi olan məmurlara yönəlmişdi.

Mollanəsrəddinçilərin milli və dünya ictimai-fəlsəfi irsinə, o cümlədən Azərbaycan ictimai-fəlsəfi irsinə münasibəti də maraqlıdır. Mollanəsrəddinçilər sosiologiya, etika, estetika, psixologiya və s. fəlsəfi elmlər üzrə ayrıca bir əsər yazmasalar da, onların yaradıcılığında ictimai, əxlaqi, ədəbi-bədii və ruhi-mənəvi məsələlərə bu və ya digər dərəcədə nəzəri-praktik münasibət göstərilmişdir. Mirzə Cəlil, Ömər Faiq, Mirzə Ələkbər Sabir, Əli Nəzmi və digər mollanəsrəddinçilərin milli özünüdərk və milli kimlik məsələlərinə yanaşma tərzi və onların məcmuədə həmin istiqamətdə ifadəsini tapmış fikir və qənaətləri bu gün də aktual görünür (**14, səh. 87).**

Mollanəsrəddinçilərin satirik şeir, məqalə, felyeton, hekayə, pyes və s. janrlarda kəskinliklə qələmə aldıqları müxtəlif ədəbi və bədii yaradıcılıq nümunələrindəki vətənsevərliyini, onların Şərqdə ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinə və bu müstəqil dövlətin yaradıcılarına münasibətini, həmçinin bütün bunların müasir dövrdə müstəqil dövlətimiz səviyyəsində formalaşmış azərbaycançılıq ideologiyasında oynadığı mühüm rolunu xüsusi vurğulamaq lazımdır **(25, səh. 102).**

“Molla Nəsrəddin” məcmuəsinin bir məktəb kimi ətrafında cəmləşən müəlliflərin ictimai-tarixi və ədəbi-mədəni istiqamətdə müdafiə etdikləri sosiomədəni dəyərlər, ümumiyyətlə üzləşdikləri çətinliklər, eyni zamanda, mollanəsrəddinçilərin sovet üsul-idarəsinə münasibəti nəzərdən qaçırılmamalıdır (**22, səh. 98**).

Müstəqil Azərbaycanın milli-fəlsəfi fikrinə mollanəsrəddinçilərin ideyalarının böyük təsiri vardır.Onların ictimai-siyasi görüşləri, sosial-fəlsəfi ideyaları və nəzəri-estetik fikirləri milli dövlət müstəqilliyimizin bərpası zamanı Azərbaycan fəlsəfəsinin inkişafında böyük əhəmiyyət kəsb etmişdir. Ulu Öndər Heydər Əliyev Cəlil Məmmədquluzadənin böyüklüyündən, onun rus dilini mükəmməl bildiyindən, Avropa mədəniyyətini çox dərindən öyrəndiyindən, ümumbəşəri dəyərləri dərk edib, onları öz milliliyi ilə, öz ana dili ilə, öz milli kökləri ilə birləşdirdiyindən bəhs edərək demişdir: O, “Molla Nəsrəddin” kimi dahiyanə bir məktəb yaradıbdır və bizə böyük mənəvi irs qoyub gedibdir. Mirzə Cəlilin bu xidmətləri bizim üçün, dediyim kimi, bu gün də çox qiymətlidir. Biz bundan çox güclü istifadə etməliyik” (**16, səh. 183).** Ulu Öndərin bu dəyərli sözləri olduqca aktualdır. Çünki Azərbaycan xalqının tarixən təşəkkül tapmış mənəvi-əxlaqi keyfiyyətlərindən və adət-ənənələrindən biri cəmiyyət həyatında və milli mentalitetdə bərqərar olmuş tolerantlıq, milli və dini dözümlülük mollanəsrəddinçilərin fəaliyyət və yaradıcılıqlarında əsas yer tutmuş və bu gün əhəmiyyət kəsb edir .

Beləliklə, mollanəsrəddinçilərin elmi dünyagörüşünün formalaşmasına Tiflis,Təbriz, Bakı mühiti,sovet mühiti, eləcə də Qərbi Avropa, Rusiya və milli maarifçilik ideyaları təsir etmişdir **(23, səh. 60).** Mollanəsrəddinçilər nəsli Cənubi Azərbaycandakı yaradıcı qüvvələrin hesabına genişlənmişdir.Sovet dövründə belə mollanəsrəddinçilərə yeni gənc qüvvələr, ədəbi nəsil qoşulmuş, onlar sosialist ideologiyasından çox milli məfkurə

uğrunda, “dilin saflığı, ana dilin və ədəbiyyatın müstəqilliyi, millətin siyasi istiqlalı” uğrunda mübarizə aparmışlar.

Azərbaycan fəlsəfəsinin romantizm mərhələsi özünəxas olan keyfiyyətləri ilə fərqlənir. Romantizm çoxşaxəli bir cərəyan olaraq ictimai inkişafın müəyyən mərhələsində qanunauyğun surətdə yaranmışdır. Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi təşəkkül tapmış Romantizm cərəyanı XVIII əsrin sonu XX əsrin əvvəlləri qlobal-mədəni məkanda universal fenomen kimi dünya, o cümlədən, Azərbaycanın sosial, fəlsəfi və ədəbi-bədii fikrində özünəməxsus yer tutmuşdur.

Universal sosiomədəni cərəyan olan Romantizm, Azərbaycan filosofu Afaq Məmmədova yazır, mövcud olduğu tarixi dövrdə cəmiyyətin mənəvi həyatının bir çox sahələrinə sirayət etmişdi. O, aləmin bədii-obrazlı, rasional və irrasional mənimsənil-məsinin bütün sahələri ilə – fəlsəfi, təbii, elmi, sosial, siyasi, estetik, etik və s. – birbaşa bağlı olmuş, mövcud olduğu tarixi dövrün və sosial məkanın mənəvi mədəniyyətinin bütün sferalarına nüfuz etmişdir **(15, səh. 57).**

Romantizm dövründə sosiomədəni həyatın müxtəlif sahələrinə fərqli və özünəməxsus yanaşmalar, fəlsəfi problemləri tədqiq üsulları və yeni meyarlar sonralar tədqiqatçılar tərəfindən inkişaf etdirilmiş və müasir dövrə qədər elmi-nəzəri fikirdə aktuallığını saxlayan metodoloji istiqamətlərə çevrilmişdir.

Romantizm fəlsəfəsində gerçəkliyin hadisə və predmetləri vahid universumun çoxcəhətli təzahürü kimi tədqiq olunur, ontoloji və qnoseoloji məsələlər ümumivəhdət konteksində araşdırılır. Romantik filosoflar varlıq və idrakın vəhdətini və eyniyyətini qəbul edərək fəlsəfi problemlərin dərk olunmasını məhz bu kontekstdə əsaslandırmağa cəhd edirdilər. Sonralar postqeyri - klassik fəlsəfədə şüur və varlıq “dilemması” problemindən imtina edilməsi məhz Romantizm fəlsəfəsi ənənəsindən qaynaqlanmışdır.

Romantizm fəlsəfəsində mif, din, dil, bədii ədəbiyyat, musiqi, rəsm əsərləri və bu qəbildən olan mənəvi həyat fenomenləri tədqiqat obyekti olmaqla yanaşı, həm də romantik təfəkkürün əsaslandığı başlıca idraki vastələr rolunda çıxış edir **(18, səh. 29).**

Romantizm nümayəndələrinin fəlsəfənin klassik problematikası və predmetinə qeyri-ənənəvi yanaşması mifologiya, mistika və panteizmın dirçəlməsinə səbəb olmuş, fəlsəfi fikir tarixində ezoterizm və irrasionalizm meyillərini daha da dərinləşdirmişdir (**15, səh. 129).**

Fəlsəfi Romantizmdə etiqad fəlsəfi təfəkkürün predmeti kimi çıxış edir, Allah teologiyanın deyil, teosofiyanın obyekti kimi səciyyələndirilir. Dində sxolostik ehkam-lardan daha çox, mistika və xürafata üstünlük verən romantiklər Tanrını sadəcə etiqad obyekti kimi deyil, möhtəşəm gözəlliyin, təbii harmoniyanın yaradıcısı kimi pərəstişə layiq olduğunu əsaslandrmağa səy göstəririrdilər.

Qeyd etmək lazımdır ki, Romantizm fəlsəfəsinin tədqiqində ən çox çətinlik yaradan onun fəlsəfi və poetik idrak vasitələrindən çulğalaşmış səviyyədə istifadə olunmasıdır. Poetik təsvir və təfsir üsulu irəli sürülən bir sıra ideyaların birmənalı və düzgün şərhini çətinləşdirir. Bununla bağlı, bütün romantik müəlliflərin əsərlərində eyni məsələlərə dair fərqli, bir çox hallarda isə ziddiyyətli fikirlərə təsadüf edilir **(18, səh. 173).** Məhz bu nöqteyi-nəzərdən romantiklərin yaradıcılığına vahid konseptual şəkildə yox, plüralizm prinsipi zəminində yanaşmaq zəruridir.

Romantizm cərəyanı mövcud olduğu ölkələrin - Amerika, Avropa, Yaxın, Orta və Uzaq Şərqin ictimai-mədəni həyatında milli intibahın ayrılmaz tərkib hissəsinə çevrilərək ideoloji və siyasi həyata nüfuz etmiş, mənsub olduğu millətin mənəvi mədəniyyəti zəmini üzərində inkşaf etmiş, təmsil etdiyi ölkənin mövcud gerçəkliyinin doğurduğu problemlərə özünəməxsus, fəal emosional münasibəti ilə seçilmiş, görkəmli nümayəndələrinin sima-

sında siyasi həyata siraiyət etmiş, ideoloji kontekstdə təsir göstərməyə nail olmuşdur.

Bütün Şərq ölkələrində, o cümlədən, Azərbaycanda Romantizmin sosiomədəni hərəkat kimi formalaşmasını obyektiv xarakterli amillər şərtləndirmişdir. Bu proses müstəmləkəçilik siyasətinə, xalqın tarixi yaddaşına və milli mənlik şüuruna, dininə, dilinə, milli mənsubiyyətinə qarşı yönəlmiş şovinizm siyasətinə etiraz kimi xalqın oyanması, öz varlığı və mənliyi uğrunda mübarizə əzmi, həmin mübarizədə aparıcı qüvvə kimi tarixi şəxsiyyətlərin yetişdirilməsi zərurəti ilə bağlı olmuşdır. Şərq və o cümlədən, Azərbaycan Romantizmin bütün nümayəndələrinin yaradıcılıqlarının ana xəttini məhz belə məqamlar təşkil etmişdir. Mistik, dini və milli-mühafizəkarlıq ideyaları isə həmin prosesin reallaşmasına xidmət edən mənəvi amillər kimi çıxış etmişdir**(15, səh. 168).**

Bununla yanaşı, Şərq Romantizmində universal din arzuları milli və dini təəsübkeşlik hisslərindən təcrid olunmuş halda ifadə edilsə də din milli istiqlal mücadiləsinin hərəkətverici qüvvələrindən biri kimi dəyərləndirilmiş, yadelli işğalçılara qarşı milli və ictimai birliyi şərtdləndirən başlıca mənəvi amil kimi səciyyələndirilmişdir **(19, səh. 108).** Şərq və o cümlədən Azərbaycan Romantizmində əsas etibarilə Qərb mədəniyyəti milli ictimai tərəqqinin meyarı kimi təqdir olunmuş, ona rasional konsentrativ münasibət ifadə edilmişdir.

Ədəbiyyatşünaslıqda romantizm cərəyanının «erkən», «yetkin» və «ən son» nümayəndələri, bu hərəkatın «çiçəklənmə» və «tənəzzül» dövrləri, «ilkin» və «sonrakı» formaları müxtəlif nöqteyi-nəzərlərdən təsnif edilir. Bu zaman universal cərəyan olan romantizmin mərhələləri, inkişaf təmayülləri, romantiklərin fəlsəfi dünyagörüşü və hərəkatda rolu barədə tədqiqatçıların mövcud məsələyə münasibəti və fikirlərində kəskin fərqlər nəzərə çarpır. Qeyd etmək lazımdır ki, tədqiqatçıların Romantizmin təkamül istiqamətləri və «növlərinə» dair araşdırmalarında həmfikir olduğu məqamlara və elmi qənaətlərin kəsişməsinə az təsadüf edilir. Romantizmin tədqiqindəki bu çətinliklər subyektiv amillərlə yanaşı, başlıca olaraq obyektiv səbəblərin məcmusu ilə şərtlənmişdir (**15, səh. 174).**

Azərbaycan ədəbiyyatşünaslığında Romantizm ədəbi cərəyan və metod kimi şərh edilmiş və onun əsas etibarilə, mürtəce və mütərəqqi növləri fərqləndirilərək qarşı-qarşıya qoyulmuşdur. Romantizmin «mürtəce» növünə Əli bəy Hüseynzadə (1864-1940), Əlipaşa Hüseynzadə Səbur (1885-1938), Ağadadaş Muniri (1863-1940), Əliabbas Müznib (Əhmədov Əliabbas Mütəllib oğlu, 1883-1938), Səməd Mənsur (1879-1927) və bütün füyuzatçılar şamil edilmişdir. Azərbaycan ədəbiyyatında tənqid hədəfi olan «mürtəce» cəhətlərə teoloji prinsiplərin nəzmə çəkilməsi, bədii yaradıcılığa mistik mahiyyətin müncər olunması, tarixi keçmişin idealizəsi, idealizmə meyl və s. aiddir (**19, səh. 126).**

Görkəmli ədəbiyyatşünas alim M.Cəfər «Azərbaycan ədəbiyyatında romantizm» (1966) adlı monoqrafiyasında Romantizm cərəyanının «mütərəqqi» cəhətlərini realizm prinsipləri meyarından çıxış edərək qiymətləndirmişdir. Müəllifin fikrincə, «romantiklər realistlərdən fərqli olaraq, sənəti, ədəbiyyatı, bədii təfəkkürü birinci növbədə canlı, real həyatla deyil, ideyalar, «işıqlı» fikirlərlə əlaqələndirirdilər. Onlar ədəbiyyatın mənbəyini də, predmetini də birinci növbədə bəşəriyyətin xeyirxahları saydıqları əməlpərvər filosofların, dahilərin, kəskin qələmə malik olan mütəfəkkir yazıçıların düşünüb irəli sürdüyü «parlaq fikirlərdən» (Hadi), ümumbəşəri ideyalardan ibarət hesab edirdilər» Romantizmin realizmlə müqayisədə zəifliyinin xəyalpərvər olması ilə izah edən tədqiqatçı «mütərəqqi» və «mürtəce» romantikləri yenilikçi, inqilabçı və mühafizəkar olmaları ilə fərqləndirirdi **(19, səh. 187).**

Qeyd etmək lazımdır ki, Romantizm cərəyanı sovet məkanında olduğu kimi Azərbaycanda da əsasən ədəbiyyatşünaslığın tədqiqat sferasında olmuş, filosofların nəzərini az cəlb etmişdir. Elmi-fəlsəfi ədəbiyyatda ilk dəfə Z.Quluzadə Romantizmi sosio-

mədəni universal cərəyan kimi səciyyələndirmiş və problemin bu səpkidə tədqiqinin aktuallığını əsaslandırmışdır. Müəllifin fikrincə, Azərbaycanda Romantizm fəlsəfəsi «…dövrdən və şəraitdən doğan özünəməxsusluqlarla yanaşı, Qərb romantizm fəlsəfəsi ilə tipoloji oxşarlığa malik bir sıra cəhətlərlə səciyyələnirdi. Qərb, Şərq o cümlədən, Azərbaycan romantizminə xas olan cəhətlər maarifçilik fəlsəfəsinə inamın itirilməsi, ənənəvi mistik panteist fəlsəfəyə qayıdış və bu mövqedən dinə və cəmiyyətə nəzər, dünyaya, insana və vətənə təzadlı münasibət, milli dilə, milli mənəvi-mədəni dəyərlərə, etnikliyi təsdiqləyən, onun yaşamasını şərtləndirən amillərə münasibət, xoşbəxt utopik cəmiyyətə inam və s. universal sosio-mədəni fenomen olan romantizmin keyfiyyət cəhətləri idi». Lakin, bununla belə təəssüflə qeyd etmək lazımdır ki, ayrı-ayrı Azərbaycan romantiklərinin fəlsəfi irsi tədqiqat obyekti olsa da, bütövlükdə Romantizm fəlsəfi fikir tarixinin qanunauyğun və zəruri mərhələsi kimi Azərbaycan filosoflarının diqqətini az cəlb etmişdir **(17, səh. 197).**

Romantizm fəlsəfəsi siyasi fikir tarixinin inkişafında mühüm rol oynamışdır. Romantik politoloqlar belə hesab edirdilər ki, dövlət ailə, qəbilə və tayfaya keçid yolu ilə təbiətdən ayrılmışdır. Cəmiyyət fərdlərin sadə məcmusu deyil, bütöv bir orqanizmdir.

Azərbaycanda Romantizm cərəyanı nümayəndələrinin irsi, fəlsəfi problemlərin əhatəliliyi və genişliyi ilə fərqlənir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla bəy Divanbəyoğlu və digərləri toxunduqları fəlsəfi problemləri bədii-romantik təhlil yolu ilə araşdırırlar. Aləmin bədii-obrazlı mənimsənilməsinə üstünlük verən Azərbaycan romantikləri, fəlsəfi problemləri bədii yaradıcılıqda və poeziyada tədqiq etməyə cəhd edərək, kainat sirlərini dərk etməyə, aləmin yaranmasında və inkişaf qanunauyğunluqlarındakı hikməti anlamağa çalışırdılar (**15, səh. 246).**

Azərbaycanda fəlsəfi Romantizmin nümayəndəsi Hüseyn Cavid fəlsəfi təfəkkürü düşündürücü şübhə ilə əlaqələndirirdi. O, belə hesab edirdi ki, fəlsəfi təfəkkür «niyə» sualından, şübhədən başlayır. Cavidə görə şübhə həqiqətin dərkinin ilkin mərhələsi və yəqinliyə nail olmanın başlanğıcıdır. Hikmət əhli, filosoflar şübhə edərək tədqiqata başlayır və «mərifət - nuruna» nail olurlar.

Azərbaycan romantiklərinin əksəriyyəti üçün şübhə idraki vasitə kimi çıxış edir. Şübhə gerçəkliyin şey və hadisələri haqqındakı biliklərin nisbi həqiqiliyinə və idrakın sonsuzluğuna inamın, daha dərin düşünmənin və nəticə etibarilə, biliyin inkişafının zəruri elementinə çevrilir. Şübhə idrak obyektinin «əsrarəngizliyi» ilə yanaşı, subyektin daxili vəziyyəti ilə də əlaqəlidir. İdrakın subyekti öz maraqları, ehtirasları, xarakter əlamətləri, iradəsi olan canlı şəxsiyyətdir. Biliyin tipi dərk edən subyektin xüsusiyyətləri ilə də bağlıdır. Bu səbəbdən xarakter etibarilə pessimist olan romantikin elmi biliyin mötəbərliyinə inamsızlığı gözləniləndir. Romantik təfəkkürün subyekti xarakter etibarilə, emosional, həssas və «ovqat adamı» olduğu üçün onun hər hansı qənaətə və əqli nəticəyə inamı tam və birmənalı deyildir **(20, səh. 89).**

Azərbaycan romantiklərinə görə, gerçəkliyin hadisə və proseslərində təzahür edən ilkin məna, əsl mahiyyət aşkar olduğu qədər də gizlindir və aldadıcıdır. Bizi əhatə edən dünyada nə qədər təzahür edirsə etsin, ilahi substansiya "madəri-aləm", "validi-həyat" vahid və ilkin başlanğıc kimi yaradılmışların fövqündə dayanır.

Yaradanın yaradanda təcəllisi ideyası Azərbaycan romantiklərinin bir çoxu üçün səciyyəvidir. Bizi əhatə edən gerçəklikdə, hadisə və proseslərin qanunauyğunluğunda ilahi iradənin təzahürünə inam Əli bəy Hüseynzadənin romantik şeirlərində də ifadə olunmuşdur **(20, səh. 156).**

Böyük sirrlərin, ali həqiqətin aləmin bütün sadə və primitiv cismlərində, mövcudatın ən kiçik zərrələrində təzahür olunduğuna dair panteist düşüncələr ifadə edən romantik filosoflar idrakın nuru zülmətdən, mahiyyəti təzahürdən seçə bilməməsinin

səbəbini araşdırır.

Azərbaycan romantiklərində bəzi vaxtlarda təzahür edən skeptisizm idrakın mümkünlüyünü deyil, həqiqətin qeyd-şərtsiz səhihliyini və elmi biliklərin mötəbərliyini şübhə altına alır. Bu vaxt romantik filosof bütövlükdə idrak prosesinin obyektə adekvatlığını inkar edir və gerçəkliyin predmet və hadisələrinin həqiqi mahiyyətinin dərkinin qeyri-mümkünlüyü mühakiməsi irəli sürür **(15, səh. 274).**

Azərbaycan romantikləri təbiət, cəmiyyət və təfəkkürün inkişafının ən ümumi qanunlarının mahiyyətini və mənbəyini dərk etməyə çalışırdılar. Eyniyyət fəlsəfəsindən çıxış edən Romantizmin bir çox nümayəndələri belə nəticəyə gəlirlər ki, ilahi sirr, substansional başlanğıc, mütləq yaradıcı mövcudatın bütün şey və predmetlərində təzahür etsə də, kainat kitabının sirrləri qarşısında bəşəri zəka hələ də acizdir. Böyük sirlərin, ali həqiqətin aləmin bütün sadə və primitiv cismlərində, mövcudatın ən kiçik zərrələrində təzahür etdiyinə aid panteist düşüncələri ilə səciyyələnən filosoflar, idrakın «nuru zülmətdən, mənanı təzahürdən» seçə bilməməsinin səbəbini araşdırmağa cəhd edirdilər. Lakin romantik sənətkarların fəlsəfi axtarışları bir çox hallarda «şanü qüdrətini gördüyümüz validül-qəhhar allahdır» (Hadi) fikrini irəli sürməyə və kainatın sirlərinə «xaliqi aləm»dən başqa heç kəsin baş çıxara bilməyəcəyi kimi nəticələr irəli sürməyə gətirib çıxarır **(20, səh. 137).**

Romantizm fəlsəfəsində həqiqət problemi xüsusi önəm kəsb edir. Romantiklərə görə, həqiqət məsələsi gerçəklik haqqındakı biliklərin həqiqiliyindən daha genişdir. Çünki romantikləri reallığın bilikdə adekvat və səhih inikası məsələsi deyil, həqiqi gözəlliyin sirri və mütləq həqiqət axtarışı narahat edir. Lirik qəhrəmanın mənimsədiyi obyektlər hadisələrin zahiri cəhətlərindən ibarətdir. Həqiqət isə həmin hadisələrin görünən tərəflərində deyil, onların dərinliklərində gizlənir. Romantikləri mövcud elmi biliklərdə irəli sürülən müxtəlif fərziyyə və ehtimallar qane etmir **(15, səh. 293).**

Beləliklə, Azərbaycan romantiklərinin yaradıcılığı fəlsəfi mühakimələrin dərinliyi ilə diqqəti cəlb edir. Onların varlıq, idrak, şəxsiyyət, tanrı haqqındakı fikir və mülahizələri romantik-fəlsəfi mahiyyət kəsb edir. Azərbaycan romantiklərinin varlığa dair fəlsəfi ideyalarında panteizm ideyası xüsusilik təşkil edir. Lakin əksər hallarda panteizm ideyası teizmə doğru istiqamətlənir. Universal inkişaf, qarşılıqlı əlaqə və təsirə dair mülahizələrdə isə bəzən materialist mühakimələr nəzərə çarpır.

Azərbaycanda romantizm cərəyanı nümayəndələrinin qnoseoloji fikirlərində irrasionalizmə və ezoterizmə meyil üstünlük təşkil etsə də, rasional elmi biliklərin təbliği də mühüm yer tutur. Bir cəhəti qeyd etməliyik ki, bütövlükdə, Şərqdə olduğu kimi Azərbaycan Romantizmində də maarifçilik elementləri Qərbə nisbətən özünü daha çox təzahür etdirir. İrrasional idrak vasitələrini ön plana çəksələr də, Şərq və o cümlədən, Azərbaycan romantikləri sosial utopiyaya əsaslanan cəmiyyətin təşkilində və belə cəmiyyətin yaranmasında rol oynayan mükəmməl şəxsiyyət tipinin yaradılmasında intellektual biliklərə, elmi-məntiqi təfəkkürə böyük əhəmiyyət verirdilər.

### Müasir dövrdə milli fəlsəfədə yeni ideyaların yayılması

İnsan, onun varlığı, mənşəyi, həyatının mənası, ölümü və ölməzliyi ilə bağlı məsələlər də filosoflarımızı maraqlandırır və bu barədə orijinal fikirlər irəli sürür. Hazırda insan probleminə çoxalmaqda olan diqqəti filosoflar aşağıdakı səbəblərlə əlaqələndirir. Hər şeydən əvvəl müasir ictimai inkişafda insanın rolu durmadan artır. O, sosial proseslərə və bütövlükdə dünyanın gedişatına güclü təsir göstərir. Digər tərəfdən müasir eimi-texniki tərəqqinin törətdiyi nəticələr baxımından insan ilə texnika arasındakı münasibətlərə yeni tərzdə yanaşmaq tələb olunur. Nəhayət, indi bəşəriyyətin rastlaşdığı qlobal problemlər insanın varlığını təhlükə altına alır.

Deməli onların həlli də insan ilə sıx bağlıdır.

Fəlsəfə, filosofların fikrincə, insanı öyrənən konkret elmlərdən (iqtisadi nəzəriyyə, sosiologiya, psixologiya, təbabət, biologiya və s.) fərqli olaraq ona bütöv bir tam kimi yanaşır. Müasir dövrdə insanı öyrənən bu xüsusi elmlər böyük nailiyyətlər əldə etmişlər. Lakin onlar öz predmetlərinə uyğun olaraq insanın bu və ya digər səpkisinə diqqət yetirirlər. Buna görə də həmin məlumatlar əksərən birtərəfli xarakter daşıyır. Odur ki, insanı kompleks və hərtərəfli öyrənməyə tələbat və ehtiyac yaranır. Bu vəzifə isə fəlsəfənin öhdəsinə düşür. O, ümumnəzəri və dünyagörüşü elmi olmaq etibarilə insan haqqındaki konkret elmləri bir növ inteqrasiya edir. Fəlsəfə insanı kompleks və hərtərəfli təhlil edir. Beləliklə də, insanı öyrənən konkret elmlərin dar çərçivəsini, məhdudluqlarını aradan qaldırmağa imkan verir.

İnsan nədir sualına cavab verərkən filosoflarımız bildirir ki, insan ən mürəkkəb və sirli obyektlərdəndir. Onun mahiyyətinin izahında hələ də bir çox məsələlər aşkar olunmamış qalır. İnsanın mahiyyəti kainat qədər sirlidir. Bu mənada onun öyrənilməsini bitmiş hesab etmək olmaz. Elm onun dərinliklərinə nüfuz etdikcə açılmamış qatların çox olduğu daha aydın görünür **(5).** Odur ki, insanı tam öyrənmək üçün bir ömür kifayət deyildir.

Modernləşməyə münasibət bildirən filosoflarımızın fikrincə, modernləşmə sistemli şəkildə ictimai həyatın bütün sahələrində baş verən mürəkkəb və uzunmüddətli sosial dəyişikliklər prosesidir. O, cəmiyyətdə siyasi, iqtisadi, sosiomədəni, sosial-psixoloji, ailə-məişət sahələri ilə yanaşı, dünyagörüşü və ictimai şüurda baş verən mühüm dəyişiklikləri əhatə edir. Əslində, modernləşmə müasir dövrün hadisəsi deyil, o bəşəriyyətin inkişafının bütün dövrlərində bu və ya digər şəkildə təzahür etmişdir. Yəni modernləşmə paradiqması nəzəri cəhətdən yeni ideyalarla, nəzəri-metodoloji yanaşmalarla zənginləşərək inkişaf edir. Bütövlükdə, modernləşmə nəzəriyyəsi hər bir konkret ölkənin daxili inkişaf amillərinin nəzərə alınmasına, dövlətin inkişafını təmin edən sosial dəyişikliklərin və təkamül prosesinin müəyyənləşməsinə yönəlməlidir. Bu sahənin tədqiqatçıları modernləşmə proseslərində siyasi, iqtisadi elitanın rolunun danılmaz olduğu iddialarına xüsusi diqqət yetirirlər. Yəni Hantinqtondan başlayaraq, bu sahəyə aid fikir sahibləri modernləşmənin "aşağıdan" həyata keçirilməsini mümkün saymırlar. Modernləşmənin, yeniləşmənin, bütövlükdə, inkişafın əldə edilməsi üçün siyasi elita öz ölkəsinin iqtisadi, siyasi, mədəni xüsusiyyətlərini dərindən bilməlidir, ən əsası isə, bunları nəzərə almaqla dəyişikliklərin həyata keçirilməsini reallaşdırmağa çəhd etməlidir **(6).**

İndustrial, postindustrial və informasion cəmiyyət, vətəndaş cəmiyyəti və hüquqi dövlət konsepsiyalarını, etik problemləri ətrafı təhlil edərək maraqlı fəlsəfi fikirlər irəli sürən Azərbaycan filosofu İlham Məmmədzadə qloballaşma barəsində də maraqlı fikirlər irəli sürür: "Qloballaşma milli dövlətlərə meydan oxuyur. Dünya iqtisadiyyatının və maliyyəsinin inteqrasiyası milli dövlətlərin qəbul etdiyi qərarların əhəmiyyətini azaldır. Əgər əvvəllər dövlət sərhədləri hakimiyyətin siyasi və iqtisadi səlahiyyəti daxilində idisə, indi dövlət getdikcə daha çox ümumdünya iqtisadiyyatına cəlb edilir, dünya miqyaslı iqtisadi prosesdən asılı vəziyyətə düşür. Transmilli korporasiyaların (TMK) iqtisadi qüdrəti suveren dövlətlərin çoxunun ümumi daxili məhsulu ilə müqayisə edilir. Hər hansı bir ölkənin nəzarətindən kənarda olan beynəlxalq maliyyət sistemi öz şərtlərini irəli sürür. Beynəlxalq münasibətlərin transmilliləşməsi nəticəsində iqtisadi həyat fəal şəkildə ayrı-ayrı dövlətlərin sərhəddindən kənara çıxır. Tənzimlənməsində hər bir dövlətin maraqlı olduğu təsərrüfat məkanı dövlətlərin öz qanuni ərazilərinə uyğun gəlmir. Dünyanın siyasi və iqtisadi xəritələri çox hallarda bir-birinə uyğun gəlmir, milli suverenlik isə getdikcə əvvəlki məzmununu itirir.

Ərazi üzərində nəzarətin qismən itirilməsi və bununla əlaqədar milli dövlət funksiyalarının həmin dövlətin fövqündə duran beynəlxalq qurumlara və onların arxasında duran qüvvələrə keçməsi vətəndaş cəmiyyətinin bütün təşkilat sistemini prinsipcə kökündən dəyişir. Dövlət aparatı ictimai həyat qaydaları və normalarını işləyib hazırlamaq sahəsində nəzarəti qismən itirir, beynəlxalq hüquq normaları aparıcı rol oynamağa başlayır. Qlobal qaydaların formalaşdığı bir şəraitdə milli dövlətçilik ikiqat təzyiqə məruz qalır – yuxarıdan beynəlxalq və fövqəltəşkilatlar, aşağıdan lokal bölgə strukturları. İndiki vaxtda siyasi dünya milli mədəniyyətlər çərçivəsindən kənara çıxsa da, çox hallarda vahid siyasi məkana çevrilsə də, sosial-mədəni fərqlər hələ də qalmaqdadır və vahid informasiya meydanında bir-biri ilə toqquşurlar. Böyük dünya dinləri nəhəng regionları əvvəlki kimi birləşdirir, hərəsi özünün xristian, müsəlman, hind-buddist, konfutsi-buddist dünyasını yaradır. Sosial-mədəni və dini fərqlər çox vaxt siyasi dialoqa mane olur, siyasi münaqişələrdə bayraq kimi istifadə olunur.

Yuxarıda deyilənlər zamanın reallığı olsa da, qloballaşma prosesi milli dövlətlərin ənənəvi funksiyalarının keyfiyyətcə dəyişməsinə və məhdudlaşmasına, beynəlxalq və transmilli təşkilatların isə daha da güclənməsinə gətirib çıxarır. Bu prosesdə müasir informasiya texnologiyasının rolu həlledicidir **(8, səh. 13).**

XX əsrin ikinci yarısından qloballaşma proseslərinin genişlənməsi, informasiya texnologiyalarının, kütləvi kommunikasiya vasitələrinin inkişafi, habelə elmi tədqiqatlarda yeni metodoloji yanaşmaların – sinergetika, diskurs və s. kimi yanaşmaların yayılması ilə fəlsəfi-intellektual məkanda yeni təfəkkür tipi qərarlaşmağa başladı. Elmi rasionallığın tipi filosofun fəaliyyətini daha geniş rakursda götürərək obyekt haqqında biliklərimizin təkcə tədqiqat vasitələrindən və əməliyyatlardan deyil, alimin həm elmdaxili, həm də sosial oriyentasiyasından da asılı olduğunu vurğulayır.

Klassik elmin cəmiyyətə verdiyi töhfələrin yeri nə qədər böyükdürsə də, postneoklassik ideya və fikirlərin meydana gəlməsi və cəmiyyətin xidmətinə verilməsi böyük aktuallıq kəsb edən mühüm məsələdir. Çünki postneoklassik elm klassik elmdən qidalanaraq yeniliyi təbliğ edir, bunun həticəsində bir sıra köhnəlmiş ideya və fikirlər tarixin arxivinə verilir. Bunun üçün, yəni postneoklassikanın tam inkişafı və cəmiyyətdə öz yerini tapması, yeni-yeni fikirlərlə cilalanması üçün müəyyən zaman lazımdır.

Bu gün postneoklassik elmin problemlərinə həsr olunmuş çoxlu sayda əsərlər işıq üzü görməkdədir. Postneoklassik elmin xüsusiyyətlərinə bu sahənin tanınmış mütəxəssisi Azərbaycan filosofu Ə.S.Abasov aşağıdakıları aid edir: a) təbiətin mexanizm yox, bütöv bir orqanizm kimi qavranılması, - bu, biosfer, ekosistem (ekologiya) kimi anlayışlarda öz əksini tapır; b) elmi və texnoloji mənimsənin obyektinə mürəkkəb, özinkişafda olan sistemlərin daxil olması və bunun nəticəsi olaraq qeyri-zorakılıq hərəkət strategiyalarının aktuallaşması; d) həqiqət və mənəviyyatın bir-biri ilə ayrılmaz bağlılığı ideyasının irəli sürülməsi. Ə.S.Abasov bildirir ki, rasionallığın postneoklassik tipinin meydana gəlməsi, təbii ki, fəlsəfi təfəkkür tərzinə yenidən baxılması məsələsini də aktuallaşdırdı. Bu, fəlsəfi diskussiyaların əsas mövzularından birinə çevrildi, bu diskussiyalardan elmi zəkanın əxlaqla birləşdirilməsinin mümkünlüyü, elmi-texniki tərəqqinin humanistləşdirilməsi, dünyanın yeni, qeyri-xətti mənzərəsinin olması haqqında fəlsəfi-dünyagörüşü nəticələr əldə edildi. Artıq danılmaz fakt olmuşdur ki, xətti modellərə arxalanmaqla müasirliyin bir çox problemlərini həll etmək mümkün deyil. Sosial və iqtisadi elmlərdə, siyasətdə və humanitar elmlərdə çalışan mütəxəssislər dərk edirlər ki, bəşəriyyətin əsas problemləri də qloballığı, mürəkkəbliyi, qeyri-xəttiliyi ilə seçilir. O, verballığın 3 növünü ayırd edir: 1. Monoloq - başqasının fikrini nəzərə almamaq. 2. Dialoq - müsahibin dünyagörüşünü və ideyalarını qəbul etmək. 3. Poliloq - müzakirədəki iştirakçıların dünyagörüş və ideya-

larının çox obrazlılığına diqqət yetirərək qəbul etmək. Həmin növlərə uyğun olaraq Ə.S.Abasov aşağıdakı təsnifatı əsaslandırır: 1. Monoloq - klassik fəlsəfə və elm. 2. Dialoq - qeyri-klassik fəlsəfə və elm. 3. Poliloq – postneoklassik fəlsəfə və elm **(9, səh. 50).**

Buna görə də Ə.Abasov postneoklassik fəlsəfəni Azərbaycan filosofları üçün *terra incognito* adlandırmagın düzgün olmadığını və onların bəzilərinin idrakın bu istiqamətində uğurlu tədqiqatlar apardığını yazır. Bununla bərabər filosof qeyd edir ki, bu tədqiqatların hamısı nəzəri xarakter daşımır və fəlsəfənin, elmin, Azərbaycan cəmiyyətinin praktik reallıqları ilə uzlaşmır **(10, səh. 15).**

Görkəmli Azərbaycan filosofu Ə.Abbasovun sistem yanasma, sistemlilik və butövlük problemi, mürəkkəb sistemlər nəzəriyyəsi, mürəkkəblik fəlsəfəsi, sinergetika, optimum fəlsəfəsi, idarəetmənin sinergetik fəlsəfəsi, tənqidi sinergetik təfəkkür və açıq cəmiyyət konsepsiyaları, postneoklassik epistemologiya, milli maraqlar və milli ideologiya, azərbaycançılıq ideyası, insan haqları və ictimai rəy, intellektual resursların idarə olunması və insan kapitalı, yeniləşən cəmiyyətdə iqtisadi, siyasi və sosial institutların transformasiyası, ictimai meqatrend problemi, geosiyasi fəlsəfə və dünya nizamı problemləri, bəşəriyyətin inkisaf nəzəriyyəsi üzrə tədqiqatlar onun yaradıcılığının əsas istiqamətləridir. Onun orijinal yaradıcılığı qnoseoloji və məntiqi zəminlərin, metodoloji yanasmaların, akseoloji məqamların dürüstlüyü, tamlığı və evristliyi ilə fərqlənir. Bu, filosofun böyük məsuliyyətinin, vətənpərvərliyinin, xalqına və bəşəriyyətə sonsuz məhəbbətinin, haqqa və ədalətə vurğunlugunun məhsuludur. Professor "Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti"adlı məqaləsində "millət", "milli ideya", "milli ideologiya", "milli maraqlar" kimi cəmiyyətin və dövlətin taleyində fundamental əhəmiyyətə malik olan fenomenlər haqında yazır: " **...** ortada yekdil qəbul edilmiş, qərarlaşmış fikir yoxdur. Nəzəri pərəkəndəlik, ümumi bir məxrəc üzərində vahidliyi təmin etməyən fikir müxtəlifliyi isə, bütün hallarda, praktiki işlərin gedişinə, ictimai proseslərin cərəyanına mənfi təsir göstərməyə bilməz. Bugünün özündə də bir çoxları belə vəziyyəti, əfsuslar ki, demokratiyanın təzahürü, hətta təntənəsi hesab edirlər. Unudurlar ki, millətin və dövlətin müqəddaratına xidmət etməli olan fundamental kateqoriyalar hansısa dəbə (qlobal olsa da belə!) qurban verilməməlidir. Ümumiyyətlə, həqiqi demokratiyaya xidmət dəbə qulluqla bir araya sığmır. Demokratiyaya, xalqın, millətin və şəxsiyyətin suverenliyinə aparan yol ağıldan, təfəkkürdən keçir. Hələ vaxtilə Akvinalı Foma deyirdi: "Hər bir azadlığın kökü zəkadadır". Beləliklə, məntiqi olaraq, deyə bilərik ki, mühüm kateqoriyalara yetirilən ziyanlar bilavasitə dəbin özündə və ona qulluqda (köləlikdə) deyil, problem təfəkkürdə, əqli durumda yuva salmış xəta və nöqsanlardadır. O cümlədən – barəsində söhbət gedən kateqoriya-fenomenlərə koqnitiv fəzada yararlı, yəni tarixi situasiyaya və sosial zamana, elmi tələb və meyarlara, reallıq və məntiq dəqiqliyinə cavab verən qnoseoloji zəminlərin və metodoloji yanaşmaların yoxluğunda, yaxud da gücsüzlüyündədir. Bütövlükdə, özündə, zəruri olaraq, aksioloji məqamları da ehtiva edən epistemoloji sistemin olmaması və yaxud yararsızlığı nəinki ictimai inkişaf və sosial rekonstruksiya üçün əhəmiyyətli olan bugünkü problemlərin həllini qəlizləşdirir, həm də keçmişi dəyərləndirməkdə və gələcəyi müəyyənləşdirməkdə maneə törədir, səhflərə yol açır.

Ola bilsin ki, bir çox bioloji, fiziki, kimyavi, riyazi və sair obyekt-fenomenləri təhlil edib öyrənmək üçün başqaları tərəfindən ortaya qoyulmuş və bir növ ümumi sərvətə çevrilmiş məhsuldan, yəni epistemoloji bazadan qədərincə bəhrələnmək olar (bunu tarixi praktikanın özü də təsdiqləyir!), lakin, fikrimcə, milli səciyyə daşıyan, daha dəqiq desək, milli mahiyyəti ifadə edən və bilavasitə bu mahiyyətin xidmətində dayanan fenomenlərin tədqiqində "öz epistemologiyamız" olmalıdır, başqalarından, "ümumi"dən bəhrələnmək yalnIz məhdudi çərçivədə ola bilər. Əlbəttə ki, belə epistemoloji arsenalın yaradılmasında

dünyada mövcud olan həm nəzəri, həm də praktiki-təcrübi sərvətdən istifadə vacibdir. Burada özünə qapılma əvvəlcədən nəyisə yaratmaq prosesinə son qoymaq deməkdir. Yaradıcılıq aktı, kreativlik yalnız ətrafa, mühitə açıqlıq vəziyyətində mümkündür. Ümumiyyətlə, əqli və əməli fəaliyyətin dinamik açıq sistem məzmun-mahiyyətində qurulması etibarlı inkişaf və tərəqqinin şərtidir.

Bu məntiqin davamı olaraq deyə bilərik: milli məzmun-mahiyyətli fenomenlərlə bağlı vəzifə və prioritetlər bizim araşdırmaların qabaqçıl elmin müasir epistemologiya sahəsində əldə etdiyi səviyyəyə müvafiqliyi kontekstindən qavranılmalı və reallaşdırılmalıdır. Yuxarıda zərurətini göstərdiyim “öz epistemologiyamız”ın yaradılması prosesi də yalnız bu zirvəyə yaxınlığı, doğmalığı şərtilə məhsuldar və faydalı ola bilər” **(11, səh. 275-276).**

Azərbaycan filosoflarının təfəkkürünün məhsulu olan sanballı əsərlərdə bir-birindən maraqlı fikir və ideyalar yer alır. Belə ki, təbiətdə və cəmiyyətdə cərəyan edən proseslərin son dərəcə mürəkkəb olduğunu qeyd edən filosoflarımız bildirirlər ki, müasir dövrdə elmlər onların mahiyyətini açmaqda yeni nailiyyətlər əldə etməkdədir. Belə şəraitdə insanların çevik təfəkkürə malik olması həmişəkindən daha zəruridir. Bununla əlaqədar varlığın - təbiət, sosial həyat və insanın daxili dünyası kimi üç əsas sahəsinin sirrlərinin dərindən mənimsənilməsində fəlsəfi dünyagörüşünün rolu durmadan artır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Şükürov A. Fəlsəfə. Bakı, 2011
2. Abbasov Ə.F. Fəlsəfə millətləşmənin və müstəqil dövlətçiliyin zəruri əsaslarındandır//Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. Toplu. Bakı, Elm, 2011, s. 6-7.
3. İmani E.http://sizinyol.com/2017/02/milli-f%C9%zi-qeydl%C9%99rim/
4. www.elmarhussein.az 13.01.19
5. www.redaktor az. 01.05.19
6. Ramazanov F. və b. Fəlsəfənin əsasları. Bakı, 1997
7. Mehtiyev R. Fəlsəfə. Bakı, 2007
8. Rüstəmova A. Azərbaycanda milli ideyanın formalaşmasında maarifçiliyin və modernləşmənin rolu//http://xalqqazeti.com/az/news/politics/87510
9. Hacıyev Z. Fəlsəfə. Bakı, Elm, 2012
10. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı, Təknur, 2013
11. Абасов А.С. Монолог классицизма, диалог неклассизма и полилог постнеклассизма. /Müasir fəlsəfə, elm və mədəniyyət:postqeyri-klassik epistemologiya. Konfrans materialları. Bakı, Təknur, 2011
12. Абасов А.С. Вместо введения /Müasir fəlsəfə, elm və mədəniyyət:postqeyri-klassik epistemologiya. Konfrans materialları. Bakı, Təknur, 2011
13. Abbasov Ə.F. Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti//Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Müasir fəlsəfə problemləri şöbəsi. Respublika konfransının materialları. Bakı, Təknur, 2011, s.275-276
14. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı, Təknur, 2008
15. Məmmədzadə İ. Milli ideyanın yeni dərki. “Respublika” qəzeti, 2 may 2018
16. Ələkbərov F. Azərbaycan Türk fəlsəfəsi. Bakı, 2019
17. Məmmədova A. Fəlsəfi fikir tarixində romantizm mərhələsi (XVIII- XIX əsrlər). Bakı, 2015
18. Hüseynov Y. Mollanəsrəddinçilər. Bakı, 2017
19. Quluzadə Z. Sosiomədəni inkişafın tədqiqinin konseptual problemləri (XX əsrin sonu XXI əsrin əvvəlləri). Bakı, 2014

20. Osmanlı V. Azərbaycan romantikləri. Bakı, Yazıçı, 1985, 224 s.
21. İsmayılov Ə. Dünya Romantizm ənənələri və Hüseyn Cavid. Bakı, Yazıçı, 1983.
22. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, Elm, 1985
23. Cəfərov M.C. C.Məmmədquluzadə. Bakı: Nurlan, 2002, 68 s.
24. Daşdəmirov Ə. Millət və cəmiyyət tarixin sərt dönəmində. Bakı: Elm, 2008, 344 s.
25. Əhmədli R. Azərbaycan milli-demokratik dövlətçilik məfkürəsi: türkçülük, müasirlik, islamçılıq. Bakı: Elm, 2007, 279 s.
26. Əliyeva Z.Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri.Bakı,Səfa,2008,113 s.
27. Əsgərov R. XIX əsr Azərbaycan maarifçiliyi: cəmiyyət və insan. Bakı,Təknur,2008, s.31

**Зейнаддин Шабанов**

## ПРИЗЫВЫ К ИДЕЕ В НАЦИОНАЛЬНОЙ ФИЛОСОФИИ

***Резюме***

В статье рассматриваются направления развития азербайджанской философии, изучается отношение азербайджанских философов к различным философским темам, анализируются идеи национальной философии. Отмечается, что взгляды наших философов на мир, отношение человека к его позиции в мире были разными, выдвигались разные подходы. В своих работах, питающих и обогащающих человеческую философию, наши философы затрагивают вопросы общества-природы, человека-духа, Божественной любви, возникновения мира, новых парадигм, национальной идеи, мультикультурализма и толерантности, системного подхода, теории сложных систем, синергетики, классической, постклассической науки, гражданского общества и правового государственного строительства, национальных интересов и национальной идеологии, идеи азербайджанства, прав человека, религии и культуры, человеческой идеологии, человеческого капитала, выразили глубокое отношение к таким философским вопросам, как модернизация, выдвинули новые идеи, представили бесчисленные произведения.

***Цель*** **-** проанализировать идеи в философии Азербайджана

***Методология*** - индуктивный, дедуктивный и сравнительный подход

***Результат*** - наши философы, обратившись к таким философским вопросам, как общество-природа, новые парадигмы, национальная идея, мультикультурализм и толерантность, системный подход к развитию событий и процессов, теория сложных систем, синергетика, классическая, постклассическая, постнеоклассическая наука, национальные интересы и национальная идеология, идея азербайджанства, модернизация, выдвинули новые идеи

***Ключевые слова:*** национальная философия, философы, природа, общество, идеи, азербайджанство.

**Zeynaddin Shabanov**

## IDEOLOGICAL CHALLENGES IN NATIONAL PHILOSOPHY

***Summary***

The article is present the development trends of Azerbaijani philosophy, studied the attitude to various topics, analysed ideological challenges in national philosophy. It is stated that our philosophers worldwide attitude to a humans position in the world was different, they expressed various approaches. Our philosophers have been deeply involved such philosophical problems from their flowing universal philosophy and enriches it in their works as a society nature, man spirit, divine love, peace-building, new paradiqms, national idea, multiculturalism and tolerance,

systematic approach to the development of phenomena and processes, theory of complex system, synergies, classical, post-classical, post-nonclassical science, civil society issues and legal state organizations, national interests and national ideology, the idea of azerbaijaism, human rights, religion and culture, human capacity, modernization and were put forward new ideas, created a solid heritage.

***Purpose of the research* -** to analyze ideas in the philosophy of Azerbaijan

***Methodology* -** inductive, deductive and comparative approach

***Findings*** - Our philosophers modernize the ideals of society, nature, new paradigms, national ideas, multiculturalism and tolerance, synergetics, classical, postclassical, postneoclassical science, national interests and national ideology. They put forward new ideas by expressing their attitude.

***Keywords:*** national philosophy, philosophers, nature, society, ideas, Azerbaijaism

**Rəyçi: AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri, f.e.d., professor Əli Abasov**

**Qəbul edilib: 14.01.2020**

**UOT 1 (091)**

**Faiq Ələkbərli**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***fəl.f.d., dosent***
faikalekperov@mail.ru

# MİRZƏ ƏLİ MÖCÜZ ŞƏBÜSTƏRİNİN YARADICILIĞINDA İCTİMAİ-SİYASİ VƏ DİNİ-FƏLSƏFİ MƏSƏLƏLƏR

*Məqalədə Mirzə Möcüz Şəbüstərinin yaradıcılığında XIX əsrdən başlayaraq Güney Azərbaycan xalqının yeni bir dövrə qədəm qoyması, Qacarlar dövlətində, Pəhləvilər rejimində qəsb edilmiş azadlıqların yenidən qazanılması kimi siyasi-ideoloji və fəlsəfi məsələlər xüsusi yer tutmuşdur. Eyni zamanda onun dünyagörüşünün əsasını təşkil edən Azərbaycan xalqının milli dəyərlərinin yaşadılması konteksində Azərbaycan türk mədəniyyətinin, Azərbaycan türk fəlsəfəsinin tədqiqi və təbliği işıqlandırılmışdır. Burada göstərilir ki, M.M.Şəbüstərinin ictimai-siyasi və dini-fəlsəfi görüşləri öz dövrünə görə aktuallığı ilə fərqlənmişdir. Şəbüstəri yaradıcılığında ictimai-siyasi və fəlsəfənin problemlərini araşdırmaqla yanaşı, dövrün onun qarşısında qoyduğu çətinlikləri də ifadə etməyə çalışmışdır. Bu mənada, Pəhləvilər rejiminin Azərbaycan mədəniyyəti və fəlsəfəsinə qarşı yürütdüyü «Aryançılıq» ideyasını Şəbüstəri tənqid atəşinə tutmuşdur.*

***Məqsəd*** **-** Mirzə Möcüz Şəbüstərinin timsalında 20-ci əsrin birinci yarısında Azərbaycan türk ictimai-siyasi və dini-fəlsəfi görüşlərini ortaya qoymaq

***Metodologiya*** **-** müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi

***Tədqiqatın nəticələri*** **-** M.M. Şəbüstərinin baxışlarının müasir dövrümüzün ictimai-siyasi tələblərilə uzlaşdırmaq üçün daha praqmatik prinsiplərin işlənib hazırlaması lazımdır.

***Açar sözlər:*** Qacarlar, türkçülük, islamçılıq, müasirləşmək, Azərbaycan mədəniyyəti, Azərbaycan fəlsəfəsi, Aryançılıq

## Giriş

Azərbaycanın Şəbüstər şəhərində dünyaya gəlib, 16 il Türkiyədə-İstanbulda yaşamış Mirzə Möcüz Şəbüstəri (1873-1934) gənc yaşlarından dünyəvi və dini elmlərlə yaxından tanış olmuşdur. Təxminən 1904-1905-ci illərdə İstanbuldan Cənubi Azərbaycana-Şəbüstərə dönən Möcüz Vətənindəki cəhalətə, nadanlığa, milli ruhsuzluğa dözməyərək, bu dövrdən etibarən yalançı ruhanilərə, zülmkar məmurlara və irqçi aryançılara qarşı mübarizə aparmış, öz təbrincə desək, ana dilində milli maarifçi ruhlu “növhəxanlığ”a başlamışdır (1, s.4-5). O,1933-cü ildə Şəbüstərdən Şahrud şəhərinə sürgün edilmiş və bir il sonra da burada vəfat etmişdir. Onun yaradıcılığında ictimai-siyasi və dini fəlsəfi məsələlər mühüm yer tutmuşdur.

Şəbüstərinin ictimai-siyasi görüşlərində türklüyün və azərbaycanlılığın şovinist irançılar tərəfindən aşağılanmasına etiraz edərək yalnız müdafiə olunmaqla kifayətlənməyib, eyni zamanda Azərbaycan türklərinin milli haqlarının bərpasını kəskin bir dillə Qacarlar və Pəhləvilər hakimiyyətlərindən tələb etmişdir. Şübhəsiz, onun Qacarlarla Pəhləvilərdən tələbləri arasında xeyli dərəcə fərq var (2, s.93-105). Çünki onlardan biri, yəni Qacarlar türklüyünü unutdurlub farslaşmağa üz qoyduğu halda (3, s.87-90), Pəhləvilər Türklərin bütün varlığını inkar edərək onu assimilyasiya can atan ifrat irqçi bir rejim idi (4, s.235).

Şəbüstəri hər şeydən əvvəl anlayırdı ki, Qacarlar dövlətini Türk sülaləsi idarə etsə də, faktiki olaraq burada daha çox əzilənlər və cəhalətin qurbanı olanlar da türklərdir. Üstəlik, Qacarlar dövlətinin başında dayananların çoxu türklüyü gerilik, vəhşilik kimi başa düşüb, türk dilində danışmağı belə özlərinə eyib hesab edirlər. O, yazırdı:

Dünən şer ilə bir namə apardım şahi-İranə,
Dedi: “Torki nə midanəm, məra to beççə pəndari?”
Özü Türk oğlu Türk, amma deyir Türki cəhalətdir,
Xudaya, müzməhil qıl təxtidən bu ali-Qacari!
Ümidin kəsmə, Möcüz, yaz anan təlim edən dildə,
Gəzər bir ərmağantək dəftərin, bil, Çinü Tatari!(1, s.44).

Bu cür milli maarifçi ruhlu şeirləri ilə Möcüz Qacarların başında duranlara sərt bir formada türklüklərini xatırladır, onları qəflət yuxusundan oyadaraq türklüyə – türk kimliyinə, türk dilinə, türk mədəniyyətinə arxa çevirməkdənsə, ona dayaq olmağa, ölkəni, o cümlədən hər vaxt Türklüyün məbədgahı olmuş Azərbaycanı bərbad haldan abad hala gətirməyə çağırırdı. O, yazırdı:

O zaman xalq şadiman olacaq
Ki, vətən madəri-zəban olacaq.
Onda tehranlı nagiran olacaq
Əhli-Azərbaycanə, inşallah! (1, s.85)

O, şeirlərində daha çox Məhəmməd Əli şah Qacarla Əhməd şah Qacarı tənqid etmişdir. Məsələn, Şəbüstərinin Məhəmməd Əli şaha olan nifrəti Məşrutiyyəti ləğv edib Məclisi-Millini topa tutdurması idi:

Bağladı Məclisi-Şuranı topa Məmmədəli,
Düşdü öz canına axır şərəri, mən neyləyim! (1, s.49)

Məhəmməd Əli şahın yerinə taxta oturdulan Əhməd şah Qacarı isə o, səriştəsizlikdə, mənasız və düşüncəsiz həyat sürməkdə, Vətən və millət qayğısından uzaq olmaqda ittiham etmişdir. Şəbüstərə görə, Millət qan ağlarkən sultanın ancaq yeməklərdən, musiqidən zövq alması və Avropa mehmanxanalarında kef-damaqla yaşaması qəbuledilməz bir haldır:

Əhli-xibrə qoydular qantarə, şahi çəkdilər,
Əlli batman istixanı gəldi, yüz batman əti...
Millət ağlarkən, o sazü-suz ilə məşğul idi,
Qarnı şişməzdi o qədri gər olaydı qeyrəti.
Qoydu şapqa başına, etdi Firəngistanə əzm,
Səhni-mehmnxanədə tüğyanə gəldi şəhvəti (1, s.44-45).

Bəlkə də, Şəbüstəri bir həqiqəti unudurdu ki, doğrudan da Əhməd şah özü siyasətdə bacarıqsız, səriştəsiz olsa da, ancaq Qacarlar dövlətində hakimiyyət böyük ölçüdə faktiki olaraq ingilislərin və onun maşası olan irançıların əlində idi (5, s.311-312). Bu anlamda Şəbüstərinin böyük sevinclə qarşıladığı Xiyabani hərəkatı da Qacarlar dövlətindən çox ingilis ağalığına və irançı qılıqlı fars şovinizminə etiraz idi (6, s.131). Başqa sözlə, demokratik hərəkatın başlıca məqsədi Qacarları devirməkdən çox, onu formal hala gətirərək ölkədə ağalıq edən irançılara və onun havadarları ingilislərə öz yerini göstərmək olmuşdur. Bizcə, bir çox mütəfəkkirlərimiz kimi Şəbüstəri bu məqama çox da diqqət yetirməmiş, ölkənin acınacaqlı bir durumda olmasına görə əsasən Qacarları və onun hökmdarlarını görmüşdür. O, yazırdı:

O tacü təxtə oldu namizəd ali-Qəcər axir,
Yüz il qan ağladı millət, vəli, ahəstə-ahəstə,
Tükəndi qəlb evində səbr, ucaldı nalələr axir.

Vətəndə qalmadı bir yer ki, viran etməsin Qacar,
Fərar etdi vətəndən milləti-xunincigər axir.
Min üç yüz qırx iki il keçdi çün tarixi-hicrətdən,
Qəza səsləndi: zalim, dur görək, bəsdir yetər axir!...
Xilas oldu vətən, əhli-vətən, Möcüz, bihəmdüllah,
O taxtı badə verdi padişahi-bihünər axir! (1, s.45)

Hətta, bu cür yanlış düşüncənin təsiri altında da Şəbüstəri Böyük Britaniyanın birbaşa dəstəyi ilə 1925-ci ildə Əhməd şahın formal hakimiyyətinə də son verilərək onun yerinə gətirilən Rza Mirpəncə, onun “Cümhuriyyət” quruluşu vədinə böyük ümidlər bəsləmişdir. O, “Cümhuriyyətə” şeirində yazırdı:

Saqiya! Bir badə ver əbnayı-cümhuriyyətə,
Təşnədir əhli-vətən səhbayi-cümhuriyyətə,
Sakit ol, ahəstə gəl, tünd əsmə, ey badi-səba,
Qorxuram toz əyləşə simayi-cümhuriyyətə!
Bir para nadan kişi “Başsız bədən olmaz” deyər,
Bəs, demək vaqif deyil mənayi-cümhuriyyətə.
Qurda verdi kəlləni çün kəlləsiz çobanımız,
Ol cəhətdən düşmüşük sövdayi-cümhuriyyətə (1, s.46).

Yaxud da o, yazırdı:

Sənə qurban olum, ey dəftəri-cümhuriyyət,
Bu gözəl toxum bizim yerdə çocuqlar, ya yox?
Ali-Qacar fələk salsa ayaqdan, cana,
Görəsən milləti-İran genə yuxlar, ya yox? (1, s.47)

O, hesab etsə də ki, “zülmkar” Qacarların ağalığına son verilib onun yerinə “mütərəqqi”, “cümhuriyyətçi” Rza Mirpəncin gəlməsi ilə ölkədə qayda-qanun, ədalət bərqərar olacaq, ancaq çox keçmədən hər şey öz çılpaqlığı ilə ortaya çıxdı. Belə ki, “mütərəqqi” Rza Mirpənc Qacarların son dövründəki haqsızlığa, ədalətslziyə aryançı irqçiliyi də əlavə etməklə daha böyük fəlakətlərin əsasını qoymuşdur. Belə ki, ölkədə “tək İran milləti” yaratmaq istəyən Rza Mirpəncin özünü fars-“Pəhləvi” adlandıraraq türklərə qarşı apardığı irqçilik siyasəti Əhməd şahın dövründəki haqsızlığı, özbaşnalığı belə kölgədə qoymuşdur. Şübhəsiz, bunun daha ağrılı olduğunu dərindən anlayan Şəbüstəri üçün bunu, dilə gətirməmək mümkün deyildi:

Pəhləvizadə çıxıb taxta deyirlər, deyəsən
O qoyub başına taci-Qəcəri, mən neyləyim?!...
Gözü, qaşı, bədəni, hər bir yeri bənzər şahə,
Az imiş mədrəki, yoxmuş hünəri, mən neyləyim?! (1, s.49)

Başqa bir şeirində isə Şəbüstəri yazırdı ki, dünənə qədər Cümhuriyyətdən danışan Rza da şahlıq həvəsinə düşərək taxta oturmaqla Əhməd şahdan də betər şəkildə zorakılıq üsullarına əl atmaqdadır. Əhməd şahın “qalın qafalığı” üzündən Qacarların hakimiyyətinə son qoyulduğuna, onun yerinə keçən Pəhləvilərin də ingilislərin aryançılıq ideologiyası ilə bir tərəfdən din-imandan uzaqlaşıb, o biri tərəfdən də türklərə divan tutmasını Şəbüstəri həzm edə bilmirdi:

Bəs ki, qalındı qafası, şikəmi misli kötük,
Eyləməz hərgiz ona qüssə əsər, Məmmədəli.
İnqraz aləminə qoydu qədəm ali-Qəcər,
Yerinə keçdi onun pəhləvilər, Məmmədəli.
Dinü iman gedər əldən, olusan əhli-səqər,
Dedim axir sənə mən etmə səfər, Məmmədəli.

Börkü Allah yaradıb, şapqanı şeytani-rəcm,
Başuva qoyma onu, eylə həzər, Məmmədəli.
Özün oxşatma firəngə, urusa, gəl vətənə,
Düyəni bas başına misli-düsər, Məmmədəli (1, s.70).

İngiltərə tərəfindən Pəhləvilərin qeyri-qanuni şəkildə hakimiyyətə gətirilərək türklərə qarşı başlanan assimilyasiya siyasətini artıq dərindən anlayan Şəbüstəri üçün, əsas vacib olan bu məsələnin əsil mahiyyətini xalqa çatdırmaq idi (7, s.284-285). Bu anlamda o, bir tərəfdən “mütərəqqi”, “demokrat” Rza Pəhləvinin üzündəki maskasını çıxarmaq idi isə, digər tərəfdən də onun arxasında dayanıb aryançılığı təşviq edən İngiltərənin ifşa etmək idi. O, yazırdı:

Aman, ingilisin əlindən, aman!
Yeridir su altından hər gün saman,
Onun öhdəsindən gələmməz cahan,
Xuda, ingilisi özün vur yerə! (1, s.49)

Deməli, Şəbüstəri Qacarlarla müqayisədə irqçi Pəhləvilərin İngiltərəyə arxalanaraq apardığı siyasəti daha qorxunc hesab etmişdir. Onun fikrincə, Pəhləvilərin hakimiyyətə gəlməsilə xüsusilə də türklər, o cümlədən Azərbaycan türkləri üçün bəla bir idisə, artıq ikiqat olmuşdur. Belə ki, ingilispərəst Vüsuqiddövlə və Qəvamüsəltənə ilə bir yerdə Rza Mirpənc türklərə divan tutur, onları zorla assimilyasiya edərək farslaşdırmağa çalışırdılar. O, yazırdı:

Gəhi bihəya qəsdi-İran edir,
Yığır Dari-Şurani viran edir,
Vüsuqi, Qəvami yenə xan edir,
Olur düşməni-can maliklərə (1, s.50).

Şəbüstəri artıq şübhə etmirdi ki, vaxtilə ərəbləri Vəhabilik adı altında Osmanlıya qarşı qaldıran ingilislər indi Pəhləvilərin arxasında dayanaraq farslar istisna olmaqla “İran” xalqlarına, xüsusilə də Azərbaycan türklərinə divan tutmaqdadır (1, s.182-184).

Şəbüstəri hesab edirdi ki, bu kimi bəlalardan qurtulmağın tək yolu Azərbaycan türklərinin yenidən oyanışı və öz xəttini müəyyənləşdirməsi ilə bağlıdır. Ona görə də M.Ə.Sabir kimi (8, s.36-37), millətin oyanması və tərəqqi etməsi məsələsinə daha çox diqqət yetirib, “mən xalqımı Sabir kimi oyadacağam” deyən Möcüz, Qərb millətlərinin oyandığı bir zamanda müsəlman xalqlarının hələ də, xabi-qəflətdən oyanmamasını, üstəlik çoxdan oyanmış millətlərin müstəmləkəsi halına düşməsini, ya da onların oyuncağına çevrilməsini qəbul edə bilmirdi:

Quruldu tazə aləm, aç gözün, eylə nəzər, millət!
O hansı elmdir – elmi ki, icad etdi telfuni,
Soruş hər yerdən istərsən, sənə versin xəbər, millət,
O elmin qüvvəsilə xəlq olundu çap maşini,
Basar səatdə öfraq üstünə min cür əsər, millət (1, s.24).

Şəbüstəri ümid edirdi ki, zaman gələcək Qərb millətləri kimi müsəlman xalqları da oyanıb öz istiqballarını əldə edəcəklər. Çünki əvvəlki dövrlərdən fərqli olaraq artıq müsəlman xalqlarında da milli oyanış və tərəqqi duyulmaqdadır. O, yazırdı:

Təəssüf bisəmərdir, çün keçən-keçdi, köçən-köçdü,
Ayıl, bundan sora qoyma keçə ömrün hədər, millət!
Ümidin kəsmə, məyus olma istiqbali-millətdən,
Tamam eylə sözün, Möcüz, ayılmış bir qədər millət (1, s.23-24).

O, yazırdı ki, vətənini, millətini və dinini sevən müsəlmanlar elm öyrənməli və cəhalətə son qoymalı, qəflət yuxudundan oyanmalıdır:

Niyə, ya rəb, belə xar oldu əzizani-vətən?
Düşmən elmilə bizi eylədi həmmal özünə,
Kim zəlil etdi bizi? – Cəhl! A müsəlmani-vətən!
Vətənsiz cismidi, siz də vətənə can kimisiz,
Razı olmun qala cansız vətən, ey cani-vətən! (1, s.47)

Möcüz hesab edirdi ki, Qərb millətlərinin oyanması və tərəqqi etməsinin əsasında isə onların din ilə dövləti, dini elmlərlə dünyəvi elmləri bir-birindən ayırması, xüsusilə dünyəvi elmlərin öyrənilməsinə mühüm yer verməsi həlledici rol oynamışdır. Belə ki, dünyəvi elmləri öyrənməklə Qərb millətləri bir çox sahələrdə kəşflər və ixtiralar etmiş, bununla da cəhalət və nadanlıqdan birdəfəlik qurtulmuşlar. Ancaq bütün bunlara baxmayaraq, Şərq millətləri, xüsusilə İslam Şərqi ölkələri bundan nəinki nəticə çıxarmış, üstəlik elmi kəşfləri və ixtiraları şeytan əməli adlandıraraq, cəhalət və nadanlığı, dini xurafat və dini mövhumatı bir az da artırmışlar:

Həram etdi sizə təhsili-elmi alimi-cahil,
Binayi-elmi yıxdı, eylədi zirü zəbər, millət.
Cəhalət eylədi İranı viran, milləti fəhlə,
Nəçün məzlumdur, yarəb, bizim bu dərabədər millət! (1, s.24).

Onun fikrincə, bir millət o vaxt tərəqqi edər ki, mədəniyyətini, etiqadını, adət-ənənələrini düzgün qavrasın. Ancaq müsəlman xalqlar bütün bunları dərk etməklə kifayətlənməməli, eyni zamanda zamanın tələbləri ilə ayaqlaşmalı, yəni oyanmalı və cəhalətə birdəfəlik son qoymalıdır. Şəbüstərə görə, əgər müsəlman xalqları vaxtında ayılmasa inkişaf etmiş “laməzhəblər” – Qərb millətləri ondan geridə qalan millətləri, o cümlədən müsəlman xalqlarını öz müstəmləkələrinə çevirəcəkdir. Bu baxımdan Möcüzün “Ey müsəlmanlar!” şeiri də çox ibrətamizdir:

Bu laməzhəblər, ey qardaş, gülüstan etdi dünyani,
Kəfənpüşani-qəbristanə – zindan, ey müsəlmanlar!
Nə meyittdən həya eylər, nə seyiddən, nə molladən,
Niyə qorxmur xudadən əhli-İran, ey müsəlmanlar?!
Deyirlər əl basıb bunlar – üzü qırxıq müsəlmanlar,
Təcəddüdxah olan xanlar bə Quran, ey müsəlmanlar!
Deyil agah bu zalimlər təriqətdən, şəriətdən,
Belə zülm etmədi xəlqə Küçükxan, ey müsəlmanlar! (1, s.39)

O, “Ustad” şerində də göstərirdi ki, “laməzhəb” qərblilər, o cümlədən ingilislər müəllimlərinə, ustadlara qulaq asaraq, onlardan öyrənərək cəhalətin daşını birdəfəlik atdılar. Üstəlik, onlar müəllimlər sayəsində tərəqqi edərək nəinki Avropada, eyni zamanda müsəlman ölkələrində də ağalıq etməyə başladılar. O, yazırdı:

Kimin əlindədir indi Mədinəvü Məkkə,
O pak yerlərimiz: Kərbəla, Nəcəf, Bağdad?
Səsin çıxartma, amandır ki, başım üstə durub
Əlində tiği-düsər ingilisi-bədbünyad...
Gəlin gedək, oxuyaq, biz də əhli-Qərb kimi
Ki, bəlkə əl çəkə bizdən o niaman cəllad.
Gəlin tutaq, bu müəllimlərin başını qızıla,
Olar da elmilə cahanı eyləsin irşad (1, s.65).

O, doğru yazırdı ki, başqa millətlər varislərinə elm miras qoyduqları halda, hələ də müsəlman xalqlarının mirası kəfən və cənnətdir (1, s.66). O, bir şeirində bunu belə müqayisə edirdi:

Çıraqi-bərqilə dünyanı rövşən eylədi kafər,
Müsəlman, sən nə etdin ixtira, verdin xəbər xəlqə?
Amerika alimi xəlq etdi bir dəsgah ahəndən (radio),
Gəhi dəf çaldı ahən, gahi ney şamü səhər xəlqə.
Dedin sən millətə: “Yar başuvi, aş sinəvin bəndin,
Döşün dəl, mıx və mismar ilə!” Öyrətdin nələr xəlqə? (1, s.128)

Şəbüstəri onu da doğru yazırdı ki, öz milli dəyərlərindən və milli sisitemindən uzaq düşən xalqlar, başqaların təsiri altında ancaq təqlidçiliklə məşğuldurlar. O, yazırdı:

Xoruz  kimi niyə millət qanad çakıb bannır?
Olaydı kaş bunun bir ağıllı fəlsəfəsi (1, s.133).

Möcüz yaradıcılığında dini-fəlsəfi məsələlərə, xüsusilə də islamın bəzi dini ayin və mərasimlərinə də toxunmuş, bu məsələ də nöqsanları göstərməyə çalışmışdı. Məsələn, o hesab edirdi ki, müsəlmanların orucluq bayramı heç də islamın ruhuna, qayda-qanunlarına uyğun həyata keçirimir. Onun fikrincə, buna səbəblərdən biri orucluğun əsl mahiyyəti və mənası barədə əksər müsəlmanların xəbərsizliyi, digər isə yalançı ruhanilərin və mollaların bu mərasimdən sui-istifadə etməsidir. Məhz bunun nəticəsidir ki, oruculuq müsəlmanların xeyir və bərəkətinə, ruhi və maddi cəhətdən sağlamlaşmağına xidmət etməli olduğu halda, yalançı ruhanilərin və əksər müsəlmanların cahilliyi səbəbindən başqa mənalara yozulur. Möcüz “Mübarək ay” şeirində bu münasibətlə yazırdı:

Molla bir aydır deyir məsələyi-heyzidən,
Qan tökülür məscidə lətteyi-xurnizidən,
Heyf ki, aclıq bu gün qoydu məni feyzidən
Lal olasan, ey kişi, saldın ayaqdan məni (1, s.112).

Möcüz hesab edirdi ki, müsəlmanlar məhərrəmlik mərasimində İmam Hüseyni (ə) layiqincə yad etmirlər. Belə ki, İmam Hüseyn (ə) Kərbəlada düşmənlə mərdanə cəng etdiyi, ləyaqətlə şəhadətə qovuşduğu halda, özünü onu davamçıları hesab edənlərin əksər qismi öz başını yarıb, bədəninə zəncir vurmağı qəhrəmanlıq hesab edirlər. Halbuki onlar imamı deyil, öz pərişan vəziyyətlərini düşünüb ağlamalıdırlar. Möcüz yazırdı:

Gəh yarırsız başüzi, gəh çərtirsiz,
Bu nədi, qardaş, düşünün bir özüz,
İndi ki, vardır sizin ağlar gözüz,
Ağlayın öz hali-pərişanuza! (1, s.93)

Möcüz hesab edirdi ki, müsəlmanların avam və cahillikdən, elmsizlik və biliksizlikdən qurtarmaq, despotik hökmdarlar və ikiüzlü din xadimlərinə qarşı mübarizə aparmaq əvəzinə, başını yarmaqla və yaxud bədəninə zəncir vurmaqla cənnətə gedəcəyinə ümid etməsi nadanlıqdır. Çünki imam yolunda başını yarıb canını ona qurban verməyə hazır olduqlarını deyənlərin əksəriyyəti Hərmələni, ya da Şimrü görsələr fikirlərindən dönəcəklər. Möcüz yazırdı:

İndi bu ki, göydə uçar başyaran,
Başını şəst ilə açar başyaran,
Hərmələni görsə qaçar başyaran,
And ola o kəlleyi-nadanuza! (1, s.94)

Möcüzün fikrincə islama, o cümlədən İmam Hüseynin (ə) şəhadətinə zidd olan fikirləri müsəlmanların şüuruna yeridən və onları bu cür əməllərə, yəni baş yarmağa, zəncir vurmağa sövq edənlər isə axundlar, vaizlər, şeyxlər və mollalardır. Belə ki, riyakar ruhanilər müsəlmanlara peyğəmbərin, onun övldalarının doğru yolunu göstərmək əvəzinə, onları əsarətə, cəhalətə və xurafata sürükləyirlər. Halbuki, Möcüzə görə, əsl mömin müsəlman qardaşına belə nəsihət verməz, səhv yol göstərməz:

Dedin sən millətə: “Yar başuvi, aç sinəvün bəndin,
Döşün dəl, mıx və mismar ilə!” Öyrətdin nələr xəlqə? (1, s.128)

Mütəfəkkir yaxşı anlayırdı ki, məhərrəmliyi bu cür islama və imamın şəhadətinə uyğun olmayan şəkildə qeyd edənlərin bunda şəxsi maraqları olmuşdur. Belə ki, riyakar ruhanilər məhərrəmlikdə müxtəlif dini oyunlar təşkil etməklə həm öz ciblərini doldurur, həm də nüfuzlarını artırlar. Bunu nəzərə alaraq Möcüz yazırdı ki, artıq yalançı ruhanilərin məhərrəmlikdə ciblərini doldurmaq məqsədlərini müsəlmanlar anlamalıdırlar:

Bir tərəfdə mərsiyəxan istiri həqqülbəka,
Ağladıb çünki məhərrəmdə məni sübhü məsa,
Hər gün on beş dəfə şagirdi dayanır qapıya,
Səsləri: Ay Kərbalayi, beş min altun ver görax! (1, s.157)

Mirzə Əli riyakar ruhanilərin islama və imamın şəhadətinə uyğun olmayan əməllərinə qarşı çıxaraq deyirdi ki, 20-ci əsrdə öz-özünün başını yarmaq, bədəninə xəsarət yetirmək, üstəlik riyakar ruhanilərin ciblərini pul ilə doldurmaq cahillik və nadanlıqdır. Onun fikrincə, əgər baş yarmaq, zəncir vurmaq xeyirli iş olsaydı ilk növbədə, buna müsəlmanlara təhrik edən riyakar din xadimləri özləri əməl edərdilər. Bu baxımdan məhərrəmlikdən ən çox faydalananlar başlarını yarıb qanını tökənlər deyil, məhz riyakar ruhanilərdir. O ruhanilər ki, müsəlmanlara məhərərmlikdə imamın təziyəsini saxlamağı vacib hesab etdikləri halda, özləri buna qətiyyən əməl etmirlər (1, s.182-183).

Ona görə də müsəlmanlar Kərbəlada baş verənlərdən doğru nəticə çıxarıb İmam Hüseyn (ə) kimi əqidə yolunda şəhid olmağın mənasını dərk etməlidirlər. Müsəlmanlar anlamalıdırlar ki, insan nə öz sağlamlığına, nə də başqa bir müsəlman qardaşının səhhətinə zərər yetirməklə imamın yolunda ola bilməz. Xüsusilə, islama zidd əməlləri törədərək cənnətə getməyi düşünmək, Möcüzün də təbrincə desək, nadanlıq və cahillikdir. Ona görə, müsəlmanın əsas əməli heç də başını yarıb qanını tökmək deyil, köməyə ehtiyacı olan din qardaşlarına, bacılarına yardım etməkdir. Belə ki, imam yolunda başını yaranların, ağı deyənlərin, yaxud da müqəddəs yerlərə (Həcc və b.) ziyarətə gedənlərin yanı başındakı çarəsiz müsəlman qardaşlarına yardım etməmələri qəbuledilməzdir. O, yazırdı:

Ey ümməti-Məhəmmədə rəhm etməyən kişi,
Nar əhlisən, güvənmə nəmazü təharətə!
Din qardaşın əyalı məhəlləndə ac yatır,
Virzü vəbalı boynuma, getmə ziyarətə (1, s.27).

Şəbüstərinin şeirlərindən hiss olunur ki, onun dinə münasibəti ancaq İslama olunmuş əlavələri, o cümlədən dini xurafat və mövhumatı tənqidlə kifayətlənməmiş, o bəzi hallarda ümumilikdə şəriətin hökmləri ilə razılaşmadığını ifadə etmişdir. Məsələn, o, yazırdı:

Saqiya! Dur gətir bir nazənin canan mənə,
Cənnəti verdim sənə, lazım deyil qılman mənə.
Öldü Adəm qüssəsindən, düşməni sağdır hələ,
Qorxuram buğda yedirdə hiyləgər şeytan mənə.
Mən bir aləm istərəm, “yox!” ləfzi orda olmasın,
Rozeyi-rizvanda, yarəb, kim verər qəlyan mənə? (1, s.62)

Başqa bir şeirində isə meyin dinə zərə vermədiyini yazan Şəbüstəriyə görə, dini rəvayətləri bir kənara qoyub reallıqları görüb və ondan nəticə çıxarmaq lazımdır:

Bu gün millət nəyə möhtacdır, ondan bəyan eylə,
Göy elmin bilmək İran əhlinə nəftü şəkər verməz!
O göy ki, görməyib ömründə bir yol binəva vaiz,
Bizə bəhs eylər ondan, gördüyü yerdən xəbər verməz!

Burax haruti-maruti, gətir meydanə baruti,
Süpahü ləşkərə, molla, ayətülkürs xətər verməz! (1, s.76)

O, yazırdı ki, İslam dinini qəbul etdikdən sonra “İran” milləti xortdana, quleybanıya inanmış vətən azadlığı da əlindən alınmışdır. O, yazırdı:

Bu əmri-mühəqqəqdi ki, biz milləti-İran
Xortdana və quli-biyabana inannux.
Əfsus ki, nisvani-vətən görmədi bir gün,
İrani min üç yüz sənə cəhl etdi qaranlux (1, s.59-60).

O başqa bir şeirində isə yazırdı ki, dinü imanı Quranı xətm eyləmək, dini rəvayətlərə inanmaq deyil yeni növ silahlara sahib olmaq, ya da dünyəvi elmlərə yiyələnmək saxlayar. O, yazırdı:

Dinü imani nə saxlar? Tirü şəmşirü tüfəng.
Xətmi-Quran eyləməklə qalsa, Quran yaxşıdır.
Şürbilər dünyanı işğal eylədi, biz yatmışıq,
Bəngü tiryak olmasa dini-müsəlman yaxşıdır.
Can sıxar elmi-riyazi, cəbrü hikmət, həndəsə,
Elm təsxirül-əcinənə dərsi-bətlan yaxşıdır...
Nəfi yoxdur bizlərə elmi-məadin öyrənək,
Bizə lazım lampalardan köhnə şamdan yaxşıdır (1, s.86).

Şəbüstəri başqa bir şeirində də Sabirsayağı yazırdı ki, müsəlmana dünyəvi elmləri, o cümlədən həndəsə, fizika, riyaziyyat, coğrafiya öyrənmək lazım deyil, bundansa təsbehini çevirməli, namazını qılmalı, orucunu tutmalı, cənnətdəki huriləri arzulamalıdır. O, yazırdı:

Deyirəm: məscidə get, eylə nəzər şeyxə tərəf,
Elmi-əşyanı burax, baxma təvarixə tərəf,
Heyət axir çəkəcək oğluvu Mirrixə tərəf,
İşdi, qayıtsa işin nalevü əfqan olacaq!
Əvəzü sureyi-“Yasin” – o bizim xanəxərab
Cümə axşamı oxur cəddinəşmi və hesab.
Nə qədər mədrəsədə var o “Fizik” adlı kitab,
Bu vilayətdə nə qare və nə Quran olacaq! (1, s.140)

O, cənnət məsələsinə də həssas yanaşır, orada iki min huriyə bir kişinin düşməsini Sabirsayağı tənqid edirdi. O, yazırdı:

Cənnətdə, deyərlər, huri, koser vardır,
Əmma iki min dilbərə bir ər vardır,
O hurilərə gərək kim olsun talib,
O şəxs ki, onda zuri-əjdər vardır (1, s.152).

Deməli, gah açıq formada, gah da sarkazmla Şəbüstəri ehkamçı-lokalçı dini təfəkkürü tənqid edir, onun yeniləşməyə qarşı olmasını pisləyirdi. O, yazırdı:

Cəm olluq bir yerdə çox, dünyalıq işimiz yox,
Söhbətimiz tamamen racedir axirətə.
Aləmi-manyatimiz batil etdi hissini,
Milləti-biçarəni saldı xabi-qəflətə (1, s.102)

O, “Ya Rəb”, “Allah” şeirlərində də Yaradana müraciətlə islam dini, şəriətlə bağlı olan narazlıqlarını ifadə etmişdir.

Vaiz buyurur: Başuva vur, canuvi incit;
Bu barədə təklifi-müsəlman nədi, ya rəb?..
Təğyir əgər vermiyəcək xülqinə xəlqin,

Pəs fəlsəfeyi-din nədi, ərkan nədi, ya rəb!
Gər qorxudur ayati-cəhənnəm bizi, pəs bu
Əminiyyəvü nəzmiyyəvü ajan nədi, ya rəb? (1, s.130)

O, “Allah” adlı şeirində də mollaları tənqid edərək onların əməlləri sayəsində millətin qəflət yuxusundan oyanmadığını yazırdı:

Bir az istər ayıla millət-İran, Allah!
Dəsti yorğan çəkər başına mollan, Allah!
Yatdı nadan, qoyub səcdəyə başini axund
Dedi: Ey cismimiə can, dərdima dərman, Allah!
Yaradıbsan mənə, yarəb, nə həməl heyvanlar –
Minməsi, sürməsi, yük çatması asan, Allah? (1, s.131)

Şəbüstəriyə görə, buğda yediyi üçün hər daim Allah tərəfindən adı Quranda hallandırılan Adəmin bu rüsvaydan qurtulması mümkün olmadğı halda, sıradan bir müsəlmanın Yaradandan hər hansı istəklərdə bulunması mənasızdır:

İki buğdan yeyib Adəm neçə min il əvvəl,
Hələ də eyliri rüsvay onu Quran Allah.
İstəyirdi biri məsciddə xudadən yorğan,
Gördüm ağlar, deyər: “Ey qadiri-mənnan, Allah!”
Dedim: Axmaq kişi, gündə sənə bir danə lavaş
Verə bilmir, necə versin hələ yorğan Allah! (1, s.132)

Buradan belə bir nəticə çıxarmaq olar ki, Şəbüstəri Allahın hər şeyə qadir olmasına şübhə ilə yanaşmışdır. Onun fikrincə, insanların Allahdan bir şeylər gözləyərək yaşaması gerçəkliyə uyğun deyildir. Əgər insan hər bir işini özü görmək əvəzinə Allahın iradəsinə bağlayırsa, o zaman gərəkdir ki, can və mal təhlükəsizliyinin də qayğısına qalmasın. Halbuki mollalar belə Allahın hər şeyə qadir olduğunu dilə gətirsələr də, can və mal təhlükəsizliklərinin qayğısına qalmağı da unutmurlardı. O, yazırdı:

Dedi: Risalə oxursan? Dedim: Hesab oxuram!
Dedi: Hesab deyil, şəxsə din lazımdır!
Dedim ki: Dini nə saxlar? Dedi: Müsəlmanlıq!
Dedim: Xeyr, iki yüz min süpahi-mübin lazımdır!
Dedi: Cəfəng danışma, xudadi hafizi-din,
Bizə nə topçu, nə sərbazü zərrəbin lazımdır.
Dedim: Neçün qapuvi bağlısan yatan vaxtı?
Demək sənə gərəvü, əngəbün lazımdır.
Qapuvi qoysan açıq, düzd olar evə daxil,
Aparsa malı, səhər şüruşin lazımdır (1, s.135).

O, “Olmuşam” şeirində isə açıq şəkildə yazırdı ki, bu cür müsəlmanlıqdan nifrət edərək insanlıq anlayışını qəbul edir. Çünki o, müsəlmanlığı daha çox zahiri anlamda qəbul etmişdir. O, yazırdı:

Nə qızılbaşəm, nə fərraşəm, nə hakim, saqiya,
Bir soruş məndən: Nəçün bəs mən müsəlman olmuşam?
Buğdaya sarı dedim qıra qara dedim, şirə sifid,
O cəhətdən mən belə bidünü-iman olmuşam.
Bimürvvət görmüşəm bəs ki, müsəlman firqəsin,
Etmişəm nifrət müsəlmanlıqdan, insan olmuşam (1, s.124).

Şəbüstəri başqa bir şerində isə açıq şəkildə yalnız müsılmanlıq deyil, bütün dinlərdən nifrət etdiyini ortaya qoyur, üstəlik həmin dinlərin yaradıcınının özünü, yəni Yaradanı belə tənqid edir. Allahın özü tərəfindən yaradılmış insanların niyə bu qədər zülm

çəkməsinə haqq qazandıra bilməyən Şəbüstəri hesab edirdi ki, əgər Allah hər şeyə qadirdirsə və hər bir şey onun iradəsi altındadırsa, o zaman Yaradan niyə yaratdıqlarının qayğısına qalmaq əvəzinə, onları zülmə düçar etmişdir. Halbuki Allah özü bu qədər xəyanətlərə məruz qalsaydı, buna dözməz bir tədbir görərdi. O, yazırdı:

Fəraqi mən yaratseydim, məni daşlardı övrətlər,
Sənə çatmır gücü xəlqin, tükəndü səbrü taqətlər!
Hürər, narahət eylər, gah dişlər, incidər xəlqi;
Demax olmur ki: Ey adil, nəyə lazımdı bu itlər?
Tökərdin birənin qanın, kəsərdin kəhlənin nəslin,
Əyər bir yol səni bədxab edəydi o xəyanətlər! (1, s.178)

Mütəfəkkir şairmiz hesab edirdi ki, Allah bir tərəfdən yaratdığı insanın qayğısına qalmayıb onun zülmlərinə göz yumduğu halda, digər tərəfdən insanlar üçün göndərdiyi peyğəmbərlər də ziddiyyətli fikirlərdən çıxış etmişlər. Belə ki, Allah bir peyğəmbərə verdiyi bir vədi, başqa peyğəmbərə fərqli şəkildə yenə də təkrar etmişdir. O, yazırdı:

Deyir Musaya bir söz, söyləyir İsayə bərəksin,
Ona dana deyim, ya sərsəri, ey bifərasətlər?
Pəs etdi miri-dərbari rəvanə kuhi-hürrayə,
Ərəb məbusinə ruhi-əmin verdi başarətlər.
Üruc etdi mələk əflanə, Əhməd şəhri-bəthayə,
Yetirdi Əhmədə bisimü telfunilə ayətlər.
Genə qanlar töküldü, beydəqi-üsyan qovzandı,
Bəraət surəsində oldu çün murdar millətlər.
Deyir Tovratidə: Cənnət sizindir, ey yəhudilər,
Yaranmış məhz sizdən ötrü ol ali imarətlər!
Edir İncilidə kafər yəhudi millətin yeksər,
Deyir İsaviyə: Qorxmun, sizin malizdi cənnətlər!
Deyir Quranda bipərva: Cəhənnəm əhlidir tərsa,
Müəslmandır mənim dostum, onundur nazü-nemətlər! (1, s.178)

Beləliklə, Şəbüstəri yalnız dinlərə münasibətdə kəskin mövqe tutmur, bununla da bütün dini, sinfi, irqi ayrı-seçkiliyi bir kənara qoyaraq “insanlıq” vurğusunu ortaya qoymağa çalışırdı. O, yazırdı:

Biz insanıq əgər, olmaz bu cür insani dirrəndə,
Nə insan? Bəlkə bizdən yaxşıdır, kürkani dirrəndə,
Əgər hökmən “biz insanıq”deyər əyani dirrəndə,
Gərək onlar da hökmən əl çəkə izadən, ey saqi! (1, s.83)

Ola bilsin ki, onun dini, sinfi, irqi ayrı-seçkiliyi qəbul etməyərək “insanlıq” fəlsəfəsi üzərində dayanmasında da dövrünün beynəlmiləlçi sosial-demokrat ideyasının da müəyyən təsiri olmuşdur. Hər halda dünyanın səadət gülşəninin solmasını insanlar, cəmiyyətlər arasındakı ziddiyyətlərdə, müharibələrdə görən Şəbüstəri bu ədavətə son qoyub adamları bir-birlərini sevməyə çağrırdı:

Səadət ölməz hərgiz həmzəban olsa məhəbbətlə,
Səadət istisən – həmnövüvi sev pak niyyətlə... (1, s.82)

Onun fikrincə, səadət pak olub ondan qaçan insan günahkardır. Əgər insanlar özünü doğru aparıb oğruluqdan, haqsızlıqdan yan qaçsalar, ən əsası “səadət” kəlməsini nadandan deyil, müdrikdən, xüsusilə də İsa peyğəmbərdən öyrənsələr o zaman dünyanın düzəni də dəyişər. O, yazırdı:

Səadət pakdir, ondan qaçan insan müqəssirdir,
Aparsa düzd xəlqin kisəsin, ajan müqəssirdir,

Səadət kəlməsin təfsir edən nadan müqəssirdir,
Onun təfsirin öyrənsin gərək İsadən ey saqi! (1, s.83).

Deməli, insanlıq fəlsəfəsinin mənimsənilməsi naminə Şəbüstəri yalnız İslam dinindən, onun peyğəmbərindən deyil, eyni zamanda xristianlıqdan və onun peyğəmbəri İsadan da öyrənməli çox şeyin olduğunu etiraf edirdi.

Eyni zamanda o, insanlıq fəlsəfəsinin yalnız dinlər əsasında izahının da əleyhinədir. Onun fikrincə, bütün hallarda bu dünyada müvəqqəti yaşayan insan üçün vahid dinə inam mümkün olmadığı qədər, vahid əxlaqdan, vahid ideyadan, vahid ümiddən da söhbət gedə bilməz:

Hər işdə bir ümid ilə insan yaşar, gedər,
Nikü bədə baxılmasa, hər iş aşar, gedər.
Var ixtilaf təbidə, əxlaq bir deyil,
Hər kəs bir özgə iş dalınca qoşar, gedər...
Dünya seyrgahdır, hər kəs gələr, gəzər,
Bir nik-nam qalsa qalar, simü zər gedər (1, s.146).

Deməli, insanın varlığı və yoxluğu məsələsində "Dünya"nın da kifayət qədər yeri və rolu vardır. İnsan dünyada yaşayır və ölür ki, öləndən sonra bədəni də dünyada qalır, torpağa qarışır. Başqa sözlə, insan bu dünyada nə qədər bünövrəsini möhkəm etməyə çalışsa da, axırda dünya yenə də onu yıxır və özünə çəkir:

Keçər, gedər sənəvatı şühuri dünyanın,
Misal əbri ləyal suhuri dünyanın.
Bu gün ki, çıxdı başa, bir gün ömürdən getdi,
Həmişəlik deyil eyşü süruri dünyanın.
Soruş, desin sənə bir-bir keçənlərin halın,
Qərayü gurdə Bəhram Guri dünyanın.
Dağıtdı kəlleyi Kavusi qəbrdə həşərat,
Qarışdı torpağa kibrü qüruri dünyanın.
Edər sümüklərivi sürmə aliyat cahan,
Tənavül eylər ətün marü-muri dünyanın.
Bünövrəni nə qədər möhkəm eylisən, eylə,
Təkan verəndə yıxar, çoxdu zuri dünyanın! (1, s.146)

Şəbüstərinin dini-fəlsəfi dünyagörüşündə qadın azadlığı da mühüm yer tutmuşdur. Möcüz çadranın əleyhinə çıxaraq qadınlara cəmiyyət daxilində kölə kimi baxılmasını əsla qəbul etmirdi.

Möcüzün fikri budur – yırtın o gen tumanları,
Harda görsəz düryəli, başın əzin toxmaq ilə!
Çün anaz doğdu sizi, geydirdi qarə əynizə,
Daxil etdi səmmi-mövhumatı nazik beynizə,
Gözləriz doldu, ataz saldı kəfən çün çiynizə,
Axdı burnuzdan zılıx sildiz onu qurşaq ilə (1, s.32).

Möcüzə görə, bir gün qadınlar da, elə kişilərin özü də mədəniyyət sübhi ilə oyanıb tərəqqi edəcəklər ki, o zaman nə kişilərin saqqalını qırxmasına, nə də qadınların çadrasız gəzməsinə pis baxmayacaqlar:

Mən saqqalı, sən zülfü həna ilə boyarsan,
Verrux o zaman əl-ələ, bulvarı dolannux.
Möcüz utanır, qırıxmır saqqalı deyirlər,
Yox!.. Bizdə həya olsa, cəhalətdən utannux! (1, s.60)

Vaizlərin qadınların “Yusif surəsini” oxumamaları tövsiyəsini gülünc bir şey adlandıran Möcüzə görə, əgər Quranı Allah ərəblərə nazil eləyibsə, o zaman ərəb qadınları da bu surəni təlavət edəndə onun mahiyyətindən xəbərdar olmalıdırlar. Əks təqdirdə belə anlaşılar ki, Allahın kəlamı qadınları zəlalətə salmaq üçün göndərilib. O, yazırdı:

Bu surəni təlavət edəndə ərəb qızı,
Bilməz məgər nə yapdı Züleyxayi-məhliqa?
Salmaz xuda kəlamı ünası zəlalətə,
“Təhzib xülq” üçündü o tarixi-ənbiya!
Eşqin sonu, bilər ki, nadamətdir, iftizah,
“Vəstəqrəni lizənbikəni” övrət anlasa (1, s.77).

O, “Qızlar” adlı şeirində də göstərmyə çalışırdı ki, qızların elm və təhsil alması, heç də oğlanlardan az əhəmiyyətli deyildir. O, yazırdı:

Cəmalin hər zaman ayinədə təzyin edər övrət,
Neçin əxlaqini etməz müzəyyən elm ilə qızlar?
Cəhalət bəhri-bipayandi qərq eylər sizi axir,
O dəryadən gərək elm ilə çıxsın sahilə qızlar!
Oxuyub yazmayan insan olar naməhrəmə möhtac,
Gedib əyləşməz əğyar ilə, gər yazmaq bilə qızlar.
Savadız olsa, olmaz hiç kəs əsrarizə vaqif,
Savadız olmasa, sirriz düşər dildən-dilə, qızlar.
Peyğəmbər əmr edib təhsil etmək gülli-ziəqlə,
Gərək əhsli-savad olsun təmamən aqilə qızlar! (1, s.79)

Şəbüstəri göstərəməyə çalışırdı ki, İslam dinində qızların təhsil almasını qadağan edən bir surə, ayə ya da hədis yoxdur. Üsətlik, peyğəmbər özü də əmr edib ki, kişi və qadın olmasından asılı olmayaraq bütün müsəlmanlar təhsılı almalıdırlar. Ancaq vaizlərin, ruhanilərin təbliğatı nəticəsində xalq əlinə çubuq alan qızları deyil, əlinə qələm alanlara tənə edirlər:

Çubuq alsa ələ qızlar məzəmmət eyləməzlər heç,
Vurarlar tənə yüz yerdən qələm alsa ələ qızlar.
Gecə-gündüz işi qeybət o cahil qızların, Möcüz!
Əgər vaiz qoya, məşğul olarlar elm ilə qızlar (1, s.79).

O, başqa bir şerində isə ironiya ilə yazırdı ki, qızın məktəbi “mətbəx”, ustası da “qazança”dır. Başqa sözlə, qıza məktəb “yaraşmaz” deyən mütəfəkkir əslində qadınların təhsil almasının qatı tərəfdarlarından biri idi. O, “Bacılar” şeirində deyirdi ki, qadın bir sözünü başqa diyarda olan ərinə çatdırmaq üçün hansısa mirzəyə möhtac olurdu. Çox vaxt da, qadın istədiyi bir sözünü mirzənin yazdığı məktub vasitəsilə ərinə çatdırmaqdan utanmış, çəkinmişdir. O, yazırdı:

Zibəs ki, təngə düşər qəlb, razıyam, buna ki,
Gedim cəhənnəmə, əmma kağız yazım, bacılar!
Oxur, yazır hamı millət xanımları, lakin,
Əlif görəndə dirək zənn edir bizim bacılar! (1, s.84)

O, “Bəzək” şeirində isə yazırdı ki, qadınlar qır-qızılları, ləl-cəvahirati ilə deyil, savadlılığı, elmliliyi ilə fəxr etməlidir. Şəbüstəri ancaq yuxusunda görürkü vaiz deyir ki, “İran” qızları camallarını açsın, ölkə işıqlansın. Ancaq o, yuxudan oyanıb vaizə deyəndə ki, oğlanlar kimi qızlar da yazı yazmağı öyrənməlidirlər, şeyx onun sözünü yarımçıq kəsərək bunun mümkün olmadığını deyir. Bu məqamda Nadir şahın meydanda olmasını arzulayan Şəbüstəri yazırdı:

Səni verrəm qəzəm binti Rəsulallahə, ey vaiz,
Büsati-cəhli yıx, qoy aləmi-nisvan işıqlansın!...
Cəsarətlə qədəm qoy ərseyi-meydanə, ey Nadir,
Qılıncın eylə üryan, ərseyi-meydan işıqlansın.
Düşüb zindani-cəhlə Yusifi-Gümgəştə müddətdir,
Züleyxa, aç cəmalin, guşeyi-zindan işıqlansın! (1, s.111).

Şəbüstəri yazırdı ki, peyğəmbər özü belə elm-təhsil almağı qadınlara fərz buyurduğu halda, mollaların onun bununla bağlı hədisini nəzərə almamaları doğru deyildir. O, yazırdı:

Məsləhət bilmir axund dərs oxuya canbacılar.
Yazmıya, oxumuya, neyliyə bəs xanbacılar?
Yığışa bir yerdə dəstan deyə nadan bacılar.
Olmuya söhbəti-elmiyyə bizim kətdə gərək (1, s.143).

**Nəticə**

Beləliklə, Mirzə Əli Möcüzün yaradıcılığında da, müsəlmanların avam və cahillikdən, elmsizlik və biliksizlikdən qurtulması, despotik hökmdarlar və ikiüzlü din xadimlərinə qarşı mübarizəsi və milli birlik, milli oyanış fəlsəfəsi əsas yer tutmuşdur. Möcüz müsəlmanların, soydaşlarının geriliyinə əsas günahkar kimi yalançı ruhaniləri və millətpərəstləri görürdü. Onun fikrincə, nə vaxta qədər ki, islamın adından çıxış edən yalançı ruhanilər, hacılar və mollalar var, islam ölkələrinin tərəqqi etməsi mümkün olmayacaqdır. Ona görə də ilk növbədə, onların iç üzünün açılmasını və işfa edilməsini əsas məsələlərdən biri hesab etmişdir. Ancaq bütün bunlarla yanaşı, o, haqlı olaraq yazırdı ki, müsəlmanların ruhanilər və mollalar tərəfindən aldadılmasının əsas səbəbkalarından biri də özləri, yəni əksər müsəlmanların cahil və nadan olmalarıdır. Əgər müsəlmanlar islamın əsl mahiyyətindən xəbər tutsalar, eyni zamanda dünyəvi elmləri öyrənsələr bu zaman Qərb millətləri kimi, tərəqqi edər və duynada özlərinə layiq yeri tutarlar.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Şəbüstəri M. Ə. M. Seçilmiş Əsərləri. Bakı, "Şərq-Qərb", 2004
2. Şevket F. İran (İklim, halk, iktisadiyyat, ictimaiyyat, müessesat-ı medeniyye, adatt-ı miliyye). Ankara, Türk Tarih Kurumu, 2017, s.93-105
3. Rəsulzadə M.Ə. İran Türkləri. Bakı, "Təknur", 2013, s.87-90
4. Qaradağlı E. Azərbaycan mərkəzli türkçü düşüncə. İsyanbul, ÇAV yayınları, 2012, s.235
5. Ələkbərli F. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı, "Xan" nəşriyyatı, 2017,
6. Xiyabani Ş. M. Azərbaycan və Azərbaycan demokratik qüvvələri. Bakı, "Müəllim", 2010
7. Turan R. Azerbaycanda Okutulan Tarih Ders Kitablarında Stalin və Uyğulamalarına Yakşalım. Ankara, Bilig, payız 2013, sayı 67
8. Sabir M.Ə. Hophopnamə. İki cilddə. I cild. Bakı, 2004, s.36-37


**Фаик Алекперли**

**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ И РЕЛИГИОЗНО-ФИЛОСОФСКИЕ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ МИРЗЫ АЛИ МОДЖУЗ ШЕБУСТАРИ**

***Резюме***

В статье особое место в творчестве Мирзы Али Мочуз Шебустари занимают политико-идеологические и философские вопросы, начиная с XIX века, такие как вступление азербай-

джанского народа в новый период, возрождение оккупированных свобод в государстве Каджаров, режиме Пахлеви. В то же время были освещены исследования и пропаганда тюркской культуры Азербайджана, Азербайджанской тюркской философии в контексте сохранения национальных ценностей азербайджанского народа, составляющих основу его мировоззрения. Здесь показано, что общественно-политические и религиозно-философские встречи М.М.Шебустари отличались своей актуальностью. Наряду с исследованием общественно-политических и философских проблем в творчестве Шебустари, он также пытался выразить трудности, с которыми сталкивается эпоха. В этом смысле идея «Арианства», выдвинутая режимом Пахлеви против культуры и философии Азербайджана, подверглась критике.

***Цель*** **-** представить азербайджано-турецкие общественно-политические и религиозно-философские встречи в первой половине 20-го века, на примере Мирза Али Моджуз Шебустари

***Методология*** **-** сравнительный анализ, преемственность, передача идей

***Результат исследования*** **-** необходимо разработать более прагматичные принципы, чтобы согласовать взгляды М.М.Шебустари с социальными и политическими требованиями нашей современной эпохи.

***Ключевые слова*****:** Каджары, тюркизм, исламизм, модернизация, азербайджанская культура, азербайджанская философия, арианство

**Faiq Alekberli**

**SOCIAL-POLITICAL AND RELIGIOUS-PHILOSOPHICAL PROBLEMS IN MIRZA ALI MOJUZ SHEBUSTARIS WORKS**

***Summary***

In the article, political, ideological and philosophical issues have been highlighted in the work of Mirza Shabustari, beginning with the nineteenth century, the re-emergence of the South Azerbaijani people in a new era, and the re-acquisition of freedoms in the state of Qajar and the Pahlavi regime. At the same time, the study and promotion of the Azerbaijani Turkish culture, the Turkish philosophy of Azerbaijan, in the context of the living of the national values of the Azerbaijani people, which form the basis of its outlook, were highlighted. It is shown here that the socio-political and religious-philosophical encounters of M. Shabustari differed by their relevance. In addition to examining the socio-political and philosophical problems in the creation of Shabustari, he also sought to express the challenges that the era faced. In this sense, the idea of 'Aryanism', which the Pahlavi regime opposes in Azerbaijani culture and philosophy, has been criticized by Shabustari.

***Purpose of the research*** **-** To introduce Azerbaijani-Turkish socio-political and religious-philosophical meetings in the first half of the 20th century, as illustrated by M.M.Shabustari

***Methodology*** **-** Comparative analysis, succession, transfer of ideas

***Findings*** **-** M.M.Shabustari pragmatic principles need to be developed to align the vision of the patient with the social and political demands of our modern era.

***Keywords*****:** Kacars, turkism, islamism, modernization, Azerbaijani culture, Azerbaijani philosophy, aryanism

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, f.ü.f.d., dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 21.01.2020**

**UOT 316**

**Üzeyir Şəfiyev**
***BDU-nun “Sosial iş” kafedrasının***
***müdiri, sos.f.d., dosent***
*uzeyirlerik@gmail.com*

# AZƏRBAYCANDA SOSİAL RİFAH DÖVLƏTİ QURUCULUĞU VƏ QLOBAL ÇAĞIRIŞLAR

*Məqalədə sosial dövlətin mahiyyəti, sosial-fəlsəfi və elmi düşüncə tarixində sosial dövlət ideyaları, habelə müasir Azərbaycanda sosial dövlət quruculuğu haqqında məlumat verilir. Ölkəmizdə sosial rifah vəziyyətinin yaxşılaşdırılması yoluna nəzər salınır. Eyni zamanda, Azərbaycanda həyata keçirilən sosial siyasət təhlil edilir.*

***Məqsəd –*** Azərbaycanda sosial rifah dövləti quruculuğunun bəzi aspektlərinin təhlili

***Metodologiya*** – sistemli və müqayisəli təhlil

***Tədqiqatın nəticələri –*** Azərbaycanda sosial dövlət quruculuğu yolunda mühüm tədbirlər, islahatlar həyata keçirilir.

***Açar sözlər*:** sosial dövlət, sosial rifah, sosial təminat, sosial siyasət, məşğulluq, sosial müdafiə, hüquq

## Giriş

Müasir dövrdə qlobal miqyasda sosial dövlət, sosial rifah dövləti quruculuğu bəşəri meylə çevrilmişdir. İnkişaf etmiş, yaxud inkişaf etməkdə olan dövlətlərin bir çoxu sosial təminatın yüksək pilləsi olan sosial rifah dövləti qurmağı hədəf kimi qarşısına məqsəd qoymuş və bunu öz konstitusiyalarında, qanunlarında təsbit etmişlər.

Bir sosial dövlətin iki növ siyasi və sosial yanaşması ola bilər: Bu modelə görə dövlət vətəndaşların firavan həyat şəraitinin yaradılmasında əsas məsuliyyət daşıyan qurumdur. Bu modeldə dövlətin vəzifəsi daha geniş əhatəli olur, çünki bir vətəndaşın rifahının hər bir istiqaməti üçün məsuliyyət dövlətin üzərinə düşür və bu məsuliyyət heç bir fərq qoyulmadan ölkənin bütün vətəndaşları üçün ümumi məna daşıyır. İkinci növ yanaşmada isə bir sosial dövlət vətəndaşlarının həyat səviyyələrinin əvvəlcədən müəyyən olunmuş minimum standartların altına enməməsi üçün bir "sosial təhlükəsizliyi təmin etmə şəbəkəsi" yaradılması nəzərdə tutulur. Dövlət tərəfindən işsizlərə və ya az gəlirli şəxs və ya ailələrə gəlir subvensiyası verilə bilər. Buna uyğun olaraq dövlət öz evini ala bilməyəcək və ya özəl kirayə ev bazarındakı yüksək kirayə haqqını verə bilməyəcək qədər kasıb olanlara, ya subvensiya şəklində ev kirayəsi verə bilər, ya da ucuz xərc hesabına başa gələn evlər inşa etdirib, onları müəyyən qiymətlə kirayəlik verə bilər. Bunu etmək üçün yüksək vergilər təyin edilməsi zəruri ola bilər. Əgər vergi sistemi proqressivdirsə, adətən varlı insanlar daha çox vergi verənlər olurlar. Proqressiv vergi sistemində səviyyələr dəyişkən olur, səbəbi isə, gəliri az olanların bu vergini daha rahatlıqla verə bilməsini təmin etməkdir. Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünü təmin etmək, daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını daim yaxşılaşdırmaqdan ibarətdir.

**Sosial dövlət haqqında ideyalar**

Qədim yunan müdriki Aristotel (e.ə. 384-322) qeyd edirdi ki, "dövlət sadəcə yaşamaq üçün deyil, firavan yaşamaq üçün yaradılır" [1,142 ].

Sonrakı dövrlərdə müsəlman şərqində də ədəbi-fəlsəfi düşüncələrdə axtarılan ideal dövlət müasir sosial dövlətin eynisi idi. Belə mütəfəkkirlərdən biri dahi Azərbaycan şairi Nizami Gəncəvi “İskəndərnamə” poemasında yazırdı [8,154]:

...Bizdə bərabərdir hamının varı,
Bərabər bölərik bütün malları.
Bizdə artıq deyil heç kəsdən heç kəs...
*Yaxud başqa bir bəndə mütəfəkkir şair yazırdı:*
Ədalət səadətlə abad eylər ölkəni.
Bu dünyanın nəbzini kim tutsa İsa kimi
İnsafı, mürvətiylə olar dünya hakimi.
Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət!
Ədalətin - müjdəsi, bu dünyanı şad eylər,
Ədalətin işidir, - ölkəni abad eylər.
Məmləkətin dayağı ədalətdir hər zaman,
Ədalətlə nəsibin səadətdir hər zaman.

Elmi ictimaiyyətə məlumdur ki, sosial dövlət ideyasını alman alimi Lüdviq fon Ştayn (1815-1890) 1850-ci ildə özünün “1789-cu ildən başlayaraq Fransada sosial hərəkat tarixi” adlı əsərində təqdim edir. O, sosial dövlət dedikdə, bütün ictimai siniflərin və şəxsiyyətlərin tam hüquqi bərabərliyini nəzərdə tuturdu. Lorens fon Şteynin fikrincə, sosial dövlət hakimiyyəti qanuniləşdirmək və qorumaqla yanaşı xalqın maraqlarına xidmət etməlidir. Lorens fon Şteyn əmin idi ki, islahatlar aparmayan hər cür monarxiya nə vaxtsa süqut edəcək, bu fikirlə mütəfəkkir sonradan sosial dövlət nəzəriyyəsinə transformasiya edən sosial monarxiya konsepsiyasının əsasını qoymuşdu. Ştayna görə: “sosial dövlətdə son nəticədə bir nəfərin inkişafı hamının inkişafının şərti kimi çıxış edir, məhz bu mənada sosial dövlət haqqında belə demək olar: sosial dövlət bəşəri ləyaqətin təsisatlı təminatçısıdır” [7,71].

**Azərbaycan Xalq Cümhuriyyəti dövründə sosial siyasət**

Sosial dövlət qurulmasının başlıca şərti o dövlətdə sosial ədalətin, demokratiyanın və hüququn aliliyinin təmin olunmasıdır. “Sosial dövlət” termini 1949-cu ildə Almaniya Federativ Respublikası özünü sosial dövlət elan etdikdən sonra geniş yayıldığı qeyd olunsa da tarixi ədalət naminə qeyd edək ki, müasir Azərbaycan dövlətinin sələfi Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu istiqamətdə diqqətçəkən addımlar atılmışdı. AXC dövründə sosial siyasət və sosial iş istiqamətində mütərəqqi işlər görüldü. Bu islahatlar AXC-nin sosial xarakterli dövlət təbiətindən xəbər verir.İlk növbədə onu qeyd edək ki, AXC hətta bir sıra Avropa ölkələrindən də öncə qadınlara seçki hüququnu tanıyan şərqdə ilk demokratik respublika idi.Bundan başqa,Müsavat partiyasının bəyannaməsində xüsusilə qeyd olunurdu ki, dövlət büdcəsinin yükünü yoxsullar yox, maddi imkanı yüksək olan siniflər daşımalıdır [6,150] .

Bütövlükdə isə “Müsavat” partiyası açıq-aşkar solçuluğa istiqamətlənmə ilə fərqlənirdi. O özündə 8 saatlıq iş günü tələbini, gecə işləmə, 16 yaşına kimi uşaqların əməyə cəlb olunması qadağalarını, kapitalistlərin maliyyəsi ilə yaradılmış fond hesabına işçilərin

sığortasını, fabrik inspektorlarının və sanitar nəzarətçilərin müəssisədə paritet şərtlər əsasında işçilər və sahibkarlar arasında münaqişələrin araşdırılması üzrə komissiyanın təşkilini, həmçinin müəssisədə südəmər uşaqlar üçün bağçaların yaradılmasını əks etdirirdi [6,152] . Bundan əlavə, kapital və əməyin qarşılıqlı münasibətlərinə aid olan ciddi sosial problemlərin operativ həlli üçün Əmək Nazirliyi nəzdində yeni struktur bölmələr yaradılırdı (1919). Əmək Naziri A.Səfikürdski parlamentin sosialist fraksiyasına məktubunda qeyd edirdi ki, hər gün həyatın “bahalaşması” ilə bağlı nazirlik Bakı şəhərinin fəhlələri və sənaye müəssisələrinin işçilərinin maaşlarının artırılması ilə əlaqədar məsələ qaldırmışdır və bu məqsədlə xüsusi komissiya yaradılmışdır [6, 173] .

Eyni zamanda, cumhuriyyət dövründə uşaq ölümü ilə mübarizə aparan cəmiyyət də yaradılmışdı. Bakı millionerlərinin həyat yoldaşları və övladları da belə xeyriyyə təşkilatlarında aktiv fəaliyyət göstərirdilər. Bu cəmiyyətin məqsədi o dövrdə geniş yayılmış uşaq ölumləri ilə mübarizə və milliyətindən, dini əqidəsindən asılı olmayaraq bütün yaşlarda olan uşaqların düzgün fiziki inkişafı üçün qayğının təşkili idi. Bu cəmiyyət yoxsul ailələrdən olan uşaqları qida məhsulları ilə təmin edirdi, evdə və xəstəxanada pulsuz tibbi yardım təqdim edirdi, uşaqları bağçalara, uşaq evlərinə, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisəyə, sanatoriyalara yönəldirirdi. Cəmiyyət tərəfindən pulsuz uşaq yeməkxanaları, pulsuz dərman, süd və s. təqdim edən ambulatoriyalar təşkil edilirdi [6, 188] .

Bəzən yoxsullar üçün ianələr kifayət qədər özünəməxsus forma alırdı. Belə ki, 1918-ci ilin noyabr ayının əvvəlində Bakı şəhərinin Ağsaqqalar Şurası uşaq müəssisələrinin xeyrinə Bakıda oyun kartları üzrə vergi təyin etdi [6,188]. Həmçinin cümhuriyyət dövründə Bakı müsəlman xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi. Bu cəmiyyət həm qaçqınlara, həm də yaralanmış türk əsgərlərinə yardım göstərirdi. Qaçqınlar keçmiş əsgər kazarmasında və “Səfa” məktəbinə, onların övladları isə uşaq müəssisələrinə yerləşdirilmişdilər. 1919-cu ilin sentyabrından cəmiyyətə ayrı-ayrı şəxslər tərəfindən ianələr (pul və geyim formasında) verilirdi. Bu cəmiyyət həm də valideynsiz qalan uşaqlara peşə tədrisini də reallaşdırırdı [6, 188]. Digər iri qeyri-hökumət təşkilatı kimi Mərkəzi Mənzil Komitəsinin adını qeyd etmək lazımdır. Komitə işsizlik və həyat səviyyəsinin aşağı düşməsilə bağlı şəhər əhalisini ərzaqla, ucuz çörəklə, epidemiyalarla mübarizə üçün ilkin yardım vasitələrilə təmmin edirdi, qida məntəqələri təşkil edirdi [ 6,184] .

Sosial dövlət ideyasını daha da inkişaf etdirən alman alimi H.Heller "Sosial - hüquqi dövlət" anlayışını siyasi arenaya daxil etmişdir. Əlbəttə, hüquqi təminatlar və tənzimləmə olmadan sosial rifah dövləti yaratmaq mümkün deyildir. Sosial dövlətə məxsus bütün əsas əlamətlər, o cümlədən sosial sahədə mükəmməl qanunvericiliyin olması, dövlət tərəfindən müxtəlif sosial yönümlü proqramların hazırlanması və həyata keçirilməsi,vətəndaş cəmiyyətinin qurulması, dövlətin vətəndaşlar qarşısında sosial məsuliyyəti, dövlət tərəfindən hər bir vətəndaşın sosial müdafiəsinin təmin olunması və layiqli həyat şəraitinin yaradılması, layiqli sosial, iqtisadi, mədəni həyat təminatları əldə etmək üçün hər kəsə bərabər imkanlar yaradılması,ölkənin iqtisadi inkişafının yüksək səviyyədə olması və.s müasir Azərbaycan dövlətinin götürdüyü kursda əsas prioritetlərdir.

**Azərbaycanda sosial dövlət quruculuğunun parametrləri**

Son illərdə aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə sosial dövlətin bir çox parametrləri öz təsdiqini tapmışdır. Azərbaycanda yoxsulluqla mübarizə ciddi nəticələr vermiş, 2001-ci ildən bu yana ötən dövr ərzində yoxsulluğun səviyyəsi 49 %-dən 5,2 %-ə düşmüşdür. Sosial müdafiə tədbirləri ardıcıl olub və təminatlılıq səviyyəsi yüksəkdir. Müşahidələr onu deməyə əsas verir ki, Azərbaycan dövləti tərəfindən təqribən

38 istiqamətdə sosial müdafiə tədbirləri həyata keçirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Bəyannaməsinə qoşulan ölkəmizdə yoxsulluqla mübarizə sahəsində kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə “2003–2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”, eləcə də “2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” hazırlanaraq təsdiq edilib və bu, uğurla icra olunub. Ölkəmiz inkişaf etdikcə sosial müdafiə, sosial təminat sahəsində daha innovativ sosial xidmətlər zərurəti yaranır .

Azərbaycan Dünya Bankının adambaşına düşən ümumi milli gəlir təsnifatına görə "yuxarı orta gəlirli" ölkələr qrupuna daxil olmuş, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının insan inkişafı ilə bağlı 2010-cu il üzrə hesabatına əsasən "yüksək insan inkişafı" ölkələri qrupuna keçmişdir. Bu gün bir sıra beynəlxalq təşkilatlar Azərbaycanda həyata keçirilən innovativ sosial xidmətləri və texnalogiyaları örnək nümunələr kimi başqa ölkələrdə də yayılmasının arzu olunduğunu vurğulayırlar. Əlbətdə bu bizim üçün qürurverici bir haldır. Ölkəmiz artıq innovativ sosial xidmət ideyaları, humanist dəyərlər ixrac edən bir ölkə kimi qlobal müstəvidə tanınmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev 2013-cü ildə Azərbaycanın sosial xarakterli dövlət olduğunu bəyan edərək bildirmişdir ki,**…Mən dəfələrlə qeyd etmişəm, bir daha demək istəyirəm ki, Azərbaycan dövləti sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”. Qeyd edək ki,** 2018-ci ilin büdcə xərclərində sosial yönümlü xərclərin xüsusi çəkisi bunu bir daha təsdiqləyir. 2018-ci ilin büdcə xərclərində dövlət büdcəsindən sosial yönümlü xərclərə 7 milyard 656,3 milyon manat vəsait yönəldiləcək ki, bu da dövlət büdcəsinin xərclərinin 36,6 faizinə, cari xərclərin isə 71,1 faizinə bərabər olacaqdır [5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları"nın icrasına həsr olunmuş 5 fevral 2014-cü il tarixli konfransda dediyi: "Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidir" fikir ölkə rəhbərinin sosial rifah dövləti quruculuğunda prinspiallığını, siyasi iradəsini, qətiyyətini nümayiş etdirməklə yanaşı, hər bir dövlət qulluqçusunun sosial məsuliyyətini daha da artırır.

Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” publik hüquqi şəxs (bundan sonra – DOST Agentliyi) yaradılması haqqında 9 avqust 2018-ci ildə fərman imzalamışdır.Bu fərman da vətəndaşlara xidmətin çox mühüm göstəricilərindən biridir.

**Azərbaycanda ölkə başçısı meqasosial layihələrin təşəbbüskarı, icraçısı kimi təkcə dövlət tərəfindən deyil, qeyri-dövlət sektorunun sosial layihələrin həyata keçirilməsində daha fəal iştirakını məqsədəuyğun hesab edir.** Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlər üçün salınmış “Qobu Park” yaşayış kompleksinin açılışında çıxışı zamanı xeyriyyəçilik, filantrop fəaliyyət və sosial işlə bağlı son dərəcə əhəmiyyətli çağrış etmişdir:“... İmkanı olan şirkətlər ehtiyac içində yaşayanlar üçün gərək şərait yaratsın. Bu gözəl təşəbbüs əminəm ki, Azərbaycanda geniş vüsət alacaq” [4] .

Respublikamız Birləşmiş Millətlər Təşkilatının üzvü olan dövlətlərin 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016–2030-cu illər üçün

təsdiqlənmiş Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Qarşıya qoyulan hədəflər dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji aspektlərini əhatə etməklə, Minilliyin İnkişaf Məqsədlərinə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir.Dövlət başçısı cənab İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanı ilə “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün aparılan siyasətdə daha çox səbəblərin aradan qaldırılması məsələsinə diqqət yetirilir. Bununla bağlı son vaxtlar bir sıra qanunların qəbul olunması, bəzi qanunlara isə müvafiq əlavə və dəyişikliklərin edilməsi bunun bariz ifadəsidir. Məsələn, “Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədilə duzun yodlaşdırılması” haqqında qəbul edilən qanun ölkədə endokrinik xəstəliklərin 7 dəfə azalmasına gətirib çıxarıb. BMT qurumları ilə əməkdaşlıq şəraitində körpələrin, erkən yaşlı uşaqların qidalanması, şəkərli diabet xəstəliyinə tutulan şəxslərə dövlət qayğısı və uşaqların icbari dispanserizasiyası haqqında hazırlanan qanun layihələri ölkədə xəstəliklərin qarşısının alınmasında mühüm rol oynayır.

Bildiyimiz kimi, 30 oktyabr 2018-ci ildə Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikasının Qanunu qəbulu olunmuşdur. Bu da cəmiyyətin sağlam gələcəyini sığortalamaq baxımından mühüm məna kəsb edir.Milli Məclisdə qəbul olunan “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması” haqqında Qanun da belə hüquqi sənədlərdəndir.

**Layiqli həyat səviyyəsinin yüksəldilməsi başlıca məqsəd kimi**

Ölkə başçısının 7 aprel 2017-ci il tarixli müvafiq sərəncamı ilə özünüməşğulluq sistemi yaradılıb və bu məqsədlə ilkin olaraq 16 milyon manat vəsait ayrılmışdı.Ötən müddət ərzində bu məbləğ bir qədər də artırılmışdır.Sözügedən sərəncamın davamı olaraq “İşsizlikdən sığorta fondu”nun büdcəsi üçün nəzərdə tutulan 89 milyon manatın 35 milyon manatı özünüməşğulluq məqsədlərinə yönəldilib. Ölkə başçısının təşəbbüsü ilə “Asan xidmət” brendində yaradılan “ABAD” qurumu gənclərin, evdar qadınların, əlillərin işlə təmin olunmasına əlverişli şərait yaratmaqdadır.Özünüməşğulluq sistemi artıq ölkədə sosial müdafiənin ələbaxımlıqdan kiçik sahibkarlığın yaradılmasına yönələn bir qoluna çevrilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə iş təcrübəsini daha dərindən, praktik öyrənərək, tətbiq etmək məqsədilə hazırda BMT-nin Əmək Təşkilatı ilə birlikdə layihələr həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 09 fevral 2018-ci il tarixli Sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addımdır və bu Sərəncam pensiya təminatında artım dinamikasının, ümumən əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlərin cari ildə də uğurla davam etdirildiyini təsdiq edir.

2004-cü ildən başlayaraq hər 5 il müddətinə fəaliyyət göstərən "Regionların sosial-iqtisadi inkişaf proqramları" qəbul edilmiş, 2 belə layihə uğurla həyata keçirilmiş, 3-cü layihə isə 2014-2018-ci illəri əhatə etmişdir. Bu gün respublikamızın paytaxtında mövcud olan sosial - mədəni infrastruktur eyni səviyyədə bölgələrdə də mövcuddur.Bu illər ərzində ölkəmizdə yüzlərlə təhsil müəssisəsi, tibb müəssisəsi ya yenidən tikilmiş, yaxud da əsaslı təmir olunaraq müasir avadanlıq və cihazlarla təchiz edilərək vətəndaşların istifadəsinə verilmişdir. Azərbaycan hökumətinin təhsil sahəsində 30-a, səhiyyə sahəsində 20-yə yaxın dövlət proqramı qəbul etməsi və həyata keçirməsi, uşaq hüquqları ilə bağlı 40-dan çox qanunun fəaliyyət göstərir. Bu müddət ərzində ölkə ərazisində 15 min kilometrdən yuxarı

yol çəkilmiş, körpülər salınmış, yüzlərlə mədəniyyət evləri, idman Olimpiya kompleksləri tikilmiş, parklar açılmışdır. İnsanların sağlam həyat şəraitini təmin etmək üçün min kilometrlərlə su və kanalizasiya xətləri çəkilmiş, sutəmizləyici qurğular quraşdırılmışdır. Artıq ölkədə çadır şəhərciyi qalmamış, məcburi köçkünlər üçün 3,2 milyon kvadratmetr mənzil tikilmiş, 100-ə yaxın qəsəbə inşa edilmiş, 200 mindən çox məcburi köçkün yeni müasir mənzillərlə təmin olunmuşdur.

Son illərin ən uğurlu sosial layihələrindən biri də sosial evlərin inşası ilə bağlı layihədir. Bu məqsədlə Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) yaradılmışdır. Müharibə iştirakçıları, şəhid ailələri, əlillər, hərbçilər, alimlər, KİV işçilərinin sosial təminatının yüksəldilməsi, mənzil-məişət problemlərinin həlli ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilməkdədir.

Ünvanlı sosial yardım layihəsi çərçivəsində ildə bir milyona yaxın şəxs dövlətdən maliyyə dəstəyi alır ki, bu məbləğ ildən - ilə artmaqdadır. Ünvanlı sosial yardım üçün müəyyən edilən ehtiyac meyarı 2006-cı ildəki 5 manatdan 2017-ci ildə 116 manata qaldırılıb, başqa sözlə, 23 dəfə artırılıb.

Layiqli həyat səviyyəsinin parametri yaşayış minimumu, minimal əmək haqqı, orta aylıq əmək haqqı və orta aylıq pensiyanın artım dinamikası ilə şərtlənir. Azərbaycanda 2019-cu il ehtiyac meyarının həddi 143 manat məbləğində müəyyən edilib. 2019-cu il üçün yaşayış minimumunun ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat müəyyən edilməsi nəzərdə tutulur. Hər iki qanun 2019-cu ilin yanvarın 1-dən qüvvəyə minmişdir.Minimum aylıq əmək haqqının məbləği 2018-ci il yanvarın 1-dən 130 manat müəyyən edilib.Məlum oldğu kimi qeyd olunan rəqəmlər 2019-cu il ərzində yüksək dinamika ilə artmışdır (məsələn, bu gün artıq minimun əmək haqqı 250 manat həcmindədir və.s.). Orta aylıq əmək haqqı isə 2003-cü ildəki 80 manata rəğmən hazırda 500 manat təşkil edir.İqtisadi liberallaşma tədbirlərinin uğurlu nəticələrindən biri olaraq, Azərbaycanın Davos Forumunun hazırladığı "Qlobal rəqabətlilik hesabatı"na görə dünyada 144 ölkə arasında 37-ci, MDB məkanında isə 1-ci yerə çıxmasını qeyd etmək mümkündür.

Sosial dövləti xarakterizə edən parametrlərdən biri də sosial müdafiə tədbirlərinin ardıcıllığı və təminatlılıq səviyyəsidir.Məlum olduğu kimi, Azərbaycan dövləti tərəfindən 38 istiqamətdə sosial müdafiə tədbirləri həyata keçirilir, əmək haqqı, pensiya, müavinət (yaşa, işsizliyə, ailə başçısını itirməyə, əlilliyə, şəhid ailəsinə, veteranlara, xəstəliyə, hamiləliyə, doğuşa, çoxuşaqlılığa və s. görə), təqaüd (tələbələrə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə, şəhid ailələrinə, yaradıcı şəxslərə və s.) verilir, icbari təhsil və tibbi xidmət dövlət vəsaiti hesabına həyata keçirilir, sığorta xidmətləri genişləndirilir. Azərbaycanda 2006-cı il yanvarın 1-dən beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya sisteminin tətbiqi ilə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsinə başlanılıb və 2007-ci ildən etibarən Azərbaycan Respublikası Prezidenti tərəfindən əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi ilə bağlı 10-dan yuxarı Sərəncam verilib. Ölkəmizin sığorta-pensiya sistemində islahat tədbiri kimi, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa edilmiş və 2017-ci il iyulun 1-dən tətbiqinə başlanılan mütərəqqi dəyişikliklər bu sistemin tam sığorta prinsipləri üzərində formalaşmaqla uzunmüddətli və etibarlı maliyyə dayanıqlığına, bazar iqtisadiyyatı şəraitində sosial rifah tələblərinə uyğun layiqli pensiya təminatı imkanlarının artırılmasına xidmət etmişdir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən daxil olan rəsmi məlumatına əsasən, 2017-ci ildə ölkəmizdə orta aylıq nominal əmək haqqının illik artım tempi 5,7 faiz səviyyəsində müəyyən edilmişdir. 01 yanvar 2018-ci il vəziyyətinə ölkədə 1 milyon 318 min 434 nəfər əmək pensiyası alır. Sərəncama əsasən əmək pensiyalarının indeksləş-

dirilərək artırılması pensiyaçıların 1 milyon 236 min nəfərinə və ya 94 faizinə şamil olunur. Bu istiqamətdə də bu gün yüksək artım dinamikasını görməmək mümkün deyildir.Hətta bəzi göstəricilər üzrə bir ildə 3 dəfə artımın şahidi olduq.

19 Aprel 2018-ci ildə prezident İlham Əliyevin imzaladığı fərman sosial istiqamətdə da əhəmiyyətli bir sənəddir. Sənədə əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə təmin edilməkdədir.

**Əlillərin problemlərin həllinə yönəldilmiş siyasət**

Əlillərin problemlərin həllinə yönəldilmiş hüquqi-normativ bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq sənədlər qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli Sərəncamı ilə "Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası üzrə 1999-2002-ci illər üçün Dövlət Proqramı"nın qəbul olunması bu sahədə irəliyə doğru daha bir addım oldu. Dövlət Proqramının icrasını təmin edərək ölkədə əlilliyin qarşısının alınması, əlillərin tibbi, sosial və peşə reabilitasiyası, məşğulluğu, təhsili, sosial müdafiəsi və cəmiyyətə inteqrasiyası məsələləri ardıcıl olaraq həyata keçirilir. Əlillərin asudə vaxtlarının daha maraqlı keçməsi, onların arasında yaradıcı istedadların aşkara çıxarılması məqsədilə ölkədə 1995-ci ildən başlayaraq hər il ümumrespublika sərgi-müsabiqələri keçirilir. Parolimpiya və Xüsusi Olimpiya hərəkatları inkişaf etdirilir. Ölkədə əlillərdən ibarət musiqi kollektivləri fəaliyyət göstərir. İş qabiliyyətli əlillərin məşğulluq problemlərini həll etmək məqsədilə işəgötürənlərə müəyyən olunmuş qaydada kvota tətbiq olunur.

Qadınların hüqüq bərabərliyinin təmin edilməsi istiqamətində Pekin Ümumdünya Konfransında və Kopenhagen Ümumdünya Zirvə Toplantısında qəbul olunmuş platforma və proqramları rəhbər tutaraq son illər qadınların cəmiyyətdə, ictimai həyatda daha fəal iştirakının, faydalı əməklə məşğulluğunun təmin edilməsi sahəsində müəyyən işlər görülmüşdür. Azərbaycan Respublikasının qoşulduğu "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın və IV Ümumdünya Qadınlar Konfransında qəbul olunan öhdəliklərin həyata keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasında "Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı"nın və "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası davam etməkdədir.

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 29 iyul tarixli 169 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar sosial, əmək və məşğulluq sahələrində müəyyən işlər görülmüşdür. Gənc əlillərin tibbi, sosial, peşə reabilitasiyası, onların fəal həyata inteqrasiyası məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikası "Uşaq hüquqları haqqmda Konvensiya"ya qoşulmaqla öz üzərinə böyük məsuliyyət və öhdəliklər götürmüşdür. Bu öhdəlikləri yerinə yetirərək ölkədə bu sahədə müxtəlif dövlət tədbirləri həyata keçirilir. Sosial müdafiəyə xüsusi ehtiyacı olan əhali qruplarının - pensiyaçıların, tənha qocaların, əlillərin, şəhid ailələrinin, çoxuşaqlı və aztəminatlı ailələrin problemlərinin həll edilməsi məqsədilə dövlət tərəfindən müvafiq proqramlar və ünvanlı sosial siyasətin gücləndirilməsi üzrə əlavə tədbirlər həyata keçirilir. Sosial İşçilər tərəfindən əlillərə, tənha və ahıl vətəndaşlara evdə xidmət göstərməklə onlar üçün hərtərəfli yardım üzrə tədbirlər görülür. Sosial xidmət sahəsinin inkişaf etdirilməsi məqsədilə bu sahə ilə bağlı qanunvericilik bazası təkmilləşdirilir .Əlbəttə yaxşı olardı ki, müvafiq strukturlarda sosial işçi və sosial xidmətçi ştat vahidi

artırılsın, ali təhsil müəssisələrinin sosial iş ixtisasında oxuyan tələbələrdən könüllü kimi istifadə imkanları üçün normativ hüquqi sənədlər təkmilləşdirilsin.Onların işinin mənəvi, fiziki ağırlığını,emosioanal yanma riskini nəzərə alaraq əmək haqları yüksək səviyyədə təmin olunmalıdır.

Son illərdə əhalinin sağlamlığının bazar iqtisadiyyatı şəraitində mühafizəsi üçün hüquqi-normativ bazanın yaradılması həyata keçirilir.Azərbaycan Respublikasında “Sosial xidmət haqqında”, "Əhalinin sağlamlığının qorunması haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında, "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" qanunlar qəbul edilmişdir.Azərbaycan dövlətinin əsas məqsədlərindən birinin sosial dövlət olması barədə Konstitusiyaya 2002-ci ildə edilən əlavə və dəyişikliklərdə sosial rifah dövlətinin qurulması ilə bağlı müddəa öz əksini tapmışdır. Konstitusiyamızda Azərbaycan dövlətinin başlıca vəzifələrindən birinin vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması, iqtisadi azadlıqlarının təminatçısı olduğu göstərilir: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir" Konstitusiyanın 16-cı maddəsi "Sosial inkişaf və dövlət" adlanır. Bu maddənin 1-ci bəndində göstərilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır [ 3. s.64 ].

**Nəticə**

Azərbaycan sosial dövlət quruculuğu yolunda inamla irəliləyir. Ölkə başçısı respublikamızın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, vətəndaşa diqqət və qayğı dayandığını bəyan edir və ölkəmizin 2020-ci ildə dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxacağını qarşıya məqsəd qoyur. 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası da bu məqsədlə işlənib hazırlanmışdır. 6.12. 2016-cı il tarixli fərmanla “Azərbaycan Respublikasının Milli İqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” təsdiq edilmişdir. Milli iqtisadiyyatımızın əsas 11 istiqaməti üzrə inkişaf xəttini müəyyən edən bu proqramda birmənalı şəkildə nəzərdə tutulur ki, Azərbaycan 2025-ci ildən sonrakı dövrdə sosial rifah dövlətinə çevriləcəkdir. [2].

**İstifadə edilmiş ədəbiyyat:**


1. Аристотель. Политика // Аристотель. Сочинения: В 4 т. М.: «Мысль», 1983. Т. 4. – с. 376–644. Перевод с древне-греч. С.Жебелева.
2. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı.www.mincom.gov.az/media/xeberler/details/352
3. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64 s.
4. Azərbaycan Prezidenti İlham Əliyev məcburi köçkünlər üçün salınmış “Qobu Park” yaşayış kompleksinin açılışında çıxışı [https://president.az/articles/28737]
5. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadiinkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012.12.Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. http://www.president. az/articles/4098/print
6. Рустамова Дж. Национальная буржуазия в период Азербайджанской Демократической Республики. Баку, 2007, s. 162).

7. Кочеткова Л.Н. Теория социального государства Лоренца Фон Штейна// Философия и общество, No3, 2008, c. 69-79.
8. Gəncəvi N. İskəndərnamə ( İqbalnamə). Bakı.”Lider nəşriyyat” 2004.

**Узейир Шефийев**

**СОЗДАНИЯ ГОСУДАРСТВА СОЦИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ В АЗЕРБАЙДЖАНЕ И ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ**

***Резюме***

В статье представлена сущность социального государства, идеи социального государства в истории общественно-философской и научной мысли, а также построение социального государства в современном Азербайджане. Здесь также представлен панорамный вид пути нашей страны к созданию государства социального благосостояния. В то же время была проанализирована социальная политика, которая осуществляется в Азербайджане.

***Цель*** **–** проанализировать некоторые аспекты создания государства социального благосостояния в Азербайджане

***Методология*** **–** системный и сравнительный анализ

***Результаты исследования*** **–** Важные меры и реформы осуществляются на пути создания государства социального благосостояния в Азербайджане

***Ключевые слова:*** социальное государство, социальное благосостояние, социальное обеспечение, социальная политика, занятость, социальная защита, право

**Uzeir Shefiyev**

**CREATION OF THE STATE OF SOCIAL WELFARE IN AZERBAIJAN AND GLOBAL CHALLENGES**

***Summary***

At the article presents the essence of the social state, the ideas of the social state in the history of public-philosophical and scientific thought, as well as the building of social state in modern Azerbaijan. Here is also a panoramic view of our country's path towards building a social welfare state. At the same time, the social policy implemented in Azerbaijan has been analyzed.

***Purpose of the research -*** to analyze some aspects of creating a state of social welfare in Azerbaijan

***Methodology -*** systemic and comparative analysis

***Findings*** - important measures and reforms are being implemented towards the creation of a social welfare state in Azerbaijan

***Keywords:*** social state, social welfare, social security, social policy, employment, social protection, law

**Rəyçi: AƏSMA, kafedra müdiri, fəl.f.d., dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 12.02.2020**

**UOT 1:001**

**Rövşən Hacıyev**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,***
***aparıcı elmi işçi,***
***fəl.f.d., dosent***
vinodelrovshan1@rambler.ru

# TARİXİ İDRAKDA TARİXİ MƏNBƏNİN VƏ TARİXİ FAKTIN YERİ VƏ ROLU

*Tarixi keçmişin öyrənilməsi müxtəlif cür tarixi mənbələrin və faktların üzərində həyata keçirilir. Lakin müxtəlif tipli mənbələrin məhz tarixi mənbə statusunu əldə etməsi üçün onların elmi mütəxəssis tərəfindən xüsusi üsullarla təhlili həyata keçirilməlidir. Bu təhlilin aparılmasında əsas məqsəd isə tarixi mənbədən elmi fakt kimi istifadə oluna bilməsini müəyyənləşdirmək istəyidir. Məqalə tarixi idrakda tarixi mənbə ilə tarixi fakt anlayışlarının yeri və rolunun müəyyən edilməsinə həsr olunmuşdur.*

***Məqsəd*** **-** tarixi mənbədən elmi fakt kimi istifadə oluna bilməsini müəyyənləşdirməkdir
***Metodologiya*** - tarixi-məntiqi yanaşma
***Tədqiqatın nəticəsi*** - tarixi mənbənin məzmununa münasibətdə ilk baxışda fakt kimi görünən bir reallıq heç də həmişə baş vermiş tarixi hadisənin faktı kimi çıxış etmir.
***Açar sözlər***: tarixi idrak, tarixi mənbə, tarixi fakt, mənbəşünaslıq

## Giriş

Tarixi keçmişin öyrənilməsi, bu prosesdə tarixi idrakın metodologiyasının və metodlarının tətbiqi müxtəlif cür tarixi mənbələrin və faktların üzərində həyata keçirilir. Bəşəriyyətin keçmişinin öyrənilməsi üçün bir qayda olaraq müxtəlif tipli mənbələrdən istifadə olunur. Onlardan arxeoloji, antropoloji, etnoqrafik, tarixi və digər mənbələri misal çəkmək olar. İnformasiyasının daşıyıcısı baxımından bütün tarixi mənbələri maddi və mənəvi olaraq iki hissəyə ayırmaq mümkündür. Bu baxımdan, yuxarıda adları qeyd edilən və məzmunu etibarilə onlara müvafiq olan mənbələri maddi, insanların xatirələri və ya şifahi xalq yaradıcılığı vasitəsilə keçmişdən xəbər verən məlumatları isə mənəvi mənbələr kimi təqdim etmək olar. Belə demək mümkünsə, müxtəlif tipli tarixi mənbələr keçmişdə yaşamış insanların çoxşaxəli ictimai fəaliyyətlərinin nəticəsi kimi ortaya çıxır. Lakin müxtəlif tipli mənbələrin məhz tarixi mənbə statusunu əldə etməsi üçün onların elmi mütəxəssis tərəfindən xüsusi üsullarla təhlili həyata keçirilməlidir. Bu təhlilin aparılmasında əsas məqsəd isə tarixi mənbədən ***elmi fakt*** *kimi* istifadə oluna bilməsini müəyyənləşdirmək istəyidir.

## Tarixi mənbə mənbəşünaslığın obyekti kimi

Tarixi mənbələrin tənqidi şərhi mənbəşünaslıq elminin mərkəzi məsələlərindən birini təşkil edir. Tarix elminin xüsusi sahəsini təşkil edən mənbəşünaslıq elminin vəzifəsi elmi tədqiqatı həyata keçirən tarixçini tarixi mənbənin öyrənilməsi işində həm nəzəri, həm də metodoloji biliklə təmin etməkdən ibarətdir. Beləliklə, tarixi mənbələrin təhlilini tədqiqat prosesinin zəruri mərhələsi kimi, mənbəşünaslığın nəzəriyyəsini isə tarix elminin ümummetodoloji probleminin mühüm tərkib hissəsi kimi qəbul etmək mümkündür.

Mənbəşünaslıq elminin yaradılması XIX əsrin birinci yarısına təsadüf edir və B.Q.Nibur, L.Ranke kimi tanınmış alman tarixçilərinin adı ilə bağlıdır. Adları çəkilən alimlər üçün tarixi mənbənin təbiətinin müəyyənləşdirilməsi məsələsi elə bir çətinlik yaratmamışdır. Məsələn, sadəlöhv tarixi realizm mövqeyindən çıxış edən L.Ranke tarixi mənbələri keçmişdə baş verən hadisələrin gerçək təzahürü kimi qəbul edir və onların həqiqəti əks etdirə bilib-bilməməsi məsələsinə şübhə ilə yanaşmırdı [6]. Onun üçün tarixi mənbə keçmişi olduğu kimi əks etdirə bilən və ona görə də elmi tədqiqatın fundamental əsası kimi çıxış edən real tarixi materiallar kimi qəbul edilirdi. Bu yanaşmada tədqiqatçının subyektiv mövqeyinin mövcudluğu məsələsi diqqətə alınmırdı. Əslinə qalanda, burada söhbət tarixçinin tədqiqatçılıq bacarığından deyil, onun mənbənin məzmununu olduğu kimi açıb göstərə bilməsi qabiliyyətindən gedirdi. Eyni zamanda həmin dönəmdə tarixi mənbə kimi daha çox rəsmi xarakter daşıyan sənədlərə üstünlük verilirdi.

XIX əsrin ikinci yarısından etibarən xüsusən cəmiyyətin sosial-iqtisadi problematikasının öyrənilməsi kontekstində (bu istiqamətdəki elmi fəaliyyətə dair marksizmi göstərmək olar) tarixi mənbələrin tədqiqinə olan münasibət tədricən dəyişməyə başladı. Bu məsələdə pozitivizmin təsiri xüsusilə böyük olmuşdur. Pozitivistlər çalışırdılar ki, mənbəşünaslığın daha mükəmməl metodikasının işlənilməsi hesabına bəşər tarixini dəqiq elmlərə oxşar əsaslarda tədqiq etsinlər. Bu istiqamətdə fəaliyyət göstərən İ.Q.Droyzen, E.Bernqeym, E.Friman, Ş-V.Lanqlua və Ş.Senobos kimi alimlərin fəaliyyəti sayəsində XIX əsrin sonlarına doğru mənbəşünaslıq öz predmeti və özünəməxsus metodologiyası olan müstəqil elm sahəsinə çevrilə bildi. Xüsusilə 1898-ci ildə Lanqlua və Senobosun çap etdirdiyi “Tarixin öyrənilməsinə giriş” adlı kitab pozitivistlərin həyata keçirmək istədikləri nəzəri işlər baxımından mühüm metodoloji əhəmiyyət daşımışdır. Adları çəkilən mütəfəkkirlər ilk növbədə “tarixi mənbə” anlayışını fransız tarixçiləri üçün daha anlaşıqlı və işlək olan “sənəd” anlayışı ilə əvəzlədilər. Onlar bildirirdilər ki, tarixin obyektiv, yəni olduğu şəkildə üzə çıxarılması və qələmə alınması məhz tarixi sənədlər vasitəsilə həyata keçirilir [2, s.78-79]. Sənədi tarixi keşmişin izi olaraq qəbul edən bu mütəfəkkirlər onu tarixi idrakın yeganə mənbəyi səviyyəsinə qaldırır və bu əsasda hesab edirdilər ki, sənədsiz tarixi idrak mümkün deyil [2, s. 79]. Lakin bu fikirlər elə təəssürat yaratmamalıdır ki, adları çəkilən mütəfəkkirlər tarixçinin tədqiqatçılıq qabiliyyətinin əhəmiyyətini azaldırdılar. Əksinə, onlar hesab edirdilər ki, sənədlər maddi fakt kimi çıxış etsə də, insanların fərdi və kollektiv fəaliyyətlərindən söhbət açsa da, yalnız müəllifin yaradıcı təfəkkürünün obrazı olaraq öz real əhəmiyyətini əldə etmiş olurlar [4, s. 173-174]. Lakin bununla yanaşı, tarixi sənəd elmi faktın mənbəyi kimi pozitivistlər tərəfindən tarixi idrakın əsası olaraq qəbul edilirdi. İngilis tarixçisi E.Karrın təbirincə desək, pozitivistlər elə hesab edirdilər ki, “tarixçilərə lazım olan faktlar bazarda satılan balıqlar kimi sənədlərdə hazır şəkildə vardır; və həmin faktları alıb evə gətirərək, onlardan zövqünə uyğun istədiyin xörəyi bişirmək mümkündür” [7, s. 3]. Tarixi sənədlərin tarixi faktların başlıca mənbəyi kimi çıxış etməsi və bu prosesdə tarixçinin tədqiqatçılıq rolunun bir növ tarixi sənədlərdən asılı olaraq qəbul edilməsi haqqındakı təsəvvürlər sonrakı mərhələnin metodoloqları tərəfindən əsaslı şəkildə tənqid edildi. Bu metodoloqları neoidealistlər və ya tarixin tənqidçiləri kimi də təqdim edirlər. Onların sırasından xüsusilə ingilis alimi F.Bredlini, alman filosofu V.Dilteyi, italyan mütəfəkkiri B.Kroçeni [3], fransız filosofu P.Rikoru [5] və tarixçi-metodoloq A.İ.Marrounu [8] misal çəkmək olar.

Neoidealistlər və ya tarixin tənqidçiləri ilk növbədə keçmişi öyrənməyə çalışan mütəxəssisin tədqiqatçılıq qabiliyyətini önə çəkməyi gərəkli hesab etmişlər. Onlara görə, tarixin tənqidi elə bir fəlsəfi nəzəriyyədir ki, burada, yəni tarixi prosesin idrakında həledici rol tarixçinin düşüncə qabiliyyətinə, analitik təfəkkürünə və hətta şəxsi keyfiyyətlərinə

məxsusdur [2, s.94]. Məsələn, neoidealist A.İ.Marrouya görə, tarixi tarixçidən ayırmaq qeyri-mümkündür və əsl tarix tarixçinin yaradıcı təfəkkürünün məhsulu kimi ortaya çıxır [8, s.51-55]. Əslində belə yanaşma neoidealistlərin tarixi idraka münasibətdə subyektivizm mövqeyindən çıxış etməsini göstərir. Eyni mövqedən tarixi idrakın tanınmış metodoloqu, neoidealist R.Aron da çıxış etmişdir [1]. Neoidealistlərin tarixi idraka bu tərzdə yanaşması tarixi mənbənin əhəmiyyətini xeyli azaltmaqla yanaşı, həm də tarixi proseslərin obyektivliyini şübhə altına almağa əsas yaratmışdır. Bu yanaşmaya əsasən, tarixi idrak prosesində əhəmiyyəti baxımından tarixçinin təfəkkürü birinci, tarixi mənbə isə ikinci dərəcəlidir. Məlumdur ki, bu yanaşma marksist mövqedən çıxış edən tarixin metodoloqlarının mövqeyinə tamamilə ziddir. Bu reallığı nəzərə alaraq, marksist tədqiqatçıların da tarixi idrakın metodoloji məsələlərinə olan mövqeyini bilmək məqsədəuyğun olardı.

Tarixi mənbənin marksist mövqedən səciyyələndirilməsi G.M.İvanov, A.M.Korşunov və Y.V.Petrovun həmmüəllif olduqları dərslikdə aydın şəkildə verilmişdir. Dərsliyin müəllifləri hesab edirlər ki, tarixi mənbə subyektiv olmayıb, obyektiv gerçəklikdir, çünki insan əməyinin əşyalaşdırılmış təcəssümü kimi ortaya çıxır. Tarixi mənbə vaxtilə insanların fəaliyyəti və istəkləri əsasında gerçəkləşə bilmiş konkret sosial həyatın obyektiv gerçəkliyi kimi ərsəyə gəlir və bu baxımdan tarixi idrakın obyektiv mənbəyi rolunu oynaya bilir [2, s.127]. Məhz buna görə, tarixi idrakın öyrənilməsi obyektiv zəmində baş verir, çünki insanların sosial fəaliyyətinin nəticəsi olan tarixi mənbəyə əsaslanır. Tarixi idraka bu cür yanaşma zamanı marksist mövqedən irəli gələn metodoloqların nəzərindən mühüm bir məqam yayınmış olur. Tarixi mənbə əlbəttə ki, vaxtilə fəaliyyət göstərmiş insanların əməyinin bəhrəsi kimi ortaya çıxır, lakin bu sadə bir məhsul deyildir, özündə tarixi proseslərin subyektiv maraqlarını əks etdirən bir əşyadır. Başqa sözlə, əmək alətinin düzəltməsi ilə tarixdə baş verən hadisələrin qələmə alınması və maddi mənbə kimi ərsəyə gəlməsi eyni qəbildən olan maddi-mədəniyyət məhsulları deyildirlər, çünki ikincilərdə insan xislətinin təzahürləri vardır və bu da tarixi prosesin adekvat şəkildə əks etdirilməsinə imkan vermir. Bu səbəbdən neoidelistlərin və ya tarixin tənqidçilərinin tarixi idraka olan mövqeləri daha doğru görünür, çünki tarixi mənbə ilə işləyən tədqiqatçıdan həqiqətin yanlışlıqlardan, qərəzli fikirlərdən təmizlənməsi qabiliyyətini tələb edir. Bu baxımdan, zənnimizcə, neoidealistlərin mövqeyi, yəni tarixi idrakda tədqiqatçının rolunun tarixi mənbədən daha üstün tutulması amili prosesləri daha adekvat şəkildə əks etdirməyə imkan verir.

Mənbəşünaslığın tədqiqat üsulları vasitəsilə tarixi mənbədən obyektivlik kəsb edən tarixi faktın müəyyən olunması işi tarixi tədqiqatın başlanğıc mərhələsinin mühüm məsələsini təşkil edir. Bu baxımdan tarixi fakt adı altında nəyin başa düşülməsi məsələsi tarixin tədqiq edilməsi yolunda mühüm metodoloji əhəmiyyət daşıyır, çünki tarix elmində üzə çıxarılan biliklərin obyektivliyinin əsaslandırılması, subyektivizmin aradan qaldırılması kimi həlli vacib problemləri özündə ehtiva edir.

**Tarixi faktın idrak prosesində rolu**

"Tarixi fakt" anlayışının məzmunu XIX əsrdə tarixi prosesdə siyasi hadisələrin öyrənilməsi zəminində formalaşmışdır. Yarandığı dövrdə tarixi fakt tarixi mənbələrin tənqidi əsasında tarixçinin şüuru tərəfindən bərpa edilən, eyni zamanda, baş vermiş konkret hadisəni olduğu kimi əks etdirə bilən, tam şəkildə doğruluğu əsaslandırılan bilik olaraq qəbul edilmişdir. Bu cür başa düşüldüyü səbəbindən tarixi fakt tarix elminin obyektivliyinin əsası kimi çıxış edirdi, tarixçilər isə şübhə etmirdilər ki, öz tədqiqatlarında məhz real tarixi hadisələri üzə çıxarırlar. O dövrün tarixçiləri ayrıca götürülmüş tarixi faktın şərhi və müəyyən edilməsini tədqiqat prosesinin əsası kimi qəbul edir və bu zaman tədqiqatçının ümumiləşdirmələr aparmasına elə bir əhəmiyyət vermirdilər. Bir növ tarixi

faktın müəyyən edilməsi tədqiqatçının yaradıcı şüurundan kənar baş verirdi.

XIX əsrin ikinci yarısında marksizmin təsiri və ümumən sosial-iqtisadi tarixin öyrənilməsi zərurəti ilə tarixi mənbələrin araşdırılması prosesində tədqiqatçının ümumiləşdirmələr aparmasının vacibliyi məsələsi ortaya çıxdı. Bu zaman aşkar edildi ki, tarixi mənbələrdən tarixi faktın əldə edilməsi sadə bir proses deyildir. Aydınlaşdırıldı ki, tədqiq edilən tarixi mənbə hələ baş vermiş tarixi hadisənin özü deyildir və ona görə də tarixi faktın əldə edilməsi balavasitə deyil, dolayısı ilə mümkün ola bilər ki, bu da xeyli dərəcədə tarixçinin tədqiqatçılıq qabiliyyətindən asılıdır. Digər tərəfdən, aydınlaşdırıldı ki, baş vermiş tarixi hadisənin özü daha elementar hadisələrlə əlaqədardır və ona görə də tarixi faktın müəyyən edilməsi yalnız deduksiya vasitəsilə və ya əqli nəticələrlə mümkündür ki, bu da tarixi faktın obyektivliyi məsələsini şübhə altına alır. Ona görə ki, tarixi faktın müəyyən edilməsi artıq tarixi mənbənin necə analiz edilməsindən daha çox tarixçinin tətqiqatçılıq qabiliyyətindən asılı olacaqdır. Tanınmış tədqiqatçı F.M.Povikkenin qənaətinə görə, “üzə çıxarmaq istədiyimiz tarixi keçmiş faktlara söykənsə də, onun haqqında əldə edəcəyimiz biliklər yalnız tədqiqatçının mühakimələri vasitəsilə əldə edilir” [9, s.231]. Eyni zamanda keçmişdə baş vermiş hadisələrin müxtəlif səbəb-nəticə əlaqələrilə digər hadisələrdən asılı olması da tarixi faktın müəyyən edilməsi məsələsində tədqaqıtçının idrakı qabiliyyətinin nə qədər vacib olmasından xəbər verirdi. Tarixçilər tərəfindən tarixi proseslərin öyrənilməsi tam aydınlığı ilə belə bir məsələni də üzə çıxardı ki, tarixi fakt tədqiqatın yalnız başlanğıc mərhələsi kimi çıxış etmir, həm də özündə müəyyən ümumiləşdirilmələrin aparılmısını ehtiva edən və çox sayda mənbələrin və statistik məlumatların analizini tələb edən nəticə kimi də çıxış edir. Bütün yuxarıda deyilən fikirləri ümumiləşdirməklə, tədqiqatçıların müxtəlif fəlsəfi yanaşmalardan çıxış etməsini, yəni öz subyektiv mövqelərindən irəli gəlməsini də nəzərə alsaq, o halda belə qənaətə gəlmək mümkündür ki, tarixi biliklərin obyektivliyini şübhə altına almağa əsasımız olacaqdır. Halbuki, marksist yanaşma tarixi faktlara bu cür yanaşmanı qəbul etmir. Marksistlərə görə, tarixi faktların biliklərin obyektivliyini təmin edə bilməsi, dolayısı ilə tarixi biliklərin də adekvatlığına, yəni həqiqəti olduğu kimi əks etdirə bilməsinə imkan yaradır. Lakin tarixin metodoloqlarının əksəriyyəti marksist yanaşmaya ciddi yanaşmır. Qeyd etmək lazımdır ki, marksist yanaşmaya nisbətən daha yaxın olan, yəni tarixi faktların tarixi biliklərin obyektivliyinin təmin edə bilməsi mövqeyini qəbul edən pozitivizmin (L.Ranke) və idioqrafizmin (məs., Q.Rikkert) nümayəndələrindən fərqli olaraq, xüsusən irrasionalistlər (R.Aron) tarixi biliyin əldə olunmasında tarixi faktların əhəmiyyətinin yalnız tədqiqatçının yaradıcı şüurundan asılı olması mövqeyindən çıxış etmiş və bu baxımdan tarixi faktların obyektivliyi təmin edə bilməsini qeyri-ciddi yanaşma kimi dəyərləndirmişlər. Məsələn, farnsız filosofu və sosioloqu, eyni zamanda tarixi biliklərin əldə olunması işində irrasionalist mövqedən çıxış edən R.Aron hesab etmişdir ki, tarixi fakt heç bir halda həqiqi biliyə nail olunmasına imkan yarada bilməz, çünki tədqiqat prosesi sadəcə tarixçinin təfəkkürünün konstruksiyası kimi ortaya çıxacaqdır [1, s.113]. Bu kontekstdə R.Aron belə qənaətə gəlmişdir ki, tarixi idrak obyektivlik baxımından həmişə nisbi xarakter daşıyacaqdır. Eyni mövqedən tanınmış fransız metodoloqu A.İ.Marru çıxış etmişdir. O bildirmişdir ki, “tarixçi nə qədər baş verən hadisədən uzaqdırsa, onun əldə etmək istədiyi tarixi fakt da bir o qədər onun təfəkkürünün konstruksiyası kimi çıxış edir” [8, s.61].

İndi isə tarixi fakt anlayışına dair müəllif mövqeyini səsləndirməyə çalışaq. Aydındır ki, tarixi fakt ilk növbədə tarixi hadisənin konkret tərənnüm və ya ifadə forması kimi çıxış edir. Bu baxımdan keçmişdə baş vermiş hadisənin olduğu kimi üzə çıxarılması baxımından həqiqətən də tarixi fakt mühüm əhəmiyyət daşıyır. Ona görə tarixi hadisənin tarixi fakt vasitəsilə nə dərəcədə adekvat təsvir edilməsi metodoloji baxımdan çox

əhəmiyyətlidir və yuxarıdakı fikirlərimiz də göstərdi ki, bu məsələyə ilə bağlı metodoloqlar arasındakı fərqli yanaşmalar da məhz bu iki anlayışın müqayisəli təhlili zəminində ortaya çıxmışdır. Aydındır ki, tarixi faktlara tam şəkildə inanmaq, onların tarixi hadisələri olduğu kimi əks etdirə bilməsi mövqeyi məqbul sayıla bilməz, çünki belə bir yanaşmada faktiki olaraq, tarixi hadisə ilə tarixi faktın eyniləşdirilməsi baş verir. Bu ona görə mümkün deyildir ki, istənilən fakt yalnız tarixçinin təhlil süzgəcindən keçdikdən sonra, yəni onun şüurunda, təfəkküründə qavranıldıqdan və emal olunduqdan sonra öz əhəmiyyətini əldə edə bilir. Bu baxımdam marksistlərin, eləcə də pozitivistlərin tarixi faktların reallığı olduğu kimi əks etdirə bilməsi mövqeyi, yəni obyektivliyi təmin etməsi kimi baxışları əlbəttə ki, birmənalı qəbul edilə bilməz.

Digər tərəfdən, relyativist və ya irrasionalist mövqedən çıxış edən metodoloqların tarixi faktların obyektiv reallığı əks etdirə bilməməsi kimi baxışları da faktiki gerçəklik kimi qəbul edilməməlidir. Belə ki, ən azı tarixin prosesin rəsmi səlnaməsini əks etdirən sənədlərin tənqidi və müqayisəli təhlilinin aparılması zəminində onların obyektiv tarixi fakt kimi qəbul edilməsini mümkün edir və bununla da tarixi hadisənin olduğu kimi üzə çıxarılmasına imkan yaradır. Lakin dediyimizlə yanaşı onu da vurğulamaq yerinə düşər ki, hər bir halda tarixi faktlar yalnız tədqiqatçının şüur süzgəcindən keçdikdən sonra elmi mənbə statusunu əldə edə bilər. Bu məsələdə isə tarixçinin keçmişdə baş vermiş hadisələrə nə dərəcədə obyektiv yanaşı bilməsi, onları qərəzsiz şəkildə və ya olduğu kimi üzə çıxarmaq qabiliyyətinə malik olması kimi keyfiyyətlər tarixi faktların obyektivliyinin təmin edilməsi baxımından daima real həllini gözləyən problem kimi qalacaqdır. Burada məntiqi şəkildə ortaya bir sual çıxır – nə üçün tarixi faktların obyektivliyini əks etdirmək bu dərəcədə problem yaradır. Məsələ yalnız tədqiqatçının mövqeyinin nə dərəcədə obyektiv və ya subyektiv olub-olmaması ilə müəyyənləşmir. Belə ki, tarixi fakt tarixi mənbədən əldə edilir. Bu aydındır, çünki tarixi mənbə baş vermiş tarixi hadisənin tərənnümçüsü kimi çıxış edir. Məsələ də elə orasındadır ki, tarixi mənbənin özünün tarixi hadisəni nə dərəcədə obyektiv əks etdirə bilməsi problematikdir. Yaxın keçmişdəki tarixi hadisələri əks etdirən tarixi sənədlərin təftişini aparmaq nisbətən asandır və bu aspektdə obyektivliyi təmin etmək əsasən problem yaratmır. Lakin uzaq keçmişdə baş vermiş hadisələrin onları ifadə edən tarixi mənbələr vasitəsilə əks etdirilməsi xeyli dərəcədə çətindir. Məsələ burasındadır ki, o dövrün tarixi mənbələrinin doğruluğunu üzə çıxarmaq elə də asan məsələ deyildir. Məlumdur ki, səlnaməçilər baş vermiş tarixi faktları öz olkələrinin maraqları çərçivəsində tərtib etməyə çalışmışlar. Burada bir qayda olaraq öz dövlətinin başçısının maraqları güdülmüşdür. Ona görə də, bu tip tarixi mənbələrdən tarixi faktın aşkar edilməsi həqiqətən də həmişə ciddi problemlərlə qarşılaşmışdır. Bəzən elə ola bilir ki, ilk baxışda tarixi hadisənin əks etdirildiyi zənn olunan tarixi mənbə əslində olmayan hadisəni tərənnüm edir. Deməli, belə mənbənin tarixi fakt kimi təqdim edilməsi əvvəlcədən yanlış nəticələrin əldə edilməsinə yol açacaqdır. Etiraf olunmalıdır ki, əslində tarixi hadisəni olduğu kimi əks etdirə bilən tarixi mənbələrin sayı elə də çox deyildir. Məhz bu səbəbdən tarixçinin tədqiqatçılıq məharəti böyük önəm daşıyır. Belə ki, tədqiqatçıya yalnız baş vermiş tarixi hadisələrə obyektiv yanaşılması keyfiyyətinin ortaya qoyulması kifayət etmir, həm də istifadə etdiyi tarixi mənbənin nə dərəcədə baş vermiş tarixi hadisəni olduğu kimi, yəni adekvat şəkildə əks etdirə bilməsini üzə çıxarmaq bacarığına malik olması bütün ciddiliyi və əhəmiyyəti ilə gündəmə gəlir.

**Nəticə**

Beləliklə, yuxarıda aparılan təhlillər “tarixi fakt” anlayışının məzmununa abstrakt deyil, konkret yanaşılması tələbini ortaya qoyur. Belə ki, tarixi mənbənin məzmununa

münasibətdə bizim üçün ilk baxışda fakt kimi görünən bir reallıq heç də həmişə baş vermiş tarixi hadisənin faktı kimi çıxış etmir.

**İstifadə edilmiş ədəbiyyat**:


1. Арон Р. Избранное: Введение в философию истории, М., «ПЕР СЭ», СПб., «Университетская книга», 2000, 543 с.
2. Иванов Г.М., Коршунов А.М., Петров Ю.В. Методологические проблемы исторического познания, М., «Высшая школа», 1981, 296 с.
3. Кроче Б. Теория и история историографии / Пер. с итал. И. М. Заславской/, М., Школа «Языки русской культуры», 1998, 192с.
4. Ланглуа Ш.-В., Сеньобос Ш. Введение в изучение истории (пер. с фр. А.Серебряков), 2-е изд. М., “Гос. публ. ист. Библиотека”, 2004. 305 с.
5. Рикёр П. История и истина / Пер. с фр. И. С. Вдовина, О. И. Мачульская/, СПб., «Алетейя», 2002, 400 с.
6. Смоленский Н.И. Леопольд фон Ранке. Методология и методика исторического исследования // Методологические и историографические вопросы исторической науки. Томск, 1966, вып. 4, с. 270-311.
7. Carr E. H. What is History? London: Macmillan, 1962, 465 p.
8. Marrou H.İ. Delà connaissance historique, Éditions du Seuil, Paris, 1954, 300 p.
9. Powicke F.M. Modern Historians and the Study of History: Essays and Papers, London, Odhams, 1955, 256 p.


**Ровшан Гаджиев**

## МЕСТО И РОЛЬ ИСТОРИЧЕСКОГО ИСТОЧНИКА И ИСТОРИЧЕСКОГО ФАКТА В ИСТОРИЧЕСКОМ ПОЗНАНИИ

***Резюме***


Изучение исторического прошлого реализуется на основании исторических источников и фактов. Однако для обретения многими источниками именно статуса исторического источника требуется специальный анализ, проводимый исследователем.

Основной целью в проведении этого анализа является определение возможности исторического источника быть использованным как исторический факт. Статья посвящена изучению вышеизложенных вопросов.

***Цель*** – определить используемость исторического источника как исторического факта;

***Методология*** – историко-логический подход;

***Результат*** – реальность, выступающая с первого взгляда как факт по отношению к содержанию исторического источника, не всегда становится фактом произошедшего исторического события.


***Ключевые слова***: историческое познание, исторический источник, исторический факт, источниковедение

**Rovshan Hajiyev**

**PLACE AND ROLE OF THE HISTORICAL SOURCE AND HISTORICAL FACT IN HISTORICAL KNOWLEDGE**

***Summary***

The study of the historical past is implemented on the basis of historical sources and facts. However, for many sources to acquire precisely the status of a historical source, a special analysis is required by the researcher. The main goal in conducting this analysis is to determine whether a historical source can be used as a historical fact. The article is devoted to the study of the above questions.

***Purpose of the research*** – determine the use of a historical source as a historical fact;

***Methodology*** – historical logical approach;

***Findings*** – reality, which at first glance appears as a fact in relation to the content of a historical source, does not always become a fact of a historical event.

***Keywords***: historical knowledge, historical source, historical fact, source study

**Rəyçi: AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, f.e.d. Füzuli Qurbanov**

**Qəbul edilib: 30.01.2020**

**UOT 316**

**İlham Soltanov**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,***
***elmi işçi***
soltanovilham@rambler.ru

# MİLLİ İDEOLOGİYANIN GERÇƏKLƏŞMƏ ZƏRURİLİYİ

*Məqalədə milli ideologiyanın sosial-fəlsəfi məzmun-mahiyyətinə nəzər salınır, hər bir ölkənin inkişafında milli ideologiyanın və milli maraqların rolunun əhəmiyyəti araşdırılır. Milli ideologiyanın ictimai əhəmiyyəti tədqiq olunur, müxtəlif tədqiqatçıların fikirlərinə münasibət bildirilir, milli ideologiyamızın formalaşmasında mühüm rol oynamış tarixi şəxsiyyətlərimizin xidmətləri təhlil edilir. Milli ideologiyanın əsasında sosial ədalətin durması əsaslandırılır.*

***Məqsəd*** - müasir dövrdə milli ideologiyanın zəruriliyinin əsaslandırılması

***Metodologiya*** - müqayisəli, sistemli təhlil

***Tədqiqatın nəticələri*** - hər bir dövlətin və cəmiyyətin inkişafında milli ideologiya mühüm rol oynayır.

***Açar sözlər:*** milli ideologiya, dövlət, millət, cəmiyyət, milli mənafe, milli maraq

## Giriş

Cəmiyyət yaşayır və gələcək mövcudluğu uğrunda mübarizə aparır, onun keçici və daimi maraqları, prioritetləri olur. Cəmiyyətin müxtəlif fəaliyyət sahələri üzrə qruplaşan bu maraqlar məhz ümumi mənafe, milli maraqlar yüksəkliyində bir-birilə uzlaşma, sintezləşmə imkanını və gerçəkliyini əldə edir. Sözsüz ki, bu imkan və gerçəkləşmə, hətta eyni bir cəmiyyət üçün, zamanədən, çoxçeşidli səbəblərdən asılı olaraq az və çox olur, müxtəlif dərəcədə özünü göstərir. Bəzən elə olub ki, dövlət və xalq maraqları adı altında hansısa siyasi qüvvənin və yaxud sosial qrupun maraqları, önə keçərək, hakim mövqe tutub və faktiki olaraq, milli maraqların reallaşmasının qarşısını alıb. Bəşər tarixi belə misallarla zəngindir. Dünya ölkələrinin tarixi onu da sübut edir ki, təkcə, xüsusi maraqların uzunmüddətli hökmranlığı, «tam» adından çıxış etməsi və onu əvəzləməsi nəticəsində milli və ya həqiqi dövlət maraqları müdafiəsiz qalır, yekunda isə ölkənin özü iflasa uğrayır və dağılır.

Milli ideologiyaya münasibətdə formalaşmış laqeydlik müəyyən qədər Sovetlər İttifaqının dağılması ilə bağlı olmuşdur, daha dəqiq desək, bu dağılma prosesini düzgün anlamamaq nəticəsində yaranmışdır. Bu günün özündə də çoxları belə düşünürlər: SSRİ yeganə və vahid bir hakim ideologiya – kommunist ideologiyası çərçivəsində yaşamağa iddialı və qərarlı olduğundan süquta uğradı və dağıldı, ona görə də, əgər biz demokratik cəmiyyət qururuqsa, rəsmi hakim ideologiya ola bilməz. Bəziləri isə, bir qədər də yanlışlığa vararaq və qabaqcıl ölkələrin inkişaf tarixindən səhv nəticə çıxararaq, deyirlər: «hər cür ideologiya buxovundan azad olmaq lazımdır», «cəmiyyətin mütərəqqi inkişafı onun ideologiyasızlaşdırılmasındadır» (1, 15).

Çox düşündürücüdür, müasir Azərbaycanın dirçəldilməsində və inkişafına, onun

müstəqilliyinin və dövlət suverenliyinin möhkəmlənməsində, milli maraqların ardıcıl olaraq müdafiə edilməsində və reallaşdırılmasında, milli inkişaf konsepsiyasının həm müəyyənləşməsində, həm də uğurla həyata keçirilməsində danılmaz xidmətləri olan dəyərli şəxsiyyətlərimiz dönə-dönə milli ideologiyanın vacibliyindən, əhəmiyyətindən, onun kəsb etdiyi məzmun-mahiyyətindən, səciyyəvi xüsusiyyətlərindən, məqsəd və vəzifələrindən, aparıcı ideya-prinsiplərindən danışmış, istiqamət vermişlər, eyni zamanda problemlə bağlı xeyli praktiki və nəzəri işlər görmüşlər və görməkdədirlər.

Milli ideologiya məhz o fenomen-varlıqdır ki, bir tərəfdən, ictimai əhəmiyyətli, taleyüklü problemlər üzərində düşünməyi cəmiyyət üzvlərinə aşılayır, məna axtarışında və reallaşmasında insanı özündən kənara çıxmağa - transsendləşmə prosesinə sövq edir və burada ona yardımçı olur, digər tərəfdən unikal insan mövcudluğunun özü üçün oriyentirlər verir, istiqamətverici ideya və prinsiplər, təsəvvürlər sistemi ortaya qoyur ( 2,137).

AMEA-nın Prezidenti, akademik Ramiz Mehdiyev «Azərbaycançılıq - mİlli ideologiyanın kamil nümunəsi» adlı məqaləsində yazır: «Ötən illərin tarixi təcrübəsi göstərmişdir ki, cəmiyyətdə canlı və anlaşıqlı ideya olmadıqda, dövlətin və millətin siyasi, iqtisadi və mənəvi inkişafının əsasları sayılan ideoloji oriyentirlər olmadıqda hökmən boşluq yaranır və o, müxtəlif və çox vaxt bir-birinə zidd, ənənəvi sosial-mədəni normalarla vəhdət təşkil etməyən siyasi nəzəriyyə və ideologiyaların qarışığı ilə dolur. Bu, dövlətçiliyin formalaşması prosesinə və millətin simasına mütləq təsir göstərir. 1991-1993-cü illərin praktikası göstərdi ki, dövləti kortəbii, situativ şəkildə idarə etməyə, ictimai şüuru zorakılıqla ideologiyasızlaşdırmağa can atmaq nəyə gətirib çıxara bilər. Odur ki, ideoloji sistemi cəmiyyəti mənən dirçəltməyə, onun yaradıcılıq potensialını gücləndirməyə, ictimai şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirməyə qadir struktur kimi qurmaq niyyəti Heydər Əliyev siyasətinin əsası olmuşdur» (4,s. 457-458).

Hər iki mövqe tərəfdarlarının - istər ideologiyanın vacibliyini etiraf edib onun hakim statusda olmasından təlaş keçirənləri, istərsə də bütövlükdə deideologizasiya bayrağı altına yığılanları təkzib etmək, yanlış yolda olduqlarını əsaslandırmaq o qədər də çətin olmasa da, onları tutduqları bu yoldan döndərmək, əfsuslar ki, asan deyil. Belə ki, yanlışlıq olduqca dərinləşmiş və geniş miqyas almış, kütləviləşmişdir, hətta hakim və hökmverici status qazanmışdır. Aydındır ki, belə vəziyyət ictimai həyatın durumuna və axarına mənfi təsir göstərməyə bilməz.

SSRİ-dən ayrılıb müstəqilliyə qədəm qoyduğumuz ilk illərdə hər cür ideologiyadan üz çevirmək meylinə, ideologiyasızlaşdırma kampaniyasına, bəlkə də, müəyyən qədər bəraət qazandırmaq olardı. AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov 1997-ci ildə «İdeologiya və ictimai-siyasi fikir» adlı məqaləsində yazdığı kimi, müstəqilliyimizin ilk çağlarında «ideologiyasızlaşdırma kampaniyasının səbəblərindən biri ümumiyyətlə «ideologiya» anlayışının o vaxta qədər yeganə leqal ideoloji sistem olan kommunist ideologiyası ilə birləşdirilməsi idisə, digər səbəb dövlətin başında duran adamların yeni dövrün ümumi səciyyəsini vermək, siyasi, iqtisadi, mədəni inkişaf perspektivlərini müəyyənləşdirmək, xalqın, dövlətin ümummilli mənafeyini elmi şəkildə şərh etmək, mənəviyyatın bütün sahələrini əhatə edən ideyaları ümumiləşdirib konsepsiya səviyyəsinə qaldırmaq iqtidarında olmaması idi» (5, s. 283).

Lakin indi, bir çox illər keçdikdən sonra, müstəqilliyimizin qərarlaşıb möhkəmləndiyi bir vaxtda milli ideologiyaya və ümumiyyətlə ideologiya məsələlərinə bəslənən soyuq, laqeyd münasibətə heç cür bəraət qazandırmaq mümkün və düzgün deyil. Hər cür ideologiyaya qarşı çıxmaqla, yaxud da «demokratik cəmiyyətdə hakim ideologiya ola

bilməz» deməklə, fərqi yoxdur - hər bir halda, cəmiyyətimizin mütərəqqi inkişafına yalnız ciddi problemlər yaradılır, onun ruhi-əqli, mənəvi-psixoloji ovqatına, fəaliyyət oriyentirlərinə sarsıdıcı zərbələr endirilir, ictimai özünüdərk və özünüifadə proseslərinə maneələr törədilir. Belə olduqda, dərindən düşünən və məsuliyyət hissi güclü olan adamların ayrı-ayn dövlət məmurlarının, alim və siyasətçilərin, mədəniyyət xadimlərinin bütün cəhdlərinə, çəkdikləri zəhmətə baxmayaraq, istər-istəməz, fərdi və ictimai əməkdə, sosial fəallıqda və birgə fəaliyyətdə pərakəndəlik, nizamsızlıq, dolaşıqlıq özünü göstərməyə bilməz. Milli mənafelərə, dövlət maraqları ilə xalqın maraqlarının uzlaşmasına tuşlanmış optimal ictimai fəallıq, daxilən səbəb olmuş və stimullaşmış səfərbərlik belə vəziyyətdə, sadəcə olaraq, arzuladığımız səviyyədə mümkün deyil.

Professor Ə.Abbasovun fikrincə, milli ideologiya milli dövlətin ən yaxşı zəkalarının böyük zəhməti hesabına materiyanı ruhi qüvvəyə çevirən, mənəvi-əxlaqi potensialı qoruyub-saxlayan, bu potensial lazımınca yeniləşdirən və zənginləşdirən fenomendir. O, birbaşa və bəsit mənada anlanılan nəzəri müddəalar, ideya və prinsiplər sistemi deyil, daha dəqiq desək, yalnız bununla kifayətlənmir. Onun kamilləşməsi və bu qismdə əhəmiyyət kəsb etməsi həm nəzəri, həm də praktiki müstəvidə baş verir. Başqa sözlə, fundamental suallara tutarlı, praktiki və nəzəri cəhətdən faydalı cavablar sistemi kimi çıxış edən milli ideologiya öz məna-mahiyyətini, qüdrətini ardıcıl və şüurlu mübarizədə tapır. Mübarizə, milli ideologiya uğrunda döyüş isə çox vaxt ağır və uzunmüddətli olur. Bunu bizim müstəqillik illərimiz də bir daha sübut edir (1, 276).

İnsana öz həyatının mənasını anlamaqda, axtarıb-tapmaqda və reallaşdırmaqda fundamental əsas olan milli ideologiya, hər şeydən əlavə, insanda və cəmiyyətdə insanlıq uğrunda mübarizədir, vicdana və məsuliyyətə çağırışdır. Bu çağırış bir çoxları üçün nə qədər də arxaik, dəbdən düşmüş olsa da, onsuz heç bir dolğun, mütərəqqi həyat mümkün deyil. Vicdan susanda və məsuliyyət itəndə artıq insan həyatının mənasından, cəmiyyətin tərəqqisindən danışmaq əbəsdir.

Əlbəttə, həyatın verdiyi sualların cavablandırılmasında insan azaddır. Ancaq bu azadlığı özbaşınalıqla qarışdırmaq düzgün deyil, onu məsuliyyət nöqteyi-nəzərindən anlamaq gərəkdir. İnsan, sualın düzgün cavablandırılmasında, situasiyanın mənasını tapmaqda məsuldur, cavabdehdir (3, 157). Məna məsuliyyətlə axtarılır və tapılır. Belə də deyə bilərik, mənanı vicdanın köməyi ilə axtarmaq vacibdir. Məna axtarışında insana rəhbər olan vicdandır - o varlıq ki, onun cilalanması və aşılanması bir funksiya olaraq milli ideologiyanın üzərinə düşür.

Ortaya belə mühakimə çıxa bilər: bir halda ki, hər bir insan üçün onun həyatının mənası - nəsə unikal olandır, bu məna «ümumi olan» ın, «vahid qanun» un tələbləri altına düşmür, deməli, «milli ideologiya» deyilən fenomenlə də hesablaşmalı deyil.

İlk baxışda ağlabatan görünən bu mühakimə, əslində, xətti təfəkkürün məhsuludur və insan həyatının mənasını «hesablamaqda» olduqca əsassızdır. Məsələ ondadır ki, hər insanın həyatının mənası onun yaşadığı tarixi zamanla, coğrafi-iqtisadi-siyasi mühitlə, sosial normalar sistemi ilə, ictimai təfərrüatlarla səciyyələnir. Hətta hər bir fərdə məxsus genetik-irsi, immanent xüsusiyyətlər məhz bu tarixi zaman və ictimai mühit fəzasında özünü büruzə verir, gerçəkləşir (3, 195). Məhz bu qanunauyğunluq çərçivəsində insan həyatının mənası unikal hadisə kimi reallaşır. Hər bir adam mənanın tapılıb reallaşmasında, bütün obyektiv və subyektiv məhdudiyyətlərə baxmayaraq, azaddır. Azadlığın isə əsas dəyər-mahiyyəti insanın öz taleyi barədə məsuliyyəti öz üzərinə götürmə müstəqilliyindədir, öz vicdan səsini dinləyib taleyi barədə qərar qəbul etmək sərbəstliyindədir. Bu,

həmçinin dəyişilmə azadlığıdır, mütləq «belə» olmaqdan uzaqlaşma, başqa cür olmaq azadlığıdır. Və burada məsuliyyət məsələsi mühüm əhəmiyyət kəsb edir. Mənanın həyata keçməsinə görə insan məsuliyyət daşıyır.

Azərbaycanın milli ideologiyasının tarixən formalaşmasında böyük xidmətləri olmuş M.F.Axundov, H.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, N.Nərimanov kimi görkəmli şəxsiyyətlərin adlarını da çəkə bilərik. Ümumi bir məfkurə, milli dirçəliş və tərəqqi naminə çalışanlar üçün daxili dialoq, seçim etmə, əqli ölçüb-biçmə, götür-qoy, ruhi-əxlaqi dərketmədə əksliklər mübarizəsi və bütün bunların nəticəsində «ümumi məxrəc»in, «qızıl orta»nın tapılmasına cəhd və fəallıq daha xarakterik olmuşdur (2). Müxtəlif dövrlərdə və müxtəlif məkanlarda yaşayıb-yaratmış mütəfəkkirlərin, görkəmli dövlət xadimlərinin ən möhtəşəm xidmətləri, böyük əzab-əziyyətləri, bəlkə də, ondan ibarət olmuşdur ki, özlərində bütün bəşəriyyətin, yaşadıqları cəmiyyətin problemlərini, ehtiyaclarını, arzu və istəklərini hiss və dərk edərək «əksliklər toqquşması»nın ağır yükünü üzərlərinə götürmüş, birləşdirici simvol - mahiyyətin yaranmasına və qərarlaşmasına çalışmışlar. Onlar çalışmışlar ki, əksliklər toqquşmasının mürəkkəbliyində insanlar özlərini itirməsinlər, Şərdən uzaqlaşaraq Xeyirə doğru hərəkət etsinlər.

Milli ideologiyanın da başlıca vəzifəsi ondan ibarətdir ki, insan, cəmiyyət və millət durumunda azadlıq məfhumunu mədəniyyət atributuna çevirməkdə yardımçı olsun, birgəyaşayışın əxlaq qaydalarının zəruriliyini və mahiyyətini aşılasın. Birləşdirici simvol – fenomenlərə, dəyərlərə (hüquqi dövlətə, demokratiyaya, milliliyə, azərbaycançılığa, doğma yurda, Vətənə, Torpağa, Dilə və Dinə, mədəni-mənəvi irsə və s.) güclü motivasiya, fərdi və ümumi istək, sevgi formalaşdırsın, böyük və çətin başa gələn məqsədbrə çatmaqda, taleyüklü problemlərin həllində dayaq olsun. Güclü motivasiyaların, istək və arzuların, daxili sövqetmələrin yolu isə həmişə əksliklərdən, daha doğrusu onların münaqişəsindən keçir. Burada da milli ideologiyanın üzərinə daim artan və zamanla şərtlənən yük düşür, deməli, hamımız - ilk növbədə, biz ziyalılar xüsusi məsuliyyət daşıyıcılarıyıq.

Cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi fəaliyyət sahələrində, həmçinin beynəlxalq aləmlə dövlətin münasibətiətlərində əsas kimi qəbul olunan və rəhbər tutulan ideya və prinsiplərin, müddəa və şərtlərin cəmini ifadə edən milli ideologiyanın mühüm təyinatı ondan ibarətdir ki, cəmiyyətin müxtəlif həyat sahələrinin təşkili və idarə olunması, ölkənin bütün spesifik cəhətləri nəzərə alınmaqla, rasional üsul və metodlarla həyata keçirilsin, fərqlər və qruplar arasında sosial tarazlıq, maraqlarının uzlaşması təmin edilsin, vətəndaş - dövlət münasibətləri optimal tərzdə tənzimlənsin, ümumi rifahın və cəmiyyətdaxili harmoniyanın qərarlaşması bir məqsəd kimi reallaşsın. İnsanların şüurunda işlərin gedişini səliqə-sahmana salmağa, onlanın sosial fikir prinsiplərini müəyyənləşdirməyə, lazımi inkişaf istiqamətlərini, mərhələlərini dəqiqləşdirməyə yönəlmiş belə ideologiya ümumbəşəri tarixi təkamül tələblərinə, zaman-məkan şərtlərinə, elmi-idraki determinantlara cavab verməli, milli-tarixi, genetik-irsi və bəşəri dəyərlərə söykənməli, reallıqdan pöhrələnən idealın gerçəkləşməsi naminə öz fəaliyyətini qurmalıdır (6, 174). Söhbət mövcud reallığın davamı kimi çıxış edən idealdan gedir ki, gələcək vəziyyətin ruhlandıncı təsviri, sövqedici məranmaməsi subyektiv və xəyalpərəst mülahizələrdən uzaq durmağı üstün tutur və vacib bilir. Bəşər tarixinin təbii məhsulu, indinin konstruktiv davamı olan bu idealın qayəsi zəruri və ədalətli olanın uğrunda mübarizədə optimal yolları və vasitələri bilməkdən, mümkünlük (imkan) tanımaqdan ibarətdir.

**Nəticə**

Aparılan tədqiqat belə bir nəticəyə gəlməyə əsas verir ki, cəmiyyət tarixi özünün daxili məntiqindən, obyektiv gedişindən ibarət qanunauyğunluqlara tabedir. Bu qanunauyğunluqların yaranması, formalaşması və fəaliyyəti isə insanların özlərinin düşüncə və həyat tərzlərinin əsas və ümumi cəhətləri ilə müəyyənləşir. Xalqlar, cəmiyyətlər, ölkələr arasındakı fərqlərin mühüm səbəblərindən biri də elə bu qanunauyğunluqdur. Bu qanunauyğunluğun fəaliyyətini yüksəltmək və bu yolla cəmiyyətin dinamik inkişafını təmin etmək üçün bütövlükdə cəmiyyətə və onun vətəndaşlarına onların gündəlik həyatına müsbət təsir edə biləcək praktik əhəmiyyətə malik ideologiya lazımdır. İdeologiya siyasi məzmundan daha çox sosial məzmuna malik olmalıdır. Onun siyasi əhəmiyyəti sosial məzmunundan irəli gəlməlidir. Sosial məzmun ölkə vətəndaşlarının gündəlik həyatı, düşüncəsi, fəaliyyəti və bu fəaliyyətin şəxsi və ictimai faydalılığı ilə bağlıdır. Bilavasitə hansısa bir məhsulu istehsal edən və bu istehsala yardımçı olan hər hansı bir fəaliyyət növü fərdi və ictimai məzmuna malikdir, Xidmət sahəsi, onun məzmun və keyfıyyəti isə maddi istehsal sahəsinin genişlənməsi və real gəlirin artması ilə bağlıdır. Buna görə də, cəmiyyətin bütün təbəqələrinin maraq və mənafelərini ifadə edən vahid ideologiya olmalıdır. Belə bir ideologiya cəmiyyətin bütün üzvlərini, bütün vətəndaşlarını əhatə etməli, birləşdirməlidir. Müstəqillik əldə etdikdən sonra Azərbaycanda ictimai və humanitar elm nümayəndələri, eləcə də siyasi xadimlər tərəfındən ideologiya və onun müxtəlif istiqamətlərinə aid xeyli diqqətəlayiq monoqrafiya və məqalələr yazılmış, araşdırmalar aparılmışdır. İdeologiya dərketmə, şüur, düşüncə, təfəkkür anlayışlan ilə bilavasitə bağlı olan, başqa sözlə onlardan sızıb gələn, insan və cəmiyyət həyatına bütövləşmiş, istiqamətlənmiş yetkin bir mənəvi-əxlaqi durum və bu dıuruma əsaslanaraq formalaşan iradi keyfıyyəti əks etdirən anlayışdır. Buna görə də nə insan, nə də cəmiyyət ideologiyasız yaşaya bilməz. Çünki ideologiya həm fərdi, həm də ictimai səviyyədə istəyi, arzunu, niyyəti, bu günü yaşamaqla sabahı görməni və planlaşdırmanı özündə ehtiva edir. Burada reallığa əsaslanma ilə yanaşı utopik ideologiyalara da rast gəlmək olar. Həm də bu utopik ideologiyalar müsbət və mənfi keyfiyyətli ola bilər. Məsələn, məlum faktdır ki, faşizm ideologiyası yalnız almanlar üçün deyil, bütün dünya üçün zərərli ideologiya idi. Lakin faşistlər həm güc, həm *öz* güclü təbliğat vasitəsi ilə ilk növbədə böyük düşüncə və mədəniyyət sahibi olan alman xalqınm əksər hissəsini aldada bilmişdilər.

İdeologiya, şübhəsiz ki, təbliğ olunmalıdır, əhali kütləsinə çatdırılmalıdır ki, hər bir adam onu öz həyat və şüur süzgəcindən keçirərək öz istəyi, arzusu, niyyəti baxımından təhlil edə bilsin. Onu nə üçün qəbul etdiyini, yaxud etmədiyini müəyyənləşdirə bilsin. Buna görə ideologiya real gerçəkliyə əsaslanan və bu gerçəkliyə sabahın necə olacağuıdan çıxış edən postulat və prinsiplər sisteminə malik olmalıdır.

Artıq qeyd edildiyi kimi, ideologiya üzvi vəhdətdə olan elə komponentləri birləşdirməlidir ki, bu komponentlər cəmiyyət üzvlərinin böyük əksəriyyətinin can atdığı, arzu etdiyi həyat və fəaliyyət tərzini özündə əks etdirə bilsin. Məhz buna görə ideologiya da konkret zaman və konkret məkan tələbindən çıxış etməlidir və belə bir ideologiyanı qurmaq üçün bizim "öz epistemologiyamızı" yaratmaq lazımdır. Burada digər bir sosial zaman və məkan üçün işlənilmiş olan hər hansı bir ideoloji konsepsiyanı yerli şəraitə uyğunlaşdırmağa cəhd etmək səyi heç də gözlənilən nəticəni verə bilməz. Çünki ideologiya da mövcud sosiomədəni şərait, onun məzmun və səviyyəsi ilə bağlı olan bir fenomendir.

Milli ideologiya ilk növbədə sosial ədalətə əsaslanmalıdır, sosial ədalət prinsipi onun bünövrə daşı rolunu oynamalıdır. Cəmiyyətin sosial strukturunu təşkil edən bütün qruplar

öz həyat və fəaliyyətlərində hər bir sahədə sosial ədaləti görməli və bu sosial ədalətə xidmət etməlidirlər.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Abbasov Ə. Milli fenomenlərin dərki və şərhində adekvat epistomologiya zərurəti//Müasir fəlsəfə, elm və mədəniyyət:postqeyriklassik eristomologiya. Bakı: 2011, s. 277
2. Quliyev A.İctimai-siyasi fikirdə sosial ədalət ideyası. Bakı: 2008
3. Şirinov A. Sosial fəlsəfə və sosial gerçəklik.Bakı: 2008, s.324-334
4. Mehdiyev R, Yeni siyasət: inkişafa doğru. I cild. B.: 2008, *s.457*--5S.
5. Xəlilov S.S. Fəlsəfədən siyasətə. B..-1998, s.283.
6. Федотова В.Г. Социальные инновации как основа процесса модернизации общества. Вопросы философии, 2010, №10


**Ильхам Солтанов**

**НЕОБХОДИМОСТЬ РЕАЛИЗАЦИИ НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ**

***Резюме***


В статье рассматривается социально-философское содержание национальной идеологии и исследуется роль национальной идеологии и национальных интересов в развитии каждой страны. Исследуется социальная значимость национальной идеологии, анализируются мнения различных исследователей, услуги наших исторических личностей, которые сыграли важную роль в формировании нашей национальной идеологии. В основе национальной идеологии лежит отстаивание социальной справедливости.

***Цель*** **-** обоснование необходимости национальной идеологии в современную эпоху

***Методология*** **-** сравнительный, систематический анализ

***Результат исследования*** **-** Национальная идеология играет важную роль в развитии каждого государства и общества.


***Ключевые слова:*** национальная идеология, государство, нация, общество, национальный интерес

**Ilham Soltanov**

**NECESSİTY FOR THE REALİZATİON OF NATİONAL İDEOLOGY**

***Summary***


The article considers the socio-philosophical content of national ideology and researches the role of national ideology and national interests in the development of each country. The social significance of national ideology is researched, opinions of various researchers, services of our historical personalities who played an important role in formation of our national ideology are analyzed. In particular, social justice is based on national ideology.

***Purpose of the research*** **-** Substantiation of the necessity of national ideology in the contemporary times

***Methodology*** **-** comparative, systematic analysis

***Findings*** **-** National ideology plays an important role in the development of each state and society.


***Keywords*****:** national ideology, state, nation, society, national interest

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, f.f.d., dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 27.01.2020**

**УДК 32**

**Шарафеддин Шарифов**
***Академия Труда и Социальных Отношений,***
***преподаватель кафедры общих дисциплин***
rsharifov@yahoo.com

# СОДЕРЖАНИЕ ВОЛЕВЫХ АСПЕКТОВ ПРАВА И МОРАЛИ В СОВРЕМЕННЫХ ДЕМОКРАТИЯХ

*В статье рассматриваются мораль и право, как специфические взаимосвязанные и взаимовлияющие социальные регуляторы общественных отношений. Аргументируется идея о том, что посредством отвечающих интересам и потребностям личности, общества и государства правовых и моральных норм, в социуме укрепляются идеалы и принципы, способствующие прогрессу.*

***Цель*** *– исследование содержания права и морали в современных демократиях*

***Методология*** *– исторический, системный и сравнительный подход*

***Результат исследования*** *– выявлена и обоснована существенность роли норм права и морали в регулировании общественных отношений в соответствующих демократиях*

***Ключевые слова:*** *мораль, нравственность, социальный регулятор, общественные отношения, право, правило талиона, правоприменение, правопонимание*

## Введение

Современные науки, характеризуя демократию, умозаключениями Платона и Аристотеля, справедливо констатируют всемирное распространение демократии и демократических транзитов, протекающих в процессе глобализации и информатизации, сталкивающихся с иными общемировыми и цивилизационными процессами.

Находясь в постоянном развитии, самообновлении, демократии различных эпох существенным образом отличаются друг от друга. В то же время во всех своих исторических формах демократия имеет, характерные для данного явления общие сущностные черты. Самовоспроизводясь и видоизменяясь, эти черты трансформируются, дополняя демократию новыми характеристиками, влекущими за собой новое содержание.

Таким образом, происходит развитие демократии и адаптация ее к новым политическим реалиям, исходящим из потребностей общества. **(1, с. 5)**

При этом право, наряду с нормами морали является одним из важнейших регуляторов общественных отношений и ему свойственно так же аккумулировать в себя признаки указанного явления.

## Мораль как феномен в мышлении

Большинство исследователей полагает, что в обществе, понимаемом как совокупность отношений между людьми, наиболее древним образованием, способствующим укреплению общественных отношений, является мораль.

Мораль (от лат. «mores» - нравы) - форма общественного сознания и ее реали-

зации на практике, утверждающие общественно необходимый положительный тип жизнедеятельности людей. Мораль имеет преимущественно неписаный характер, предоставляет социальным субъектам широкую возможность выбора и санкционируется воздействием, главным образом, силой общественного мнения. Требования морали фиксируются в общественном сознании в виде народных обычаев, традиций, общепринятых представлений, ценностных ориентаций. Нравственность – практическая воплощенность моральных идеалов, принципов, целей и установок в различных формах общественной жизнедеятельности, в культуре поведения людей и в отношениях между ними. Ряд ученых рассматривают понятия «мораль» и «нравственность» как синонимы.

Считается, что в классовом обществе, в условиях, расширяющихся и углубляющихся социальных конфликтов, регулирующая значимость морали уменьшается и, следовательно, роль других социальных регуляторов, в особенности права, должна возрастать. Потому, анализ взаимодействия права и других регуляторов общественных отношений, как факторов преодоления общественного хаоса, имеет теоретическую значимость и практически актуален.

Общество заинтересовано в том, чтобы его члены подчинялись общему порядку, действовали в соответствии с теми отношениями, которые скрепляют социальную систему, ибо в противном случае она может быть деформирована и даже разрушена. Поэтому общество вырабатывает совокупность норм, отражающих существующие отношения, и требует, чтобы индивиды подчиняли свое поведение этим нормам.

«Моральные нормы – это способ проявления социального в целостности личности. Если мировоззрение – это субъективное “Я” человека, то в морали оно идёт от социума, соединяясь в нём через духовный потенциал и трансцендирование» **(2, с. 188)**

Понимание морали как регулятора общественных отношений не исключает наличия различных подходов к определению морали, ее места и роли в системе социального управления.

Согласно одному подходу, мораль представляет собой форму сознания, функцией которой является регуляция человеческого поведения.

По мнению сторонников другого подхода, в мораль помимо сознания еще включают и некие элементы человеческого поведения **(3, с. 233).**

Особенностью моральных норм является то, что они возникают в каждом обществе стихийно и зависят от различных обстоятельств: особенностей трудовой деятельности, кочевого или оседлого образа жизни, верований и форм организации досуга.

Особую группу социальных норм представляют правовые нормы.

В качестве социальной нормы, право обладает свойствами образца, стандарта, масштаба и ориентира поведения, одобряемого обществом или определенной его частью, при конкретных обстоятельствах. Нормативность является содержательным признаком права. Право нормативно, поскольку регулирует типичные, повторяющиеся отношения и не ограничивается одноразовым решением конкретного вопроса. Правовые нормы в своем применении рассчитаны на относительно неопределенный круг лиц и обстоятельств. Неисполнение правовых требований влечет юридическую ответственность.

Сущность права обусловлена его социальной природой и весьма существенно зависит от этапа развития общества, стадии цивилизации, характера политического

режима и обуславливает его эффективное функционирование как социального регулятора, высококачественного процесса законотворчества, механизма правоприменения и правореализации.

Сквозь призмы выполняемой правом функции социального регулятора, можно «увидеть в нем социальное образование, обеспечивающее такую непрерывную динамику функционирования общества, при которой достигается постоянное и стабильное воспроизводство и, следовательно, сохранение и утверждение (своего рода «увековечение») выраженных в праве социальных ценностей, условий и механизмов функционирования общества» **(4, с.55).**

Функции права реализовываются следующими группами способов социального регулирования: побуждения, понуждения, принуждения.

Побуждение как способ социального регулирования, обращен к психологической сфере (чувствам, привычкам, эмоциям) человека, убеждает в полезности, выгодности определенного поведения, распределении тех или иных социальных ролей.

Понуждение — способ регулирования, основанный, главным образом на материальном стимулировании (поощрении, вознаграждении или лишении соответствующих имущественных благ, привилегий), когда та или иная выгода определяет желаемое поведение.

Принуждение является способом воздействия, когда социально необходимое или желаемое поведение достигается с применением насилия, т.е. лицам, отклоняющимся от установленных правил поведения, причиняются физические или психические страдания. При этом регулирования основывается на возможности государственного или общественного принуждения, а в случае необходимости и реализации этой возможности.

В правовом регулировании, как правило, задействованы все эти методы в различных комбинациях, или может использоваться каждый метод в отдельности. Они позволяют достаточно гибко регулировать поведение индивидов и социальных групп в обществе.

**Генезис права в общественном развитии**

Сущность права трактуется исследователями, в зависимости от мировоззрения. В современных науках принято различать классовый и внеклассовый подходы к праву. В социальной философии устойчивые позиции занимает трактовка права, согласно которой оно является возведенной в закон волей господствующего класса. Тем самым взаимосвязь права и власти опосредуется волей.

Древнегреческий философ Аристотель. определял волю как "хотение", "желание", "выбор". Он утверждал, что всякое действие человека является свободным, даже если он его совершает под влиянием страсти.

С этих позиций Аристотель подверг критике известный тезис Сократа: "никто не делает зла по своей воле", который поддерживал и Платон в своих работах "Законы", "Протагор", "Менон", "Горгий". По мнению Аристотеля, если следовать этому тезису, то человек не властен над собой и поэтому не несет ответственности за свои поступки. Между тем, указывал он, "пьяных считают виновными вдвойне", так как во власти человека "не напиться". Аналогично, отмечал Аристотель, правосудие наказывает "за неведение в законах чего-то такого, что знать положено и нетрудно".

Человек ответственен за свои поступки, реализующие его желания. Но желания одного не всегда совпадают с желаниями другого. Конфликт человеческих желаний ведет к свободе воли: способности человека осуществлять выбор между добром и

злом, добродетелью или пороком – к такому выводу подводит нас Аристотель.

Важна мысль Аристотеля о том, что добродетель предполагает не только активную волевую деятельность человека, но и "известное состояние души", делающее совершаемое действие "целью самой по себе". Другими словами, высшие ценности не существуют для достижения чего-либо помимо самой ценности, добро должно совершаться ради добра, а справедливость – ради справедливости. **(5)**

Августин Блаженный считал волю внутренним фактором, "свободным произволением". Говоря о таких "аффектах души", как вожделение, страх, радость, печаль, Августин полагал, что именно в них пребывает воля, а сами эти чувства рассматривал как "пробуждения воли". "Ибо чем могут быть вожделение и радость, как не волей, одобрять то, чего мы хотим? И чем могут быть страх и печаль, как не волей, не одобрять того, чего мы не хотим?" – спрашивал Августин в трактате "О граде Божьем".

И.Кант, разрабатывая теорию нравственного и правового категорических императивов, также обращался к воле как к способности человека. В работах "Основы метафизики нравственности", "Критика практического разума", "Метафизика нравов" философ рассматривал волю как источник, основание человеческих поступков и жизнедеятельности. Он считал автономную волю высшим принципом нравственности, так как "она сама для себя закон (независимо от каких бы то ни было свойств, предметов воления)".

Кант исследовал волю с разных точек зрения: как "сознание причинности в отношении поступков"; как "практическое сознание"; как "способность чистого разума", выступающая внутренней причиной поступков и др.

Именно воля, по его мнению, лежит в основании нравственно – категорического императива, который, как известно, гласит: "Поступай так, чтобы максима твоей воли могла в то же время иметь силу принципа всеобщего законодательства".

В свою очередь, Кант полагал, что закон должен определять волю. Он писал, что законосообразность вообще – это то, что служит и должно служить принципом воли. Воля подчиняется "велению" разума, а формула веления называется императивом.

Эта мысль великого философа очень ценна: она помогает увидеть, что воление и веление имеют определенное различие. Воление – это способность самодетерминировать свои действия, а веление – воля, направленная вовне, прежде всего, на выполнение законов.

Очень близко к велению понятие "принуждение", но принуждение означает подчинение чужой воле, а веление - своей.

И.Кант дал определение сопряженным с волей таким понятиям как: зависть, отмщение, пренебрежение, клевета, издевательство, достоинство, любовь и уважение.

Кант считал, что любовь – это не чувство удовольствия, а благоговение как воля, "имеющая своим следствием благодеяние"; уважение – не просто чувство, возникающее из сравнения нашего собственного достоинства с достоинством других, а воля к признанию достоинства другого в практическом смысле; злословие подразумевает склонность к распространению вредных для уважения к другим слухов**. (6, с.100)**

Проблему воли как одну из важнейших философско-правовых проблем всесторонне исследовал в "Философии права" Г.Гегель. Он подчеркивал неразрывность воли и права, рассматривая право, как "наличное бытие свободной воли". Волю

определил он, как способность действовать, реализовывать поставленные цели, основанную на потребностях, желаниях, влечениях и вожделении личности, государства, народа. Воля у Гегеля выступает одновременно, и единичной, как внутренняя способность индивида, и всеобщей, так как она выражает мотивы, намерения и цели других людей: членов семьи, гражданского общества или государства.

Г.Гегель обратил особое внимание на то, что, когда человек совершает тот или иной нравственный поступок, этим он еще не добродетелен; индивид добродетелен, если данный способ поведения является базовой чертой его характера, следовательно, человек есть не что иное, как ряд последовательных его поступков.

Вступая в нравственные отношения непосредственно или опосредованно - через различные социальные группы, люди возлагают на себя определенные моральные обязанности и вместе с тем приобретают определенные моральные права.

Всеобщность воли проявляется в том, что она нацелена на выбор, зависящий от различных факторов неопределенности. Именно неопределенность делает волю абсолютно несвободной. Взаимосвязь всеобщей и единичной воли характеризует взаимосвязь прав и обязанностей. У Гегеля наличное бытие всеобщей воли – это закон, а личное бытие индивидуальной воли – исполнение гражданами прав и обязанностей.

Как диалектик, Гегель не мог не заметить, что воля постоянно оценивается человеком, пересматривается, меняется, а при определенных условиях может приобретать и форму произвола. Произвол – это воля, "обусловленная естественными влечениями", определяющая себя как "свобода", уверенная, что сущность ее состоит в том, "чтобы делать все, что угодно". **(7)**

«Правило **талиона** выросло из глубокого знания людей - из понимания того, что они не так страшны в преступлениях, как в слепоте, неистовстве, коварстве и безмерности последующих отмщений. Оно однородно с "золотым правилом нравственности" ("не делай другому то, чего сам себе не желаешь").

*Тали́он* (лат. tālĭo, от talis — такой же) — категория юриспруденции и морали, также известная как равное (симметричное) возмездие. Принцип назначения уголовного наказания за преступление, согласно которому мера наказания должна точно, буквально соответствовать вреду, причинённому вследствие совершения преступления («око за око, зуб за зуб»).

**Сочетание морали и права в современных условиях**

В наши дни философы и правоведы, ученые, работающие в различных областях социально-гуманитарного знания, выражают озабоченность распространением таких явлений, как имморализм и правовой нигилизм, разрушающих общественный миропорядок и углубляющих социальную аномию.

В современных условиях очевидна необходимость разработки целостной концепции взаимосвязанных и взаимообусловленных подходов к правопониманию и правоприменению.

Правильное осознание сущности правоприменения, его внутреннего строения и содержания элементов правоприменительной деятельности может явиться основой правильной оценки его места в механизме правового регулирования общественных отношений и грамотное использование в качестве средства эффективного воздействия на различные сферы общественной жизни. Исследование проблемного поля правоприменения осуществляется в различных направлениях, в том числе изучаются волевые аспекты права и морали в современных условиях.

Неоспоримо то, что и мораль и право выполняют одну и ту же социальную функцию: регулируют человеческие взаимоотношения. Однако способы моральной и правовой регуляции различны. Право регулирует поведение людей посредством государственно-управленческого принуждения, мораль же опирается не на силу государства, а на силу общественного мнения. Если правовые предписания проводятся в жизнь особыми учреждениями, то моральные требования формируются в условиях бытия малой группы, в процессе повседневного общения людей.

Таким образом, мораль и право, как факторы регуляции общественных отношений и социально приемлемого индивидуального и группового волевого поведения, являются общекультурным результатом исторического опыта совокупного человечества, получающим различное оформление у разных народов в различные исторические эпохи. При определении содержания правовых норм необходим не только их всесторонний анализ с учетом требований идей правосознания общества, но и выявление взаимосвязей норм права с принципами и нормами морали, с нравственным сознанием общества.

**Заключение**

В статье на основе социально-философского, формально-логического, социально-правового, конкретно-исторического анализа исследованы мораль и право, как специфические взаимосвязанные и взаимовлияющие социальные регуляторы общественных отношений. Отмечается, что отсутствие в социуме высоких, четких и ясных нравственных ориентиров и принципов, неминуемо погружает его в хаос, насилие, безответственность, обман, жесткость, наглость сильных и богатых, тоску, раздражение, отнимает уверенности бедных и униженных в будущем. В этих условиях право теряет свою нравственную основу и, как следствие, становится выше уровень преступности, возрастает правовой нигилизм, снижается эффективность правоохранительной деятельности, иссякает ее поддержка населением страны.

Последовательно проводится мысль о том, что с помощью норм права, отвечающих фундаментальным чаяниям, интересам и потребностям личности, общества и государства, публичная власть объективно помогает укреплению в социуме идеалов, принципов, норм ориентированной на позитив и прогресс морали, которые, в свою очередь, способствуют укреплению нравственного авторитета права, полнейшему раскрытию его социокультурного потенциала.

**Использованная литература**


1. Баранов Н.А. Трансформации современной демократии. СПб. БГТУ, 2006.
2. Шабанова Н.С. Духовный потенциал личности: специфика и проявление. Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011. № 4
3. Краткий философский словарь / под ред. А. П. Алексеева. Изд-е 2-е, перераб. и доп. М.: Проспект, 2009.
4. Алексеев С.С. Восхождение к праву. Поиски и решения. М, 2001.
5. Аристотель. Сочинения: в 4-х т. М.: Мысль, 1984. Т. 4.
6. Кант И. Критика практического разума. СПб.1995. С. 100.
7. Гегель Г. В. Ф. Философия права. М.: Мысль, 1990.

**Şərafəddin Şərifov**

## MÜASİR DEMOKRATİYALARDA HÜQUQ VƏ ƏXLAQIN İRADİ ASPEKTLƏRİNİN MƏZMUNU

***Xülasə***

Məqalədə hüquq və əxlaq ictimai münasibətlərin özünəməxsus qarşılıqlı bağlılığa və təsirə malik tənzimləyiciləri kimi nəzərdən keçirilir. Şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarını ifadə edən hüquq və əxlaq normaları vasitəsilə cəmiyyətdə tərəqqiyə xidmət edən məslək və prinsiplərin möhkəmlənəcəyi ideyası əsaslandırılır.

***Məqsəd* –** müasir demokratiyalarda hüquq və əlaqın məzmununun tədqiqi;

***Metodologiya* –** tarixi, sistemli və müqayisəli yanaşma;

***Tədqiqatın nəticələri* –** müasir demokratiyalarda ictimai münasibətlərin tənzimlənməsində hüququn və əxlaqın rolunun əhəmiyyətli olması müəyyənləşdirilmiş və əsaslandırılmışdır.

***Açar sözlər:*** əxlaq, mənəviyyat, sosial tənzimləyici, ictimai münasibətlər, hüquq, talion qaydaları, hüquq tətbiqi, hüquq qavrayışı

**Sharafaddin Sharifov**

## THE CONTENT OF ASPECTS OF LAW AND MORALITY IN MODERN DEMOCRACY

***Summary***

The article deals with morality and law, as specific interrelated social regulator of public attitudes. An argument of the idea is that meeting interests and needs of individuals, society and the state of the legal and moral norms, contributing the progress of strengthened ideas and principles.

***Purpose*** – research on the content of law and morality in modern democracy.

***Methodology*** – historical, systematic and comparative approach.

***Findings*** – the significance of the role of law and morality revealed and justified the regulation of public relations in relevant democracy.

***Keywords:*** morality, ethic, social regulator of public relations, rights, enforcement, legal understanding.

**Rəyçi: AƏSMA, kafedra müdiri, f.f.d., dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 11.02.2020**

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 331.5**

**Fəhrad Möhbalıyev,**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***tədris və elmi işlər üzrə prorektor, i.ü.f.d., dos.***
**ferhad.mehbaliyev@mail.ru**

## AZƏRBAYCANDA TURİZM BAZARI VƏ AQROTURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Məqalədə sosial-iqtisadi münasibətlər sistemində turizmin yaranma tarixi, onun dünya iqtisadiyyatında MDB və yaxın şərq ölkələrində başlıca rolu, turizmin formaları və növləri, xüsusilə aqroturizm sektorunda dünyanın bir çox – Çexiya, Polşa, Avstriya və Türkiyə kimi ölkələrinin təcrübəsi araşdırılır.*

*Həmçinin, turizm bazarının strukturu, turizm bazarının iqtisadi göstəriciləri, müxtəlif mülkiyyət formasında olan turizm müəssisələrinin məhsulları təhlil edilir və turizm fəaliyyətindən əldə edilən gəlir və xərclər, bir çox dünya ölkələrindən Respublikamıza gələn turistlərin artım dinamikası araşdırılır.*

***Məqsəd –*** Turizm sektorunda iqtisadi göstəriciləri araşdırmaqla Respublikada turizmin səmərəli inkişaf fəaliyyətini tədqiq etmək, bu sahədə dövlətin rolunu əsaslandırmaqdan ibarətdir.

***Metodologiya –*** Turizm bazarında iqtisadi göstəricilərin səmərəliliyinin artırılmasında iqtisadi-statistik modeldən istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** Respublikamızda aqroturizmin inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi.

***Açar sözlər:*** turizm sferası, turizm bazası, aqroturizm, gəlirlər və xərclər, turizm növləri, iqtisadi göstəricilər

Turizmin meydana gəlməsi 1,5-2 əsrlik dövrü əhatə edir. Belə ki, Rusiyada turizmin yaranması 1885-ci ilə təsadüf edir. Həmin ildə Sankt-Peterburq şəhərində Rusiyada ilk dəfə olaraq “Dünyanın bütün ölkələrinə ictimai səyahət müəssisəsi” adı ilə böyük bir turist təşkilatı yaradılmışdır. 15 mart 1885-ci ildə Sankt-Peterburq şəhərində rus tur klubları (velosipedçilər – turistlər cəmiyyəti) yaradılmışdır. 1901-ci ildə Rusiya turist cəmiyyəti fəaliyyətə başlamışdır. 1899-cu ildən 1914-cü ilə kimi “Rus turisti” adlı jurnal çap edilmişdir. Bu jurnaldakı elanda turizm anlayışı haqqında müsabiqədə R. de Pak qalib çıxmış və yazmışdır: “Turizm” – gəzintini bacarmaqdır. Bu bacarığın qazanılması, eyni zamanda bir elm kimi öyrənilməsi və onun üzərində təcrübə aparılması lazımdır. Səmanı, təbiətin güllərini, müxtəlif səsləri, canlıların bütün hisslərini açıq havada olduqda duymaq, eyni zamanda onlarla birgə xoşlanmağı və maraqlanmağı bacarmaq lazımdır. Bu qeyd olunanlardan hər hansı bir maneənin aradan qaldırılmasında insan qalib olduqda öz

əzmkarlığını (əyilməzliyini) əlavə edir, biz qəlbimizdə bunlar haqqında yeni zövqlərin yarandığını hiss etmiş oluruq.

Turizm sferası dünya iqtisadiyyatında başlıca rol oynayır və dünyanın ümumi milli məhsulunun 1/10 hissəsini təmin edir. İqtisadiyyatın bu sahəsi yüksək templə inkişaf edir və yaxın gələcəkdə onun vacib sektorlarından birinə çevriləcəkdir. Son illərin göstəricilərinə əsasən qeyd etmək olar ki, turizm sferası dünya kapitalının təqribən 7%-ni istifadə etməklə dünyanın ən gəlirli sahələrdən biri olmuşdur. Hətta 90-cı illərin əvvəllərində turizmin payı dünyanın əmtəə və xidmətlər ticarətinin 10%-dən çoxunu təşkil etmişdir ki, bu da onun neft-qaz və avtomobil ixracından sonra 3-cü yer tutmasına imkan vermişdir [5].

Zəngin mədəni–tarixi irsə və əlverişli təbii iqlim şəraitinə malik olan Azərbaycan Respublikası turizm sahəsində böyük inkişaf perspektivlərinə malik olmaqla yanaşı, həm də turizmin müxtəlif növlərinin kənd (aqro), müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s. inkişaf etdirilməsi baxımından geniş imkanlara malik olan ölkələr sırasına aiddir.

Turizmin, xalq təsərrüfatı kompleksinin digər sferalarından fərqli cəhəti, onun yalnız bir istehlakçı xidmətinə - turistə malik olmasıdır. Turist istehlak məhsullarının (turların, xidmətlərin və malların) istehlakçısı olmaqla yanaşı, həm də turizm firmalarının fəaliyyət obyektidir.

Xalq təsərrüfatı kompleksinin digər sferalarında əmtəə və maliyyə bazarlarından mallar alıcıya çatdırıldığı halda, turizmdə isə əksinə, alıcı, yəni turist , turizm məhsulları və xidmətlərinə çatdırılır. Turistin istehlakçı kimi qəbul edilməsi onun bu qeyd edilən fərqli xüsusiyyəti ilə izah olunur.

Turizm cografiyanın yeni sahəsi-rekreasiya coğrafiyası ilə sıx əlaqədə olmaqla aqroturizmin inkişafını təmin edən təbiət-coğrafi, mədəni-tarixi və digər səraitləri öyrənir. Qeyd etmək yerinə düşərdi ki, aqroturizm fəaliyyətinin təhlilinə çox az sayda tədqiqat işləri həsr edilmişdir. Ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi qeyri-neft sektorunun inkişafını və tədqiqatın aktuallığını şərtləndirən əsas amillərdən biri hesab edilir.

Turizmin ətraf mühitə təsiri birbaşa, dolayı və stimullaşdırıcı (müsbət və mənfi) ola bilər. Odur ki, ətraf mühitin qarşılıqlı təsiri olmadan turizmin bir növü kimi aqroturizm inkişaf edə bilməz, lakin aqroturizmin inkişafının idarə edilməsi və dəqiq planlaşdırılmasının köməyi ilə onun ətraf mühitə mənfi təsirini azaltmaq və müsbət təsirini artırmaq mümkündür [4].

Aqroturizm – müştərilərin (turistlərin) şəhərdən kəndə yerləşdirilməsi xidmətlərinin göstərilməsinə yönəlmiş turizm növlərindən biridir. Aqroturizm adətən kənd turizmi də adlandırılır və bu zaman insanlar qısa bir müddətə də olsa layiqli istirahət etmək üçün çalışırlar. Aqroturizmin ümumi xidmətinə ekoloji cəhətdən təmiz qidalanma, kəndə xarakterik olan evlərdə yaşamaq, kənd təsərrüfatına xas olan xüsusiyyətlərlə tanış olmaq, hətta imkan daxilində kənddə işləmək və s. kimi işlər daxildir [3]. Aqrar turizmin əsas iqtisadi funksiyalarından biri turizm bazarının yaradılmasıdır ki, bu da turizm məhsul və xidmətlərinin realizasiya edilməsi və turizm sferasının gələcək fəaliyyəti üçün maliyyə vəsaitlərinin formalaşmasının həyata keçirilməsində mühüm rola malikdir (şəkil 1)[6,7].

Turizmin bir növü kimi, aqroturizm, Avropa ölkələrində, o cümlədən Çexiya, Polşa, Avstriya, Türkiyədə və s. intensiv olaraq genişlənir. Belə ki, təkcə Avstriya ölkəsində kəndli təsərrüfatlarının 10%-ə qədəri aqroturizmin müxtəlif xidmətlərini yerinə yetirirlər [2].

Göründüyü kimi turizm bazarının strukturunda olan turizmin bu növlərinin hamısı demək olar ki, bizim respublikamız üçün xarakterik hesab edilir. Bu baxımdan öklənin turizm sferasında aqroturizm və rekreasiya növünün inkişafı xüsusilə əhəmiyyət kəsb edən

sahələrdir. Aqroturizmin qeyd edilən növlərinin inkişaf etdirilməsi gələcəkdə ölkəmizin bu sahədə dünyanın ən iri ölkələri sırasına daxil edilməsini kəskin surətdə təmin edə biləcəkdir. Ölkəmizdə fəaliyyət göstərən turizm müəssisələrinin əsas göstəricilərini nəzərdən keçirək (cədvəl 1.) [7].

Təhlildən göründüyü kimi, respublikada turizm sferasında fəaliyyət göstərən müəssisələrdə məhsul istehsalına çəkilən xərclər onların əldə etdikləri gəlirin həcminə nisbətən aşagıdır və xüsusilə bu göstərici 2010-2014-cü illər istisna olmaqla digər illərdə kəskin olaraq fərqlənir ki, bu da həmin dövrlərdə müəssisələrin yüksək dərəcədə gəlir götürdüklərindən şərtlənir. Lalin, bu göstərici üzrə 2016-cı ildə 2015-ci ilə nisbətən 1,1 dəfə azalma, 2017-ci ildə isə 1,103 dəfə artım müşahidə edilmişdir. Bu baxımdan mülkiyyət növləri üzrə yerləşdirmə vasitələrinə görə turistlərin sayı göstəricisi son dərəcə əhəmiyyətlidir. Belə ki, əgər respublika üzrə turizm bazalarında yerləşdirilmiş turistlərin sayı 2006-cı ilə nisbətən 2010-cu ildə 2,13 dəfə, 2011-ci ildə-2,56 dəfə, 2012-ci ildə - 4,78 dəfə çox olduğu halda bu tendensiya 2013- 2016-cı ilərdə 0,25-0,49 dəfə az olmuş, 2017-ci ildə isə yenə artım müşahidə edilmişdir. O cümlədən, dövlət müəssisələrində bu göstərici 2006-cı ilə nisbətən 2010-cu ildə 1,6%, 2011-ci ildə 8,6%, 2012-ci ildə 47,6% yüksək olmuşdursa, 2013-cü ildən başlayaraq bu tip müəssisələrdə turistlərin yerləşdirilməsi tədricən azalmış və həmin ildə 1200 nəfər təşkil etmiş, sonrakı 2013-2014-ci illərdə isə bu tipli müəssisələrdə turistlərin yerləşdirilməsi aparılmamışdır. Qeyd etmək lazımdır ki, şəxsi evlərdə turistlərin yerləşdirlməsində son illərdə müvafiq irəliləyiş hiss olunmuşdur. Belə ki, şəxsi evlərdə turistlərin yerləşdirilməsi ən çox 2012-ci ilə təsadüf edir və bu göstərici 2006-cı illə müqayisədə 2,6 dəfə artmış, 2013-cü idə bu göstərici 45,5% təşkil




**Şəkil 1. Turizm bazarının strukturu və aqroturizmin perspektiv növləri**

etsə də 2014-cü ildə müvafiq olaraq 2,7 dəfə və 2015-ci ildə 1,67 dəfə, 2016-cı ildə 1,75 dəfə, 2017-ci ildə 1,82 dəfə, 2018-ci ildə isə 1,89 dəfə yüksək olmuşdur [7].

**Cədvəl 1**

**Azərbaycanda 2010-2018-ci illərdə turizm müəssisələrinin əsas göstəriciləri**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Turizm müəssisələrinin sayı | 126 | 141 | 170 | 197 | 218 | 243 | 272 | 339 | 374 |
| Turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı, min nəfər | 1,159 | 1,279 | 1,473 | 1,515 | 1,567 | 1,308 | 1,472 | 1,891 | 2,074 |
| Müəssisələrin turizm fəaliy-yətindən əldə etdiyi gəlir, mlyn. manat | 14,756 | 17,805 | 21,597 | 24,826 | 26,031 | 35,080 | 34,834 | 41,035 | 56,439 |
| Məhsul (xid-mət) istehsalı-na çəkilən xərclər, mlyn. manat | 13,806 | 16,066 | 18,903 | 21,818 | 25,709 | 29,480 | 27,309 | 36,734 | 46,085 |

Mülkiyyət növləri üzrə səyahət agentlikləri və turoperatorların turizm fəaliyyəti üzrə gəlir və xərcləri cədvə 2-də verilmişdir.

**Cədvəl 2**

**Müxtəlif mülkiyyət növləri üzrə səyahət agentlikləri və turoperatorların turizm fəaliyyətindən gəlir və xərcləri, min manat**

| İllər/ göstəricilər | Turizm fəaliyyətindən əldə edilən gəlir | | | Turizm fəaliyyəti üzrə çəkilən xərclər | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | Dövlət | Qeyri-dövlət | Cəmi | Dövlət | Qeyri-dövlət |
| 2010 | 4788,1 | 157,3 | 4630,8 | 4094,3 | 140,8 | 3953,5 |
| 2011 | 14755,5 | 1319,7 | 13435,8 | 13805,7 | 922,6 | 12883,1 |
| 2012 | 17804,7 | 1513,3 | 16291,4 | 16065,6 | 1048,9 | 15016,7 |
| 2013 | 21597,1 | 1670,6 | 19926,5 | 18903,1 | 1171,9 | 17731,2 |
| 2014 | 24823,6 | 1813,6 | 23010,0 | 21818,2 | 1207,6 | 20610,6 |
| 2015 | 26031,0 | 1748,2 | 24282,8 | 25708,6 | 1203,4 | 24505,2 |
| 2016 | 35079,6 | 1764,2 | 33315,4 | 29480,0 | 1202,7 | 28277,3 |
| 2017 | 41025,4 | 1882,4 | 39143 | 32498,4 | 1245,8 | 31252,6 |
| 2018 | 49258,5 | 1956,4 | 47302,1 | 35897,5 | 1315,8 | 34581,7 |

Müqayisəli təhlil göstərir ki, respublika ərazisində fəaliyyət göstərən müxtəlif mülkiyyət növlü müəssisələrdə əldə edilən cəmi gəlir 2010-cu ilə nisbətən dinamik olaraq artmış və bu 2018-ci ildə 10,3 dəfə çox olmuşdur, o cümlədən dövlət müəssisələrində bu göstərici 2010-cu ilə nisbətən 2018-ci ildə 12,4 dəfə, qeyri-dövlət müəsisələrində isə müvafiq olaraq 10,2 dəfə artmışdır. Eyni zamanda xərclər də 2010-cu ilə nisbətən 2018-ci illərdə müvafiq olaraq 8,76 dəfə artaraq 35897,5 min manat təşkil etmişdir. Müqayisə edilən dövrdə həmin göstərici dövlət müəssisələrində 6,55-8,34 dəfə intervalında, qeyri-dövlət müəssisələrində isə uyğun olaraq 3,3-8,75 dəfə intervalında artmışdır.

Respublikanın turizm sferasında çalışan bütün növ müəssisələr tərəfindən bəzi dünya ölkələrindən qəbul edilmiş və onlara göndətrilmiş turistlərin sayı göstəricisi cədvəl 3-də verilir.

**Cədvəl 3**

**Qəbul edilmiş və göndərilmiş turistlərin ölkələr üzrə sayı, min nəfər**

| Ölkələr | Cəmi | | Qəbul edilmiş | | Göndərimiş | |
|---|---|---|---|---|---|---|
| | turistlərin sayı, min nəfər | tur-günlərin sayı, adam-gün | turistlərin sayı, min nəfər | tur-günlərin sayı, adam-gün | turistlərin sayı, min nəfər | tur-günlərin sayı, adam-gün |
| Azərbaycan Respublikası | 11751 | 75495 | - | - | 11751 | 75495 |
| Rusiya Federasiyası | 6937 | 59949 | 1052 | 3177 | 5885 | 56722 |
| Türkiyə | 19673 | 121809 | 129 | 453 | 19544 | 121356 |
| BƏƏ | 4540 | 30007 | 55 | 203 | 4485 | 29804 |
| Gürcüstan | 1130 | 6368 | 11 | 61 | 1119 | 6307 |
| Ukrayna | 563 | 4497 | 20 | 95 | 543 | 4402 |
| İran | 3743 | 33095 | - | - | 3743 | 33095 |

Məlumatların təhlili göstərir ki, 2017-ci ildə Azərbaycana gələn turistlərin ölkələr üzrə sayında Rusiya Federasiyası (854,331 min nəfər), Gürcüstan (538,213 min nəfər), İran (363,528 min nəfər), Türkiyə (301,924 min nəfər) təşkil etmiş və 1-4 sırada yerləşmişlər. Sonra isə sırada BƏƏ (102,498 min nəfər), Iraq (62,547 min nəfər) və Ukrayna (57,818 min nəfər) yer almışdır.

Göndərilmiş turistlərin sırasında Türkiyədən sonra Azərbaycan ikinci yerdədir. Sonrakı yerləri isə Rusiya Federasiyası, BƏƏ və Iran bölüşür. Ümumi tur-günlərin sayı üzrə Türkiyə, Azərbaycan, Rusiya Federasiyası, İran və BƏƏ müvafiq ardicilliği təmin edirlər.

Respublikada aqroturizmin inkişaf etdirilməsi bilavasitə əhalinin işsizlik səviyyəsinə də müsbət təsir göstərir. Bu istiqamətdə aparılmış tədqiqatların nəticəsi göstərir ki, respublikada iqtisadi fəal əhalinin sayında ümumi işsizlik səviyyəsi 2005-ci illə müqayisədə 2017-ci ildə 28,0% azalmışdır. Burada işsiz gənclərin xüsusi çəkisi 8,2-12,1% hüdudunda dəyişir. Eyni zamanda, ümumilikdə kənd əhalisinin işsizlik səviyyəsi 9,4-10,7 % arasında dəyişir [1].

Statistik məlumatların təhlili göstərir ki, ölkəmiz tərəfindən ən çox turist qəbulu üzrə ilk yerdə Rusiya federasiyası durur. Bu göstəricidə də növbəti yeri Türkiyə tutur. Rəqəmlərin təhlilindən belə bir qənatə gələ bilərik ki, ölkəmizdə turistlərin qəbulu və ölkədən göndərilməsi məqsədilə kifayət sayda turizm firmaları fəaliyyət göstərir, lakin bu firmalar hal-hazırda özlərinin tam gücü ilə çalışmırlar və dövlət bu sahəd bir sıra

qabaqlayıcı tədbirlər görməlidir.

Bütün bu göstəricilər ölkəmizin regionlarında kənd əhalisinin gəlirinin artırılmasını təmin edə bilən bir sahə kimi aqroturizmin inkişaf etdirilməsinə əsas stimuldur. Bu baxımdan ölkəmizin regionlarında aqroturizmin inkişaf etdirilməsi məqsədi ilə dövlət tərəfindən mühüm layihələr hazırlanmalı və bu layihələr bilavasitə regionlarda turistlərin kəndli təsərrüfarlarında yerləşdirilməsi ilə şərtləşməlidir. Eyni zananda qeyd etmək lazımdır ki, artıq ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi istiqamətində cəhdlər edilmiş, o cümlədən Quba-Xaçmaz, Gəncə-Qazax regionlarında aqroparklar, Naxçıvan, Abşeron, Aran və s. iqtisadi zonalarında sənaye kompleksləri yaradılmış, Qubanın Xınalıq, İsmaillinin Lahıc kimi təbiəti zəngin və iqlimi hər mövsümə uyğun olan yerlərində kəndli təsərrüfatlarında turistlərin yerləşdirilməsi nəticəsində onlarda əlavə maliyyə mənbəyi yaradılmışdır. Bu tip yerləşdirilmənin respublikanın digər regionlarında həyata keçirilməsi nəticəsində kədli təsərrüfatlarının maliyyələşmə səviyyəsi yüksəlmiş olar və bu bilavasitə həmin təsərrüfat formalarının fəaliyyət dairəsinin genişlənməsində mühüm rol oynamış olar. Odur ki, respublikada aqroturizmin inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- aqroturizm sferasının inkişafına dövlət dəstəyi;
- aqroturizm istifadəsi üçün yararlı olan obyekt və ərazilərin araşdırılmasının aparılması, kəndli təsərrüfatlarının torpaq sahələrinin aydınlaşdırılması və ehtiyatlar reestrinin tərtib edilməsi;
- kəndli təsərrüfarlarında gəzintilərin və turların aparılması məqsədilə regionların materiallarını öyrənməklə respublikanın turməhsullarının rekreasiya ehtiyatlarının xəritəsinin tərtib edilməsi [2];
- ölkənin regionlarında aqroturizmin inkişaf etdirilməsinin dəqiq strategiyası müəyyənləşdirilməli, aqroturizm fəaliyyəti ilə məşğul olmaq arzusunda olan kənd əhalisinin normativ-hüquqi bazası və stimullaşdırılma mexanizmi işlənilməlidir.

**Nəticə.** Ölkəmizdə aqroturizmin inkişaf etdirilməsinə zəmin yaradan, onun məhsul və xidmətlərinin fəaliyyətinin genişləndirilməsində maliyyə vəsaitlərinin formalaşmasını təmin edən kəndli təsərrüfatlarında xarıcı və yerli turistlərin yerləşdirilməsi məqsədi ilə təklif edilən tədbirlərin həyata keçirilməsi üçün lazımı şərait təmin edilməlidir.

Burada aqrar sferanın inkişafını təmin edə biləcək dövlət proqramları və layihələrinin həyata keçirilməsi və bu sahədə kifayət qədər kadr ehtiyatlarının hazırlanması xüsusi rol oynayır.

**İstifadə edilmiş ədəbiyyatlar**

1. Ачмиз А. К. Туризм как социально-культурное явление. Электронный ресурс /
2. İsmayilov V.İ. The main directions of formation of tourism-recreation complex in Azerbaijan. Москва. Журнал «Экономика и предпринимательства» июль, 2016, стр. 959-963
3. Исупова Л.В. Агротуризм: опыт, проблемы, решения: материалы. Междунар. науч.-практ. конф. Саратов: 2012. – С.74.
4. Мехбалыев Ф.Ф. Социально-экономические основы спорта и туризма. Туристический рынок. Баку, 2016, 188 С..
5. Новиков В.С. Характерные черты туризма XXI века – устойчивое и инновационное развитие [Текст]. Сборник научных статей МАТ и ГРБ. Москва. 2006, №10, с. 92-108
6. [Электронный ресурс]: http://knoema.ru/atlas/Azerbaijan/topics
7. Электронный ресурс: http://www.stat.gov.az/s

**Фархад Мохбалиев**

## РЫНОК ТУРИЗМА И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ АГРОТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

В статье рассматривается основная роль туризма в экономике Азербайджана и странах СНГ и Ближнего Востока. Анализируется социально-экономическое содержание наиболее быстро растущего ненефтяного сектора, а именно туристического сектора в республике. Одновременно изучаются формы и виды туризма, в том числе агротуризма как в республике, так и различных странах мира-Чехии, Польше, Австрии и Турции.

В статье анализируется так же рынок туристических предприятий и их продуктов, доходы и расходы этих предприятий и их основные показатели за последние годы.

***Цель*** **-** анализировать экономические показатели в туристическом секторе и выявить эффективность деятельности в развитии туристического сектора и обосновать роль государства в этой области.

***Методология*** **–** для повышения экономической эффективности на туристическом рынке использовалась экономико-статистическая модель.

***Результат*** **–** обеспечение благоприятных условий для формирования и развития агротуризма в Азербайджане.

***Ключевые слова:*** сфера туризма, рынок туризма, агротуризм, доходы и расходы, виды туризма, экономические показатели

**Farhad Mohbaliyev**

## TOURISM MARKET AND PROSPECTS OF AGROTOURISM DEVELOPMENT IN AZERBAIJAN

***Summary***

The article examines the main role of tourism in the economy of Azerbaijan and the CIS and Middle East countries. The article analyzes the socio-economic content of the fastest growing non-oil sector, namely the tourism sector in the Republic. At the same time, forms and types of tourism, including agrotourism, are being studied both in the Republic and in various countries of the world-the Czech Republic, Poland, Austria and Turkey. The article also analyzes the market of tourist enterprises and their products, income and expenses of these enterprises and their main indicators in recent years.

***Purpose of the research*** is to analyze economic indicators in the tourism sector and identify the effectiveness of activities in the development of the tourism sector and justify the role of the state in this area.

***Methodology*** - an economic and statistical model was used to improve economic efficiency in the tourist market.

***Result*** - providing favorable conditions for the formation and development of agro-tourism in Azerbaijan.

***Keywords:*** tourism sector, tourism market, agrotourism, income and expenses, types of tourism, economic indicators

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının müdiri,
i.e.d. Vilayət İsmayılov**

**Qəbul edilib: 03.02.2020**

**UOT 330.567**

**Vilayət İsmayılov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.***
ismayılov1953@mail.ru

# ƏHALİNİN HƏYAT KEYFİYYƏTİ VƏ SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODOLOJİ YANAŞMA

*Məqalədə ölkə əhalisinin həyat keyfiyyəti və səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsində yeni metodoloji yanaşmadan bəhs edilir. Həyat keyfiyyəti və səviyyəsini əks etdirən komponentlərin qiymətləndirilməsinə normativ yanaşma əsaslandırılır.*

*Əhalinin həyat keyfiyyəti və səviyyəsinin qiymətləndirilməsində bir sıra sosial standartların tətbiqinin metodoloji məsələlərinə baxılmışdır. Eyni zamanda, beynəlxalq, ölkə və bölgələr üzrə əhalinin həyat keyfiyyəti və səviyyəsinin qiymətləndirilməsi aparılmışdır.*

***Məqsəd*** – Ölkə əhalisinin həyat keyfiyyəti və səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsində yeni metodiki yanaşmanın tətbiqi.

***Metodologiya*** – Həyat keyfiyyəti və səviyyəsinin qiymətləndirilməsinə normativ metodoloji yanaşma.

***Tədqiqatın nəticələri*** – Ölkə əhalisinin həyat keyfiyyəti və səviyyəsinin kvalimetrik qiymətləndirmə əsasında müəyyən edilməsi.

***Açar sözlər*:** əhali, həyat keyfiyyəti, həyat səviyyəsi, sosial standartlar, komponentlər, qiymətləndirilmə

## 1. Giriş

Həyat səviyyəsi vacib sosial kateqoriyalardan biridir. Həyat səviyyəsi dedikdə əhalinin lazımi maddi-material sərvət və xidmətlərlə təmin edilməsi, onların tələbatının ödənilməsi səviyyəsi və rasional tələbatının təmin edilməsi başa düşülür. Əhalinin rifah halı da onların tələbat səviyyəsinin təmin edilməsi kimi başa düşülür. Müəyyən vaxt müddətində ev təsərrüfatında faktiki orta tələbatın və onun təmin edilmə səviyyəsinə uyğun əhalinin sərvət və xidmətlərinin pulla qiymətləndirilməsi isə həyatın dəyərini əks etdirir. Nisbətən geniş mənada “əhalinin həyat səviyyəsi” həyat, əmək və məşğulluq şəraitini, məişət və xidmətləri, əhalinin sağlamlığı, təhsili, təbii yaşayış mühiti və s. özündə əks etdirir. Bu baxımdan çox hallarda sosial kateqoriya olaraq “həyat keyfiyyəti” ndən istifadə edilməsi məqsədəuyğun hesab edilir.

Əhalinin həyat səviyyəsi dörd formada fərqləndirilə bilər:

- kifayət səviyyə (insanın hərtərəfli inkişafını təmin edən sərvətlərdən istifadə);
- normal səviyyə (insanın fiziki və intellektual qüvvəsinin bərpa olunmasını təmin edən elmi əsaslandırılmış norma üzrə rasional tələbat);
- kasıblıq səviyyəsi (işçi qüvvəsinin təkrar istehsalının aşağı hüdudu kimi isgörmə qabilliyyəti səviyyəsinin saxlanılmasına olan sərvətin tələbatı);
- həddən çox kasıblıq səviyyəsi (insanın yalnız həyatda qalmasına olan tələbatı təmin edən bioloji kriteriyasına görə minimum yol verilə bilən sərvət və xidmətlər yığımı).

Xalqın sərvəti tərəqqinin kriteriyası olduğu üçün onun xüsusi əhəmiyyəti sosial məqsədə orientasiya edilmiş bazar iqtisadiyyatında özünü büruzə verir, çünki burada insan əsas mərkəzi fiqur kimi çıxış edir. Əhalinin həyat səviyyəsinin ən vacib təşkiledicilərinə gəlir və sosial təminat, material-maddi sərvətə olan tələbat, həyat şəraiti, asudə vaxt aiddir. Odur ki, insanın həyat şəraiti həyat, əmək və xidmət şəraitlərə ayrılır: həyat şəraiti-inanların asudə vaxtından istifadə ilə əlaqəlidir; əmək şəraitinə - sanitar-gigiyena, psixo-fizioloji, estetik və sosial-psixoloji şərait daxildir; xidmət şəraitinə-əhalinin yaşayış evi ilə təmin edilməsi, onun keyfiyyəti, məişət xidməti xətlərinin, o cümlədən hamam, paltar yuma-təmizləmə, bərbərxana, təmir emalatxanası, müvəqqəti istifadə əşyalarını təmin edən bölmənin və s. inkişafı, ticarətin və ictimai qidalanmanın, ictimai nəqliyyatın, tibbi xidmətin vəziyyəti və s. şərait daxildir [4-6].

Uralov V.M. əhalinin alıcılıq qabiliyyətinin qida məhsullarının minimum dəstinin dəyərinə nisbətini tədqiq edərək qeyd etmişdir ki, 1955-ci ildə bu göstəricilərin nisbət 2,87 olduğu halda, 1960-cı ildə azalaraq 2,23 olmuşdur [21, səh. 18-20]. Eyni zamanda, onun fikrincə, bu əhalinin aliciliq qabiliyyətinin azalmasının əsas məqsədi süd və süd məhsullarının qiyməti ilə əlaqəli olmuşdur.

Klinova M.A., Buzlyakov N.İ. və bir çox digər iqtisadçi alimlərin fikrincə ölkədə bir sıra sənaye məhsullarının qiymətinin düşünülmədən artımı ticarət şəbəkəsində normadan artıq əmtəə ehtiyatlarının toplanması ilə nəticələnir [7, səh. 90-95].

Rusiya həyat səviyyəsi mərkəzinin direktoru V.N.Bobkovun fikrincə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə regional fəqləndirilmə aspektindən baxılması onun nəzəri, metodoloji və metodiki cəhətdən öyrənilməsinin hərtərəfli təminatına şərait yaradır [2, səh. 34-36].

**2. Əhalinin həyat keyfiyyəti və səviyyəsinin qiymətləndirilməsinə yeni metodoloji yanaşma**

Əhalinin həyat səviyyəsi və keyfiyyətinin öyrənilməsi və qiymətləndirilməsinə müxtəlif metodoloji yanaşmalar mövcuddur. Bəzi metodoloji yanaşmalarda minimum yaşayış büdcəsi, adambaşına pul gəlirləri, orta aylıq əmək haqqına, əhalinin adambaşına pul gəlirlərinin alıcılıq qabiliyyətinə, gəlirlərə görə kasıblıq səviyyəsi və Cini əmsalına əsaslanaraq qiymətləndirilmə aparılır.

Məqalədə ölkə əhalisinin həyat keyfiyyəti və səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsində yeni metodiki yanaşmadan bəhs edilir. Bu baxımdan aşağıdakı göstəricilərdən istifadə məqsədəuyğun hesab edilir:

1. “Həyat keyfiyyəti” və “həyat səviyyəsi” haqqında anlayışlar və onların strukturu.
2. Bir sıra beynəlxalq sosial standartların beynəlxalq müqayisə üçün tətbiq edilməsi.
3. Maddi təminat səviyyəsinə görə ölkədə sosial strukturların aşkar edilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi.
4. Regionlar üzrə həyat səviyyəsinin qeyri-bərabərliyinin qiymətləndirilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi.
5. Regionların nümunəsində əhalinin həyat keyfiyyəti və səviyyəsi göstəricilərinin qiymətləndirilməsi.

Bu göstəricilər haqqında daha geniş məlumat verək:

1. “Həyat keyfiyyəti” və “həyat səviyyəsi” haqqında anlayışlar və onların strukturu.

Xarici və yerli tədqiqatçıların mülahizələrinin, eyni zamanda 1992-2019-cu illərin tədqiqatlarının [8, 16] öyrənilməsi *əhalinin həyat keyfiyyəti və səviyyəsinin onun sosial-iqtisadi vəziyyətinin monitorinqi, həyat keyfiyyəti və səviyyəsinin sosial standartlar sistemi və kvalimetrik qiymətləndirmə (yəni məhsulun xüsusiyyəti və göstəricilərinin fərqlən-*

*dirilməsi) əsasında* müasir elmi məktəbin əsasının qoyulduğunu qeyd etməyə bizə imkan verir. Bu tədqiqatların əsasında əhalinin "həyat keyfiyyəti" və "həyat səviyyəsi" anlayışları və onların komponentləri durur və bunlara daxildir:

*1.1. Həyat keyfiyyəti* özündə insanların inkişafı və rifahını öncədən müəyyənləşdirən bacarıqların müxtəlifliyi və şəxsin, sosial qrupların və bütünlükdə cəmiyyətin ehtiyaclarının təmin edilməsini əks etdirir.

*1.2. Həyat səviyyəsi* özündə şəxsin, sosial qrupların və bütünlükdə cəmiyyətin həyat keyfiyyətinin təmin edilməsi üçün lazım gələn resursların pulla qiymətləndirilməsini əks etdirir.

*1.3. Həyat keyfiyyəti və səviyyəsi* insanın və cəmiyyətin inkişafı və iqtisadi qiymətləndirilməsi ilə təyin edilir, onu tamamlanmış şəkildə xarakterizə edir.

Həyat keyfiyyətinin bir sıra komponentləri vardır ki, bunlara da aiddir [16, səh. 166-177]:

- *cəmiyyətin keyfiyyəti*: səxsiyyətlər, əhali, ayrılıqda sosial qruplar və qeyri hökumət təşkilatları (QHT);
- *əmək və sahibkarlıq həyatının keyfiyyəti*: əməyin keyfiyyəti və əmək sferasının keyfiyyəti;
- *sosial infrastrukturun keyfiyyəti*: əhalinin təhsil, səhiyyə, mənzil fondu, sərnişin nəqliyyatı, ticarət, sosial müdafiə və digər xidmətlərlə əhatə dairəsi və bu obyektlərin texniki vəziyyəti;
- *ətraf mühitin keyfiyyəti*: təbii-iqlim şəraiti və ekoloji dayanıqlıq;
- insanların səxsi təhlükəsizliyi: şəxsə və əmlaka qarşı şiddət və cəzaların qarşısının alınması;
- *həyat keyfiyyətinin məmnunluğu*: iqtisadi və sosial vəziyyətin insanlar tərəfindən subyektiv qiymətləndirilməsi.

Qeyd etmək lazımdır ki, cəmiyyət həmişə təsərrüfat və sosial inkişafın məlum fəlsəfəsinə, yəni layiqli həyat haqqında qiymətli təqdimat sisteminə malikdir, hansı ki, bunların bəziləri ilə rifahın fakt iki göstəriciləri müqayisə edilir.

*Həyat keyfiyyəti və səviyyəsinin sosial standartları* [16, səh. 20-44] – həyatın norma və idealları sistemi daxil olmaqla insanın peşə və ləyaqətinə cavab verən, onlarda cəmiyyətin lazımi quruluşuna təsəvvür yaradan dəyərlərdir.

Həyat keyfiyyəti və səviyyəsinin sosial standartlar sisteminin işlənilməsində əsas məqsəd əhalinin həyat keyfiyyəti və səviyyəsi normativlərinin kriteriyalarının müəyyənləşdirilməsi hesab edilir ki, bunlara da hər şeydən əvvəl minimum zəmanətlər və standart orientlər aiddir. Bu məqsədlə aşağıdakıların fərqləndirilməsi vacibdir:

a) insan, ailə, sosial qrup və bütövlükdə cəmiyyətin inkişaf standartları;

b) əhalinin həyat keyfiyyətinin təmin edilməsi üçün standart resurslar.

*Həyat keyfiyyəti və səviyyəsinin kvalimetrik qiymətləndirilməsi* [8] dedikdə həyat keyfiyyəti və səviyyəsinin kəmiyyətinin ölçülməsi və indeksinin təyin edilməsi başa düşülür.

2. Əhalinin həyat keyfiyyəti və səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsində yeni metodiki yanaşmada ikinci göstəricisi olaraq bir sıra beynəlxalq sosial standartların beynəlxalq müqayisə üçün tətbiqindən istifadə götürülür.

"AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" inkişaf konsepsiyasının 7-ci bölməsində "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması", yəni 2020-ci ildə inkişaf etmiş iqtisadiyyat üçün xarakterik olan gəlir səviyyəsi və həyat keyfiyyəti göstəricilərinin əsas məqsədli orientirlərinin əldə olunması nəzərdə tutulmuşdur [1]. Odur ki, Azərbaycanın həyat keyfiyyəti və səviyyəsini əhatə edən indikatorlara uyğun

olaraq yerinin qiymətləndirilməsi ən vacib məsələdir. Bu göstərici müxtəlif ölkələrdə əhalinin rifahının artımı məsələlərinin həllində onların iqtisadi potensialından istifadə dərəcəsinin müqayisə edilməsinə imkan verir. Fikrimizcə, bu vacib məsələnin müəyyənləşdirilməsində üç mühüm göstəricinin əhəmiyyəti nəzərə alınmalıdır:

*2.1. Həyat keyfiyyətinin beynəlxalq inteqral indikatoru – insan potensialının inkişaf indeksi (İPİİ)* insanın inkişafı üçün vacib olan gözlənilən ömür müddəti, sağlamlıq, təhsillilik və resursların normativ qiymətləndirilməsi kimi kompleks müqayisəli göstəriciləri əks etdirir [18,19]. Ümumilikdə dünya ölkələrində insan potensialının inkişaf indeksi insan inkişafı hesabatı və BMT-nin inkişaf proqramı əsasında hər il hesablanaraq ölkələr üzrə sıralanma aparılır və 2018-ci il üçün bu göstərici 0,300-0,900-dan yuxarı olan hüduda əsasən 13 qrupa bölünür: 0,9-dan yuxarı; 0,85-0,899; 0,80-0,849; 0,75-0,799; 0,70-0,749; 0,65-0,699; 0,60-0,649; 0,55-0,599; 0,50-0,549; 0,45-0,499; 0,0,40-0,449; 0,30-0,339 və 0,300-dən aşağı (məlumatlar yoxdur). İPİİ müxtəlif ölkələr və onların regionları üçün işlənilir. İnsan potensialının inkişaf indeksi standartına görə ölkələrin beynəlxalq təsnifatı aşağıdakı kimi qəbul edilmişdir: yüksək İPİİ-li ölkələr: 0,8-1,0; orta İPİİ-li ölkələr: 0,5-0,8; aşağı İPİİ-li ölkələr: -0,5-dən az.

*2.2. Həyat keyfiyyəti və səviyyəsinin resurs təminatının inteqral indikatoru - əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulu (ÜDM)* (bu göstərici KDR-də 2020-ci ilə qədər əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəricisi hesab edilmişdir) alıcılıq qabiliyyəti paritetinə (AQP) əsasən hesablanır. Bu göstərici BVF və DB-nin hesablamaları əsasında dünya ölkələri üzrə hər ilin məlumatları əsasında tərtib edilir və 2017-ci ildə minimum göstərici MAR-da (677 ABŞ dolları) və maksimum göstərici Qətərdə (124121 ABŞ dolları) olmuşdur. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul standartının ölkələr üzrə təsnifatı aşağıdakı kimi qəbul edilmişdir: yüksək gəlirli ölkələr: 10 min dollar və yuxarı (107 ölkə); orta gəlirdən yuxarı gəlirli ölkələr: 3250-dən 10 min dollaradək (55 ölkə); orta gəlirdən aşağı gəlirli ölkələr: 800 dollardan 3250 dollaradək (30 ölkə); aşağı gəlirli ölkələr: 800 dollardan az (3 ölkə).

*2.3. Əhali gəlirlərinin bölüşdürülməsinin beynəlxalq inteqral indikatoru – Cini indeksi* əhalinin müxtəlif qruplarında pul gəlirlərinin ümumi həcminin konsentrasiyasını xarakterizə edir. Hər il Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı (DB) və Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən müxtəlif ölkələrin hər nəfərə düşən ÜDM və Cini indeksinin standartları hesablanılır. Cini indeksinin qiyməti maksimum (0,65-dən yuxarı) və minimum (0,25) məhdudiyyətində olmuşdur. 2018-ci ilin məlumatları üzrə Cini indeksinin qiymətləri dünya ölkələrində gəlirlərin qeyri-bərabər bölgüsünün müqayisəsini əks etdirir və bu göstərici üzrə hər bir ölkənin dünya ölkələri içərisində tutduğu sırasını müəyyən edir: adambaşına ÜDM-in həcmi 5 min dollardan az olan ölkələr (50 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,300-dən çox; adambaşına ÜDM-in həcmi 5-10 min dollar hüdudunda olan ölkələr (28 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; əhalinin hər nəfərinə ÜDM-in həcmi 10-20 min dollar hüdudunda olan ölkələr (43 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,380-dən çox; əhalinin hər nəfərinə ÜDM-in həcmi 20-30 min dollar hüdudunda olan ölkələr (21 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,360-dan çox; əhalinin hər nəfərinə ÜDM-in həcmi 30 min dollardan çox olan ölkələr (45 ölkə) üzrə Cini indeksinin səviyyəsi 0,330-dan çox olması hesablanmışdır.

İPİİ, hər nəfərə düşən ÜDM və Cini indeksi üzrə Azərbaycanın qiymətləndirildiyini əks etdirən bu göstəricilər və onların ötən ilə nisbətən artma və ya azalma meyli cədvəl 1-də verilmişdir.

Məlumatların təhlili göstərir ki, insan potensialının inkişaf indeksi (İPİİ) 2016-cı ildə Polşada və Latviyada Azərbaycana görə 0,115 və 0,063; 2017-ci ildə isə 0,108 və 0,09 çox

olmuşdur. Bu inteqral indikatorunun müqayisəsində yaranan qiymət fərqinin artıqlığı Polşada və Latviyada Azərbaycana nisbətən insan potensialının inkişafına qoyulan xərclərin yüksək həcmdə olması ilə izahlandırıla bilər. Eyni zamanda, müqayisə edilən göstəricinin qiymətinin əvvəlki ilə nisbətən hər üç ölkədə artım meylinin baş verdiyini qeyd etməyə imkan verir, lakin bu meyletmə 2016-cı ildə Polşada (0,006), Latviyada (+0,003) və Azərbaycanda (+0,001); 2017-ci ildə isə müvafiq ölkələrdə (+0,003), (+0,037) və (+0,01) qədər çox olmuşdur. Onu da qeyd etmək lazımdır ki, müqayisə illərində bu göstərici üzrə artıma görə ilk sırada Latviya, sonra isə Azərbaycan gəlir.

**Cədvəl 1**

**Azərbaycanın dünya ölkələri içərisində yeri**
**(İPİİ, əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul və Cini indeksi üzrə)**

| S/N | İnteqral indikatorlar | 2016-cı il | | | 2017-ci il | | |
|---|---|---|---|---|---|---|---|
| | | Ölkənin göstərici üzrə qiyməti | Dünya ölkələri içərisində tutduğu sıra | Əvvəlki ilin qiymətindən meyletmə, (+) və ya (-) | Ölkənin göstərici üzrə qiyməti | Dünya ölkələri içərisində tutduğu sıra | Əvvəlki ilin qiymətindən meyletmə, (+) və ya (-) |
| 1 | İnsan potensialının inkişaf indeksi (İPİİ) | 0,862/ 0,810/ 0,747 (Polşa/ Latviya/ Azərbaycan) | 33/48/83 | Polşa (+0,006) Latviya (+0,003) Azərbaycan (+0,001) | 0,865/ 0,847/ 0,757 (Polşa/ Latviya/ Azərbaycan) | 27/41/80 | Polşa (+0,003) Latviya (+0,037) Azərbaycan (+0,01) |
| 2 | Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul (Alıcılıq qabiliyyəti pariteti (AQP) üzrə, ABŞ dollari) | 27801/ 26960/ 17251 (Polşa/ Rusiya/ Azərbaycan) | 42/52/75 | Polşa (+1695) Rusiya (+898) Azərbaycan (+142) | 29642/ 27893/ 17529 (Rusiya/ Azərbaycan | 45/50/74 | Polşa (+1841) Rusiya (+933) Azərbaycan (+278) |
| 3 | Cini indeksi | 0,348/ 0,342/ 0,337 (Estoniya/ Polşa /Azərbaycan) | - | Estoniya (+0,033) Polşa (+0,021) Azərbaycan (+0,017) | 0,377/ 0,371/ 0,357 (Estoniya/Polşa/ Azərbaycan) | - | Estoniya (+0,029) Polşa (+0,029) Azərbaycan (+0,020) |

*Qeyd:* [23-25] materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul alıcılıq qabiliyyəti pariteti əsasında hesablanmış, bu göstərici üzrə Azərbaycanın müqayisəsi Polşa və Rusiya ilə verilmişdir. Göründüyü kimi, müqayisə qiymətlərində fərq Polşa və Rusiyada Azərbaycana nisbətən 2016-cı ildə 1,61 və 1,56 dəfə, 2017-ci ildə isə 1,69 və 1,59 dəfə çox olmuşdur. Beləliklə, Polşa və Rusiya ilə Azərbaycanın hər nəfərə düşən ümumi daxili məhsul istehsalı fərqinin müqayisə illərində (12113/10550) 1,15 və (10364/9709) 1,07 dəfə artması respublikamızda

bu göstəricinin çox da yüksək artım tempinə malik olmadığını qeyd etməyə əsas verir.

Əhalinin rifahının artımı məsələləri üzrə onların iqtisadi potensialından istifadə dərəcəsinin müəyyənləşdirilməsində üçüncü vacib komponent kimi əhali gəlirlərinin bölüşdürülməsinin beynəlxalq inteqral indikatorunun (Cini indeksi) müqayisəsi verilmişdir. Estoniya və Polşada Azərbaycana nisbətən bu göstəricidə fərq 2016-cı ildə 0,011 və 0,005; 2017-ci ildə 0,02 və 0,014; 2018-ci ildə 0,018 və 0,016-ya bərabərdir. Müqayisə edilən illərdə bu göstərici Estoniyada (-0,004) azalma, Polşada (+0,08) və Azərbaycanda (+ 0,003) artım fərqi olmuşdur ki, bu da həmin ölkələrdə əhalinin həyat keyfiyyəti və həyat səviyyəsinin yüksəldilməsi üçün iqtisadi artım tempinin yüksəlməsini, o cümlədən hər nəfərə düşən ümumi daxili məhsulun ölçülərində onların beynəlxalq vəziyyətinin yaxşılaşmasını əks etdirir. Qeyd etmək lazımdır ki, Azərbaycanda əhalinin həyat keyfiyyəti və həyat səviyyəsinin artımında nisbətən yüksək iqtisadi imkanlar düzgün istifadə edilməmişdir. Nəticədə, ölkəmiz insan potensialının inkişaf indeksinə görə orta göstəricili ölkələr sırasında (60-86-cı sıradakı ölkələr içərisində) 80-ci yeri tutmuşdur. Bundan əlavə, əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərlik hüdudunun 2010-2018-ci illər üzrə sərhəd qiyməti (0,320) yüksəlmiş və 2018-ci ildə 0,359 təşkil etmişdir.

*3. Maddi təminat səviyyəsinə görə sosial strukturların aşkar edilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi* [3].

Sosial strukturların aşkar edilməsi əsas şərtlərdən biridir, onların yaradılması-cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi inkişaf proqramının, əhalinin həyat keyfiyyəti və səviyyəsinin yüksəldilməsi üzrə realizasiyanın nəticəsidir.

Məqalədə əhalinin həyat keyfiyyəti və səviyyəsi üzrə fərqlənən çoxkriteriyalı sosial strukturların aşkar edilməsi əsasında insanların maddi həyatının qiymətləndirilməsi üzrə sadə iki kriteriyalı model sınaqdan keçirilmişdir: 1) şəxsi pul gəlirləri və onların müxtəlif çatışmazlıq səviyyəsi olan istehlak budcələrinin normativ sisteminə uyğunluğu; 2) mənzil şəraiti və onların aşağı, orta və yüksək mənzil təminatı standartlarına uyğunluğu [12,17].

*3.1. Əhalinin normativ istehlak budcəsi.* Azərbaycanda əhali büdcəsinin işlənilməsi üzrə çoxillik təcrübə mövcuddur və böyük ənənələr vardır. Beynəlxalq və bir sıra tətbiq edilən təcrübələrə (Heller büdcəsi-məşhur istehlak büdcələrindən biridir, ABŞ-da həyatın dəyərinin qiymətləndirilməsində istifadə edilir, 4 nəfərdən (ər, arvad, 13 yaşlı oğlan və 8 yaşlı qız) ibarət orta statistik ailənin büdcəsini əks etdirir, sayı və keyfiyyəti standart olan istehlakçının əmtəə və xidmətlərinin tipik yığımıdır, cari ilin bazar qiymətləri əsasında dəyəri hesablanır) əsaslanaraq istehlak tələbatının müəyyənləşdirilməsi. Azərbaycan respublikasında ev təsərrüfatlarının ölçüsünə görə 4 nəfərdən ibarət orta statistik ailənin büdcəsi (istehlak xərci) aylıq bir nəfər üçün 301,2 manat və ya 177,2 ABŞ dolları həcmindədir. Eyni zamanda 2020-ci il üçün yaşayış minimumu ölkə üzrə 190 manat təyin edilmişdir [27]. Bu məqsədlə biz istehlak tələbatı büdcəsini fərqləndirmişik: aşağı sərvətli (yaşayış minimumu (YM)) və bərpa edici istehlak büdcəsi; orta sərvətli (orta həyat standartlarının istehlak büdcəsi (OSYM)); yüksək səvətli (yüksək sərvət büdcəsi (YSYM)).

Maddi təminat (istahlak tələbatı büdcəsi) sistemi sosial qrupları madi tələbatlarının səviyyəsinə əsasən aşağıdakı kimi təsnif edir:

1. Ən çox ehtiyacı olanlar – gəlirləri YM-dan aşağı (<190 manat və ya 111,8 ABŞ dolları) olanlar.

2. Aşagı təmin edilənlər-gəlirləri YM-dən artıq, lakin YM-nin 3 mislindən az (>190 manat və ya 111,8 ABŞ dolları <3x190 manat=570 manat və ya 335,3 ABŞ dolları) olanlar.

3. Orta təminat səvəiyyəsindən aşağı təmin olunanlar – gəlirləri YM-nin 3 mislindən çox (>335,3 ABŞ dolları), lakin 7 mislindən az (<782,4 ABŞ dolları) olanlar.

4. Orta təminatlılar – gəlirləri YM-nin 7 mislindən çox (>782,4 ABŞ dolları) , lakin YM-nin 11 mislindən az (<1229,4 ABŞ dolları) olanlar.

5. Yüksək təminatlılar-gəlirləri YM-nin 11 mislindən çox (>1229,4 ABŞ dolları) olanlar.

*3.2. Mənzil təminatının sosial standartları.* Mənzil təminatı üzrə standartlar minimum, orta, və yüksək səviyyəli olmaqla fərqləndirilir.

Mənzil təminatının minimum norması (MTMN)-aşağıdakı mənzil baza (ilkin) tələbatını təmin edir:

- qanun çərçivəsində təsdiq edilmiş sanitar-epidemioloji norma və qaydalara uyğun gəlir;
- bir nəfərə düşən mənzil yaşayış sahəsinin ümumi ölçüsünün region üzrə fəaliyyətdə olan mənzil sahəsi normasından az olmaması;
- sosial əmək müqaviləsinə əsasən mənzilin vəziyyətinə görə onun mənzil şəraitinin yaxşılaşdırılması üzrə ev təsərrüfatının əsasının olmaması;
- yaşayış ərazisində həyat təminatlı kommunal xidmətlər bazasına, o cümlədsən su təchizatı, istilik, elektrik təchizatı və kanalizasiyaya girişin mənzil sahəsində təmin edilməsi.

Mənzil təminatının orta norması-yaşayış məntəqəsi nisbətən yüksək komfortludur və bura daxilidir: yaşayış məntəqəsi birinci normativlərin bütün tələblərini tam təmin edir; yaşayış məntəqəsində vanna otağı vardır; yaşayış məntəqəsində isti sudan istifadə etmək imkanı vardır; bir nəfərə düşən mənzil sahəsinin ümumi ölçüsü normanın iki mislindən az deyildir: regionda ev təsərrüfatı üzrə müəyyənləşdirilmiş yaşayış sahəsi normasından və ya 18 $m^2$-dan.

Mənzil təminatının yüksək norması-komfortlu yaşayış məntəqəsi: yaşayış məntəqəsi ikinci normativin bütün tələblərini təmin edir; yaşayış məntəqəsində stasionar telefon xətti vardır; hər bir otaqda iki nəfərdən çox yaşamır; yaşayış məntəqəsi və ya bütünlükdə binada yüksək keyfiyyətli yaşayış-kommunal xidmətləri vardır; yaşayış rayonuun ev təsərrüfatında təhlükəsiz, kriminogen və ekoloji vəziyyət vardır, sosial infrastruktur inkişaf etmişdir, 30 dəqiqəlik gəzinti və 10 dəqiqəlik nəqliyyatda getməklə parklara və digər istirahət zonalarına çatmaq mümkündür.

Mənzil təminatı standartı üzrə əhaliyə bölüşdürülməsinin aşağıda verilən modelində mənzillə təminat belə təsnif edilir:

1. Nisbətən çox ehtiyacı olanlar:

- ölkənin regionlarında fəaliyyətdə olan hesablanmış normadan az olmaqla hər yaşayan şəxs üçün yaşayış ərazisinin sahəsi;
- hər hansı bir kommunal xidmət bazasından: su təchizatı, istilik, elektrik enerjisi və ya kanalizasiyadan istifadə təmin edilməmişdir.

2. Aşağı təminatlılar:

- hər yaşayan şəxsə düşən, mövcud standartdan çox, lakin onun iki mislindən az olan yaşayış sahəsi: region üzrə ev təsərrüfatında müəyyən edilmiş bir nəfərə düşən yaşayış sahəsinin norması və ya 18 $m^2$;
- yalnız baza kommunal xidmətlərindən: su təchizatı, istilik, elektrik enerjisi və ya kanalizasiyadan istifadə təmin edilmişdir.

3. Orta təminat səviyyəsindən aşağı olanlar:

- hər şəxsə düşən, mövcud standartdan yuxarı, mənzil yaşayış sahəsi, lakin onun iki mislindən az olan yaşayış sahəsi: region üzrə ev təsərrüfatında müəyyən edilmiş bir nəfərə düşən yaşayış sahəsinin norması və ya 18 $m^2$;
- yaşayış sahəsində baza kommunal xidmətlərdən əlavə isti su və stasionar telefon

xətti də vardır;

4. Orta təminatlılar:

- hər nəfərə düşən yaşayış sahəsi 30 $m^2$-dan yüksək, lakin 60 $m^2$-dan azdır;
- yaşayış ərazisində baza kommunal xidmətlərindən əlavə isti su, vanna otağı və stasionar telefon xətti vardır;
- hər bir otaqda iki nəfərdən artıq adam yaşamır.

5. Yüksək təminatlılar:

- bir nəfər şəxsə düşən yaşayış sahəsi 60 $m^2$-dan yüksəkdir;
- yaşayış ərazisində baza kommunal xidmətlərindən əlavə isti su, vanna otağı və stasionar telefon xətti vardır;
- hər bir otaqda iki nəfərdən artıq adam yaşamır;
- yaşayış rayonu təhlükəsiz və ekoloji təmizdir.

Maddi təminat üzrə yuxarıda göstərilmiş iki qrup kriteriyanın birgə tətbiqi nəticəsində Azərbaycan cəmiyyətinin maddi təminat səviyyəsinə görə sosial-sinif strukturu müəyyənləşmiş və onun quruluşunun qiymətləndirilməsi cədvəl 2-də verilmişdir (ev təsərrüfatlarının sıralanmasını sadələşdirmək üçün yaşayış sahəsi ilə təmin edilmənin aşağı sərhəddi 18 $m^2$ qəbul edilmişdir).

**Cədvəl 2**

**Azərbaycan cəmiyyətinin maddi təminat səviyyəsi üzrə sosial strukturu (gəlirlər və mənzil)**

| Sosial təbəqələr | Kriteriyalar | Xüsusi çəki (Azərbaycan, 2019-ci il,% ) |
|---|---|---|
| **1. Nisbətən təmin edilməyənlər** | | |
| Cəmi: o cümlədən | | 23,4 |
| Aşagı (gəlirlərə və mənzilə ehtiyaca görə kasıblar) | Gəlirləri yaşayış minimumundan aşağı olanlar (YM): minium yaşayış sahəsinin təminatı normasından aşağı və aşagı təminatdan orta təminata qədər mənzil şəraiti | 5,0 |
| Orta (gəlirlərinə görə kasıblar) | Gəlirləri yaşayış minimumundan yuxarı olanlar (>YM): mənzil şəraiti ortadan yüksək və yüksək olan yaşayış sahəsi ilə təmin olunanlar | 4,1 |
| Yuxarı (mənzilə ehtiyacı olanlar) | Mənzilə ehtiyacı olanlar: gəlirləri YM-nin iki mislindən çox olanlar | 14,3 |
| **2. Aşağı təmin edilənlər** | | |
| Cəmi: o cümlədən | | 14,2 |
| Aşağı | Gəlirləri YM-dan (111,8 ABŞ dolları) YM-nin iki mislinə (223,6 ABŞ dolları); orta mənzil şəraiti | 9,0 |
| Yuxarı | Gəlirləri YM-dan (111,8 ABŞ dolları) YM-nin iki mislinə (223,6 ABŞ dolları); yaxşı mənzil şəraiti | 5,2 |
| **3. Orta səviyyədən aşağı təmin edilənlər** | | |
| Cəmi: o cümlədən | | 35,1 |
| Aşağı | Gəlirləri YM-nin iki mislindən (223,6 ABŞ dolları) YM-nin dörd mislinə (447,1 ABŞ dolları); yaxşı mənzil şəraiti | 20,0 |
| Yuxarı | Gəlirləri YM-nin iki mislindən (223,6 ABŞ dolları) YM-nin dörd mislinə (447,1 ABŞ dolları); yaxşı mənzil şəraiti | 15,1 |
| **4. Orta təmin edilənlər** | | |
| Cəmi: o cümlədən | | 24,0 |
| Aşağı | Orta mənzil şəraiti; gəlirləri YM-nin 4-7 misli (447,1 ABŞ dolları-782,4 ABŞ dolları); qənaət | 10,1 |

| | | |
|---|---|---|
| Orta | Orta mənzil şəraiti; gəlirləri YM-nin 7-11 misli (782,4 ABŞ dolları-1229,4 ABŞ dolları); qənaət | 6,1 |
| Yuxarı | Orta mənzil şəraiti; gəlirləri YM-nin 11 mislindən yuxarı (1229,4ABŞ dolları); qənaət<br>Yaxşı mənzil şəraiti; gəlirləri YM-nin 4-7 (447,1 ABŞ dolları-782,4 ABŞ dolları); qənaət | 2,3<br>5,5 |
| **5. Yüksək təmin edilənlər** | | |
| Cəmi: o cümlədən | | 3,3 |
| Aşağı | Yaxşı mənzil şəraiti; gəlirləri YM-nin 7-11 misli (782,4 ABŞ dolları-1229,4 ABŞ dolları); qənaət | 2,1 |
| Yuxarı | Yaxşı mənzil şəraiti; gəlirləri YM-nin 11 mislindən yüksək (1229,4 ABŞ dolları) | 1,2 |

*Qeyd:* cədvəl [11, 26-27]-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Məlumatlardan aydın olur ki, ölkə cəmiyyətinin 37,6%-i maddi təminat səviyyəsinə görə zəif təbəqəyə aiddir. Maddi cəhətdən əhalinin təminatı səviyyəsinin xüsusi çəkisinin çox olması onların əhəmiyyətli hissəsinin azərbaycan cəmiyyətində innovasiya potesialının artırılmasını məhdudlaşdırır. Cəmiyyətdə innovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirlərin reallaşdırılması və müvafiq qanunvericilik bazasının yaradılması üçün əlverişli mühitin formalaşmasına şərait yaradır. Beləliklə, ölkəmizdə yaşayan əhalinin əsas kütləsinin həyat keyfiyyəti və səviyyəsinin yüksəldilməsi məqsədi ilə onların intellektual potensialından istifadə göstəricisinin artımının təmin edilməsi ən vacib məsələlərdən biridir və bu da uzunmüddətli inkişaf Konsepsiyasının qarşıya qoyduğu məsələlərin həllində və əhalinin məşğulluq səviyyəsinin təmin edilməsində önəmli rol oynayır.

**3. Regionlar üzrə həyat səviyyəsinin qeyri-bərabərliyinin qiymətləndirilməsi üçün bəzi ölkədaxili sosial standartların tətbiqi**

Azərbaycanda əhalinin etibarlı sosial müdafiəsinin təşkili məqsədi ilə 2016–2020-ci illər üçün yeni Dövlət Proqramı hazırlanmışdır. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizdə sığorta-pensiya sistemi daha da təkmilləşdiriləcək, könüllü sosial sığortalanmanın tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti ilə bağlı məsələlər öz həllini tapacaq, işləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əmək haqqı məbləğinin tədricən minimum yaşayış standartlarına çatdırılması istiqamətində tədbirlər görüləcək, əhalinin gəlirlər üzrə diferensiasiyasının azaldılmasına nail olunacaqdır [1, səh. 28-30]. Əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” 6 fevral 2020-ci il tarixli Sərəncamı bilavasitə pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində növbəti mühüm addımdır. Sərəncamın icrası olaraq, 2020-ci ilin 1 yanvar tarixinə 2019-cu il üzrə Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək 16,6 faiz artırılmışdır [29].

Beləliklə, yuxarıda qeyd edilmiş insan potensialının inkişafı, əhalinin hər nəfərinə düşən ÜDM-in miqdarı və Cini indeksi kimi əhalinin həyat keyfiyyəti və səviyyəsinin sosial standartlarının tətbiqi ilə əhalinin həyat keyfiyyəti və səviyyəsinin bölgələrdə qeyri-bərabərliyini xarakterizə edən aşağıdakı indikatorların tətbiq edilməsini məqsədəuyğun hesab edirik: - pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı ($k_{p.g.a.q}$); pul gəlirləri üzrə kasıblıq

əmsalı ($k_{p.g.k.ə}$).

Pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı YM-na daxil olan əmtəə və xidmətlərin əldə edilməsi məqsədi ilə ödənilən pul gəlirini ifadə edir [13]. 2019-cu ilin göstəricilərinə əsasən Azərbaycanda əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı 2017-ci ilə nisbətən 1,13 dəfə artmış və 2,95 təşkil etmişdir.

İkinci göstərici olan əhalinin pul gəlirləri üzrə kasıblıq əmsalı gəlirləri ölkə üzrə YM-dən aşağı olan əhali sayının ümumi əhalinin sayına olan nisbəti ilə hesablanılır:

$$K_{p.g.k.ə} = \frac{N_{g.<YM}}{N_{Ü}}; \qquad (1)$$

burada: $K_{p.g.k.ə}$ - əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalı;

$N_{g.<YM}$- gəlirləri YM-dən aşağı olan əhalinin sayı, milyon nəfər;

$N_{Ü}$-ümumi əhalinin sayı, milyon nəfər.

2019-cu ilin göstəriciləri əsasında əhalinin pul gəlirlərinə görə kasıblıq əmsalının qiyməti (1) formulası əsasında hesablanaraq $K_{p.g.k.ə}$=0,12 müəyyən edilmişdir.

Azərbaycanda əhalinin həyat keyfiyyəti və səviyyəsinin differensiallaşdırılması əmsalları cədvəl 3-də verimişdir.

**Cədvəl 3**

**Əhalinin həyat keyfiyyəti və səviyyəsi əmsalları**

| S/N | Həyat keyfiyyəti və səviyyəsi indikatorları | Əhalinin həyat keyfiyyəti və səviyyəsi əmsalları | |
|---|---|---|---|
| | | 2016-cı il | 2019-cu il |
| 1 | İnsan potensialının inkişaf indeksi (İPİİ) | 0,751 | 0,761 |
| 2 | Gəlirlərə üzrə kasıblıq əmsalı ($k_{p.g.k.ə}$) | 0,16 | 0,12 |
| 3 | Əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı ($k_{p.g.a.q}$) | 4,20 | 4,08 |
| 4 | Cini indeksi | 0,337 | 0,368 |
| 5 | Əhalinin hər nəfərinə ümumi daxili məhsul (alıcılıq qabiliyyəti pariteti üzrə), milyon ABŞ dolları | 17,397 | 17,716 |

*Qeyd:* [7,23-25] məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.

Göründüyü kimi, Azərbaycanda əhalinin həyat keyfiyyəti və səviyyəsini əks etdirən göstəricilərin bəzilərində qeyri-bərabərlik azalmışdır, xüsusilə bu azalma gəlirlər üzrə kasıblıq əmsalı, əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalında nəzərə çarpacaq dərəcədə olmuşdur. Belə ki, bu azalma gəlirlər üzrə kasıblıq əmsalında 25,0% ((0,16-0,12/0,16)x100%), alıcılıq qabiliyyəti əmsalında isə 2,9% ((4,20-4,15/4,20)x100%) təşkil etmişdir. Eyni zamanda əhalinin pul gəlirlərinin bölüşdürülməsində iqtisadi qeyri-bərabərliyi əks etdirən Cini indeksinin qiymətində müqayisə edilən dövrdə 0,029 qədər artım əldə edilmişdir. Sonuncu göstərici olan hər nəfərə düşən ümumi daxili məhsulda isə 1,8% və ya 0,319 milyon ABŞ dolları həcmində artımın olduğunu müşahidə etmək mümkündür.

Məlumatların təhlili göstərir ki, Azərbaycan regionlarında əhalinin pul gəlirlərinin alıcılıq qabiliyyəti arasında fərq çoxdur və bu göstəricinin qiyməti Bakı, Abşeron (Xırdalan ş.), Gəncə-Qazax (Gəncə ş.), Sumqayıtda ş. və s. digərlərinə nisbətən yüksəkdir. Bu göstəricinin qiymətinin qeyd edilən şəhərlərdə yüksək olması əhalinin işləmək məqsədi ilə digər regionlardan bu şəhərlərə axınına şərait yaradır və beləliklə də urbanizasiya pro-

sesinin sürətlənməsinə təsir göstərir. Bu prosesin sürətlənməsinin qarşısının alınması üçün regionların sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi üzrə Dövlət Proqramları hazırlanmış və həyata keçirilməsi istiqamətləri müəyyən edilmişdir.

**4. Regionların nümunəsində əhalinin həyat keyfiyyəti və səviyyəsi göstəricilərinin qiymətləndirilməsi**

Azərbaycanın regionlarında əhalinin həyat keyfiyyəti və səviyyəsi göstəricisi kimi yaşayış yerləri üzrə hər nəfərə düşən aylıq gəlirlərin müqayisəsinə nəzər yetirdikdə görünür ki, 2016-cı ilə nisbətən 2017-ci ildə kənd yerlərində bu göstəricinin həcmində 11,35 manat və ya 4,6%; şəhər yerlərində isə 9,82 manat və ya 3,6% artım olmuşdur. Eyni zamanda şəhər yerlərində ev təsərrüfatlarının orta ölçüsündə (o.ö.) kənd yerlərinə nisbətən 0,45 o.ö. azalma olmuşdur ki, bu da bütün ev təsərrüfatları üzrə göstəricidən şəhər yerləri üzrə 0,19 o.ö. az; kənd yerləri üzrə isə 0,26 o.ö. çox meyletmə olmuşdur. Yaşayış yerləri üzrə gəlirlərin quruluşuna nəzər saldıqda görünür ki, şəhər yerlərində muzdlu əmək fəaliyyətindən gəlirlər kənd yerlərinə nisbətən 2017-ci ildə 20,6% az; sahibkarlıq fəaliyyəti və özüməşğulluqdan gəlirlərdə 3,0%; icarədən gəlirlərdə - 0,3%; əmlakdan gəlirlərdə- 0,2%; pensiyada – 0,5%; digər gəlirlərdə - 0,2%; digər ailələrin gəlirlərində - 0,7% azalma qeyd edilmişdir. Həmçinin qeyd etmək lazımdır ki, gəlirlərin quruluşunda bəzi göstəricilərdə isə üstünlük kənd yerlərində olmuşdur. Belə ki, kənd təsərrüfatından gəlirlərin strukturunda şəhər yerlərinə nisbətən kənd yerlərində 23,3%; alınmış cari trasfertlərdə- 1,0%; müavinət və sosial yardımlarda – 1,3%; ölkə xaricindən göndərilən pulda isə 0,5% çox gəlir əldə edilmişdir.

Yaşayış yerləri üzrə istehlak xərclərinin müqayisəsindən görünür ki, kənd yerlərinə nisbətən şəhər yerlərində 2016-cı ildə hər ailə üzvünə aylıq xərclərdə şəhər yerlərində 23 manat və ya 4,4%; 2017-ci ildə isə 22,62 manat və ya 8,5% çox olmuşdur. Eyni zamanda kənd yerlərinə nisbətən şəhər yerlərində ərzaq məhsullarına istehlak xərcləri 2016-cı ildə 8,46 manat; 2017-ci ildə isə 9,37 manat çox olmuşdur. Əhalinin istehlak xərclərinin yaşayış yerləri üzrə quruluşunda isə ərzaq məhsulları tütün məhsulları, alkoqollu içkilərə və s. çəkilən xərclər kənd və şəhər yerləri üzrə demək olar ki, bərabər miqdarda olmuşdur. Eyni zamanda, paltar və ayaqqabıya, nəqliyyat və rabitəyə, istirahət və mədəniyyətə, təhsilə ayrılmış istehlak xərcləri kənd yerlərində şəhər yerləri ilə müqayisədə azlıq təşkil etmişdir. Həmçinin su, qaz, işıq və digər yanacaq növləri; ev əşyaları, məişət texnikası və evə gündəlik qulluğa, səhiyyə xidmətinə, mehmanxana, kafe, restoran və yeməkxana üzrə istehlak xərclərinin quruluşunda kənd yerlərində şəhər yerlərinə nisbətən xərclərin faiz nisbəti də yüksək olmuşdur.

**Nəticə**

2019-cu ildə Azərbaycan əhalisinin həyat keyfiyyəti və səviyyəsi göstəricilərinə aşağıdakı qiymətləndirməni vermək olar (müəllif tərəfindən müəyyənləşdirilmiş qiymətləndirilmə):

1. Respublika üzrə müzdla işləyənlərin orta nominal əmək haqqı 621,5 manat və ya orta yaşayış minimumunun 3,27 mislini təşkil edir. Bu göstərici ən yüksək Bakı şəhəri və Naxçıvan MR-da, ən aşağı Dağlıq Şirvan iqtisadi rayonunda olmuşdur, bu da müvafiq olaraq ölkə üzrə göstəriciyə görə 132,5%; 83,4%-ni və 70,6%-ni təşkil etmişdir.
2. Ev təsərrüfatı üzrə bir nəfərə düşən gəlirlər 301,2 manat və ya YM-nin 1,59 misli həcmində olmuşdur.
3. Ev təsərrüfatları üzrə orta hesabla bir nəfərə düşən ümumi sahənin ölçüsünə görə 10 $m^2$-ə qədər 7,5%; 10,1-20,0 $m^2$-40,3%; 20,1-30,0 $m^2$-27,9% və 30,1 $m^2$-dan çox-24,3% təşkil edir. Məlumatlar göstərir ki, qəbul edilmiş orta yaşayış sahəsinin minimum həddi

(18,0 $m^2$) ilə müqayisədə 47,8% əhali bu göstərici üzrə az təminatlı əhali təbəqəsinə daxildir. Yalnız əhalinin 27,9%-i orta, 24,3%-i isə yüksək təminat səviyyəsinə müvafiqdir.

4. 2018-ci ildə əhali gəlirlərinin alıcılıq qabiliyyəti əmsalı $k_{p.g.a.q}$= 4,08 olmuşdur ki, bu göstərici müqayisə dövrünə görə çox da yüksək göstərici hesab edilmir.

5. Gəlirlər üzrə kasıblıq əmsalı $k_{p.g.k.ə}$=0,12.

6. Cini indeksi 0,368.

Şübhəsiz ki, əhalinin həyat keyfiyyəti və səviyyəsi üzrə tədqiqatların genişləndirilməsi vacibdir, o cümlədən regionlar, həmçinin ölkə səviyyəsində indikatorların ölçülməsində ixtisaslı cəmiyyətin müzakirəsinə ehtiyac vardır. Bütün bunlar isə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair” Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi və ölkədə real vəziyyətin müəyyənləşdirilməsinə, əhalinin həyat keyfiyyəti və səviyyəsinin nəzəri, metodoloji və metodiki aspekdən öyrənilməsinin genişləndirilməsinə yeni impuls verməklə elm və təcrübənin qarşılıqlı əlaqəsinə, qiymətləndirmənin statistik və sosioloji metodlarının və uzun müddətli inkişaf Konsepsiyasının həyata keçirilməsinə imkan verəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ” inkişaf konsepsiyası. Bakı. 2012
2. Бобков В.Р. Оценка качества и уровня жизни населения. М., Вестник ВГУ. Серия: Экономика и управление. 2009. №2, с.34-36
3. Бобков В.Р. О подходах к исследованиям социальных структур современного общества / Уровень жизни населения регионов России. Москва. 2008. Ноябрь – декабрь, с.3-14.
4. Бобков В.Р. Потребительские бюджеты /Уровень жизни населения регионов России. Москва. 2007, №7.
5. Бобков В.Р. Разработка модели бюджета семьи, обеспечивающей ее экономическую устойчивость /Уровень жизни населения регионов России. Москва. 2008, №1.
6. Бобков В.Р. Затраты на рабочую силу, потребительские бюджеты и трудовая пенсия /Уровень жизни населения регионов России. Москва. 2006, №3.
7. Клинова М.А. Уровень жизни городского населения РСФСР в отечественной историографии. Екатеринбург. 2014, с.353
8. Квалиметрия жизни /Г.Г.Азгальдов и др. Ижевск: Изд-во Института экономики и управления Уд. ГУ. 2006, стр.210
9. К методологии рабочего бюджета // Струмилин С.Г. Проблемы экономики труда. Москва, 1957
10. Кузнецова Н.П. Проблемы регионального выравнивания уровня жизни трудящихся. Региональные проблемы оплаты труда и уровня жизни: сб. науч. трудов. М.:НИИ труда. 1983
11. Майер В. Ф. Планирование социального развития и повышение уровня жизни народа. Москва. 1988
12. Методологические вопросы изучения уровня жизни / под. ред. И.Ю.Писарева. М.: 1988
13. Мониторинг доходов и уровня жизни и угрозы социальной безопасности/ Бобков В.Н. и др. Федерализм. 2009, №1.
14. СКБ банк. Глоссарий. URL:www. skbbank / ru / dict
15. Стандарт самообеспеченности семей в США // Уровень жизни населения регионов

России. Москва. 2007, №3.
16. Социальные стандарты качества жизни: сб. статей /под ред. А.В.Очировой и др.- Москва: МАКС Пресс. 2008, стр.15-55
17. Уровень жизни населения Российской Федерации: правовая основа преодоления бедности . Москва. 2004.
18. Человеческое развитие: новое измерение социально-экономического прогресса/ под.ред.В. П. Колесова.2-е изд. Доп. и перераб. М., 2000.
19. Об оценке эффективности деятельности органов исполнительной власти субъектов РФ: Указ Президента от 28 июня 2007 г., № 825.
20. О мерах реализации Указа Президента РФ от 28 июня 2007г.,. № 825
21. Региональное неравенство качества и уровня жизни и угрозы социальной безопасности// Бобков В. Н. и др. Федерализм. 2009, №1.
22. Уралов В.М. Уровень нашей жизни: аналит. справ. М., 1995, с.18-20
23. https://ru.wikipedia.org/wiki/Список_стран_по_индексу_человеческого_развития
24. https://ru.wikipedia.org/wiki/ Список_стран_по_ВВП_(ППС)_на_душу_населения
25. https://ru.wikipedia.org/wiki/Список_стран_по_индексу_Джини
26. https://az.wikipedia.org/wiki/Minimum_istehlak_səbəti
27. https://president.az/articles/35202
28. https://ru. wikipedia.org/wiki/vserossiysriy _centr_urovnya_jizni
29. https://banker.az/pensiyalar-nə-qədər-artirildi/

**Вилаят Исмайлов**

## МЕТОДОЛОГИЧЕСКИЙ ПОДХОД К ОЦЕНКЕ КАЧЕСТВА И УРОВНЯ ЖИЗНИ НАСЕЛЕНИЯ

***Резюме***

В статье упоминается новый методологический подход к изучению и оценке качества и уровня жизни населения страны. Обосновывается нормативный подход к оценке компонентов качества и уровня жизни населения.

Рассмотрены методологические вопросы применения ряда социальных стандартов при оценке качества жизни и уровня жизни населения. В то же время проведена оценка качества и уровня жизни населения на международном уровне, по стране и регионам.

***Цель* -** Внедрение нового методического подхода в изучение и оценку качества и уровня жизни населения страны.

***Методология* -** Нормативный методологический подход к оценке качества и уровня жизни.

***Результаты исследования*** - Определение качества и уровня жизни населения страны на основе квалиметрической оценки.

***Ключевые слова*:** население, качество жизни, уровень жизни, социальные стандарты, компоненты, оценка

**Vilayat Ismailov**

**METHODOLOGICAL APPROACH TO ASSESSING THE QUALITY AND STANDARD OF LIVING OF THE POPULATION**

***Summary***

The article mentions a new methodological approach to the study and assessment of the quality and standard of living of the population of the country. The author substantiates the normative approach to assessing the components of the quality of life and the standard of living of the population.

Methodological issues of application of a number of social standards in assessing the quality of life and standard of living of the population are considered. At the same time, international, country and regional assessments of the quality of life and standard of living of the population were carried out.

***Purpose of the research* -** Introduction of a new methodological approach to the study and assessment of the quality and standard of living of the country's population.

***Methodology*** - Normative methodological approach to assessing the quality and standard of living.

***Findings*** **-** Determining the quality and standard of living of the country's population based on a qualimetric assessment.

***Keywords:*** population, quality of life, standard of living, social standards, components, assessment

**Rəyçi: AƏSMA-nın tədris və elmi işlər üzrə prorektoru,**
**i.ü.f.d., dos. Fəhrad Möhbalıyev**

**Qəbul edilib: 17.01.2020**

**УДК 330.43**

**Махир Джалалов**
***Азербайджанская Академия***
***Труда и Социальных Отношений,***
***кандидат физико-математических наук,***
***доцент***
mahircalalov@rambler.ru

# МОДЕЛЬ СЕТЕВОГО ПЛАНИРОВАНИЯ И УПРАВЛЕНИЯ

*В статье дается подробная информация сетевой модели, отражающая комплекс операций и событий, связанных с реализацией некоторого научно-исследовательского и производственного проекта. А также графически представлена сетевая модель.*

***Цель*** **-** показать работу, характеризующую материальное действие, требующее использования ресурсов.

***Методология*** **-** установление логической взаимосвязи работ.

***Результат*** **–** продолжительность пути определяется суммой продолжительности составляющих его работ.

***Ключевые слова*****:** сетевая модель, события, граф, взаимосвязь, этап, объект, управление, работа, ресурс

**Введение**

Во многих областях научных исследований экономики, технологии, проектирования, строительства, важное значение имеют задачи оптимизации распределения трудовых, финансовых и др. ресурсов. Особую значимость приобретают эти задачи в условиях реализации новых проектов, когда выполняется огромное количество взаимозаменяемых операций, в работу вовлекается множество работников, предприятий, организаций, так как в этих случаях управление работами усложняется новизной разработки, трудностью точного определения сроков и затрат ресурсов на том или ином этапе. Высокоэффективными инструментами для решения таких задач являются сетевые методы и модели [1].

**Основные понятия сетевого моделирования**

Сетевой моделью или сетевым графиком называется экономико-математическая модель, отражающая комплекс операций и событий, связанных с реализацией некоторого научно-исследовательского, производственного проекта, в их логической и технологической последовательности и связи [3]. Анализ сетевой модели, представленной в графической или матричной форме, позволяет более четко выявить взаимосвязи этапов реализации проекта и, определить наиболее оптимальный порядок выполнения этих этапов. Например, сокращения сроков выполнения всего комплекса работ. Таким образом, методы сетевого моделирования можно отнести к методам принятия оптимальных решений [2].

Математический аппарат сетевых моделей базируется на теории графов.

Графом называется совокупность двух конечных множеств: множества точек, которые называются вершинами, и множества пар вершин, которые называются ребрами. Представление о графе можно получить, если рассмотреть некоторый геометрический многогранник,например куб; в кубе можно выделить два конечных множества, состоящих соответственно из восьми вершин и двенадцати ребер. Если рассматриваемые пары вершин являются упорядоченными, т.е. на каждом ребре задается направление, то граф называется ориентированным; в противном случае – неориентированным. Последовательность неповторяющихся ребер, ведущая от некоторой вершины к другой, образует путь. Граф называется связным, если для любых двух его вершин существует путь, их соединяющий; в противном случае граф называется несвязным. В экономике чаще всего используется два вида графов: дерево и сеть. Дерево представляет собой связный граф без циклов, имеющий исходный корень и крайние вершины; пути от исходной вершины к крайним вершинам называются ветвями. Сеть – это ориентированный конечный связный граф, имеющий начальную вершину (источник) и конечную вершину (сток). Таким образом, сетевая модель представляет собой граф вида "сеть".

В экономических исследованиях сетевые модели возникают при моделировании экономических систем и процессов методами сетевого планирования и управления.

Объектом управления в системах сетевого планирования и управления являются коллективы исполнителей, располагающие определенными ресурсами и выполняющие заданный комплекс операций, который призван обеспечить достижение намеченной цели, например, разработку нового изделия, строительство объекта и т.п.

Основой сетевого планирования и управления служит сетевая модель, в которой моделируется совокупность взаимосвязанных работ и событий, отображающих процесс достижения определенной цели. Она может быть представлена в виде графика или таблицы.

Основными понятиями сетевой модели являются следующие: работа, событие, путь. На рис. 1 графически представлена сетевая модель, состоящая из 5 событий (кружочки) и 6 работ (стрелки); продолжительность выполнения работ в некоторых единицах времени указана над стрелками.




**Рис. 1.** Сетевая модель

Работа характеризует материальное действие, требующее использования ресурсов, или логическое, требующее лишь взаимосвязи событий. При графическом

распределении работа изображается стрелкой, которая соединяет два события. Она обозначается парой заключенных в скобки чисел (i, j), где i – номер события, из которого работа выходит, а j – номер события, в которое она входит. Работа не может начаться раньше, чем свершится событие, из которого она выходит. Каждая работа имеет определенную продолжительность. Например, запись 1(2, 5) = 9 означает, что работа (2, 5) имеет продолжительность 9 единиц времени (см. рис 1). К работам относятся также такие процессы, которые не требуют ни ресурсов, ни времени выполнения. Они заключаются в установлении логической взаимосвязи работ и показывают, что одна из них непосредственно зависит от другой и не может выполняться, прежде чем эта другая будет завершена; такие работы называются фиктивными и на графике изображаются пунктирными стрелками.

Событиями называются результаты выполнения одной или нескольких работ. Они не имеют протяженности во времени. Событие свершается в тот момент, когда оканчивается последняя из работ, входящая в него. События обозначаются одним числом и при графическом представлении СМ изображаются кружком (или иной геометрической фигурой), внутри которого проставляется его порядковый номер (i = 1, 2, ... N). В СМ имеется начальное событие (с номером 1), из которого работы только выходят, и конечное событие (с номером N), в которое работы только входят.

Путь в СМ – это цепочка следующих друг за другом работ, соединяющих начальную и конечную вершины, например, в приведенной на рис. 1 модели путями являются L1 = (1, 2, 5), L2 = (1, 4, 5) и др. Продолжительность пути определяется суммой продолжительностей составляющих его работ. Путь, имеющий максимальную длину, называют критическим и обозначают Lкр, а его продолжительность – tкр. Работы, принадлежащие критическому пути, называются критическими. Их несвоевременное выполнение ведет к срыву сроков всего комплекса работ.

**Список использованной литературы:**

1. А.С.Шапкин, Н.П.Мазаев “Математические методы и модели исследования операций.” Москва, 2003 г.
2. С.А.Ашманов “Линейное программирование.” Москва, 1981 г.
3. М.Н.Багиров, Я.Г.Османов “Экономико-математические модели и методы.” Баку, 2001 г.

**Mahir Calalov**

## ŞƏBƏKƏ PLANLAŞDIRMASI VƏ İDARƏETMƏ MODELİ

***Xülasə***

Məqalədə elmi-tədqiqat və istehsalat layihəsinin həyata keçirilməsi ilə əlaqəli kompleks əməliyyatlar və hadisələri əks etdirən şəbəkə modeli haqqında əhatəli məlumat verilir.

***Məqsəd -*** resursların istifadəsini tələb edən maddi hərəkət xarakterli işin göstərilməsi.

***Metodologiya -*** işin məntiqi qarşılıqlı əlaqəsini qurmaq

***Tədqiqatın nəticələri -*** yolun müddəti, onun iş komponentlərin müddətinin cəminə görə təyin olunur.

***Açar sözlər*:** şəbəkə modeli, hadisələr, qraf, qarşılıqlı, mərhələ, obyekt, idarəetmə, iş, resurs

**Mahir Jalalov**

**NETWORK PLANNING AND MANAGEMENT MODEL**

***Summary***

The article provides detailed information on the network model reflecting complex operations and events related to the implementation of scientific research and production projects.

***Purpose* -** showing the work that characterizes material movement and uses of resources.

***Methodology* -** establishing logical interaction of the work.

***Findings* -** the period of mode is determined by the total period of its working components.

***Keywords:*** network model, events, graph, interaction, stage, object, management, work, resource

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, f.-r.e.n. Süleyman Şirinov**

**Qəbul edilib: 20.01.2020**

**UOT 338.48**

**Aygün Səmədova**
***Azərbaycan Kooperasiya Universiteti, dissertant***
aygün.samedova@yahoo.com

# TURİZM MÜƏSSİSƏLƏRİNDƏ GƏLİRİN PROQNOZLAŞDIRILMASI

*Məqalədə turizminin mövcud vəziyyəti araşdırılaraq ölkənin dayanıqlı inkişafa keçməsi üçün vacib olan əhəmiyyətli ehtiyatlar, o cümlədən bu sahədə turizm sferasının genişləndirilməsinin vacibliyi qeyd edilir.*

*Eyni zamanda ölkədən göndərilən və qəbul edilən turistlərin sayınndan asılı olaraq müəssisələrin əldə etdiyi gəlir həcminin proqnoznozlaşdırılması modeli verilir.*

***Məqsəd –*** turizm müəssisələrində gəlirin proqnoz modelinin verilməsi.

***Metodologiya –*** tədqiqat işində iqtisadi-statistik və reqressiv təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** ölkədəki turistlərin ümumi sayının orta hesabla 1% artması turizm sferası müəssisələrinin ümumi gəliri həcminin təqribən 0,92%-ə qədər yüksəlməsinə səbəb olur.

**Açar sözlər:** turizmin inkişafı, formalaşması, turistlərin sayı, müəssisələrin gəliri, proqnozlaşdırma

## Giriş

Azərbaycanda sosial-iqtisadi vəziyyət ölkə ərazisində fəaliyyət göstərən ekoloji məhdudiyyətlərlə sıx əlaqəlidir və bura digər qonşu ölkələrin təsir payı da aid edilir. Respublikada dayanıqlı inkişafın təmin edilməsi ölkədəki ekoloji təhlükəsizliyin təmin edilməsi şəraitində rayonların vacib sosial-iqtisadi məsələlərinin həll edilməsini tələb edir, bu da öz növbəsində innovasiyalı istehsalın, resursların qorunmasının və ərazilərin inkişafının yeni yollarının müəyyənləşdirilməsini şərtləndirir.

2020-ci ilədək strateji baxışda Azərbaycanın prioritet istiqamətləri sırasında iqtisadiyyatın qabaqcıl sahələri ilə birlikdə aqrar sferanın, turizmin formalaşması və inkişafı xüsusilə vurğulanır. Burada ətraf mühitin mühafizəsinə daha çox diqqət yetirilməsi, ekoloji tarazlığın qorunması, qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının 2,6 faizdən 2025-ci ilə qədər 4 faizə çatdırılması, icari mal və xidmətlər sektorunda, məsələn istehsal və ya turizm sektorlarında həmin dövrə qədər 150 min əlavə iş yerinin yaradılması nəzərdə tutulur [4, səh. 44-55].

## 2. Materialların təhlili və metodologiya

Azərbaycanın dayanıqlı inkişafa keçməsi üçün vacib olan əhəmiyyətli ehtiyalar kənd ərazilərinin inkişafı sferasında qoyulmuşdur ki, bu da özünü inkişaf prinsipinə əsaslanmaqla geniş təkrar istehsalının formalaşdırılmasının və iqtisadi artımın yerli mənbələrinin hesabına təmin edilə bilər. Hal-hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetinin «İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası» haqqında 25.01.2008-ci ildə qəbul etdiyi qərara əsasən ölkə ərazisində təhlükəli tullantıların

təsnifat sisteminin ümumi strukturu aşağıdakı ardıcıllığı əhatə edir: təhlükəli tullantılar qrupu (H-kodları əsasında); üzvi tullantı; halogen tərkibli; azot tərkibli; kükürd tərkibli; digər üzvi tərkibli; qeyri-üzvi tullantı; təklif olunan emal üsulu və əsas ekoloji əhəmiyyətli komponentə müvafiq bölünmə; təhlükəli tullantılarla çirklənmiş materiallar [5].

Statistik məlumatlara əsasən qeyd edə bilərik ki, 2005-ci ildə atmosfer havasına atılan ümumi çirkləndirici maddələrdən stasionar mənbələrin payına 52,9%, avtomobil nəqliyyatının payına isə 47,1% düşdüyü halda, bu göstərici 2017-ci ildə müvafiq olaraq 15,9% və 84,1% təşkil etmişdir. Göründüyü kimi, stasionar mənbələrdən atılan tullantıların payında 3,33 dəfə azalma, avtomobil nəqliyyatı tullantılarının payında isə 1,79 dəfə çoxalma müşahidə olunmuşdur [2,səh. 367]. İnqrediyentlər üzrə stasionar mənbələrdən ölkənin havasına atılan çirkləndirici maddələrin statistikasına əsaslanaraq qeyd etmək olar ki, 2005-ci ilə nisbətən 2017-ci ildə 373,8 min ton və ya 3,03 dəfə azalma olmuşdur ki, bundan da 22 min tonu bərk maddə, 351,8 min tonu isə qazaoxşar və maye maddələr olmuşdur. Eyni zamanda adambaşına düşən çirkləndirici maddələrin cəmində müqayisə edilən müddətdə 46 min ton və ya 3,42 dəfə azalma, o cümlədən da 2 min ton bərk maddələrdən, 44 min ton isə qazaoxşar və maye maddələrdən olmuşdur. Ərazinin hər $1km^2$-na görə çirkləndirici maddələrin cəmi 2005-ci ilə nisbətən 2017-ci ildə 4317 $kq/km^2$, o cümlədən 254 $kq/km^2$ bərk maddələrdən, 4063 $kq/km^2$ isə qazaoxşar və maye maddələr olmuşdur [6].

Beləliklə, müəyyənləşdirmək mümkündür ki, istehsal-təsərrüfat fəaliyyətində məşğul olan müəssisələrdən atmosfer havasına atılan ümumi çirkləndirici maddələrin xüsusi çəkisi ümumi tullantıların tərkibində yüksəkdir. 2017-ci ildə iqtisadi fəaliyyət növləri üzrə stasionar mənbələrdən ölkənin havasına atılan çirkləndirici maddələrin statistikası göstərir ki, cəmi atılan tullantının miqdarı 184,1 min ton, o cümlədən 6,2 min ton bərk maddə, 177,9 min ton isə qazaoxşar və maye maddələr təşkil etmişdir. İqtisadi fəaliyyət növlərində isə bu göstəriciyə görə mədənçıxarma sənayesi -40,5%, nəqliyyat, anbar təsərrüfatı və rabitə -25,8%, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi-18,6%, emal sənayesi-12,9% və digərləri-2,2% təşkil etmişdir. Qeyd etmək yerinə düşərdi ki, bütün sahələrlə müqayisədə ən az çirkləndirici maddə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payına düşür ki, bu da 0,06 min ton və ya 0,032% təşkil edir [6].

Hazırda ölkə üzrə ümumi xidmətlərin həcmində turizmin xüsusi çəkisi ildən-ilə artmaqdadır. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” ndə turizm sektoru üzrə uzunmüddətli perspektivə nail olmaq məqsədilə 2020-ci ilədək olan dövr üçün ölkə üzrə turizm sektorunda dörd əsas hədəf müəyyənləşdirilmişdir.

Eyni zamanda burada 2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş hədəflərin reallaşması nəticəsində Azərbaycanda 2020-ci ildə real ümumi daxili məhsulun birbaşa 293 milyon və dolayı 172 milyon manatadək artacağı, cəmi 35 min olmaqla bilavasitə turizm sektorunda 25 min iş yerinin yaradılacağı proqnozlaşdırılır. Proqnozlaşdırılan bu tədbirlərin gerçəkləşdirilməsi dövlət-özəl resursları hesabına 350 milyon manat həcmində investisiya qoyuluşunu tələb edir [1].

Bu baxımdan 20 aprel 2018-ci il Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə yaradılmış “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi” nin fəaliyyət istiqamətində turizm sferasının strateji istiqamətlərinin müəyyənləşdirilməsi xüsusilə vacib şərtlərdəndir. Turizm müəssisələrinin illər üzrə əldə etdiyi gəlirin turistlərn sayından asılılığının dəyişməsi dinamikası ilə onların hesablanan gəlirlərinin dəyişməsi meylini təhlil etmək məqsədi ilə əldə edilmiş qiymətlər əsasında müəllif tərəfindən şəkil 1 qurulmuşdur.

Eyni zamanda, turizm müəssisələrinin turistlərin sayından asılı əldə etdiyi faktiki gəlirinin əyrisində isə dinamiki artım müşahidə edilir və bu artım tendensiyası bütün müqayisə edilən illərdə səlist artıma malik olmuşdur. Bu baxımdan turizm sferası müəssisələrinin gəlirlərinin qəbul edilən və göndərilən turistlərin sayından asılılığının proqnozlaşdırılması üçün reqressiya modelinin verilməsi xüsusilə mühüm əhəmiyyət kəsb edir. Agentliyin tabeliyində fəaliyyət göstərən turizm müəssisələrinin 2009-2018-ci illər ərzində əldə etdiyi gəlirləri və qəbul edilmiş, göndərilmiş turistlərin sayı arasındakı əlaqəni aydınlaşdıraq.

Qeyd edilən göstəricilər arasında əlaqənin statistik asılılığı cədvəl 1-də verilmişdir.

Ümumi halda reqressiv tənlik aşagıdakı kimi yazılır:

$$Y=f\ (X)+u, \qquad (1)$$

burada: Y - turizm müəssisələrinin əldə etdiyi gəlirin təsadüfi asılı dəyişməsini,

X - təsadüfi olmayan qeyri asılı dəyişən kimi turistlərin sayını,

u - X amilinin reqressiya xəttindən meyl etməsini xarakterizə edən təsadufi dəyişənləri ifadə edir.




**Şəkil 1.** Turizm müəssisələrinin faktiki və hesablanan gəliri

**Cədvəl 1**

Turizm müəssisələrinin gəliri ilə turistlərin sayı arasındakı əlaqənin arasında statistik asılılıq

| Sınaqlar | İllər | Turizm müəssisələrinin əldə etdiyi gəlir, min manat (y) | Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, min nəfər (x) |
|---|---|---|---|
| 1 | 2009 | 17839,6 | 59,7 |
| 2 | 2010 | 19065,3 | 69,923 |
| 3 | 2011 | 22634,8 | 83,620 |
| 4 | 2012 | 27121,5 | 101,431 |
| 5 | 2013 | 29600,9 | 91,961 |
| 6 | 2014 | 31107,1 | 92,305 |
| 7 | 2015 | 36482,2 | 61,965 |
| 8 | 2016 | 36758,3 | 53,999 |
| 9 | 2017 | 41034,2 | 63,423 |

*Qeyd:* [2, səh. 316-317] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Turizm müəssisələrinin əldə etdiyi gəlirlə turistlərin sayı arasındakı əlaqənin statistik asılılığını xətti reqressiya tənliyi formasında aşağıdakı kimi yazmaq olar:

$$y_{xi}=a_0+a_1x_i\ , \tag{2}$$

burada: $y_{xi}$-turizm müəssisələrinin əldə etdiyi gəlir, min manat;

$x_i$– turistlərin sayı, min nəfər;

$a_0$ və $a_1$ -əmsallardır.

$a_0$ və $a_1$ əmsallarının qiymətlərini ayrı-ayrı üsullarla müəyyənləşdirmək olar. Bu əmsalları müəyyənləşdirmək üçün təcrübədə geniş istifadə edilən üsullardan biri ən kiçik kvadratlar metodu (ƏKKM) hesab edilir. Bu metoda görə y funksiyasının qeyri müəyyən $a_0$ və $a_1$ parametrləri elə seçilməlidir ki, funksiyanın təcrübi ($y_i$) və reqressiya tənliyi üzrə hesablanan ($\hat{y}$) kəmiyyətlərinın fərqinin kvadrat meyletməsi minimum olsun. (2) funksiyanın $a_0$ və $a_1$ əmsalları aşağıda göstərilən normal xətti tənliklər sisteminin həlli vasitəsilə hesablanır:

$$\begin{cases} a_0 n + a_1\sum_{i=1}^{n} x_i = \sum_{i=1}^{n} y_i \\ a_0\sum_{i=1}^{n} x_i + a_1\sum_{i=1}^{n} x_i^2 = \sum_{i=1}^{n} x_i y_i \end{cases} . \tag{3}$$

(3) sisteminin həlli üçün 2 cədvəlini tərtib edək:

(3) sistem tənliyini cədvəl 2-nin göstəriciləri əsasında aşağıdakı kimi yazmaq olar:

$$\begin{cases} 9a_0 + 678{,}3a_1 = 261643{,}9 \\ 678{,}3a_0 + 53488{,}94a_1 = 19483322{,}2 \end{cases} . \tag{4}$$

(4) sistem tənliyinin həllindən:

$a_0 = 35578{,}06;\ a_1 = -99{,}6$ alınır.

Həmin parametrləri aşağıdakı düsturlarla da birbaşa olaraq tapmaq olar:

$$a_1 = \frac{\sum_{i=1}^{n}(y_i-\bar{y})(x-\bar{x})}{\sum_{i=1}^{n}(x_i-\bar{x})^2} = \frac{\overline{xy}-\bar{x}\cdot\bar{y}}{\overline{x^2}-\bar{x}^2} = \frac{\operatorname{cov}(x,y)}{\sigma_x^2};\ a_0 = \bar{y} - a_1\bar{x}\ , \tag{5}$$

burada: $\bar{x} = \frac{\sum_{i=1}^{n} x_i}{n}$, $\bar{y} = \frac{\sum_{i=1}^{n} x_i}{n}$, $x$ və $y$ dəyişənlərinin orta qiymətidir.

**Cədvəl 2**

Parametrləri hesablamaq üçün lazımi köməkçi hesablamalar

| İllər | Turizm müəssi-sələrinin əldə etdiyi gəlir, min manat (y) | Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, min nəfər (x) | $x^2$ | $xy$ | $y^2$ | $y-\bar{y}$ | $(y-\bar{y})^2$ |
|---|---|---|---|---|---|---|---|
| 2009 | 17839,6 | 59,7 | 3564,09 | 1065024,12 | 318251328,2 | -11231,9 | 126156576 |
| 2010 | 19065,3 | 69,923 | 4889,226 | 1333102,972 | 363485664,1 | -10006,2 | 100124927,9 |
| 2011 | 22634,8 | 83,620 | 6992,304 | 1892721,976 | 512334171,0 | -6436,7 | 41431679,04 |
| 2012 | 27121,5 | 101,431 | 10288,25 | 2750960,867 | 735575762,3 | -1950,1 | 3802673,335 |
| 2013 | 29600,9 | 91,961 | 8456,826 | 2722128,365 | 876213280,8 | 529,4 | 280217,304 |
| 2014 | 31107,1 | 92,305 | 8520,213 | 2871340,866 | 967651670,4 | 2035,6 | 4143486,42 |
| 2015 | 36482,2 | 61,965 | 3839,661 | 2260619,523 | 1330950917,0 | 7410,7 | 54917815,76 |
| 2016 | 36758,3 | 53,999 | 2915,892 | 1984911,442 | 1351172619,0 | 7686,8 | 59086210,97 |
| 2017 | 41034,2 | 63,423 | 4022,477 | 2602512,067 | 1683805570,0 | 11962,7 | 143105127,9 |
| Cəmi | 261643,9 | 678,3 | 53488,94 | 19483322,2 | 8139440982,0 | | 533048714,7 |
| Orta qiymət | 29071,5 | 75,369667 | 5943 | 2164813,577 | 904382331,3 | | 59227635 |

*Qeyd:* Cədvəl Microsoft Excel proqramının tətbiqi ilə müəllif tərəfindən hazırlanmışdır.

$a_0$ və $a_1$ əmsallarının qiymətini nəzərə alsaq (2) xətti reqressiya modeli

$y_{xi} = 35578{,}06 - 99{,}6x_i,\ i = 1,\dots,9$ şəklində yazılır.

$x$ və $y$ dəyişənləri arasında olan kovalyasiya

$$\operatorname{cov}(x,y) = \frac{1}{n}\sum_{i=1}^{n}(y_i-\bar{y})(x_i-\bar{x}) = \overline{xy} - \overline{xy}\ , \qquad (6)$$

dispersiya isə

$$D(x) = \sigma_x^2 = \frac{\sum_{i=1}^{n}(x_i-\bar{x})^2}{n} = \bar{x^2} - \bar{x}^2 \qquad (7)$$

$$D(y) = \sigma_y^2 = \frac{\sum_{i=1}^{n}(y_i-\bar{y})^2}{n} = \bar{y^2} - \bar{y}^2 \qquad (8)$$

kimi hesablanır. Burada $x$ və $y$ dəyişənlərin orta kvadratik səhvi $\sigma_x$ və $\sigma_y$ -dir.

$$\sigma_x = \sqrt{5943 - 5685} = 16{,}06$$

$$\sigma_y = \sqrt{904382331{,}3 - (29071{,}5)^2} = 7696{,}1$$

Xətti cüt korrelyasiya əmsalı ilə öyrənilən əlaqənin sıxlığını qiymətləndirmək olar: $(-1 \le r_{xy} \le 1)$

$$r_{xy} = a_1\frac{\sigma_x}{\sigma_y} = \frac{\operatorname{cov}(x,y)}{\sigma_x\sigma_y} = \frac{\overline{xy} - \bar{x}\cdot\bar{y}}{\sigma_x\sigma_y} \qquad (9)$$

$$r_{xy} = -99{,}6.\frac{16{,}06}{7996{,}1} = -0{,}2.$$

Tapılmış sərbəst hədd ($a_0$), reqressiya əmsalı ($a_1$) və korrelyasiya əmsalı ($r_{xy}$) statistik əhəmiyyət baxımından qiymətləndirilərkən Styudentin t–kriteriyasını (t–test) hesablayır, bütün parametrlərə (bizim məsələdə $a_0$ və $a_1$) inamlı intervalı tapırlar.

Göstəricilərin təsadüfliyi barədə $H_0$ – hipotezi təklif olunur. Dəqiq desək, tapılmış qiymətlərin təsadüfən göstərilən qiymətləri alması və qiymətinin sıfırdan cüzi fərqlənməsi fərziyyəsi bildirilir. ($a_0$ və $a_1$) parametrlərinin və korrelyasiya əmsallarıının ($r_{xy}$) əhəmiyyətliliyini qiymətləndirmək üçün onların qiymətlərində təsadüfü (standart) səhvlər Styudentin t– kriteriyası (t–test) vasitəsi ilə aşağıdakı kimi müqayisə edilir:

$$t_{a_1} = \frac{a_1}{S_{a_1}} = \frac{a_1}{\sqrt{D(a_0)}}; \quad t_{a_0} = \frac{a_0}{S_{a_0}} = \frac{a_0}{\sqrt{D(a_0)}}; \quad t_r = \frac{r_{xy}}{S_r} = \frac{r_{xy}}{\sqrt{D(r_{xy})}} \qquad (10)$$

Burada, $S_{a_1}$ – $a_1$ parametrinin,

$S_{a_0}$ – $a_0$ parametrinin,

$t_r$ – isə korrelyasiya əmsalında ($r_{xy}$) standart səhv,

$D(a_1)$, $D(a_0)$ və $D(r_{xy})$ – isə bu kəmiyyətlərin dispersiyasıdır.

3 cədvəlindən parametrlərin standart səhvləri hesablanarkən istifadə olunur:

**Cədvəl 3**

Tənliyin parametrləri

| İllər | $\hat{y}_x$ | $u = \hat{y}_x - \hat{y}$ | $u^2 = (\hat{y}_x - \hat{y})^2$ |
|---|---|---|---|
| 2009 | 29631,94 | 40863,8 | 1669850150,4 |
| 2010 | 28613,73 | 38619,93 | 1491498993,2 |
| 2011 | 27249,51 | 33686,25 | 1134760070,4 |
| 2012 | 25475,53 | 27425,57 | 752160792,8 |
| 2013 | 26418,74 | -25889,38 | 670258443,4 |
| 2014 | 26384,48 | -24348,92 | 592868931,2 |
| 2015 | 29406,35 | -21995,69 | 483808618,9 |
| 2016 | 30199,76 | -22513,00 | 506835169,0 |
| 2017 | 29261,13 | -17298,47 | 299236372,4 |
| Cəmi | 252641,17 | 0,93 | 7601277541,7 |
| Orta qiymət | 28071,241111 | 0,103333333 | |

$$S_{qal}^2 = \frac{7601277541{,}7}{9-2} = 1085896791{,}7$$

$$D(a_1) = \frac{1085896791{,}7}{9.(16{,}06)^2} = 467796{,}8$$

$$D(a_0) = \frac{5943}{(9)^2.(16{,}06)^2} = 0{,}28$$

$$D(r_{xy}) = \frac{1-(-0{,}2)^2}{9-2} = 0{,}14$$

$$S_{a1} = \sqrt{D(a_1)} = 683{,}96; \; S_{a0} = \pm\sqrt{D(a_0)} = 0{,}5; \; S_r = 0{,}37,$$

burada: $a_0$ müsbət olduğu üçün $S_{a_0}$ – müsbət götürülür.

Beləliklə, $\hat{y}_x = 35578{,}06 - 99{,}6x_i$

standart. səhv. (683,96) (0.5)

Determinasiya əmsalı ($R^2$) korrelyasiya əmsalının ( $r_{xy}$ ) kvadratına bərabərdir.

$$R^2 = (-0{,}2^2) = 0{,}04$$

Determinasiya əmsalının qiymətinin $R^2$=0,04–ə bərabər olması ölkəmizdə 2009–2017–ci illər arasında turizm müəssisələrinin gəlirinin həcminin dəyişməsinin nəticəsinin həmin illərdə 4% turist axınının artması ilə izahlandırılmasına, qalan 96%–i reqressiya tənliyində nəzərə alınmayan faktlara görə baş verir:

$$t_{a1}=\frac{99{,}6}{683{,}96} = 0{,}15;\; t_{a0}=\frac{35578{,}06}{0{,}5} = 71156{,}12;\; t_r=\frac{0{,}2}{0{,}37} = 0{,}54.$$

Parametrlər o halda əhəmiyyətli hesab olunur ki, t–statistikasının faktiki qiyməti 2,5–dən çox olsun və $H_0$ hipotezi qəbul edilmir. Daha doğrusu $a_0$ ,$a_1$ və $r_{xy}$ heç də təsadüfən sıfırdan fərqli deyil, bu qiymətlər $x$ – dəyişənində müntəzəm təsir altında formalaşır. Bizim məsələdə $a_0$ –ın müəyyən olunan qiyməti yüksək etibarlıdır.

Deyilən sözləri $a_1$ və $r_{xy}$ üçün demək olmaz. Ona görə ki, onlara hesablanmış t – statistikasının qiyməti əhəmiyyətlilik cəhətdən yol verilə bilən sərhəddən aşağıdır. Cədvəldə olan kritik qiymətlərlə t –statistikanın ($t_{kr}$) faktiki olan ($t_{fak}$) qiymətini müqayisə etməklə $H_0$ hipotezi qəbul olunur və ya olunmur.

Əgər $t_{fakt}>t_{kr}$ olarsa, onda $H_0$ hipotezi qəbul olunmur, yəni $a_0$ ,$a_1$ və $r_{xy}$ təsadüfən sıfırdan fərqli deyil və $x$-in qiyməti sərbəst amilin təsiri altinda formalaşır. Əgər $t_{fakt}<t_{kr}$ olarsa, onda $H_0$ hipotezi qəbul edilir, yəni $a_0$ ,$a_1$ və $r_{xy}$ –in kimi dəyişənlərin sıfıra bərabərliyi qəbul olunur. Eyni zamanda, tapılan qiymətlərin təsadüfi alınması ehtimal olunur. $a_0$ ,$a_1$ və $r_{xy}$ –in hər biri üçün t – statistikanın kritik qiymətini cədvəldən tapaq. Əvvəlcə $a_1$ parametrinin -99,6–ya bərabərliyinin əhəmiyyətlilik səviyyəsinə qiymət verək. Əhəmiyyətlilik səviyyəsinin ikitərəfli alternativ hipotezdən ötrü 0, 01–ə bərabər olmasını fərz edək. Burada, əgər $a_0 \neq 0$ -dırsa, bu halda o, müsbət və mənfi qiymətlər ala bilər. Styudentin t paylamasının df=12 (df=n–2=14–2=12) sərbəstlik dərəcəsinin 1% əhəmiyyətlilik səviyyəsi ilə cədvəldəki kritik qiyməti $t_{kr}$ =3,05 bərabərdir [3, səh.375-473].

$$t_{a1}= 0{,}15< t_{kr}=3{,}05$$

olduğu üçün $H_0$ hipotezi qəbul edilir. Başqa sözlə $a_1$=-99,6 qiymətinə bərabər olmasını 99% inamla söyləmək olar. Yəni $t_{fakt}<t_{kr}$ olduğu üçün $H_0$ hipotezi qəbul edilir, 99% olan əhəmiyyətlilik səviyyəsi və $a_1$ parametrinin müvafiq qiyməti etibarlı hesab olunur. Burada reqressiya əmsalında 99% olan interval

$$-99{,}6– t_{kr} . s_{a1} < a_1<-99{,}6 + t_{kr} . s_{a1}$$

$$-99{,}6–3{,}05\bullet 683{,}96 < a_1<-99{,}6+3{,}05\bullet 683{,}96$$

$$-2185{,}68< a_1<1986{,}48.$$

Bununla bağlı 1986,48–dən böyük -2185,68–dən kiçik hər hansı hipotetik olan qiymət qəbul edilmir. Reqressiya tənliyidə qiymətləndirmənin nəticəsi olan həmin intervaldan kənara çıxmamış hipotez qəbul edilir.

$a_0$ parametrində tapılan qiymət 99 faizlik əhəmiyyətlilik səviyyəsindədir. Yəni, sərbəst 12 dərəcəli 1 faiz əhəmiyyətlik səviyyəsiylə t –paylanmasında kritik olan qiymət 13,0–ə bərabər olur. Bununla bağlı $H_0$ hipotezi qəbul edilmir.

$a_0$–üçün 99%–li inamlı intervalı

$$35578{,}06–3{,}71 \cdot 683{,}96< a_0<35578{,}06{,}77+3{,}71 \cdot 683{,}96$$

$$33040{,}56< a_0<38155{,}55$$

$y$ və $x$ kimi dəyişənlər arasında turizm müəssisələrinin gəlir həcminin dəyişməsi ilə həmin illərdə turizm müəssisələrinin sayı arasında əlaqələrin sıxlığını bildirən korrelyasiya əmsalının $r_{xy}$=-0,2–yə bərabər olması reqressiya tənliyində keyfiyyətin qiymətləndirilməsi

F–test vasitəsilə reallaşır. Yəni, əlaqədə sıxlıq göstəricisi və reqressiyaya aid tənliyin statistik əhəmiyyətli olmaması haqqında olan $H_0$ hipotezini yoxlamaq lazım gəlir. Bunun üçün F–Fişer kriteriyasının faktiki qiyməti $F_{fakt}$ və cədvəldə olan $F_{kr}$ kritik qiymətinin müqayisəsi aparılır. Burada $F_{fakt}<F_{kr}$ olduğu halda $H_0$ – götürülür və reqressiya tənliyinin statistik əhəmiyyətsizliyi, etibarsızlığı qəbul edilir:

$$F_{fakt}=\frac{r_{xy}^2}{1-r_{xy}^2}\,(n-2)=\frac{(-0{,}2)^2}{1-(-0{,}2)^2}\,(n-2)=\frac{0{,}04}{0{,}96}.12=0{,}49.$$

5 faiz təşkil edən əhəmiyyətlilik səviyyəsində:

$$F_{kr}=F\alpha_{;}k_{1;}k_2=F_{0,05;1;12}=4{,}75$$

$$F_{fakt}=0{,}49<F_{kr}=4{,}75$$

olduğunu nəzərə alsaq, onda reqressiya tənliyi etibarlıdır.

Regionlarda turistlərin sayı ilə turizm müəssisələrinin əldə etdiyi ümumi gəlir arasında əlaqəni müəyyən etmək məqsədilə elastiklik əmsalının orta qiymətini hesablaya bilərik:

$$\overline{E}_{yx}=a_1\frac{\overline{x}}{\overline{y}}; \qquad (11)$$

$$\overline{E_{xy}}=35578{,}06.\frac{75{,}37}{29071{,}5}=92{,}24\%.$$

$\overline{E}_{xy}$ = 92%–ə bərabər olması bildirir ki, ölkədəki turistlərin ümumi sayının orta hesabla 1% artması turizm sferası müəssisələrinin ümumi gəliri həcminin təqribən 0,92%-ə qədər yüksəlməsinə səbəb olur.

Turizm sferası üzrə müəssisələrin gəlirinin turistlərin sayından asılılığının reqressiv təhlili göstərir ki, həqiqətən ekoloji cəhətdən təmiz iqlimin təmin edilməsi ölkəmizdə dayanıqlı inkişafın strateji vahidlərindən biri olan kəndin inkişaf etdirilməsinə əlverişli şərait yaratmış olur. Kənd ərazilərinin inkişaf proqramları ilk növbədə kəndin sosial infrastrukturunu əhatə etməlidir, bu da bilavasitə yerli əhalinin həyat tərzinin yaxşılaşdırılması üçün həmin ərazilərə investisiya cəlb edilməsini formalaşdırır. Kənd ərazilərinin sosial infrastrukturunun inkişaf etdirilməsi təkcə kənd yerlərinə turistlərin cəlb edilməsini deyil, həm də yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsini və sakinlərin stabil gəlir əldə etməsini təmin etmiş olur. Respublikanın şəhər və rayonlarının nisbətsiz inkişafının azaldılması və şəhərdən kəndin ayrılmasını önləmək məqsədi ilə bilavasitə bu subyektlərin əməkdaşlığının təşkilini təmin edə biləcək tədbirlərin işlənilməsi vacib şərtlərdəndir. Bu subyektlərin qarşılıqlı əlaqəli şəraitdə əməkdaşlığı yalnız şəhər və kənd arasında sosial qeyri bərabərliyin azaldılmasını deyil, eyni zamanda həmin iki ərazi vahidləri arasında sosial-iqtisadi boşluqların inkişafının ön şərtlərini yaradır. Kəndin mədəni, tarixi və orijinal potensialından istifadə edilməsi kənd ərazisinin inkişafı üzrə təkliflərin işlənilməsinə imkan verir, bu isə kənddə istehsal prosesinə təkcə material, əmək kapitalının deyil, həmçinin intellektual kapitalın da cəlb edilməsi üçün şərait yaradır. Qeyd olunan məsələlərin həlli öz növbəsində sosial gərginliyin azaldılmasına imkan verir, bu da kənddə iş yerlərinin, gəlirin və s. az olması ilə xarakterikdir. Kəndin resurslarından balanslaşdırılmış şəkildə istifadə edilməsi hər bir ərazi üçün onun mövcud potensialının nəzərə alınmaqla prioritet istiqamətlərinin müəyyən edilməsinə şərait yaradır və bununla da ölkənin əsas iqtisadi fəaliyyət növləri sistemləşdirilir. Məsələn, bizim fikrimizcə aqrar və turizm komplekslərinin sistemləşdirilməsi, onların inkişafı ekoloji istehsal növlərinə aid edilə bilər.

**Nəticə**

Yuxarıda qeyd edilənlərə əsalanaraq belə bir nəticəyə gəlmək olar ki, ölkənin dayanıqlı inkişaf xəttinə yönəldilməsi iqtisadi proseslərin ətraf mühitə uyğunluğunu, eyni

zamanda əhalinin həyat tərzi və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı rayonların ekoloji təhlükəsizliyinin qorunması və saxlanmasını təmin etməlidir. Elastiklik əmsalının qiymətinin 92%–ə bərabər olması bildirir ki, ölkədəki turistlərin ümumi sayının orta hesabla 1% artması turizm sferası müəssisələrinin ümumi gəliri həcminin təqribən 0,92%-ə qədər yüksəlməsinə səbəb olur.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan statistik göstəriciləri. Bakı,2018, 806 s.
3. Кремер Н. Ш. Теория вероятностей и математическая статистика. М., «Финансы и статистика» 2001,543 с.
4. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20
5. XERITSI_.pdf
6. http://e-qanun.az/alpidata/framework/data/13/f_13144.htm
7. https://www.stat.gov.az/source/environment/az/010_2.xls


**Айгюн Самедова**

## ПРОГНОЗИРОВАНИЕ ДОХОДОВ НА ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЯХ

***Резюме***


В статье, изучая текущее состояние туризма, отмечаются важные ресурсы для перехода страны к устойчивому развитию, в том числе важность расширения сферы туризма в этой области.

В то же время, в зависимости от количества туристов, отправляемых и принимаемых из страны, предоставляется модель прогнозирования объема доходов, полученных предприятиями, а также предложенный модель проверено на автокорреляции с помощью F-критерия.

***Цель*** **-** предоставление модели прогнозирования доходов на туристических предприятиях.

***Методология*** **-** в работе использованы методы экономико-статистического и регрессионного анализа.

***Результат*** - рост общего числа туристов в стране в среднем на 1% приводит к увеличению общего объема доходов предприятий сферы туризма примерно на 0,92%.


***Ключевые слова:*** развитие и формирование туризма, количество туристов, доходы предприятий, прогнозирование

**Aygun Samedova**

**REVENUE FORECASTING FOR TOURISM ENTERPRISES**

***Summary***

The article, studying the current state of tourism, highlights important resources for the country's transition to sustainable development, including the importance of expanding the tourism sector in this area.

At the same time, depending on the number of tourists sent and received from the country, a model for predicting the amount of income received by enterprises is provided, as well as the proposed model is checked for autocorrelation using the F-criterion.

***Purpose of the research* -** providing a revenue forecasting model for tourism enterprises.

***Methodology*** - in the work used methods of economic-statistical and regression analysis.

***Findings*** the growth of the total number of tourists in the country by an average of 1% leads to an increase in the total revenue of tourism enterprises by about 0,92%.

***Keywords****:* development and formation of tourism, number of tourists, income of enterprises, forecasting

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının dosenti Z.M.Əlizadə**

**Qəbul edilib: 21.02.2020**

**UOT 336.76**

**Novruzə Adilova**
***Bakı Dövlət Universiteti, dosent***
adilova.novruze.20@mail.ru

# FOND BAZARINDA QİYMƏTLİ KAĞIZLAR PORTFELİNİN MALİYYƏ GÖSTƏRİCİLƏRİ ƏSASINDA FORMALAŞMASI

*Məqalədə qiymətli kağızlar portfelinin maliyyə göstəriciləri əsasında formalaşmasının xüsusiyyətləri geniş şəkildə tədqiq edilir və müxtəlif sənaye sahələri və ya şirkətlərinə investisiya qoyuluşu prosesi açıqlanır. Həmçinin, qiymətli kağızlar portfelinin idarə olunmasına münasibətdə portfel strukturunun qarşıya qoyulan investisiya məqsədlərinə uyğunluğu təmin etməsi tədqiq edilmişdir.*

*Hal-hazırda xarici maliyyə bazarında yüksək gəlir əldə etmək və zərərlərin ödənilməsi, həmçinin yerli qiymətli kağızlar bazarında fəaliyyət göstərən xarici kapitalın dövriyyəsi açıqlanmışdır.*

***Məqsəd –*** xarici maliyyə bazarında yüksək gəlirin əldə edilməsi və zərərlərin ödənilməsi və yerli qiymətli kağızlar bazarında fəaliyyət göstərən xarici kapitalın dövriyyəsinin açıqlanmasıdır.

***Metodologiya*** – tədqiqat işində iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri -*** qiymətli kağızlar portfelinin idarə olunması investisiya məqsədlərinin həyata keçirilməsində qiymətli kağızların rolunun artırılmasına xidmət ğöstərir.

***Açar sözlər:*** fond bazarı, qiymətli kağızlar portfeli, likvidlik, investisiya, risk, strategiya, maliyyə bazarı.

## Giriş

Fond bazarında qiymətli kağızlar portfeli müstəqil məhsul olmaqla, məhz onun satışı vasitəsi ilə bu bazarda vəsait qoyuluşu zamanı investorların tələbatı tam və ya qismən təmin olunur. İnvestisiya portfeli dedikdə, investora məxsus olan və vshid idarəetmə obyekti qismində çıxış edən qiymətli kağızların məcmusu nəzərdə tutulur. İnvestisiya portfeli bir neçə yarımportfeldən ibarət olmaqla, özündə bir və ya bir neçə aktiv növünü cəmləşdirməni və müxtəlif sənaye sahələrinə və ya şirkətlərinə investisiya qoyuluşunu nəzərdə tuta bilər. Bütün qeyd olunanalr investorun şəxsi zövqündən, riskə və gözlənilən gəlirə olan münasibətindən asılı ola bilər.

Məsələn, təşkilatın vəsait qoyuluşunda əsas məqsədi qoyduğu kapitaldan ən qısa müddət ərzində daha yüksək gəlirin əldə olunmasından ibarətdir. İnvestisiyaya dair qərarların qəbuluna gəlirlilik, etibarlılıq, məzənnə qiymətinin artması ehtimalı, qiymətli kağızların likvidliyi və vergi nəticələri kimi amillər təsir göstərir.

## 2. Portfel nəzəriyyələri və qiymətli kağızlar portfelinin təşkili

Məlum olduğu kimi, investisiyaların effektliyini müəyyənləşdirən əsas amillər likvidlik və gəlirlilikdir. Depozit sertifikatlarına, xəzinə veksellərinə, korporasiyaların istiqraz vərəqələri və imtiyazlı səhmlərə ayrılan investisiyalar təsbit edilmiş gəlirə zəmanət verir. İnvestorun əsas məqsədi investisiyaların etibarlılığının təmin edilməsi olduğu halda,

dünya təcrübəsində vəsaitlərin dövlət istiqraz vərəqələrinə qoyuluşu daha məqsədəuyğun hesab olunur. Kommersiya təşkilatlarına məxsus olan qiymətli kağızları keçirdikdə iri və nüfuzli kommersiya şirkətinin səhmləri yeni şirkətin səhmlərinə nisbətdə daha etibarlı hesab olunur (1, səh. 121-129).

Likvidlik, yəni investisiyaların nağd pula tez çevrilməsi qabiliyyəti nəzərə alınarsa, onda iri şirkətin adi səhmləri yeni şirkətin səhmləri ilə müqayisədə daha tez nağd vəsaitə çevrilə bilər. Bu onunla izah olunur ki, iri müəssisə daha sabit maliyyə durumuna malikdir və daha etibarlı sayıla bilər. Burada qeyd etmək lazımdır ki, iri müəssisələrin səhmləri artıq fond bazarında öz qiymətli kağızlarının yaranması mərhələsini keçmişdir. Bu amilə əsaslanaraq müəssisənin gələcək inkişafını proqnozlaşdırmaq olar, bu da öz növbəsində əmanət qoyuluşu riskini minimuma endirir.

Müasir portfel nəzəriyyəsinin əsasları ilk dəfə olaraq Harri Makovitin 1952-ci ildə dərc edilmiş məqaləsində öz əksini tapmışdır. Nəzəriyyənin əsas ideyası ondan ibarətdir ki, portfelin yaranması zamanı qaytarma maksimumu həlledici amil olmamalıdır, burada risk amili də nəzərə alınmalıdır. Riski minimuma endirmək məqsədi ilə portfelin divesfiika-siyalaşdırması vacib amildir.

Bu konsepsiyanın ən sadə variantı “yumurtaları bir səbətə qoymamaq” ideyasına əsaslanır. Lakin riskin azalması gəlir səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Yuxarıda qeyd olunanlara istinad edərək demək olar ki, portfelin tərkibi gəlirin risk minimumu ilə optimallaşdırılmasına imkan verəcək qayda da seçilməlidir. Bunun nəticəsində də investoru razı salaraq gəlir faizi və risk səviyyəli portfel əldə edəcəyik. Bu nəzəriyyənin yaradılmasında menecerlərin əsas vəzifəsi səhmlərin toplanmasından ibarət olmuşdur. Portfelin etibarlılıq dərəcəsinin müəyyənləşdirilməsində risk əsas rol oynama-mışdır.

Markovits belə bir fikir irəli sürmüşdü ki, aralarında tam əlaqə olmayan səhmlərdən ibarət portfelin yaradılması anında gəlirlərdə çox da itkilər verməyərək, risk dərəcəsinin minimuma endirilməsinə nail olmaq olar. Əgər qiymətli kağızlar arasında tamamilə mənfi korrelyasiya mövcuddursa, onların dəyərində olan dəyişikliklər qarşılıqlı sürətdə aradan qaldırılır (2, səh. 168-179).

Qiymətli kağızlar portfelinin təşkili istiqamətində ilk addım ehtimal olunan gəlirin hesablanması və onun müxtəlif seçimlər üçün risk dispersiyasından ibarətdir. Bu mərhələni müvafiq riyazi metodların köməyi ilə həyata keçirtmək olar. Növbəti mərhələdə investoru hansı risk dərəcəsi razı salır və qrafikdə optimal portfelə uyğun olan nöqtənin seçilməsi məsələlərinin həlli durur. Belə halda fond portfelinin formalaşması və idarə olunmasında əsas məqsəd qiymətli kağızlar toplusunun ayrıca götürülmüş qiymətli kağıza münasibətdə xass olmayan və yalnız onların kombinasiyası hallarında mümkün olan investisiya xüsusiyyətləri ilə təchiz etməklə kapital qoyuluşu şəraitinin yaxşılaşdırıl-masından ibarətdir.

Portfel investisiyasının əsas üstünlükləri aşağıdakılardır:

- fond bazarının müxtəlif sektorlarında investisiya fəaliyyətinin son nəticələrinin planlaşdırılması, qiymətləndirilməsi və onlara nəzarət imkanları;
- spesifik imvestisiya məsələlərinin həlli üçün portfel seçiminin mümkünlüyü.

Qiymətli kağızlar portfelinin seçimində onun müxtəlif növlərini ayırmaq olar. Portfel növü gəlir və riskin nisbətinə əsaslanan investisiya xüsusiyyətidir.

Belə şəraitdə əsas əlamət gəlirin nə üsulls (məzənnə dəyərinin artması və ya divident, faizlərin cari ödənişləri hesabına) əldə olunmasından ibarətdir.

Adətən qiymətli kağızlar potfelinin aşağıdakı növlərini ayırd edirlər: Artma portfeli; gəlir portfeli; artma və gəlir portfeli. Artma portfeli aqressiv artma, konservativ və

orta artma yarımnövlərinə bölünür.

Aqressiv artma portfeli kapitalın maksimum artımına istiqamətlidir. Tərkibi gənc, nisbətən tez böyüyən şirkətlərin səhmlərindən ibarət olmaqla investisiya risklidir ancaq buna baxmayaraq ən yüksək gəlirliliklə xarakterizə olunur (3, səh. 159-182).

Konservativ artma portfeli daha az risklə müşaiyət olunur. Bu portfel növü iri, məşhur şirkətlərin səhmlərindən ibarət olmaqla, aşağı, lakin sabit artma tempi ilə xarakterizə olunur və kapitalın saxlanmasına istiqamətləndirilmişdir.

Orta artma portfeli – aqressiv və konservativ artma portfellərinin xüsusiyyətlərinin ahəngidir. Orta artma portfelinin tədbiqi zamanı kapitalın orta artımı və kapital qoyuluşlarının mülayim risk dərəcəsi təmin olunur.

Gəlir portfeli – yüksək cari gəlirin – faiz və divident ödənişlərinin əldə olunmasna yönəldilmişdir. Bu portfel növü əsasən məzənnə dəyərinin sabit artımı və yüksək dividentlərlə xarakterizə olunan səhmlərdən təşkil olunur.

Müntəzəm gəlir portfeli yüksək etibarlı qiymətli kağızlardan ibarət olmaqla, minimum risk dərəcəsində orta səviyyəli gəlirin əldə olinmasına zəmin yaradır. Gəlirili qiymətli kağızlar portfeli korporasiyaların yüksək gəlirli isteqraz vərəqələrindən, orta rtisk dərəcəsində yüksək gəlir gətirən qiymətli kağızlardan ibarətdir (4, səh.125-139).

Artma və gəlir portfeli, onun formalaşması həm məzənnə dəyərinin, həm də aşağı divident və faiz ödənişlərinin düşməsi hallarından yan keçmək məqsədi ilə həyata keçirilir.

Təəssüf ki, yuxarıdakılara əsaslanaraq hansı hallarda artma portfelini aqressiv hesab etmək olar, hansı parametrlərdə isə bu portfel orta və konservativ artma portfeli qismində çıxış etməsini müəyyənləşdirmək olduqca çətindir. Gəlir portfelinə, eləcə də artma və gəlir portfellərinə aid olan fikirlərə gəldikdə isə, demək olar ki, mövcud qeyri – konkret vəziyyətdə qeyd olunanların əsasında qiymətli kağızlar portfelinin formalaşdırılması çox çətin prosesdir.

Fikrimcə, qiymətli kağızlar portfelinin formalaşdırılması üzrə maliyyə institutlarını daha dəqiq fəaliyyətini təmin etmək və qiymətli kağızlar bazarının iştirakçısının hansı portfelə malik olduğunu aydın şəkildə təsəvvür etmək məqsədi ilə portfel növlərini genişləndirmək lazımdır.

**3. Qiymətli kağızlar portfelinin idarə olunmasında optimal kapital qoyuluşunun alqoritmi**

Qiymətli kağızlar portfelinin idarə olunması – bu kağızlara münasibətdə portfel strukturunun qarşıya qoyulan investisiya məqsədlərinə uyğunluğunu təmin edəcək müəyyən metodlar və texnoloji imkanların istifadəsi deməkdir.

Portfelin idarə olunması məqsəd və metodlarının seçimi;

• bazarın, eləcə də investora əlverişli olan qiymətli kağızların xüsusiyyətlərinin təhlili;

• qəbul edilmiş məqsədlərə uyğun olaraq optimal portfelin formalaşdırılması;

• əgər portfelin xüsusiyyətləri qarşıya qoyulan məqsədlərə cavab vermirsə, portfelin idarə olunması, yəni onun yenidən strukturlaşdırılması;

• portfelin səmərəliliyinin qiymətləndirilməsi və qəbul edilmiş strategiyanın yenidən baxılması.

İnvestorun hərəkət alqoritmi istənilən optimal idarə etmə məsələsinin həlli alqoritminə bənzəyir. Məsələ alqoritmi öz növbəsində idarə etmə yarımsistemlərinin kibernetik qarşılıqlı əlaqə sxeminə uyğun təşkil olunur (şəkil 1):

Hər mərhələni ayrı-ayrılıqda nəzərdən keçirək.

İnvestorların əsas məqsədinə uyğun olaraq bu mərhələləri strateji və portfelinə növlərinə ayırmaq olar.

Strateji investorun məqsədi səhmlərin nəzarət paketinin alınması yolu ilə mülkiyyət üzərində nəzarətin həyata keçirilməsindən ibarətdirsə, portfel investoru fond bazarında əməliyyatların aparılması yolu ilə gəlirin əldə olunması məqsədini güdür. Məhz sonuncu amil bu tədqiqat işinin müzakirə obyektini təşkil edir.

Portfel investorunun investisiya siyasətini müəyyənləşdirən əsas amil qismində investisiya məqsədlərinin toplusu çıxış edir.

İnvestorun əsas məqsədi bir sıra məhdudiyyətlərlə üzləşir. Bu məhdudiyyətlərin arasında investorun risklərə münasibətini, kapital qoyuluşunun müvəqqəti çərçivələrini, portfelin likvidliyinə qoyulan tələbləri, eləcə də investorun sərəncamında olan vəsaitlərin həcmini qeyd etmək olar (5,səh.318-329).




**Şəkil 1.** Optimal kapital qoyuluşunun ümumi vəzifələrinin alqoritmi

Mənbə: (3 və 4) əsasında tərtib edilmişdir.

Müvəqqəti risklər üzrə uzunmüddətli (azərbaycan şəraitində - bir il və bundan artıq müddət) və qısa müddətli (bir ikdən az müddət) məqsədləri ayırd etmək olar.

Belə ki, mütəmadi qaydada portfelin yenidən strukturlaşmasını həyata keçirən aktiv investorları və portfel strukturunun dəyişdirilməsi ilə yalnız nadir hallarda məşğul olan passiv investorları ön plana çəkmək olar.

Riskə meylliyə görə risk etməyən investorları, əvvəlcədən hesablanmış riskə gedən spekulyantları və praktiki olaraq istənilən riskə getməyi xoşlayan oyunçuları ayırd edirlər.

Məqsədləri, nəzərdə tutlan ativliyi və riskə olan münasibəti müəyyən edərək, investor bununla öz investisiya siyasətinin prinsiplərinin təyin edir (cədvəl 1).

**Cədvəl 1. İnvestisiya siyasətinin növləri**

| Xarakteristikalar | Siyasətin növləri | | | |
|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 |
| Məqsədlər | Uzunmüddətli | | Qısa müddətli | |
| İnvestorun aktivliyi | Passiv | Aktiv | Passiv | Aktiv |
| Riskə meyllik | Risk etməyən | Spekulyant | Müxtəlif | Spekulyant |

Mənbə: (3;5) əsasında tərtib edilmişdir

Azərbaycan şəraitində investorların fəaliyyətini onların məqsəd-nəticələrinə və ya məqsəd – məhdudiyyətlərinə istinad etməklə nəzərdən keçirmək məqsədəuyğun hesab olunardı, çünki məhz məqsədlərin prioritetliyi investorların aktivliyini və onların riskə olan münasibətini müəyyən edir.

Lakin hətta nəzərdən keçirilən təsnifat çərçivəsində qeyd etmək lazımdılr ki, kapital qoyuluşunun hansı vəsaitlər hesabına həyata keçirilməsini müəyyən etmək zəruridir, çünki investisiya vəsaitlərinin üzərinə öhdəliklər qoyulubsa, onda qeyd olunan vəsaitlərdən fərqli olaraq, daha sərt olacaqdır. Fondların formalaşdırılması məqsədi ilə vəsaitlərin ayrılması zamanı institusional investorların məqəsdlərinin prioritetliyini nəzərdən keçirək (cədvəl 2).

**Cədvəl 2.İnstitusional investorların məqsədlərinin prioritetliyi**

| Məqsədlərin ranqı | İnstitusional investorlar | | | | |
|---|---|---|---|---|---|
| | Sığorta şirkətləri | Pensiya fondları | Banklar | Pay investisiya fondları | |
| | | | | Açıq | İnterval |
| 1 | Likvidlik | Etibarlılıq | Gəlirlilik | Likvidlik | Artım |
| 2 | Etibarlılıq | Gəlirlilik | Likvidlik | Etibarlılıq | Likvidlik |
| 3 | Gəlirlilik | Artım | Etibarlılıq | Artım | Etibarlılıq |
| 4 | Artım | Likvidlik | Artım | Gəlirlilik | Gəlirlilik |

Hazırki vəziyyətdə, investisiya qismində çıxış edən vəsaitlərin mənbəyi olan fondlrı istisna etməklə daha səciyyəvi investorun məqsədlərinin prioritetliyi nəzərdən keçirilmişdir.

Öz siyasətinin prinsiplərini müəyyən edərək, investor bu prinsipləri əməliyyatlar strategiyasının seçimi ilə konkretləşdirir. Sonuncu özündən portfelin idarə olunması metodlarının toplusunu kəsb edir.

Adətən investisiya strategiyasının üç növünü ayırd edirlər:

1) passiv;

2) aktiv;

3) bazar monitorinqinin strategiyası.

Passiv strategiya investorun məqsədlərinə maksimal dərəcədə cavab verən portfelin yaradılmasını nəzərdə tutur. Bu cür portfeldə bütün xüsusiyyətlər arzu olunan səviyyədədir. Portfelin formalaşdırılmasından sonra, ara ödənişlərin alınmasından başqa, heç bir əməliyyat həyata keçirilmir. Bu cür yanaşmada uzunmüddətli qiymətli kağızlarla təmin olunmuş stabil bazarın mövcudluğu nəzərdə tutulur (6, səh. 502-519).

Aktiv strategiya onunla xarakterizə olunur ki, investisiyaların səmərəliliyini artırmaq məqsədini güdən portfel meneceri əksər hallarda portfelin tərkib və strukturunu yenidən nəzərdən keçirir. Strategiya o fərziyyəyə əsaslanır ki, o və ya digər element haqqında tam məlumata malik olımaqla daha yüksək gəlir əldə etmək olar. Bu metod əsasən məlumatların analiz və statistika baxımından işlənməsi ilə bağlı xeyli maliyyə vəsaiti tələb edir.

Bazar monitorinqinin strategiyası passiv strategiyanın bir növünü kəsb etməklə, investor tərəfindən portfelin risk hissəsinin saxlanmsı zərurətini nəzərdə tutur.

İstiqraz vərəqələri portfelinə münasibətdə qeyd olunan yanaşma “bazara yiyələnmək” təşəbbüsündə həyata keçirilir (portfeldəki istiqraz vərəqələrinin müəyyən növlərinin həcmi onların bazar strukturundakı həcminə uyğundur).

Qiymət təyin etmə prosedurunun dəyişməsi, proseslərin dinamikliyi və yüksək

risklə səciyyələnən yerli bazar üçün daha adekvat strategiya kimi aktiv strategiya qəbul olunur.

Lakin bu yaxınlara qədər institusional investorların əksəriyyəti əsasən dövlətə məx-sus istiqraz vərəqələrinin alışı ilə xarakterizə olunan passiv strategiyanı tətbiq edirdilər. Bu investorların fikrinə görə, qeyd olunan istiqraz vərəqələri onların maraq və tələbatlarına cavab verir və təkrar vəsait qoyuluşu və portfel tərkibindəki kağızların çıxarılması ilə qeyd olunan qiymətli kağızların ödənilməsinə imkan yaradır (7, səh.108-116).

Vəsaitlərin xeyli hissəsi bank depozitlərinə qoyulur, yəni faktiki olaraq portfel menecmentinin vəzifələri kredit-maliyyə tendensiyaları aşağıdakı səbəblərlə izah emək olar:

- regionların mərkəzdən kənarda yerləşməsi və bununla əlaqədar olaraq investorların paytaxt partnyotları ilə təmasda olan regional dilerlərlə qarşılıqlı əlaqələr yaratmaq zərurəti. Bütün bunlar əmrin dilerə çatması ilə onun icrası arasında 2-5 gün keçməsinə səbəb olur, bu müddətdə bazar vəziyyətinin dəyişməsi də istisna olunmur;
- qiymət təyininin uzunmüddətli proqnozlaşdırılmasına maneəçilik törədən bazar haqqında informasiyanın məhdudluğu;
- bəzi investorların ştatında analitik funksiyaları yerinə yetirəcək yüksək ixtisaslı mütəxəssislərin olmaması;
- regional institusional investorların maliyyə cəhətdən zəifliyi.

İqtisadi amillərin qiymətli kağızlar inkişafına təsiri problemləri müxtəlif səviyyə-lərdə tədqiq olunur. Mütəxəssislərinin fikrinə görə, qiymətli kağızlar məzənnələrinin hərəkətini müəyyənləşdirən qiymət təyin etmə amillərinin üç qrupunu ayırmaq olar:

1) Obyektiv amillər-makro və mikro səviyyələrdə fəaliyyət göstərə bilər.

Makro səviyyədə obyektiv amillərin tərkibinə aşağıdakılar aid edilir:

• iqtisadiyyatın davamlılığı, tarazlığı və artma perspektivləri, maliyyə sisteminin etibarlılığı;
• pul yığımları və əmanətlərinin həcmi;
• bazar mallarının konyukturası;
• iqtisadi artım templəri, inflyasiya;
• istehsalın miqyası.

Mikro səviyyədə aşağıdakı amilləri ön plana çəkmək olar:

• emitent firmanın maliyyə vəziyyəti və mötəbərliyi;
• firmanın həcmi, cari gəlir və s.

2) Spekulyativ amillər:

• proqram ticarətin həcmi-kassa və müddətli sazişlərin qiymətləri arasında fərq;
• yekun qısa mövqenin vəziyyəti;
• korporasiyalar tərəfindən öz səhmlərinin satın alınması;

3) Subyektiv amillər:

• texniki-ticarət meydançalarının təchizatı, sistemdə baş verən nasazlıqlar və s.;
• investorlar tərəfindən istifadə olunan təhlil və proqrnozlaşdırma metodikası;
• ayrı-ayrı şəxslərin təsiri və məlumatın istifadəsi.

Xarici nəzəriyyə və təcrübə qeyd olunan amillərin analizinin iki metodunu işləyib hazırlamışdır: fundamental və texniki analiz metodları. Fundamental metodun köməyi ilə əsasən obyektiv amillər tədqiq olunur, texniki analizin vasitəsi ilə isə spekulyativ amillərin təsiri öyrənilir.

Fundamental və texniki analizi maliyyə bazarının ayrı sektorunun (makro səviyyə) və qeyd olunan sektora məxsus ayrıca qiymətli kağızın (makro səviyyə) tədqiqi mövqeyindən müzakirə etmək olar, çünki bir çox fundamental və texniki amillər qiymətli kağıza onun

dövriyyədə olduğu bazarın prizmasından təsir göstərir. Heç də təsadüfi deyil ki, bir neçə nəzəriyyələrdə qiymətli kağızlar üzərində qiymət təyin etmə dinamikası tədqiq olunarkən aparıcı amil qismində bazarın dinamikası istifadə olunur (8, səh. 134-142).

Fundamental analizin metod və yanaşmalarını nəzərdən keçirək:

Fundamental analizin fərqləndirici əlaməti bazarda cərəyan edən proseslərin mahiyyətinin müzakirəsi, iqtisadi vəziyyəti qabaqcadan müəyyənləşdirən səbəb və dəlillərin təyin edilməsinə meyillikdir. Tam fundamental analiz beş səviyyələrdə aparılır, bunlardan üçü bazarın tədqiqinə, ikisi isə konkret qiymətli kağızın öyrənilməsinə aiddir.

Hal-hazırda xarici maliyyə bazarlarında yüksək gəlir əldə etmək və zərərlərin ödənilməsi məqsədi ilə yerli qiymətli kağızlar bazarında fəaliyyət göstərən xarici kapitalın dövriyyəsi müzakirə olunur. Bazarda xarici investisiyaların iştirakı yüksək olduqda, yüksək müsadirə halları təyin etmə proseduruna mənfi təsir göstərə bilər.

Ümumiqtisadi və ya makroiqtisadi analiz: ümumi iqtisadi vəziyyətin öyrənilməsi istehsalatın dinamikasını, iqtisadi aktivlik səviyyəsini, istehlak və tədarük, infilyasiya templəri və dövlətin maliyyə vəziyyətini xarakterizə edən göstəricilərə əsaslanır.

Sənaye təhlili sərmayə qoyuluşu üçün daha əlverişli olan sahənin seçimini nəzərdə tutur. Sahələrin inkişafı müəyyən qanunauyğunluqlara tabedir. Gəlirliliyin artım və intensiv surətdə qalxması ilə bağlı onların yaranmasının ilkin mərhələləri daima dəyişikliklərə məruz qalır.

Fundamental təhlili apararkən artımda və sabit investisiya prioritetləri çərçivəsində vəsaitlərin daha sərfəli şəkildə yerləşdirilməsi imkanlarını müəyyən etməyə çalışırlar. Adətən sahələri üç növə ayırırlar: sabit, dövriyyəli və artan sahələr.

Sabit növ sahələrə əhalinin cari istehlakı üçün məhsul istehsal edən , habelə əhəmiyyətli xidmətlərin göstərilməsi üçün nəzərdə tutlmuş olan sahələr aiddir, bu isə göstərilən sahələrə investisiya risklərini və müvafiq şəkildə lazımi gəlirliyi əvvəlcədən müəyyən edir.

Dövriyyəli sahələr istehsalat vasitələrini və əhali üçün uzun müddətli istifadə məhsullarının istehsalı ilə məşğul olur. Bu sahələrə qoyulan investisiyaların effektivliyi onların hansı dövrdə olmasından asılıdır.

Artan sahələr ümumi ictimai məhsulun artım templərindən yüksək inkişaf templəri ilə səciyyələnir. Sənaye təhlili sərmayə qoyuluşu üçün daha əlverişli olan seçimini nəzərdə tutur.

Sahələrin inkişafı müəyyən qanunauyğunluqlara tabedir. Əvvəlki mərhələdə müəyyən edilmiş sahənin analizi çərçivəsində hansı şirkətin qiymətli kağızları investorun məqsədlərinə daha çox cavab verməsi müəyyən edilir.

Fundamental təhlil çərçivəsində güman edilir ki, hər hansı bir şirkətin qiymətli kağızlarının dəyərinə yalnız həmin şirkətin maliyyə-təsərrüfat durumu və inkişaf perspektivləri təsir göstərir.

Qərbi təcrübədə qiymətli kağızlara edilən qoyuluşların səmərələliyi baxımdan firmanın maliyyə durumunun təhlili dörd mərhələni əhatə edir:

1. Maliyyə durumunun və onun dəyişməsi perspektivlərinin öyrənilməsi;
2. Şirkətin fəaliyyətinin səmərəlilik göstəricilərinin analizi;
3. Firmanın kapital strukturunun tədqiqi;
4. Səhmlərin potensialının analizi.

Lakin hesablaşmalarda istifadə olunan bir çox göstəriciləri azərbaycan şəraitində hesablamaq kifayət qədər mürəkkəbdir, bu da azərbaycan mühasibat uçotunun özünəməxsus olan xüsusiyyətləri ilə izah olunur.

**4. Nəticə**

İqtisadi təhlil problemləri ilə məşğul olan alimlər müəssisəsinin maliyyə durumunun kompleks analizi və reytinq qiymətləndirilməsi sistemini işləyib hazırlamışdır.

Reytinq qiymətləndirilməsi üzrə ilkin göstəricilər dörd qrupa birləşdirilmişdir, lakin bu sistemə səhmlərin potensialının təhlilini əlavə etmək lazımdır. Sonuncunu Azərbaycan şəraitində üç göstərici ilə qiymətləndirmək olar:

1. D/P-ratio – dividendin səhmin bazar qiymətinə nisbəti, faktiki olaraq bu hazırki səhmlər üçün müəyyən edilmiş dividendin normasıdır.

2. P/E-ratio-bir səhmin bzar dəyərinin bir səhmin üzərinə düşən xalis gəlirə olan nisbətdir. Bu göstəricisi nə qədər aşağı olarsa, bir o  qədər də şirkətin səhmləri də qiymətləndirmədən keçməyəcək.

3. Bir səhmin mühasibat dəyəri və onun bazar dəyəri arasında nisbət şirkət aktivlərinin real dəyərinin bazar tərəfindən nə dərəcədə “təhrif olunmasını“ qiymətləndirməyə imkan verir.

Prinsip etibarılə münasibət dəyərini xalis aktivləri adi səhmlərin sayına bölməklə müəyyənləşdirmək olar. Analizin bu mərhələsinin vəzifəsi şirkətin maliyyə durumunun sonuncusunun mümkün müflislik hallarını təyin ermə baxımından qiymətləndirilməsindən ibarətdir.

**İstifadə  edilmiş  ədəbiyyat:**


1. “Qiymətli kağızlar və fond birjaları haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992.
2. Musayev A. Qiymətli kağızlar bazarı. Bakı, 1999, 324 s.
3. Sadıqov M.  Maliyyə potensialının formalaşması problemləri. Bakı, 2002, 259 s.
4. Abbasov A. Qiymətli kağızlar bazarının formalaşması. Bakı, 2005,166 s.
5. Kazımlı X. Qiymətləndirmənin əsasları. Bakı, 2008,430 s.
6. Xasbulatov R.L. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, “Zərdabı ZTD” MMC. 2015, 808 s.
7. Kərimli L. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı, Çaşıoğlu nəşriyyatı. 2006
8. Məmmədov Z.F. Beynəlxalq valyuta kredit münasibətləri və xarici ölkələrin pul-kredit sistemi. Bakı, “Azərnəşr” nəşriyyat. 2012, 504 s.


***Новруза  Адилова***

**ФОРМИРОВАНИЕ ПОРТФЕЛЯ ЦЕННЫХ БУМАГ НА РЫНКЕ ФОНДА НА ОСНОВЕ ФИНАНСОВЫХ ПОКАЗАТЕЛЕЙ**

***Резюме***


В статье подробно изучаются особенности формирования портфеля ценных бумаг на основе финансовых показателей и раскрывается процесс инвестирования в различные отрасли или компании. Также в исследовании изучалась  структура портфеля ценных бумаг в отношении управления портфелем ценных бумаг, обеспечивающая его соответствие поставленным инвестиционным целям.

В настоящее время на внешнем финансовом рынке объявлен высокий доход и возмещение убытков, а также оборот иностранного капитала, функционирующего на местном рынке ценных бумаг.

***Цель*** - получение высокой прибыли на внешнем финансовом рынке и возмещение убытков и раскрытие оборота иностранного капитала, действующего на местном рынке

ценных бумаг.

***Методология*** - в исследовательской работе использовался метод экономико-статистического анализа

***Результат*** - управление портфелем ценных бумаг способствует повышению роли ценных бумаг в реализации инвестиционных целей

**Ключевые слова*:*** фондовый рынок, портфель ценных бумаг, ликвидность, инвестиции, риск, стратегия, финансовый рынок

***Novruza Adilova***

## FORMATION OF PORTFOLIO OF SECURITIES IN THE FUND MARKET ON THE BASIS OF FINANCIAL INDICATORS

***Summary***

The article examines in detail the features of forming a securities portfolio based on financial indicators and reveals the process of investing in various industries or companies. The study also examined the structure of the securities portfolio in relation to the management of the securities portfolio, ensuring its compliance with the set investment goals.

Currently, the foreign financial market has declared high income and compensation for losses, as well as the turnover of foreign capital operating on the local securities market.

***Purpose of the research*** - obtaining high profits on the foreign financial market and recovering losses and disclosing the turnover of foreign capital operating on the local securities market.

***Methodology*** - the research work used the method of economic and statistical analysis

***Findings*** - portfolio management helps to increase the role of securities in the implementation of investment goals.

**Keywords*:*** stock market, portfolio of securities, liquidity, investment, risk, strategy, financial market

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının dosenti Ə.İ.Əliyev**

**Qəbul edilib: 27.02.2020**

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

## № 1 (13), 2020


**Redaktorlar:**
*Xanımbacı Cəfərli, Aygün Bağırzadə*

**Kompyuter tərtibatı:**
*İradə Əkbərova*

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 03.97.2020
Çapa imzalanıb: 14.09.2020
Format: $70x100^{1/16.}$ 7,25 ç.v. Tiraj: 200